Cild 1 3
BİRİNCİ FƏSİL: TƏQLİD 3
BİRİNCİ DƏRS: Təqlid (1) 3
İkinci dərs: Təqlid (2) 5
Üçüncü dərs: Təqlid (3) 7
Dördüncü dərs: Vilayəti-fəqih və rəhbərlİk 10
İKİNCİ FƏSİL: TƏHARƏT 12
Beşinci dərs: Sular 13
Altıncı dərs: Təxəlli 16
Yeddinci dərs: Nəcasətlər (1) 18
Səkkizinci dərs: Nəcasətlər (2) 21
Doqquzuncu dərs: Nəcasətlər (3) 23
Onuncu dərs: Mütəhhirat (1) 25
On birinci dərs: Mütəhhirat (2) 27
On ikinci dərs: Mütəhhirat (3) 29
On üçüncü dərs: Dəstəmaz 31
On dördüncü dərs: Dəstəmazın şərtləri (1) 33
On beşinci dərs: Dəstəmazın şərtləri (2) 35
On altıncı dərs: Dəstəmazın növləri 37
On yeddinci dərs: Dəstəmazlı yerinə yetirilən əməllər 39
On səkkizinci dərs: Qüsl 41
On doqquzuncu dərs: Qüslün şərtləri 43
İyirminci dərs: Cənabət qüslü 45
İyirmi birinci dərs: Qadınlara xas olan qüsllər 47
İyirmi ikinci dərs: Meyitin hökmləri (1) 49
İyirmi üçüncü dərs: Meyitin hökmləri (2) 51
İyirmi dördüncü dərs: Meyitin hökmləri (3) 53
İyirmi beşinci dərs: Təyəmmüm 56
İyirmi altıncı dərs: Təyəmmümün şərtləri və hökmləri 58
ÜÇÜNCÜ FƏSİL: NAMAZ 60
İyirmi yeddinci dərs: Namazın qisimləri 61
İyirmi səkkizinci dərs: Namaz paltarı (1) 63
İyirmi doqquzuncu dərs: Namaz paltarı (2) 67
Otuzuncu dərs: Namaz məkanı (1) 68
Otuz birinci dərs: Namaz məkanı (2) 70
Otuz ikinci dərs: Məscidin hökmləri (1) 72
Otuz üçüncü dərs: Məscidin hökmləri (2) 74
Otuz dördüncü dərs: Qiblə 75
Otuz beşinci dərs: Gündəlik namazlar 76
Otuz altıncı dərs: Namaz vaxtlarının şəri hökmləri və namazların ardıcıllığı 78
Otuz yeddinci dərs: Azan və iqamə 81
Otuz səkkizinci dərs: Namazın vacib əməlləri. Niyyət 83
Otuz doqquzuncu dərs: Təkbirətul-ehram və qiyam 85
Qırxıncı dərs: Qiraət (1) 88
Qırx birinci dərs: Qiraət (2) 90
Qırx ikinci dərs: Rüku 93
Qırx üçüncü dərs: Səcdə (1) 95
Qırx dördüncü dərs: Səcdə (2) 98
Qırx beşinci dərs: Zikr. Təşəhhüd. Salam 100

Qırx altıncı dərs: Tərtib və muvalat . . . 102
Qırx yeddinci dərs: Namazın tərcüməsi . . . 104
Qırx səkkizinci dərs: Namazın düzgün olmamasına və pozulmasına səbəb olan işlər . . . 106
Qırx doqquzuncu dərs: Namazın şəkkiyatı . . . 109
Əllinci dərs: Cümə namazı . . . 111
Əlli birinci dərs: Müsafir namazı (1) . . . 114
Əlli ikinci dərs: Müsafir namazı (2) . . . 118
Əlli üçüncü dərs: Müsafir namazı (3) . . . 120
Əlli dördüncü dərs: Qəza namazı. Əcir namazı. Ata və ananın qəza namazları . . . 123
Əlli beşinci dərs: Ayat namazı. Fitr bayramı və Qurban bayramının namazı . . . 125
Əlli altıncı dərs: Camaat namazı (1) . . . 128
Əlli yeddinci dərs: Camaat namazı (2) . . . 131
DÖRDÜNCÜ FƏSİL: ORUC . . . 135
Əlli səkkizinci dərs: Orucun mənası və qisimləri . . . 135
Əlli doqquzuncu dərs: Orucun niyyəti . . . 138
Altmışıncı dərs: Orucu pozan işlər (1) . . . 140
Altmış birinci dərs: Orucu pozan işlər (2) . . . 142
Altmış ikinci dərs: Ramazan ayının orucunu bilərəkdən pozmağın kəffarəsi . . . 145
Altmış üçüncü dərs: Kəffarənin qisimləri . . . 147
Altmış dördüncü dərs: Yalnız orucun qəzasının vacib olduğu hallar. Müsafir orucu . . . 150
Altmış beşinci dərs: Ayın əvvəlinin sübuta yetməsinin yolları . . . 153
BEŞİNCİ FƏSİL: XÜMS . . . 155
Altmış altıncı dərs: Xümsün mənası və vacibliyi . . . 155
Altmış yeddinci dərs: Qazancın xümsü . . . 157
Altmış səkkizinci dərs: Məunə . . . 160
Altmış doqquzuncu dərs: Məunəyə daxil olmayan xərclər . . . 162
Yetmişinci dərs: Məunəyə daxil olan xərclər . . . 164
Yetmiş birinci dərs: Qazancın xümsünün hesablanması və ödənilməsi . . . 166
Yetmiş ikinci dərs: Sərmayənin xümsü . . . 168
Yetmiş üçüncü dərs: Xüms düşən digər mallar . . . 170
ALTINCI FƏSİL: ƏNFAL . . . 173
Yetmiş dördüncü dərs: Ənfal . . . 173
YEDDİNCİ FƏSİL: CİHAD . . . 175
Yetmiş beşinci dərs: Cihadın mənası, vacibliyi və növləri . . . 175
YEDDİNCİ FƏSİL: ƏMR BİL-MƏRUF VƏ NƏHY ƏNİL-MUNKƏR . . . 177
Yetmiş altıncı dərs: Əmr bil-məruf və nəhy ənil-munkərin . . . 177
Yetmiş yeddinci dərs: Əmr bil-məruf və nəhy ənil-munkərin mərhələləri . . . 180

Birinci dərs: Təqlid (1)

Müqəddimə

Mükəlləf namaz, oruc, təharət, bəzi alğı-satqılar və s. bu kimi gündəlik həyatda yerinə yetirilən şəri vəzifələrin hökmünü öyrənməlidir. Əgər bu hökmləri öyrənməmək vacib bir əməlin tərk olunması və ya haram bir əməlin yerinə yetirilməsi ilə nəticələnərsə, mükəlləf günahkardır.

Şəri vəzifənin şərtləri

Mükəlləf – şəri vəzifənin şərtlərinə malik olan şəxsə deyilir. Bu şərtlər aşağıdakılardır:

1. Həddi-büluğ;

2. Əql;

3. Qüdrət (qadir olmaq).

Həddi-büluğun əlamətləri

• Həddi-büluğun əlamətləri aşağıdakı üç əlamətdən biridir:

1. İnbat (qarının altında və cinsiyyətin yuxarı hissəsində qalın tüklərin çıxması);

2. İhtilam (mənin xaric olması);

3.Yaş həddi (qəməri ili ilə oğlanlarda 15 yaş və qızlarda 9 yaşın tamam olması).

• Bir şəxsdə həddi-büluğun əlamətlərindən biri görünməyənədək o, şəri baxımdan həddi-büluğa çatmış hesab olunmur və şəriət hökmlərini yerinə yetirmək vəzifəsini daşımır. (Başqa sözlə, bu əlamətlərdən biri göründüyü təqdirdə, oğlan və ya qız şəri baxımdan həddi-büluğa çatmışdır.)

• Qeyd olunduğu kimi, həddi-büluğ yaşı "qəməri ili" ilə hesablanır. Doğum tarixi "şəmsi ili" ilə məlum olduğu təqdirdə, qəməri il ilə şəmsi il arasındakı fərqi hesablayaraq həddi-büluğ yaşını əldə etmək olar. (Bir qəməri ili şəmsi ilindən 10 gün, 21 saat, 17 saniyə azdır.)

Şəriət hökmlərini əldə etməyin yolları

Şəriət hökmlərini əldə edib onlara əməl etmək üçün mükəlləfin qarşısında üç yol vardır:

1. İctihada çatmaq;

2. Ehtiyat etmək;

3. Təqlid etmək.

1. İctihada çatmaq

İctihada çatmaq – şəriət hökmlərini və İlahi qanunları fəqihlərin qəbul etdikləri etibarlı mənbələrdən əldə etmək deməkdir.

2. Ehtiyat etmək

Ehtiyat etmək – elə bir şəkildə əməl etməkdir ki, mükəlləf öz şəri vəzifəsini yerinə yetirdiyinə əmin olur. Məsələn, mükəlləf bəzi müctəhidlərin haram bildikləri, bəzi müctəhidlərin isə haram bilmədikləri müəyyən bir işi yerinə yetirmir. Digər tərəfdən, bəzi müctəhidlərin vacib bildikləri, bəzi müctəhidlərin isə vacib bilmədikləri müəyyən bir işi yerinə yetirir.

3. Təqlid etmək

Təqlid etmək – şəriət hökmlərində "camiuş-şərait müctəhid"ə (yəni mərcəyi-təqlidin şərtlərinə malik olan müctəhidə) müraciət etməkdir. Başqa sözlə, şəri vəzifələri camiuş-şərait müctəhidin rəyinə və fətvalarına müvafiq olaraq yerinə yetirməkdir.

Diqqət:

• Təqlid etmək barədə həm "nəqli dəlillər" (hədislər) mövcuddur, həm də ağıl və məntiq hökm edir ki, şəriət hökmlərini bilməyən bir şəxs camiuş-şərait müctəhidə müraciət etməlidir.

• Əgər mükəlləf şəriət hökmlərində müctəhid deyildirsə, o, bir müctəhidə təqlid etməli və ya ehtiyat etməlidir.

• Ehtiyata əməl etmək üçün ehtiyatın yerlərini və qaydasını bilmək tələb olunduğuna, həmçinin bu iş çox vaxt tələb etdiyinə görə yaxşı olar ki, mükəlləf şəriət hökmlərində camiuş-şərait müctəhidə təqlid etsin.

• Aşağıdakı üç şərtə malik olan şəxs təqlid etməlidir:

1. Mükəlləfdir;

2. Müctəhid deyildir;

3. Ehtiyat etmir.

Təqlidsiz yerinə yetirilən əməllərin hökmü

Təqlid etməyən və ya düzgün qaydada təqlid etməyən şəxsin əməlləri aşağıdakı hallarda düzgün hesab olunur:

1. Ehtiyata müvafiqdir;

2. Keçmişdə təqlid etməli olduğu müctəhidin nəzərinə müvafiqdir;

3. Hal-hazırda təqlid etməli olduğu müctəhidin nəzərinə müvafiqdir.

Suallar:

1- Adətən ehtiyac duyulan şəri hökmləri öyrənməkdə səhlənkarlıq göstərən şəxs günahkardırmı?

2- Həddi-büluğun əlamətləri hansılardır?

3- Şəriət hökmlərini əldə etmək üçün mükəlləfin qarşısında neçə yol vardır?

4- Ehtiyat etmək tövsiyə olunur, yoxsa təqlid etmək? Nə üçün?

5- Təqlidsiz yerinə yetirilən əməllərin hökmü nədir?

İkinci dərs: Təqlid (2)

Mərcəyi-təqlidin şərtləri

Diqqət:

• Aşağıdakı şərtlərə malik olan bir müctəhidə təqlid etmək lazımdır:

1. Həddi-büluğa çatmış olmalıdır;

2. Ağıllı olmalıdır;

3. On iki imam şiəsi olmalıdır;

4. Halalzadə olmalıdır;

5. Ehtiyat-vacibə görə, həyatda olmalıdır;

6. Ədalətli olmalıdır;

7. Ehtiyat-vacibə görə, "ə`ləm" olmalıdır.

Ədalətli olmaq

1. Ədalət – mənəvi bir xüsusiyyətdir və insanın daim təqvalı olmasına, yəni vacib əməlləri tərk etməməsi, haram əməlləri isə yerinə yetirməməsinə zəmin yaradır.

2. Ədalətli şəxs o şəxsdir ki, təqvası nəticəsində bilərəkdən heç bir günah etmir (vacib əməlləri tərk etmir və ya haram əməlləri yerinə yetirmir).

3.Bir şəxsin ədalətli hesab edilməsi üçün onun ədalətli olduğuna (hansısa bir yolla) yəqin etmək və ya əmin olmaq lazımdır, yaxud da iki ədalətli şəxs buna şahidlik etməlidir. Həmçinin onun zahirdə yaxşı insan kimi tanınması[1] – hətta bu, əminliyə səbəb olmasa belə – kifayət edir.

Ehtiyat-vacibə görə, "ə`ləm" olmaq

1. Ə`ləm müctəhid – başqa müctəhidlərlə müqayisədə şəriət hökmlərini dini mənbələrdən əldə etməkdə daha bacarıqlı olan müctəhiddir. Belə ki, onun üstünlüyü bu sahənin mütəxəssisləri üçün tam aydındır. Həmçinin o, dövrün şəriət hökmlərinin tətbiqində və fətva verməkdə təsirli olan tələblərini daha yaxşı bilir.

2. Ə`ləm müctəhidə təqlid etməyin vacibliyi ağıllı insanların nəzərinə və ağlın hökmünə əsaslanır.

3. Ə`ləm müctəhidin fətvası ilə qeyri-ə`ləm müctəhidin fətvası fərqli olan məsələlərdə ə`ləm müctəhidə təqlid etmək, ehtiyat-vacibə görə, vacibdir.

4. Əgər iki və ya bir neçə müctəhid elm baxımından eyni səviyyədə olsalar, yaxud onlardan hansı birinin daha elmli olduğu məlum olmasa, bu halda mükəlləf onlardan hansı birinə istəsə, təqlid edə bilər. Amma əgər mükəlləf onlardan birinin daha elmli olduğunu ehtimal etsə, ehtiyat-vacibə görə, həmin müctəhidə təqlid etməlidir.

Mərcəyi-təqlidin şərtləri barədə bir neçə məsələ:

• Əgər mükəlləf bir müctəhidin mərcəyi-təqlidin şərtlərinə malik olduğuna şəkk etsə, araşdırma aparmalıdır. Qeyd edək ki, əgər mükəlləf bir müctəhidin mərcəyi-təqlidin şərtlərinə malik olduğunu bilsə və ona təqlid etsə, amma sonradan onun bu şərtlərdən birini itirdiyinə şəkk etsə, bu məsələ məlum olmayanadək, mükəlləf həmin müctəhidə təqlid edə bilər.

• Camiuş-şərait bir müctəhidə təqlidin düzgün hesab edilməsi üçün onun mərcəyi-təqlid olması və ya "Risalə" (şəriət hökmlərinin izah olunduğu kitab) qələmə alması şərt deyildir. Odur ki, əgər mərcəyi-təqlid olmayan və "Risalə"si də olmayan bir müctəhidin mərcəyi-təqlidin şərtlərinə malik olduğu mükəlləf üçün dəqiqləşərsə, o, həmin müctəhidə təqlid edə bilər.

• Müctəhid elmi əhatəsi baxımından iki qismə ayrılır:

1. Fiqhin bütün bölmələrində fətva vermək və rəy bildirmək bacarığına malikdir. Bu müctəhidə "mutləq müctəhid" deyilir.

2. Fiqhin bəzi bölmələrində, məsələn, namaz və oruc bölmələrində fətva vermək və rəy bildirmək bacarığına malikdir. Bu müctəhidə "mutəcəzzi müctəhid" deyilir.

Mutəcəzzi müctəhidin fətvası özü üçün hüccətdir. Mutəcəzzi müctəhid fiqhin hansı bölümlərində mütəxəssisdirsə, başqaları bu bölümlərdə ona təqlid edə bilərlər. Amma mutləq müctəhidə təqlid etmək ehtiyat-müstəhəbə müvafiqdir.

Yenicə mükəlləf olan və təqlid məsələsini dərk etmək çətin olduğu üçün bu barədə öz şəri vəzifəsini müəyyənləşdirə bilməyən övladlarını məlumatlandırmaq və onlara yol göstərmək ata-ananın vəzifəsidir.

Suallar:

1- Mərcəyi-təqlidin şərtləri hansılardır?

2- Ədalət nədir? Ədalətli şəxs hansı şəxsdir?

3- Mutəcəzzi müctəhidin fətvası özü və başqaları üçün hüccətdirmi?

4- Nə üçün ə`ləm müctəhidə təqlid etməliyik?

5- Risaləsi olmayan bir müctəhidə təqlid etmək olarmı? Nə üçün?

---

[1] Yəni bu şəxslə ünsiyyətdə olan insanlar onun əməllərini şəriət qayda-qanunlarına müvafiq bilsinlər və onun günah etdiyini görməsinlər.

Üçüncü dərs: Təqlid (3)

Camiuş-şərait müctəhidi tanımağın yolları

Camiuş-şərait müctəhidi iki yolla tanımaq olar:

1. Elm və ya əminlik hasil olmalıdır: Bu, müctəhidin camaat arasında camiuş-şərait bir müctəhid kimi məşhurluğu və ad çıxarması ilə, yaxud insanın öz şəxsi təcrübəsi ilə (mükəlləf bu sahədə mütəxəssis və fəqihşünas olduğu təqdirdə), yaxud da digər yollarla hasil ola bilər;

2. İki ədalətli mütəxəssis şəxs şahidlik etməlidir, baxmayaraq ki, əminliyə səbəb olmur.

Diqqət:

• Əgər bir müctəhidin camiuş-şərait olması barədə şəri dəlil mövcud olarsa (məsələn, iki ədalətli mütəxəssis şəxs şahidlik edərsə), bu dəlilə zidd olan başqa bir şəri dəlil mövcud olmayanadək həmin dəlil "şəri hüccət"dir və ona müvafiq şəkildə əməl etmək olar. Bu halda həmin dəlilə zidd olan bir dəlilin mövcud olub-olmadığını araşdırmaq lazım deyildir.

Müctəhidin fətvasını əldə etməyin yolları

Şəriət məsələlərində müctəhidin rəy və göstərişini bir neçə yolla əldə etmək olar:

1. Müctəhidin özündən eşitmək;

2. Bir ədalətli şəxsin və ya bir etibarlı şəxsin müctəhidin fətvasını müctəhidin özündən və ya onun etibarlı risaləsindən nəql etməsi;

3. Müctəhidin etibarlı risaləsinə müraciət etmək.

Diqqət:

• Əgər bir şəxs müctəhidin fətvasını başqa bir şəxsə desə, müctəhidin fətvası dəyişdiyi təqdirdə, bu barədə həmin şəxsə məlumat verməsi vacib deyildir[1]. Amma əgər müctəhidin fətvasını səhv deyibdirsə, imkan daxilində səhvi düzəltməlidir.

Qeyri-ə`ləm müctəhidə təqlid etmək

Aşağıdakı hallarda qeyri-ə`ləm müctəhidə təqlid etməyə (ehtiyat-vacibə görə, "ə`ləm fəl-ələm", yəni "elmli-daha elmli" prinsipinə riayət edərək[2]) icazə verilir:

1. Ə`ləm müctəhidin "ehtiyat-vacib" dediyi, amma qeyri-ə`ləm müctəhidin birbaşa fətva verdiyi məsələlərdə;

2. Qeyri-ə`ləm müctəhidin fətvası ə`ləm müctəhidin fətvasına zidd olmadığı məsələlərdə;

3. Ə`ləm müctəhidin fətvası ehtiyata zidd olduğu, qeyri-ə`ləm müctəhidin fətvası isə ehtiyata müvafiq olduğu məsələlərdə;

4. Ə`ləm müctəhidin fətvası olmadığı və ya araşdırma aparmaqla belə, onun rəyini əldə etmək mümkün olmadığı bir məsələdə qeyri-ə`ləm müctəhid bu məsələnin hökmünü bəyan etdikdə.

Təqlidi bölmək

1. Əgər bir müctəhid fiqhin bəzi bölümlərində, məsələn, "İbadətlər" bölümündə ə`ləm olsa, başqa bir müctəhid isə başqa bölümlərdə, məsələn, "Sövdələşmələr" bölümündə ə`ləm olsa, ehtiyat-vacibə görə, mükəlləf hər bir bölümə aid şəriət hökmlərində həmin bölümdə daha bilikli və məharətli olan müctəhidə təqlid etməlidir. Buna fiqhdə "təqlidi bölmək" deyilir.

2. Əgər iki müctəhid bütün şəriət hökmlərində eyni səviyyədə bilikli və məharətli olsalar, onlar arasında təqlidi bölməyin maneəsi yoxdur. Amma əgər mükəlləf müəyyən bir məsələdə onlardan birinə təqlid etsə, ehtiyat-vacibə görə, həmin məsələdə digərinə udul edə bilməz[3].

Bir müctəhiddən digər müctəhidə udul etmək

1. Əgər ikinci müctəhid birinci müctəhiddən ə`ləm olsa, iki müctəhidin fətvası bir-birinə zidd olduğu təqdirdə, ikinci müctəhidə udul etmək, ehtiyata görə, vacibdir.

2. Ə`ləm müctəhidin fətvalarına əməl etməyin çətinliyi bu müctəhiddən başqa bir müctəhidə udul etməyi icazəli etmir.

Dünyasını dəyişmiş müctəhidə təqlid etmək

1. Əgər mərcəyi-təqlid dünyasını dəyişsə, ona təqlid edənlər yenə də ona təqlid edə bilərlər, yəni onun fətvalarına və risaləsinə müvafiq əməl edə bilərlər. Buna fiqhdə "dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq" deyilir.

2. Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq, hətta bu müctəhid ə`ləm olsa belə, vacib deyildir. Amma dünyasını dəyişmiş ə`ləm müctəhidin təqlidində qalmaq ehtiyatını əldən verməmək tövsiyə olunur.

3. Dünyasını dəyişmiş müctəhidə təqlid etməyə başlamaq (ibtidai təqlid) və ya onun təqlidində qalmaq və bunun hüdudları həyatda olan müctəhidə təqlid əsasında olmalıdır.

4. Əgər camiuş-şərait bir müctəhidin sağlığında həddi-büluğa çatmayan bir fərd bu müctəhidə düzgün şəkildə təqlid edibdirsə, həmin müctəhid dünyasını dəyişdikdən sonra onun təqlidində qala bilər.

5. Bir müctəhidə təqlid edən və bu müctəhid vəfat etdikdən sonra bəzi məsələlərdə başqa bir müctəhidə təqlid edən bir şəxs ikinci müctəhid də vəfat etdiyi təqdirdə, ikinci müctəhidə udul etmədiyi məsələlərdə əvvəllər olduğu kimi birinci müctəhidin təqlidində qala bilər. Eləcə də ikinci müctəhidə udul etdiyi məsələlərdə ikinci müctəhidin təqlidində qala bilər, yaxud da həyatda olan başqa bir müctəhidə udul edə bilər. Amma əgər üçüncü müctəhid dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağı vacib bilərsə, bu şəxs birinci müctəhidin təqlidində qalmalıdır.

6. Əgər bir şəxs öz mərcəyi-təqlidi vəfat etdikdən sonra bəzi məsələlərdə və ya bütün hökmlərdə həyatda olan bir müctəhidə təqlid etsə, ehtiyat-vacibə görə, həyatda olan müctəhidə təqlid etdiyi məsələlərdə yenidən dünyasını dəyişmiş müctəhidə təqlid edə bilməz.

Təqlidin müxtəlif məsələləri

1. Şəri hökmü bilməyən şəxslər iki qismə ayrılır:

Qasir cahil: Bilmədiyini bilməyən və ya bilmədiyinə diqqət etməyən, eyni zamanda biliksizliyini aradan qaldırmağa bir yolu olmayan şəxsə deyilir.

Müqəssir cahil: Bilmədiyini bilən və biliksizliyini aradan qaldırmağın yolunu da bilən, amma şəri hökmləri öyrənməkdə səhlənkarlıq göstərən şəxsə deyilir.

2. "Fətva" odur ki, müctəhid şəri hökmü qətiyyət və yəqinliklə bəyan edir. Mükəlləf bu hökmə əməl etməlidir.

3. "Ehtiyat-vacib" odur ki, müctəhid müəyyən bir məsələdə birbaşa fətva vermir, amma ehtiyat olaraq müəyyən bir əməlin yerinə yetirilməsi və ya tərk edilməsinin vacibliyinə hökm verir. Mükəlləf bu məsələdə öz mərcəyi-təqlidinin ehtiyatına əməl edə, yaxud öz mərcəyi-təqlidindən sonrakı pillədə dayanan ə`ləm müctəhidə müraciət edə bilər.

4. "Ehtiyat-müstəhəb" odur ki, müctəhid fətvadan qabaq və ya sonra ehtiyat olan əməli qeyd edir[4]. Bu halda mükəlləf fətvaya və ya ehtiyat-müstəhəbə əməl edə bilər. O, bu məsələdə başqa müctəhidin fətvasına əməl edə bilməz.

Suallar:

1- Müctəhidin fətvasını hansı yollarla əldə etmək olar?

2- Təqlidi bölmək nə deməkdir? Onun hökmü nədir?

3- Hansı hallarda qeyri-ə`ləm müctəhidə udul etməyə icazə verilir?

4- Hansı halda udul etmək vacibdir?

5- Şəri hökmü bilməyən şəxslər neçə qismə ayrılır?

6- Təqlidin növlərini izah edin.

---

[1] Qeyd edək ki, əgər yeni fətvanı həmin şəxsə çatdırmamaq onun əməlinin düzgün olmaması və onu yenidən yerinə yetirməsi ilə nəticələnərsə, yeni fətvanı ona deməlidir.

[2] Yəni öz mərcəyi-təqlidindən sonra ə`ləm (daha elmli) olan bir müctəhidə müraciət edir.

[3] "Udul etmək" fiqh termini olub, "başqa bir müctəhidə müraciət etmək" deməkdir. *Müt.*

[4] Qeyd edək ki, əgər fətvanı dedikdən sonra “ehtiyat tərk edilməsin” ifadəsini qeyd edərsə, bu, “ehtiyat-vacib” mənasını bildirir.

Dördüncü dərs: Vilayəti-fəqih və rəhbərlİk

Vilayəti-fəqihin mənası

Vilayəti-fəqih – ədalətli və dinşünas fəqihin hakimiyyəti deməkdir.

Diqqət:

• Müsəlman cəmiyyətinə rəhbərlik etmək və onların ictimai işlərini idarə etməkdə "vilayəti-fəqih" məsələsi hər bir dövrdə şiə məzhəbinin əsaslarındandır və "İmamət" əqidəsindən qaynaqlanır.

• İmam Zamanın (ə.f) qeybi dövründə vilayəti-fəqihə etiqad etməmək – istər ictihad, istərsə də təqlid əsasında olsun – mürtədliyə və İslam dinindən çıxmağa səbəb olmur. Hər kim dəlil-sübut əsasında vilayəti-fəqih məsələsinə etiqad etməmək qənaətinə gələrsə, üzrlü sayılır. Lakin müsəlmanlar arasında ixtilaf və təfriqə salmasına icazə verilmir.

Vilayəti-fəqihin zəruriliyi

Sonuncu səmavi din olan və qanunları Qiyamətədək qüvvədə olan müqəddəs İslam dini ictimai dindir və cəmiyyətin idarəçiliyinə dair qanunları vardır. Elə bu səbəbdən müsəlman cəmiyyətini və İslam hakimiyyətini düşmənlərdən qoruyan, ictimai ədaləti bərqərar edən, zülm və zorakılığın qarşısını alan, mədəni-ictimai-siyasi tərəqqini təmin edən ədalətli bir rəhbərin olması zəruridir.

Diqqət:

• Vilayəti-fəqih məsələsi "təəbbudi şəri hökm"[1] olmaqla yanaşı, əql də onu təsdiqləyir.

Vəliyyi-fəqihin hakimiyyətinin hüdudları

1. Vəliyyi-fəqihin əmrləri

Bütün müsəlmanlar vəliyyi-fəqihin hökumət əmrlərinə tabe olmalı, onun göstəriş və qadağalarına əməl etməlidirlər. Bu hökm həm böyük din alimlərinə, həm də onlara təqlid edənlərə aiddir.

2. Vəliyyi-fəqihin fərmanları

Əgər vəliyyi-fəqihin fərmanı ilə müəyyən şəxslər müəyyən vəzifələrə müvəqqəti təyin edilməyiblərsə, yeni vəliyyi-fəqih bu qərarı ləğv etməyənədək əvvəlki vəliyyi-fəqihin fərmanı qüvvədədir.

3. Cəzaların icrası

Cəzaların icrası (məsələn, zina və oğurluq üçün nəzərdə tutulan cəzalar) İmam Zamanın (ə.f) qeybi dövründə də vacibdir və buna müsəlmanların rəhbəri hökm verir.

4. Vəliyyi-fəqihin qərarları cəmiyyətin qərarlarından öndədir

İslam dininin və müsəlmanların ümumi mənafeyi istiqamətində vəliyyi-fəqihin aldığı qərarlar ümumi xalq kütləsinin istəyinə zidd olduğu təqdirdə, vəliyyi-fəqihin qərarı xalqın qərarından öndə dayanır.

5. Kütləvi informasiya vasitələrinə nəzarət

Kütləvi informasiya vasitələri vəliyyi-fəqihin nəzarəti altında olmalı və İslam dininə və müsəlmanlara xidmət göstərməlidir. O cümlədən dini maarifin yayılması, müsəlmanların dünyagörüşünün artması, cəmiyyətin çətinliklərinin həlli, müsəlmanlar arasında vəhdət və qardaşlıq bağlarının yaranması və s. bu kimi məqsədlərə xidmət etməlidir.

Vəliyyi-fəqih ilə mərcəyi-təqlid arasında fikirayrılığı

Əgər kafirlər və təcavüzkar dövlətlər qarşısında dinin və ümmətin müdafiəsi kimi İslam hökumətinin idarəçiliyinə və müsəlmanların ümumi mənafeyinə aid məsələlərdə vəliyyi-fəqih ilə mərcəyi-təqlid arasında fikirayrılığı yaranarsa, bu halda vəliyyi-fəqihin rəyinə tabe olmaq lazımdır. Amma əgər fərdi şəriət məsələlərində fikirayrılığı olarsa, hər bir mükəlləf öz mərcəyi-təqlidinin fətvasına əməl etməlidir.

Suallar:

1- Vilayəti-fəqih nə deməkdir və nə üçün zəruridir?

2- Vəliyyi-fəqihin əmrləri qarşısında müsəlmanların şəri vəzifəsi nədir?

3- Dünyasını dəyişmiş vəliyyi-fəqihin fərmanları yeni vəliyyi-fəqihin icazəsi olmadan qüvvədə qalırmı?

4- İmam Zamanın (ə.f) qeybi dövründə camiuş-şərait bir müctəhid şəriətdə müəyyən edilən cəzaların icrasına dair hökm verə bilərmi?

5- Əgər hansısa bir məsələdə vəliyyi-fəqih ilə mərcəyi-təqlid arasında fikirayrılığı olarsa, mükəlləf nə etməlidir?

---

[1] Qeyd-şərtsiz qəbul etmək və tabe olmaq. *Müt.*

İKİNCİ FƏSİL: TƏHARƏT

İslamdinində paklıq və təmizliyə böyük əhəmiyyət verilir. Belə ki, bəzi ibadətlər yalnız pak halda yerinə yetirildiyi təqdirdə düzgündür. Müqəddəs İslam şəriəti baxımından bir sıra şeylər napak sayılır və onlardan hər zaman və ya bəzi hallarda çəkinmək lazımdır. İslam fiqhində ümumi paklıq və təmizlikdən əlavə, "təharət" adlanan xüsusi bir yuyunmaq tərzi (dəstəmaz və qüsl) də mövcuddur. Təharətin hökmləri, paklayıcılar, bədəni, paltarı və digər əşyaları paklamağın qaydaları, nəcasətlər və ümumiyyətlə, bu mövzuya aid bütün məsələlərə "Təharət" adlı fəsildə aydınlıq gətiriləcəkdir.

Beşinci dərs: Sular

Suların qisimləri

Sular iki qismə ayrılır:

1. Muzaf su;

2. Mutləq su.

Mutləq su üç qisimdir:

1. Yağış suyu;

2. Axar su;

3. Durğun su.

Durğun su iki qisimdir:

1. Kürr su;

2. Qəlil[1] su.

Muzaf su

1. Muzaf suyun mənası

"Muzaf su" o suya deyilir ki, "su" sözünü təklikdə və söz birləşməsi tərkibində olmadan ona şamil etmək düzgün hesab edilmir. Muzaf su müəyyən bir şeydən sıxılıb alınan bir su ola bilər, məsələn, alma suyu, gül suyu və s. Yaxud da adi su müəyyən bir şeylə elə şəkildə qarışar ki, daha ona "su" deyilməz, məsələn, şərbət, şor su və s.

2. Muzaf suyun hökmləri

1. Muzaf su napak bir şeyi paklamır (paklayıcı deyildir).

2. Əgər muzaf su "nəcasətlər"[2] ilə təmasda olsa, napak olur. (Hətta "nəcasət" az olsa və təmas nəticəsində muzaf suyun iyi, rəngi və dadı dəyişməsə belə, yaxud muzaf su kürr miqdarında olsa belə, yenə də napak olur.)

3. Muzaf su ilə dəstəmaz almaq və qüsl etmək düzgün deyildir.

4. Əgər napak muzaf su "axar su"ya və ya "kürr su"ya elə bir şəkildə qarışsa ki, daha ona muzaf su deyilməsə, bu su pak olur.

5. Əgər bir su muzaf olsa və insan onun mutləq suya çevrilib-çevrilmədiyinə şəkk etsə, bu su muzaf su hökmündədir. Yəni napak bir şeyi paklamır, onunla dəstəmaz almaq və qüsl etmək düzgün deyildir.

Mutləq su (xalis su)

1. Mutləq suyun mənası

"Mutləq su" o suya deyilir ki, "su" sözünü təklikdə və söz birləşməsi tərkibində olmadan ona şamil etmək düzgündür. Məsələn, bulaqdan qaynayan su, göydən yağan su və s.

2. Mutləq suyun qisimləri

Mutləq su aşağıdakı qisimlərə bölünür:

- Göydən yağır (yağış suyu);

- Yerdən qaynayır (axar su);

- Nə göydən yağır, nə yerdən qaynayır (durğun su).

Diqqət:

• Su ya göydən yağır, ya yerdən (yeraltı qaynaqlardan) qaynayır, ya da nə göydən yağır və nə də yerdən qaynayır. Göydən yağan suya "yağış suyu", yerdən qaynayan suya "axar su" deyilir. Göydən yağmayan və yerdən qaynamayan suya isə "durğun su" deyilir.

Əgər durğun suyun miqdarı təxminən 384 litr olsa, "kürr su"dur. Əgər bu miqdardan az olsa, "qəlil su"dur.

3. Mutləq suyun hökmləri

1. Mutləq su müəyyən şərtlər daxilində (bu şərtlər izah olunacaq) napak bir şeyi paklayır (paklayıcıdır).

2. Qəlil su istisna olmaqla, əgər mutləq suyun digər qisimləri "nəcasət" ilə təmasda olsa və onun rəngi, ya iyi, ya dadı dəyişməsə, pakdır.

3. Mutləq su ilə dəstəmaz almaq və qüsl etmək düzgündür.

4. Su da başqa şeylər kimi, napak olduğu zaman su vasitəsilə paklanır. Belə ki, əgər napak su kürr suya, ya axar suya, ya da yağış suyuna qovuşsa və onunla qarışsa, beləliklə də onda yaranan dəyişiklik aradan getsə, napak su paklanır. Amma əgər axar və ya kürr suya qovuşsa, amma ona qarışmasa, ehtiyata görə, napak hökmündədir.

Diqqət:

• Bir suyun "mutləq su" hesab olunması üçün ürfdə (camaatın nəzərində) onun "mutləq su" adlanması kifayət edir. Suda mineralların çoxluğu onun "mutləq su" hesab olunmasına maneə yaratmır. Beləliklə, Urmiyyə gölü kimi duzu çox olan bir göldə napak şeyi yumaq, həmçinin dəstəmaz almaq və qüsl etmək olar.

Mutləq suyun qisimlərinin hökmü

1. Yağış suyu

1. Əgər yağış suyu üzərində "nəcasət" olmayan napak bir şeyə yağsa, onu pak edər. Xalça, paltar və bu kimi əşyaları sıxmaq lazım deyildir, amma yağıntı elə həddə olmalıdır ki, "yağış yağır" deyilməlidir.

2. Əgər yağış "nəcasət"in üstünə yağsa və ətrafa sıçrasa, sıçrayan suda "nəcasət"in özü olmadığı və su nəcasətin iyini, rəngini və ya dadını götürmədiyi təqdirdə, pakdır. Məsələn, qanın üstünə yağış yağır və bu su ətrafa sıçrayır. Əgər sıçrayan suda qan hissəcikləri olmasa, yaxud su qanın iyini, rəngini və ya dadını götürməsə, pakdır.

3. Əgər yağış suyu müəyyən bir yerdə cəm olsa (hətta kürr miqdarından az olsa belə), yağış yağdığı müddətdə napak bir şey bu suda yuyulduğu təqdirdə, paklanar. Bu şərtlə ki, suyun iyi, rəngi və ya dadı "nəcasət" vasitəsilə dəyişməməlidir.

2. Kürr su və axar su

1. Əgər kürr və ya axar suya napak şey salınsa və bu zaman suyun rəngi, iyi və ya dadı dəyişsə, su napak olur. Bu halda napak şeyi də pak etmir.

2. Əgər napak bir şey "kürr su"ya birləşən boru suyunun altında yuyulsa, onun "ğusalə"si (yəni napak şeyin üstünə tökülüb, ondan axan su) pakdır, amma bu şərtlə ki, sözügedən suyun rəngi, iyi və ya dadı "nəcasət" nəticəsində dəyişməməlidir.

3. **Əgər napak bir şey – "nəcasət"i təmizləndikdən sonra – bir dəfə kürr suya və ya axar suya salınsa, yaxud "kürr su"ya birləşən boru suyunun altında yuyulsa, su napak olan hər yerə dəydiyi təqdirdə, napak şey paklanır. Ehtiyat-vacibə görə, xalça, paltar və bu kimi əşyalar suya salındıqdan sonra sıxılmalı və ya hərəkət etdirilməlidir.**

Diqqət:

• Paklamaq baxımından kürr su ilə axar su arasında heç bir fərq yoxdur.

3. Qəlil su

1. Qəlil su "nəcasət" ilə təmasda olduqda, hətta onun rəngi, iyi və ya dadı dəyişməsə belə, napak olur.

2. Əgər napak bir şey qəlil suya salınsa, qəlil su napak olur və napak şeyi də pak etmir.

3. Əgər qəlil su napak bir şeyin üstünə tökülərsə, onu pak edir[3]. Amma napak şeyin üstünə tökülüb, ondan axan su[4] napakdır.

4. Əgər yuxarıdan aşağıya təzyiqsiz şəkildə tökülən qəlil suyun aşağı hissəsi napak bir şeylə təmasda olsa, "su yuxarıdan aşağıya doğru tökülür" deyildiyi təqdirdə, suyun yuxarı hissəsi pakdır.

5. Əgər qəlil su "kürr su"ya və ya "axar su"ya qovuşsa, kürr su və axar su hökmündədir.

Su barəsində şəkk etmək

1. Əgər müəyyən bir suyun mutləq, yoxsa muzaf su olduğu məlum deyildirsə, həmçinin onun əvvəlcədən mutləq, yoxsa muzaf su olduğu məlum deyildirsə, bu su kürr miqdarında olsa belə, napak bir şeyi pak etmir və onunla dəstəmaz almaq və qüsl etmək də düzgün deyildir. Amma kürr miqdarında olduğu təqdirdə, nəcasətlə təmasda olduğu zaman napak olmur.

2. Əgər müəyyən bir suyun pak, yoxsa napak olduğunu bilmiriksə, şəriət baxımından bu su pak sayılır. Həmçinin əgər bir suyun əvvəlcədən pak olduğunu bilirdiksə, amma sonradan onun napak olub-olmadığını bilmiriksə, bu su pakdır. Amma əgər bir suyun əvvəlcədən napak olduğunu bilirdiksə, sonradan isə onun paklanıb-paklanmadığını bilmiriksə, bu su napak sayılır.

3. Əgər bir su əvvəlcədən kürr miqdarında olubsa, amma indi bu suyun kürr miqdarından azalıb-azalmadığına şəkk ediriksə, bu su kürr su hökmündədir.

4. İnsan kürr miqdarından az olan bir suyun kürr miqdarına çatdığına yəqin etməyənədək, bu su qəlil su hökmündədir.

Diqqət:

• Əvvəlcədən kürr miqdarında olan bir suyun indi də kürr miqdarında olub-olmadığını araşdırmaq vacib deyildir. Əgər bir suyun əvvəlcədən kürr miqdarında olduğu məlum idisə, onu indi də kürr su hesab etmək olar. Məsələn, əgər qatarın ayaq yolundakı suyun əvvəlcədən kürr miqdarında, hətta bu miqdardan çox olduğunu bilsək, sonra bu suyun kürr miqdarından azaldığına şəkk etsək, onu kürr su hesab edə bilərik.

Suallar:

1- Suların qisimlərini sadalayın.

2- Muzaf su və mutləq su nədir?

3- Mutləq suyun hökmlərini deyin.

4- Mineralları və şorluğu çox olan dəniz suyu ilə dəstəmaz almaq və qüsl etmək olarmı?

5- Pak etmək baxımından kürr su ilə axar su arasında hansı fərq var?

6- Əgər bir suyun pak, yoxsa napak olduğunu bilmiriksə, bu suyun hökmü nədir?

---

[1] Qəlil su – "az su" mənasını bildirir. Miqdarı 384 litrdən az olan durğun su "qəlil su" hesab olunur.

[2] "Nəcasətlər" barədə bir qədər irəlidə məlumat veriləcəkdir.

[3] "Mutəhhirat" mövzusunda bunun şərtləri açıqlanacaqdır.

[4] Qeyd olunduğu kimi, fiqhdə bu suya "ğusalə" deyilir.

Altıncı dərs: Təxəlli[1]

Təxəllinin hökmləri

1. Qibləyə tərəf olmamaq

1. Təxəlli zamanı insan üzü və ya arxası qibləyə tərəf olmamalıdır.

2. Ehtiyat-vacibə görə, uşaq təxəlli üçün üzü və ya arxası qibləyə tərəf otuzdurulmasın. Amma əgər uşağın özü üzü və ya arxası qibləyə tərəf oturarsa, onun qarşısını almaq vacib deyildir.

2. Övrəti (ayıb yerləri) başqalarından örtmək

Həyat yoldaşı istisna olmaqla, insan təxəlli zamanı, eləcə də başqa hallarda öz övrətini başqa insanlardan – istər qadın, istərsə də kişi olsun, yaxud istər məhrəm, istərsə də naməhrəm olsun – hətta yaxşı ilə pisi ayırd edə bilən uşaqdan örtməlidir.

3. Təxəlli zamanı məkruh olan bəzi işlər:

- Ayaq üstə bövl etmək[2];

- Bərk torpağa və heyvanların yuvasına bövl etmək;

- Suya, xüsusilə də durğun suya bövl etmək;

- Sidik və nəcisin ifrazının qarşısını almaq;

- Yollarda, insanların gediş-gəliş yolunda və meyvə ağaclarının altında təxəlli etmək.

İstibra

1. Əgər kişi bövl etdikdən sonra "istibra" adlanan əməli yerinə yetirsə, bundan sonra sidik kanalından bir maye xaric olsa və onun sidik, yoxsa başqa bir maye olduğunu bilməsə, bu maye pak hökmündədir və bu barədə araşdırma aparmaq da lazım deyildir.

2. İstibra etmək vacib deyildir. Hətta əgər istibra etməyin zərəri olsa, onu yerinə yetirməyə icazə verilmir. Amma əgər kişi istibra etməsə və bövl etdikdən sonra ondan bir maye xaric olsa və o, bu mayenin sidik, yoxsa başqa bir şey olduğunu bilməsə, bu maye sidik hökmündədir.

3. İstibranın ən yaxşı qaydası budur: Bövl edib qurtardıqdan sonra əgər nəcisin xaric olduğu yer napak olubdursa, əvvəlcə ora yuyulub paklanır. Sonra sol əlin orta barmağı nəcisin xaric olduğu yerdən cinsiyyətin kök hissəsinədək üç dəfə çəkilir. Daha sonra baş barmaq cinsiyyətin üstünə və baş barmağın yanındakı barmaq onun altına qoyulub cinsiyyətin başınadək üç dəfə çəkilir. Sonda cinsiyyətin baş hissəsi üç dəfə sıxılır və sidiyin xaric olduğu yer yuyulur.

4. Nəcisin xaric olduğu yeri pakladıqdan əvvəl və ya sonra edilən istibranın qaydası arasında heç bir fərq yoxdur.

5. Əgər bir şəxs bövl etdikdən sonra istibra etsə və dəstəmaz alsa, sonra isə ondan bir maye xaric olsa və o, bu mayenin sidik, yoxsa məni olduğuna şəkk etsə, təharətin hasil olduğuna yəqin etməsi üçün o, həm qüsl etməli, həm də dəstəmaz almalıdır.

Diqqət:

• İnsandan xaric olan mayelər aşağıdakı qisimlərə ayrılır:

- Vəzy: bəzən məni xaric olduqdan sonra insandan xaric olan maye;

- Vədy: bəzən bövl etdikdən sonra insandan xaric olan maye;

- Məzy: ər-arvad mazaqlaşdıqdan sonra xaric olan maye.

• Qeyd olunan bu mayelərin hamısı pakdır və "təharət"i (qüsl və dəstəmazı) pozmur.

İstinca (sidik və nəcisin xaric olduğu yerin paklanması)

1. Sidiyin xaric olduğu yeri paklamağın qaydası

1. Sidiyin xaric olduğu yer yalnız su ilə paklanır.

2. Ehtiyat-vacibə görə, sidiyin xaric olduğu yer sidik aradan getdikdən sonra "qəlil su" ilə iki dəfə yuyulduqda paklanır.

2. Nəcisin xaric olduğu yeri paklamağın qaydası

1. Nəcisin xaric olduğu yeri iki qaydada paklamaq olar:

Birinci qayda: Nəcis aradan gedənədək su ilə yuyulur. Nəcis aradan getdikdən sonra daha yumaq lazım deyildir.

İkinci qayda: Üç ədəd daş, ya üç tikə pak parça və ya bu kimi şeylərlə nəcis təmizlənir. Əgər üç ədəd daş, ya üç tikə pak parça və ya bu kimi şeylərlə nəcis təmizlənməzsə, əlavə daş, parça və ya bu kimi şeylərlə tam təmizləmək lazımdır. Üç ədəd daş əvəzinə bir ədəd daşın üç yerindən və ya üç tikə parça əvəzinə bir parçanın üç yerindən istifadə etmək olar.

2. Nəcisin xaric olduğu yer üç halda yalnız su ilə paklanır və onu daş və bu kimi şeylərlə paklamaq olmaz:

- Nəcislə yanaşı qan kimi başqa bir "nəcasət" xaric olduqda;

- Nəcisin xaric olduğu yer kənardan başqa bir nəcasətə bulaşdıqda;

- Nəcisin xaric olduğu yer adi ölçüdən çox nəcisə bulaşdıqda (başqa sözlə desək, nəcisin xaric olduğu yerdən əlavə, başqa yerlər də nəcisə bulaşdıqda).

Suallar:

1- Həddi-büluğa çatmayan uşaqdan övrəti örtmək vacibdirmi?

2- Təxəlli zamanı məkruh olan işlər hansılardır?

3- İstibranın hökmü nədir?

4- İstibranın faydası nədir?

5- İnsandan xaric olan mayelər hansılardır?

6- Sidik və nəcisin xaric olduğu yer necə paklanır?

---

[1] Ayaqyoluna getmək, sidik və nəcis ifrazı

[2] Sidiyə çıxmaq

Yeddinci dərs: Nəcasətlər (1)

Nəcasətlər bunlardır:

1- Sidik;

2- Nəcis;

3- Məni (sperma);

4- Murdar (cəsəd);

5- Qan;

6- İt;

7- Donuz;

8- Ehtiyat-vacibə görə, məstedici içkilər;

9- Səmavi dinlərdən heç birinə etiqadı olmayan kafirlər.

Diqqət:

• Şəriətin nəcasət hesab etdiyi şeylərdən başqa hər şey pak hökmündədir.

1 və 2. Sidik və nəcis

Napakdır:

- İnsanın sidik və nəcisi napakdır;

- Quşlar istisna olmaqla, əti haram və qanı sıçrayışlı olan heyvanların (məsələn, siçan, pişik və s.) sidik və nəcisi napakdır.

Pakdır:

- Əti halal heyvanların – istər quşların (məsələn, sərçə, göyərçin və s.), istərsə də qeyri-quşların (məsələn, inək, qoyun və s.) – sidiyi və nəcisi pakdır.

- Əti haram olan, amma qanı sıçrayışlı olmayan heyvanların (məsələn, ilan və pulsuz balıq) sidik və nəcisi pakdır;

- Əti haram olan quşların (məsələn, qarğa, tutuquşu və s.) sidik və nəcisi pakdır.

Diqqət:

• Ətinin halal, yoxsa haram olduğu məlum olmayan heyvanın sidik və nəcisi pak hökmündədir.

3. Məni

1.İnsanın və əti haram və qanı sıçrayışlı olan heyvanların mənisi napakdır.

2. Əti halal heyvanların mənisi, ehtiyat-vacibə görə, napakdır.

3. Əgər bir şəxs ondan xaric olan mayenin məni, yoxsa başqa bir maye olduğunu bilməsə, bu mayenin məni olduğuna yəqin edə bilmədiyi, həmçinin bu maye məninin xaric olmasının şəri əlamətləri ilə xaric olmadığı təqdirdə, məni hökmündə deyildir və pakdır.

Diqqət:

• Kişilərdə məninin əlamətləri aşağıdakılardır:

- Şəhvət (insan tam cinsi həzz aldığı zaman yaranan cinsi məmnunluq hissi);

- Difq (sıçrayışlı olması);

- Futur (bədənin süstləşməsi).

• Qadınlarda məninin əlaməti yalnız "şəhvət"dir.

• Məlum məsələdir ki, xaric olan mayenin məni olduğuna şəkk etdiyimiz zaman yuxarıdakı əlamətləri araşdıracağıq.

4. Murdar (cəsəd)

İnsanın cəsədi:

1. Müsəlmanın cəsədi napakdır, amma ruhsuz hissələr, o cümlədən dırnaq, saç və diş istisna təşkil edir və pakdır.

2. Döyüş meydanında şəhid olan müsəlmanın cəsədi pakdır.

3. Meyit qüslü verildikdən sonra müsəlmanın cəsədi pakdır.

4. Kitab-əhli olan kafirin cəsədi napakdır, amma ruhsuz hissələr, o cümlədən dırnaq, saç və diş istisna təşkil edir və pakdır. Kitab-əhli olmayan kafirin cəsədi isə bütünlüklə napakdır.

Heyvanın cəsədi:

1. İt və donuzun cəsədi bütünlüklə napakdır.

2. İt və donuzdan qeyri heyvanların əgər qanı sıçrayışlıdırsa, onların cəsədinin ruhu olan hissələri, o cümlədən əti və dərisi napakdır. Ruhsuz hissələri isə, o cümlədən tükü və buynuzu pakdır. Şəri qaydada kəsilən heyvan istisna təşkil edir və onun əti və dərisi pakdır.

3. İt və donuzdan qeyri heyvanların əgər qanı sıçrayışlı deyildirsə, onların cəsədinin bütün hissələri pakdır.

Diqqət:

• İnsanın və qanı sıçrayışlı olan heyvanın – istər əti haram olsun, istərsə də halal olsun – cəsədi napakdır.

• Şəri qaydada kəsilən heyvanın cəsədi, həmçinin meyit qüslü verildikdən sonra insanın cəsədi "murdar" hökmündə deyildir və pakdır.

• "Meyit qüslü" dedikdə, üç qüslün üçü də nəzərdə tutulur. Beləliklə, meyitə üçüncü qüsl verilib qurtarmayanadək, o, napak hökmündədir.

• İnsanın və heyvanın cəsədinin ruhsuz hissələri, o cümlədən tük, diş və buynuzu pakdır. Amma it və donuz, həmçinin kitab-əhli olmayan kafir istisna təşkil edir və onların cəsədinin bütün hissələri napakdır.

"Murdar" barəsində bir neçə şəri məsələ:

1. Dodağın və bədənin digər hissələrinin qopub düşmək vaxtı çatan xırda dəriləri, hətta bu dərilər qoparılsa belə, pakdır. Amma qopub düşmək vaxtı çatmayan və qoparıldığı zaman yeri ağrıyan və ya göynəyən dərilərdən, ehtiyat-vacibə görə, çəkinmək lazımdır. Lakin bu dərilər qoparıldıqdan sonra onun yeri pakdır.

2. Əgər canlı bir varlığın bədən üzvü, məsələn, əli və ya ayağı tam şəkildə kəsilərsə, bu üzv napakdır.

3. Ruhun bədəndən çıxması ilə bədən napak olur, baxmayaraq ki, bədən hələ soyumayıbdır və istidir. Bu hökm baxımından insan ilə heyvan arasında fərq yoxdur.

4. Əgər bir şəxs müəyyən bir şeyin heyvanın hissələrindən olub-olmadığına şəkk etsə, məsələn, istifadə etdiyi dərinin təbii, yoxsa süni dəri olduğuna şəkk etsə, bu şey pak hökmündədir. Həmçinin əgər o, müəyyən bir şeyin heyvanın hissələrindən olduğunu bilsə, amma heyvanın qanının sıçrayışlı olub-olmadığını bilməsə, bu şey pakdır.

5. İslami mühitlərdə satılan və ya müsəlmanın əlində olan ət, dəri və heyvanın digər hissələri pak hökmündədir. Lakin qeyri-müsəlman ölkələrindən idxal edilən ət, dəri və heyvanın digər hissələrinə gəlincə, əgər heyvanın şəri qaydada kəsilmədiyinə[1] yəqinliyimiz olsa, onun əti, dərisi və digər hissələri napakdır. Amma əgər heyvanın şəri qaydada kəsildiyini bilsək və ya ehtimal etsək, bunlar pakdır. Həmçinin əgər idxalçı şəxs müsəlman olsa və heyvanın şəri qaydada kəsildiyini araşdırdığını ehtimal etsək, heyvanın əti halaldır.

5. Qan

1. İnsanın və qanı sıçrayışlı olan hər bir heyvanın – istər əti halal, istərsə də əti haram olan heyvanın – qanı napakdır.

2. Qanı sıçrayışlı olmayan heyvanın, məsələn, balıq, tısbağa və ilanın qanı pakdır, amma onların qanının yeyilməsi haramdır.

3. Əgər əti halal olan heyvan şəri qaydada kəsilsə və onun qanı adi miqdarda xaric olsa, heyvanın bədənində qalan qan pakdır.

4. Yumurtada olan qan pakdır, lakin onu yemək haramdır. Amma əgər qarışdırmaq nəticəsində bu qan aradan gedərsə, yumurtanı yemək halaldır.

6-7. İt və donuz

Quruda yaşayan it və donuz – onların həm ruhu olan hissələri, həm də ruhsuz hissələri – napakdır. Hətta bu iki heyvanın ağız suyu və təri də napakdır. Həmçinin evdə saxlanılan donuz ilə çöldonuzu arasında fərq yoxdur və hər ikisi napakdır. Amma suiti və sudonuzu pakdır.

Diqqət:

• Paklığın şərt olduğu yerdə (məsələn, qüsl və dəstəmaz suyunun qabı) donuzun və itin tükündən istifadə etmək olmaz. Lakin paklığın şərt olmadığı yerdə (məsələn, rəssamlıq fırçası) onlardan istifadə etməyin maneəsi yoxdur.

Suallar:

1- Nəcasətlər hansılardır?

2- Qarğa, qartal və tutuquşu kimi əti haram olan quşların nəcisi napakdırmı?

3- Mənninin şəri əlamətləri hansılardır?

4- İnsanın meyiti nə zaman pak olur?

5- Qeyri-İslami ölkələrdən idxal edilən ət və dəri kimi məhsullar hansı halda pakdır?

6- Yumurtada olan qan pakdır, yoxsa napakdır?

---

[1] İslam dinində heyvanın ətinin pak və ya halal olması üçün onu bir sıra şərtlər daxilində kəsilməsi göstəriş verilibdir. Əti halal olan heyvan şəri qaydada kəsildiyi zaman onun hissələri pak və ətini yemək halal olur. Əti haram heyvan şəri qaydada kəsildiyi zaman isə onun hissələri pak olur. Qeyd edək ki, dəvədən qeyri heyvanların başı kəsilir, dəvədə isə kəsici alət onun boğazına salınır. Çöl heyvanları da ovlanır.

Səkkizinci dərs: Nəcasətlər (2)

8. Məstedici içkilər

Ehtiyat-vacibə görə, məstedici içkilər napakdır.

Diqqət:

• Əgər məstedici maddə təbiətcə maye şəklində deyildirsə (məsələn, çətənə və həşiş), suya və ya başqa bir mayeyə qarışıb maye şəklinə düşsə belə, napak deyildir.

• Əgər üzüm və ya üzüm suyu öz-özünə qaynayarsa, napak deyildir. Həmçinin əgər üzüm və ya üzüm suyu od üstündə qaynadılarsa, onun üçdə ikisi azalmadığı, eyni zamanda məstedici də olmadığı təqdirdə, napak deyildir. Lakin onu yemək və içmək haramdır.

• Əgər qora dənələrinin arasında üzüm dənələri də olsa və onların hamısının suyu çəkilsə, üzüm dənələrinin sayı çox az olduğu və üzümün suyu abqorada yox olduğu, başqa sözlə, ona üzüm suyu deyilmədiyi təqdirdə, bu su qaynadıldığı zaman haram olmur. Amma əgər sırf üzüm dənələri od üstündə qaynadılarsa, onu yemək haramdır.

• Qaynadılan xurma və kişmiş və onların suyu pakdır, yeyilib-içilməsi də halaldır. Amma əgər insanda onun məstedici olduğuna dair yəqinlik hasil olsa, bu halda onun yeyilib-içilməsi haramdır və ehtiyat-vacibə görə, napakdır.

• Təbiətcə məstedici içki növündən olduğu məlum olmayan spirt pak hökmündədir.

9. Kafir

1. Mütəal Allahın varlığını inkar edən, yaxud məadı inkar edən, yaxud da heç bir səmavi dinə etiqad bəsləməyən şəxs kafirdir və napakdır.

2. Kitab-əhli olan kafir pak hökmündədir.

Diqqət:

• "Kitab-əhli" dedikdə yəhudilər, məsihilər, zərdüştlər və sabiilər[1] kimi İlahi (səmavi) dinlərdən birinə etiqad bəsləyən və özünü İlahi peyğəmbərlərdən birinin ardıcılı hesab edən insanlar nəzərdə tutulur. Kitab-əhli pak hökmündədir.

3. Əgər müsəlman şəxs Mütəal Allaha və Həzrət Peyğəmbərə (s) etiqadından dönsə və ya İslam dininin zəruri hökmlərindən birini inkar etsə, belə ki, onun bu inkarı peyğəmbərliyin inkarı və ya Həzrət Peyğəmbərin (s) təkzibi ilə nəticələnsə, bu şəxs mürtəd hesab olunur və napakdır. Lakin şəriətdə vacib buyurulan namaz, oruc və bu kimi əməlləri tərk etmək müsəlmanın mürtəd və kafir olmasına, eləcə də napak hesab olunmasına səbəb olmur. Onun mürtəd olması sübut olunmayanadək, o, başqa müsəlmanlar hökmündədir.

4. Həzrət Peyğəmbərin (s) və ya Məsum İmamlardan (ə) birinin ünvanına nalayiq söz deyən, yaxud onlar barəsində mübaliğə edən və onların Allah olduğuna etiqadı olan şəxs napakdır.

5. Azğın "Bəhailik" firqəsinin ardıcıllarının hamısı napak hökmündədirlər.

"Nəcasətlər" barəsində bir neçə şəri məsələ:

1. Nəcasət yeyən heyvanın və haram yolla cənabətli olan şəxsin təri pakdır, lakin ehtiyat-vacibə görə, bu tər ilə namaz qılınmasın.

2. Haram ət və napak ət (məsələn, donuz əti) yeyən şəxsin təri və ağzının suyu pakdır.

3. Əgər napak bir şeyi pakladıqdan sonra onda nəcasətin iyi və ya rəngi qalsa, bunun iradı yoxdur. Məsələn, əgər qana bulaşan bir paltarın qanı yuyulub təmizlənsə və paltar suya çəkilsə, amma paltarda qanın rəngi qalsa, paltar pakdır.

4. İnsanın qusmağı – istər südəmər uşağın, istər ana südü ilə yanaşı yemək yeyən uşağın, istərsə də böyük insanın qusmağı – pakdır.

Suallar:

1- Spirtin napak olmasının meyarı nədir?

2- Dinin zəruri hökmlərinin inkarı hansı halda küfrə səbəb olur?

3- "Kitab-əhli" dedikdə kimlər nəzərdə tutulur? Paklıq və napaklıq baxımından onların hökmü nədir?

4- Paklıq və napaklıq baxımından bəhailərin hökmü nədir?

5- Haram yolla cənabətli olan şəxsin tərinin hökmü nədir?

6- Yuyulduqdan sonra paltarda qalan qan ləkəsinin hökmü nədir?

[1] Sabiilər – Həzrət Yəhya peyğəmbərin (ə) ardıcılı olduqlarını və o həzrətə nazil olan kitabın onlar arasında mövcud olduğunu iddia edən insanlardır.

Doqquzuncu dərs: Nəcasətlər (3)

Napaklığın sübuta yetməsinin yolları

Bir şeyin napak olduğu üç yolla sübuta yetir:

1. İnsanın özü bir şeyin napak olduğuna yəqin edir və ya əmin olur;

2. Bir şəxs (məsələn, ev sahibi, satıcı, xidmətçi) öz ixtiyarında olan bir şeyin napak olduğunu bildirir;

3. İki ədalətli və etibarlı şəxs bir şeyin napak olduğuna şahidlik edirlər.

Diqqət:

• Əgər büluğa çatmasına az vaxt qalan bir uşaq öz ixtiyarında olan bir şeyin napak olduğunu desə, onun sözünü qəbul etmək lazımdır. Başqa sözlə desək, onun bu barədə sözü etibarlı sayılır. Büluğa çatmasına hələ bir qədər vaxt qalan müməyyiz uşağın (yəni yaxşı və pisi ayırd edən uşağın) bu barədə sözünə gəlincə, bu halda ehtiyata riayət olunmalıdır.

Pak şeyin napak olmasının şərtləri

Pak bir şey dörd şərt daxilində napak olur:

1. Pak şey napak şeylə təmasda olmalıdır;

2. Onların hər ikisi və ya biri yaş olmalıdır;

3. Yaşlıq birindən digərinə sirayət edəcək miqdarda olmalıdır;

4. Təmas bədən daxilində olmamalıdır.

Diqqət:

• Yaşlığın sirayət etməsinin meyarı odur ki, təmas zamanı yaş şeyin yaşlığı digər şeyə sirayət edir.

• Əgər pak bir şey "nəcasət" ilə və ya "nəcasət"ə bulaşan bir şeylə (mutənəccislə) təmasda olsa və insan şəkk etsə ki, görəsən, onlardan biri o miqdarda yaş olubdurmu ki, yaşlıq birindən digərinə sirayət etmişdir, bu halda pak şeyin napak olduğuna hökm verilmir.

• Əgər yaş bir parçanın və ya bu kimi bir şeyin müəyyən yeri napak şeylə təmasda olsa, yalnız həmin yer napak olur və onun digər yerləri pakdır.

• Maye halında olan bir şeyin, məsələn, meyvə suyunun və ya duru yağın bir nöqtəsi napak olduğu zaman bu şey bütünlüklə napak olur. Amma maye halında olmayan bir şeyin yalnız napak şeylə təmasda olduğu yeri napak olur.

• "Nəcasət"lə təmasda olaraq napak olan bir şey (fiqhdə buna "birinci mutənəccis" deyilir) əgər pak bir şeylə təmasda olsa, onlardan biri yaş olduğu təqdirdə, pak şeyi napak edir. İkinci napak şey (ikinci mutənəccis) əgər pak bir şeylə təmasda olsa, ehtiyat-vacibə görə, pak şeyi napak edir. Lakin üçüncü napak şey (üçüncü mutənəccis) bir şeylə təmasda olduqda, onu napak etmir.

Nəcasətlərin hökmləri

1.Napak bir şeyi yemək və içmək haramdır. Həmçinin onu başqasına yedizdirmək və içizdirmək olmaz. Amma əgər bir şəxs başqa bir şəxsin napak yemək yediyini və ya napak paltarda namaz qıldığını görsə, yeməyin və ya paltarın napak olduğunu ona deməsi lazım deyildir.

2. Paltarı yuyan şəxsə paltarın napak olduğunu söyləmək lazım deyildir. Amma paltarın sahibi paltarın paklandığına yəqin etməyənədək, ondan pak bir paltar kimi istifadə edə bilməz.

3. Əgər evə qonaq gələn şəxs ev sahibinin bir əşyasını – yeyilən və içilən qida məhsulları, həmçinin yemək-içmək üçün istifadə edilən qab-qacaq istisna olmaqla – napak etsə, bunu ev sahibinə bildirməsi lazım deyildir.

4. Əgər ev sahibi yemək yediyi əsnada yeməyin napak olduğunu başa düşsə, bunu qonaqlara bildirməlidir. Amma əgər qonaqların biri bunu başa düşsə, başqalarına bildirməsi lazım deyildir.

5. Əgər insan napak bir şeyin paklanıb-paklanmadığına şəkk etsə, bu şey napak hökmündədir. Əgər insan pak bir şeyin napak olub-olmadığına şəkk etsə, bu şey pak hökmündədir.

6. Əgər insan bir şeyin napak olduğunu və ya pak olduğunu araşdırma vasitəsilə öyrənə bilsə belə, araşdırma aparması lazım

deyildir və bu şey pak hökmündədir.

Vasvası insana aid hökmlər

1. Paklıq-napaklıq məsələlərində böyük psixoloji həssaslıq göstərən şəxsə, məsələn, başqalarından daha tez bir şeyin napak olduğuna və ya başqalarından daha gec bir şeyin paklandığına yəqin edən bir şəxsə fiqhdə "vasvası" deyilir.

2. Əgər vasvası insan bir şeyin napak olduğuna yəqin etsə, onun öz yəqininə müvafiq əməl etməsi lazım deyildir, əlbəttə, adi qaydada yəqinliyin hasil olduğu hallar istisnadır.

3. Vasvası insan napak bir şeyi suya çəkərkən, bu şeyin paklandığına və napaklığın aradan getdiyinə dair yəqin etməsi lazım deyildir. Əksinə, bu kimi hallarda adi insanların davranışı meyar götürülür.

4. Vasvası insanlar özlərini bu xəstəlikdən xilas etmək üçün aşağıdakı tövsiyələrə əməl etməlidirlər:

1) İslam dininin hökmləri asan və bəşər fitrətinə uyğundur. Odur ki, insan bu hökmləri özü üçün çətinləşdirməməli, bu əməli ilə öz cisminə və ruhuna ziyan və əziyyət verməməlidir. Bu kimi məsələlərdə (paklıq-napaklıq məsələlərində) təşviş və iztirab həyatı onlar üçün acı edir. Mütəal Allah isə onların və onlarla ünsiyyətdə olan insanların əzab-əziyyət çəkmələrinə razı deyildir. Onlar asan bir dinin ardıcılı olduqlarına görə şükür etməlidirlər. Bu nemətin şükrü isə Mütəal Allahın göstərişlərinə müvafiq şəkildə əməl etməkdir.

2) Vasvasılıq aradan qalxa bilən və müalicə olunan bir vəziyyətdir. Ondan xilas olmaq üçün möcüzəyə ehtiyac yoxdur. İnsan öz şəxsi qayda-qanunlarını kənara qoymalı və müqəddəs şəriətin hökmlərinə tam şəkildə tabe olmalıdır.

3) Müqəddəs şəriətə görə hər şey pakdır. Bir şeyin napak olduğuna yəqin etməyənədək, hətta onun napak olduğuna böyük ehtimal etsək belə, bu şey pakdır.

Suallar:

1- Əgər büluğa çatmasına az vaxt qalan bir uşaq öz ixtiyarında olan bir şeyin napak olduğunu desə, onun sözünü qəbul etmək lazımdırmı?

2- Pak bir şey neçə şərt daxilində napak olur?

3- Yaşlığın sirayət etməsinin meyarı nədir?

4- Mutənəccis, yəni napak olan şey neçə vasitə ilə pak bir şeyi napak edir?

5- Əgər qonaq ev sahibinin bir əşyasını napak etsə, bunu ona deməlidirmi?

6- Əgər vasvası insan bir şeyin napak olduğuna yəqin etsə, o, nə etməlidir?

Onuncu dərs: Mutəhhirat (1)

Mutəhhirat

Mutəhhirat, yəni paklayıcılar aşağıdakılardan ibarətdir:

1- Su;

2- Yer;

3- Günəş;

4- İstihalə;

5- İntiqal;

6- İslam;

7- Təbəiyyət;

8- Nəcasətin aradan getməsi;

9- Müsəlmanın qaib olması.

Diqqət:

• Napaklığı pak edənlərə "mutəhhirat" (yəni paklayıcı) deyilir.

1. Su

Napak şeyi su ilə paklamaq üçün bir neçə şərt tələb olunur:

1. Su "mutləq su" olmalıdır;

2. Su pak olmalıdır;

3. Napak şey yuyulduğu zaman su "muzaf su"ya çevrilməməlidir;

4. Napak şeyi suya çəkdikdən sonra həmin şeydə "nəcasət" qalmamalıdır;

5. Napak şey "qəlil su" ilə yuyulduğu zaman "ğusalə"nin[1] ayrılması şərtdir.

Qabları paklamağın qaydası

1. Napak qabı "qəlil su" ilə üç dəfə yumaq lazımdır. Amma kürr su və axar suda bir dəfə yumaq kifayətdir.

2. Əgər it bir qabdan su və ya başqa bir maye içibsə, yaxud qabı yalayıbsa, bu qabı əvvəlcə torpaqlamaq, sonra su ilə yumaq lazımdır. Bu qabı qəlil su ilə yumaq istədikdə, onu torpaqladıqdan sonra iki dəfə yumaq lazımdır.

3. Əgər donuz bir qabdan maye halında bir yemək yeyibsə və ya su içibsə, bu qabı yeddi dəfə yumaq lazımdır, lakin onu torpaqlamaq lazım deyildir.

Qablardan qeyri əşyaları paklamağın qaydası

1. Əgər napak bir əşyanın "nəcasət"i aradan qaldırıldıqdan sonra o, bir dəfə kürr suya və ya axar suya salınsa, yaxud kürr suya birləşən boru suyunun altında yuyulsa və su napak yerlərin hər tərəfinə dəysə, bu əşya paklanır. Ehtiyata (ehtiyat-vacibə) görə, xalça, paltar və bu kimi əşyalar suya salındıqdan sonra sıxılmalı və ya hərəkət etdirilməlidir. Qeyd edək ki, bu əşyaları suyun daxilində sıxmaq və ya hərəkət etdirmək kifayət edir və onları sudan çıxardıqdan sonra bunu etmək lazım deyildir.

2. Əgər sidik ilə təmasda olub napak olan əşyanın "nəcasət"i aradan qaldırıldıqdan (yəni sidik yuyulub təmizləndikdən) sonra onun üstünə iki dəfə qəlil su tökülsə, bu əşya paklanır. Amma sidikdən qeyri bir nəcasət ilə təmasda olub napak olan əşyanın "nəcasət"i aradan qaldırıldıqdan sonra o, bir dəfə yuyulduğu təqdirdə, paklanır.

3. Napak əşya qəlil su ilə yuyulduğu zaman onun üstünə tökülən su bu əşyadan ayrılmalıdır (yəni su onun üstünə tökülüb

axmalıdır). Əgər onu sıxmaq mümkündürsə (məsələn, paltar və xalça kimi əşyalar olduqda), suyun xaric olması üçün onu sıxmaq lazımdır.

Diqqət:

• Napak xalça və bu kimi əşyalar kürr suya birləşən boru suyu ilə yuyulduğu zaman ğusalənin ondan ayrılması şərt deyildir. Belə ki, nəcasət aradan qaldırıldıqdan və su axa-axa xalçanın üzərinə əl çəkərək "ğusalə" öz yerindən hərəkət etdirildikdən sonra napak yerə suyun dəyməsi ilə bu yer paklanır.

• Napak su ilə qarışdırılıb hazırlanan palçıqdan tikilən təndirin üzəri su ilə yuyulduqda, paklanır və çörək bişirmək üçün təndirin üzərinin, yəni xəmir yapılan yerin pak olması kifayət edir.

• Əgər napak bir paltar yuyulduğu zaman paltarın rəngi suya çıxırsa, amma su "muzaf su"ya çevrilmirsə, su bu paltarın üstünə töküldüyü zaman paltar paklanır.

• Əgər napak paltarları suya çəkmək üçün onları bir ləyənə qoyub, üstünə su borularından axan suyu axıtsalar və su paltarları tamamilə bürüsə, bu halda həm paltar, həm ləyən, həm su, həm də suyun üzərinə yığılan və su ilə birgə axıb gedən paltarın xovu pakdır. (Əlbəttə, əvvəldə qeyd edildiyi kimi, paltar və bu kimi əşyaları suya saldıqdan sonra ehtiyata görə, onları sıxmaq və ya hərəkət etdirmək lazımdır.)

Suallar:

1- Mutəhhiratı sadalayın.

2- Qabları paklamağın qaydasını izah edin.

3- Napak paltar kürr su və ya axar su ilə yuyulduğu zaman paltarı sıxmaq lazımdırmı, yoxsa nəcasət aradan getdikdən sonra onun hər tərəfini su bürüsə, kifayət edir?

4- Napak paltar kürr su və ya axar su ilə yuyulduğu zaman paltarı sudan çıxardıqdan sonra onu sıxmaq lazımdırmı, yoxsa suyun daxilində sıxmaq kifayət edir?

5- Napak su ilə qarışdırılıb hazırlanan palçıqdan tikilən təndiri paklamaq mümkündürmü?

6- Rəngi suya çıxan paltarlar necə pak olur?

---

[1] Ğusalə – napak şeyin üstünə tökülüb, ondan axan suya deyilir.

On birinci dərs: Mutəhhirat (2)

2. Yer

Əgər yerin üstündə yol getmək nəticəsində bir şəxsin ayağının və ya ayaqqabısının altı napak olarsa, o, quru və pak yerin üstündə təxminən on addım yol getdikdə, ayaqqabısının və ya ayağının altı paklanar, amma bu şərtlə ki, "nəcasət" aradan getsin.

Diqqət:

- **Asfalt və ya qırlanmış yer ayağın və ya ayaqqabının altını pak etmir.**

3. Günəş

1.Günəş Yeri və daşınmayan bütün əşyaları, o cümlədən evləri və evdə olan qapı, pəncərə, sütun və bu kimi əşyaları, həmçinin ağac və bitkiləri pak edir.

2.Günəş aşağıdakı şərtlər daxilində paklayıcıdır:

- Napak əşya yaş olmalıdır;

- Əşyanın üzərində "nəcasət" olmamalıdır (əgər əşyanın üzərində nəcasət olarsa, Günəş saçmazdan qabaq nəcasəti aradan qaldırmaq lazımdır);

- Günəş napak əşyanın üzərinə birbaşa saçmalıdır (bulud və ya pərdə kimi bir şey Günəşin birbaşa saçmasına maneə olmamalıdır);

- Günəşin saçması nəticəsində napak şey qurumalıdır (əgər nəm qalsa, paklanmır).

4. İstihalə (bir haldan başqa hala çevrilmə)

Əgər napak bir şey elə bir şəkildə dəyişilsə ki, onun mahiyyəti başqa bir şeyə çevrilsə, məsələn, çubuq yanıb kül olsa, şərab sirkəyə çevrilsə, it duzluğa düşüb duza çevrilsə, bu şey paklanır. Amma əgər onun mahiyyəti dəyişməsə və yalnız forması dəyişsə, məsələn, buğda una çevrilsə, şəkər suda həll olsa, bu şey paklanmır.

Diqqət:

• Bəzi maddələr (məsələn, yağ) napak olduğu təqdirdə, paklamaq məqsədilə onların üzərində kimyəvi reaksiyaların aparılması – belə ki, reaksiya nəticəsində bu maddə yeni xassələrə malik olur – kifayət etmir. (Yəni bu iş nəticəsində istihalə baş vermir.)

5. İntiqal

Ağcaqanadın və başqa həşəratların insanın və ya qanı sıçrayışlı olan heyvanın bədənindən sovurduğu qan (məsələn, zəlinin insandan sovurduğu qan) insanın və ya heyvanın qanı sayılanadək napakdır. Amma bir müddət keçdikdən sonra bu qan o həşəratın qanı sayıldığı təqdirdə, pak olur. Digər "nəcasətlər" barəsində də hökm eynidir.

6. İslam

1. Kitab-əhli olmayan kafir "şəhadəteyn"i (yəni "Əşhədu ən la ilahə illəllah, və əşhədu ənnə Muhəmmədən rəsulullah") inancla dediyi təqdirdə, müsəlman olur. Müsəlman olduqdan sonra onun bədəni, ağzının və burnunun suyu, bədəninin təri pak olur.

2. Əgər kafir olduğu vaxtlarda onun paltarı yaş vəziyyətdə onun bədəni ilə təmasda olubsa və müsəlman olduğu zaman bu paltar onun əynində olmayıbdırsa, bu paltar napakdır. Hətta əgər müsəlman olduğu zaman bu paltar onun əynində olsa belə, ehtiyat-vacibə görə, ondan çəkinmək lazımdır.

7. Təbəiyyət

1. Təbəiyyət odur ki, napak bir şey başqa bir napak şeyin paklanması nəticəsində paklanır.

2. Əgər şərab sirkəyə çevrilsə, onun qabı şərab qaynadığı zaman şərabın çatdığı səviyyəyədək paklanır. Həmçinin, adətən, bu qabın ağzına qoyulan parça və bu kimi əşyaya şərabın rütubəti çatdığı təqdirdə, onlar da paklanır.

3. Napak bir şey paklandıqda, əl və içərisində napak şeyin yuyulduğu qab da paklanır. Onları ayrıca olaraq yumağa ehtiyac yoxdur. Qabı üç dəfə yumaq da vacib deyildir. Amma əgər qab istifadə edilməmişdən qabaq napak idisə, bu halda onu üç dəfə yumaq vacibdir.

8. Nəcasətin aradan getməsi

Əgər heyvanın bədəni nəcasətə bulaşarsa, nəcasətin aradan getməsilə heyvanın bədəni paklanır və onu suya çəkməyə ehtiyac yoxdur. İnsanın bədəninin daxili, məsələn, ağızın və ya burunun daxilinin paklanması da eyni qaydadadır. Deməli, əgər dişdən gələn qan ağız suyuna qarışıb aradan gedərsə və ya ağızdan xaric edilərsə, ağızın daxili paklanır.

9. Müsəlmanın qaib olması

Bir şəxsin başqa bir müsəlman şəxsin bədəni, paltarı və ya hansısa bir əşyasının napak olduğuna yəqinliyi vardır. Əgər bu şəxs bir müddət həmin müsəlman şəxsi görməsə və onu gördüyü zaman sözügedən napak əşya ilə pak bir əşya kimi davrandığını müşahidə etsə, həmin əşya pak hökmündədir. Amma bu şərtlə ki, həmin müsəlman şəxs öz əşyasının napaklığı, eləcə də paklıq və napaklığın hökmləri barədə məlumatlı olmalıdır.

Suallar:

1- Ayağın və ya ayaqqabının altı asfalt yolun üstündə yol getmək nəticəsində paklanırmı?

2- Günəşin pak etməsinin şərtləri hansılardır?

3- İstihalə üçün üç nümunə deyin.

4- Napak yağ kimyəvi reaksiya nəticəsində paklanırmı?

5- Zəlinin insandan sovurduğu qan pakdır, yoxsa napak? Nə üçün?

6- Nəcasətin aradan getməsi nəticəsində hansı şey pak olur?

On ikinci dərs: Mutəhhirat (3)

Paklığın sübuta yetməsinin yolları

Bir şeyin paklandığı üç yolla sübuta yetir:

1. İnsanın özü napak bir şeyin paklandığına yəqin etməli və ya əmin olmalıdır;

2. Bir şəxs (məsələn, ev sahibi, satıcı, xidmətçi) öz ixtiyarında olan əşyanın paklandığını söyləməlidir;

3. İki ədalətli və etibarlı şəxs napak bir şeyin paklandığını deməlidir.

Diqqət:

• Əgər büluğa çatmasına az vaxt qalan bir uşaq öz ixtiyarında olan bir şeyin pak olduğunu desə, onun sözünü qəbul etmək lazımdır. Başqa sözlə desək, onun bu barədə sözü etibarlı sayılır. Büluğa çatmasına hələ bir qədər vaxt qalan müməyyiz uşağın (yəni yaxşı və pisi ayırd edən uşağın) bu barədə sözünə gəlincə, bu halda ehtiyata riayət olunmalıdır.

Paklıq qanunu

1. Paklıq qanunu nədir?

Ümumiyyətlə, paklıq-napaklıq baxımından qayda, əşyanın pak olduğunu qəbul etməkdir. Yəni bir şeyin napak olduğuna yəqin etməyənədək bu şey şəriət baxımından pak hökmündədir, soruşmaq və araşdırma aparmaq da lazım deyildir.

2. Paklıq qanununun tətbiq edildiyi bir neçə nümunə

1. Özünü həmişə napak edən bir uşağın yaş əli, ağzının suyu və yeməyinin qalığının napak olduğuna yəqin etməyənədək, bunlar pak hökmündədir.

2. Xov və ya tozun pak, yoxsa napak paltardan çıxdığı məlum olmadığı təqdirdə, bunlar pak hökmündədir. Həmçinin əgər xov və ya tozun napak paltardan çıxdığını bilsək, amma paltarın pak, yoxsa napak hissəsindən çıxdığını bilməsək, bunlar yenə də pak hökmündədir.

3. Əgər quru təmizləməyə verilən paltarlar əvvəlcədən napak deyildisə, onlar pak hökmündədir, baxmayaraq ki, bu yerlərdə paltarların təmizlənməsi üçün kimyəvi maddələrdən istifadə edildiyini bilirik.

4. Pak, yoxsa napak olduğunu bilmədiyimiz bir yerə tökülən sudan ətrafa sıçrayan damcılar pakdır.

5. Şəhərin zibil yığan maşınlarından küçələrə tökülən suyun pak, yoxsa napak olduğunu bilmədiyimiz təqdirdə, bu su pak hökmündədir. Həmçinin küçələrdə çalalara yığılan suyun pak, yoxsa napak olduğu məlum olmadığı təqdirdə, bu su pak hökmündədir.

6. Murdardan (cəsəddən) hazırlanıb-hazırlanmadığı məlum olmayan dodaq boyası və bu kimi kosmetik əşyaların napaklığı şəri yollarla sübuta yetməyənədək pak sayılır və onlardan istifadə etməyin maneəsi yoxdur.

7. Əgər ayaqqabının şəri kəsim olmayan heyvanın dərisindən tikildiyinə yəqinliyimiz olsa və ayaq da bu ayaqqabının içərisində tərləsə, bu halda ayaq napak olar və namaz qılmaq üçün ayağı suya çəkmək lazımdır. Amma əgər ayağın tərlədiyinə şəkk etsək və ya dərisindən ayaqqabı tikilən heyvanın şəri qaydada kəsildiyinə şəkk etsək, ayaq pak hökmündədir.

8. Donuz tükündən hazırlanıb-hazırlanmadığı məlum olmayan rəsm fırçası pakdır, hətta paklığı şərt sayılan işlərdə ondan istifadə etmək olar.

9. Müsəlman, yoxsa kafir olduğunu bilmədiyimiz bir şəxs pak hökmündədir və ondan dinini soruşmaq vacib deyildir.

10. Kitab-əhli olmayan kafirlərin (məsələn, buddistlərin) ev və mehmanxanalarının divarları, qapıları və orada mövcud olan məişət əşyalarının pak, yoxsa napak olduğunu bilmədiyimiz təqdirdə, onlar pak hökmündədir. (Əlbəttə, onların napak olduğuna yəqinliyimiz olsa belə, onların hamısını suya çəkmək lazım deyildir. Yalnız yemək, içmək və namaz qılmaq üçün istifadə edilən əşyaları paklamaq vacibdir.)

11. Kafirlərin və müsəlmanların müştərək istifadə etdiyi maşın və qatar oturacaqları kimi əşyaların pak, yoxsa napak olduğunu bilmədiyimiz təqdirdə, bunlar pakdır.

Qabların hökmləri

Qızıl və ya gümüş qabdan yemək-içmək üçün istifadə etmək haramdır. Amma bu qabları saxlamaq və ya yemək-içməkdən qeyri işlər üçün istifadə etmək haram deyildir.

Diqqət:

Qızıl və ya gümüş suyuna çəkilən qablar, həmçinin tərkibində az miqdarda qızıl və ya gümüş olub, qızıl və gümüş qab adlanmayan metal qablar "qızıl və ya gümüş qab" hökmündə deyildir.

Suallar:

1- Paklığın sübuta yetməsinin yollarını sadalayın.

2- Paklıq qanunu nədir?

3- Özünü həmişə napak edən bir uşağın yaş əli, ağzının suyu və yeməyinin qalığının hökmü nədir?

4- Quru təmizləməyə verilən paltarların hökmü nədir?

5- Küçələrdə çalalara yığılan su pakdır, yoxsa napak?

6- Qızıl və gümüş qabları evdə saxlamağın hökmü nədir?

On üçüncü dərs: Dəstəmaz

Dəstəmaz nədir?

Dəstəmaz – xüsusi şərtlər və qayda ilə üzü və əlləri yumaq, başın yuxarı hissəsinə və ayaqların üstünə məsh çəkməkdir.

Müqəddəs İslam şəriətində mənəvi paklıq amili hesab edilən bu əməl bir çox vacib və müstəhəb əməllərin, o cümlədən namaz, təvaf, Quran oxumaq, məscidə daxil olmaq və başqa ibadətlərin müqəddiməsi sayılır.

Dəstəmazın qaydası

Dəstəmazda aşağıdakı üzvlər yuyulur:

- Üz: Alının yuxarısından çənənin axırınadək;

- Əllər: Dirsəkdən barmaqların ucunadək.

Aşağıdakı üzvlərə isə məsh çəkilir:

- Başın yuxarı hissəsinə;

- Ayağın üstünə: Barmaqların başından oynağadək.

Dəstəmazda ardıcıllıq

Dəstəmazda ardıcıllıq bu qaydadadır:

Əvvəlcə üz alının yuxarısından, yəni saçların çıxdığı yerdən çənənin axırınadək yuyulur. Sonra sağ əl dirsəkdən barmaqların ucunadək, daha sonra sol əl dirsəkdən barmaqların ucunadək yuyulur. Üz və əllər yuyulduqdan sonra yaş əl ilə başın yuxarı hissəsinə, axırda hər iki ayağın üstünə barmaqların ucundan oynağadək məsh çəkilir.

Üz və əlləri yumaq

1. Üz (eninə olaraq) orta barmaqla baş barmağın arasındakı məsafə ölçüsündə yuyulmalıdır.

2. Əgər üz tük ilə örtülsə (yəni saqqal sıx olsa), tükün üzərini yumaq kifayətdir və dəstəmaz suyunu üzün dərisinə çatdırmaq lazım deyildir. Amma əgər üzün tükü seyrək olsa və üzün dərisi aydın görünsə, dəstəmaz suyunu dəriyə çatdırmaq lazımdır.

3. "Yumaq" dedikdə, suyu dəstəmaz üzvünün hər tərəfinə, hətta suyu əl ilə yaymaqla olsa belə, çatdırmaq nəzərdə tutulur. Amma dəstəmaz üzvünü yumadan, sadəcə yaş əli dəstəmaz üzvünə çəkmək kifayət etmir.

4. Dəstəmazda üz və əllər yuxarıdan aşağıya doğru yuyulmalıdır. Əgər aşağıdan yuxarıya doğru yuyulsa, dəstəmaz düzgün deyildir.

5. Üz və əlləri yumaq:

- Birinci dəfə: vacibdir;

- İkinci dəfə: icazəlidir;

- Üçüncü dəfə və daha artıq: qeyri-məşrudur (haramdır).

Diqqət:

• Dəstəmaz üzvlərinin neçənci "dəfə" yuyulmasını təyin etmək üçün meyar insanın niyyətidir. Deməli, əgər bir şəxs "birinci dəfə" yumaq niyyətilə dəstəmaz üzvünə bir neçə dəfə su tökərsə, bunun iradı yoxdur.

Baş və ayaqlara məsh çəkmək

1. Başın dərisinə məsh çəkmək vacib deyildir və başın yuxarı hissəsindəki saçların üzərinə məsh çəkmək kifayət edir. Amma əgər başın digər hissələrindəki saç başın yuxarı hissəsinə yığılsa, yaxud başın yuxarı hissəsindəki saç uzun olsa və üz və çiyinlərə tökülsə, bu halda saçın üzərinə məsh çəkmək kifayət etmir və ayrıc ayırıb başın dərisinə və ya saçların dibinə məsh çəkmək lazımdır.

Diqqət:

● Əgər bir şəxs başının yuxarı hissəsinə süni saç qoyubsa və bu saç parik şəklindədirsə, başa məsh çəkmək üçün onu götürməlidir. Amma əgər saç dəriyə əkilibsə və onu götürmək mümkün deyildirsə, yaxud onu götürmək ziyanlı və əziyyətlidirsə, eyni zamanda əldə olan yaşlığı (dəstəmaz suyunu) başın dərisinə çatdırmaq mümkün deyildirsə, bu saçların üzərinə məsh çəkmək kifayətdir.

2. Ayağın məsh yeri ayağın üstüdür, belə ki, barmaqların birinin başından oynağadək məsh çəkilir.

Diqqət:

• Əgər ayağa məsh çəkərkən barmaqların başına məsh çəkilməzsə və yalnız ayağın üstünə və barmaqların bir hissəsinə məsh çəkilərsə, dəstəmaz düzgün deyildir. Amma əgər bir şəxs dəstəmazdan sonra barmaqların başına məsh çəkib-çəkmədiyinə şəkk etsə, dəstəmazı düzgündür.

3. Baş və ayağa əldə qalan dəstəmaz suyu ilə məsh çəkmək lazımdır. Əgər əldə yaşlıq qalmazsa, onu (kənar su ilə) yaş etmək olmaz. Bu halda əli saqqalda və ya qaşda qalan su ilə yaş edib, məsh çəkmək lazımdır. Ehtiyat-vacibə görə, başa sağ əl ilə məsh çəkilməlidir, amma yuxarıdan aşağıya doğru məsh çəkmək vacib deyildir.

Diqqət:

• Dəstəmaz niyyətilə üzünü və əllərini yuyan şəxsin su kranını açıb-bağlamasının maneəsi yoxdur və bu iş dəstəmazın düzgünlüyünə xələl gətirmir. Amma əgər bu şəxs sol əlini yuduqdan sonra və bu əl ilə məsh çəkməmişdən qabaq əlini yaş su kranına vursa və onun əlindəki dəstəmaz suyu kənar su ilə qarışsa, bu yaşlıq ilə (yəni dəstəmaz suyu ilə qeyri-dəstəmaz suyunun qarışdığı bu yaşlıq ilə) məsh çəkməyin düzgünlüyü məhəlli-işkaldır[1].

• Qeyd olunduğu kimi, ayaqların üstünə "əlin içərisində qalan dəstəmaz suyu ilə" məsh çəkilməlidir. Odur ki, başa məsh çəkərkən əl alının yuxarı hissəsinə dəyməməli və üzün yaşlığı ilə təmasda olmamalıdır. Başqa sözlə, ayağa məsh çəkmək üçün lazım olan əldəki yaşlıq üzün yaşlığı ilə qarışmamalıdır.

4. Məsh zamanı əli başın və ayağın üzərinə çəkmək lazımdır. Deməli, əgər əl hərəkətsiz saxlanılsa və ayaq və ya baş əlin altında hərəkət etdirilsə, məsh düzgün deyildir.

5. Məsh yeri quru olmalıdır və ya o qədər yaş olmamalıdır ki, əlin yaşlığı onu üstələyə bilməsin.

Diqqət:

• Əgər ayağın üstünə bir neçə damcı su tökülübsə, məsh yerindəki su damcılarını qurulamaq lazımdır, belə ki, məsh zamanı ayaqdakı yaşlıq əldəki yaşlığı deyil, əldəki yaşlıq ayaqdakı yaşlığı üstələməlidir.

6. Əgər ayağın üstü napak olsa və məsh çəkmək üçün bu yeri paklamaq mümkün olmasa, təyəmmüm etmək lazımdır.

Dəstəmazın qaydası barədə diqqətəlayiq məqam:

Dəstəmazın əməlləri və qaydası baxımından kişi ilə qadın arasında fərq yoxdur. Yalnız kişilərə dirsəyi çöl tərəfdən, qadınlara isə dirsəyi içəri tərəfdən yumağa başlamaq müstəhəbdir.

Suallar:

1- Dəstəmazın qaydasını və ardıcıllığını izah edin.

2- Dəstəmaz alarkən üz və əllərə üç ovuc su tökmək dəstəmazı pozurmu? Nə üçün?

3- Dəstəmaz alan şəxs üz və əllərini dəstəmaz niyyətilə yuduğu zaman su kranını açıb-bağlaya bilərmi?

4- Əgər başa çəkilən məshin yaşlığı üzün yaşlığı ilə təmasda olarsa, dəstəmaz pozulurmu?

5- Məsh çəkilən zaman ayağın üstündə bir neçə damcı suyun olması dəstəmaza xələl gətirirmi?

6- Qadınla kişinin dəstəmazı arasındakı fərqi bəyan edin.

[1] Bu ifadə "ehtiyat-vacib"i bildirir.

On dördüncü dərs: Dəstəmazın şərtləri (1)

Dəstəmazın şərtləri aşağıdakılardan ibarətdir:

a) Dəstəmaz alan şəxsin şərtləri

1. Dəstəmazı "qurbətən iləllah", yəni Allaha yaxınlaşmaq niyyətilə almalıdır (niyyət);

2. Sudan istifadə etməyin onun üçün maneəsi olmamalıdır.

b) Dəstəmaz suyunun şərtləri

1. Dəstəmaz suyu "mutləq su" olmalıdır;

2. Dəstəmaz suyu pak olmalıdır;

3. Dəstəmaz suyu mübah olmalıdır, yəni qəsbi olmamalıdır.

c) Dəstəmazda istifadə edilən qabın şərti

Mübah olmalıdır.

ç) Dəstəmaz üzvlərinin şərtləri

1. Pak olmalıdır;

2. Dəstəmaz üzvlərində suyun bədənə dəyməsi üçün bir maneə olmamalıdır.

d) Dəstəmazın qaydasının şərtləri

1. Dəstəmaz üzvlərinin yuyulması və məsh çəkilməsində ardıcıllığa riayət olunmalıdır (tərtib);

2. Dəstəmaz işləri fasiləsiz yerinə yetirilməlidir (muvalat);

3. Dəstəmaz işlərini insanın özü ixtiyari şəkildə yerinə yetirməlidir (mubaşirət).

e) Dəstəmaz vaxtının şərti

Dəstəmaz alıb namaz qılmaq üçün kifayət qədər vaxt olmalıdır.

a) Dəstəmaz alan şəxsin şərtləri

1. Niyyət

1. Dəstəmazı "qurbətən iləllah" niyyətilə almaq lazımlır. Yəni bu xüsusi əməl Mütəal Allahın əmrinə tabe olmaq niyyətilə yerinə yetirilməlidir.

2. Dəstəmazın niyyəti xalis olmalıdır. Deməli, əgər "qurbətən iləllah" niyyətinə riya da əlavə olunarsa, riya əməlin bünövrəsində dayandığı təqdirdə, dəstəmaz düzgün deyildir. Amma əgər dəstəmazın bəzi vacib işləri riya ilə yerinə yetirilsə, baxmayaraq ki, bu iş haramdır, lakin muvalat aradan getməmişdən öncə həmin iş xalis "qurbətən iləllah" niyyətilə yenidən yerinə yetirildiyi təqdirdə, dəstəmaz düzgündür.

2. Sudan istifadə etməyin dəstəmaz alan şəxs üçün maneəsi olmamalıdır

1. Əgər bir şəxs dəstəmaz alacağı təqdirdə xəstələnəcəyindən və ya suyu dəstəmaz üçün istifadə edəcəyi təqdirdə susuz qalacağından qorxarsa, dəstəmaz almamalıdır.

2. Əgər bir şəxs bilsə ki, suyun ona ziyanı vardır, amma bununla belə, dəstəmaz alsa, dəstəmazı düzgün deyildir.

b) Dəstəmaz suyunun şərtləri

1. Dəstəmaz suyu "mutləq su" olmalıdır

Dəstəmaz suyu "mutləq su" olmalıdır. Odur ki, "muzaf su" ilə alınan dəstəmaz düzgün deyildir.

2. Dəstəmaz suyu pak olmalıdır

Dəstəmaz suyu pak olmalıdır. Deməli, napak su ilə alınan dəstəmaz düzgün deyildir.

Diqqət:

• Əgər bir şəxs suyun napak və ya muzaf olduğunu bilməzsə, yaxud bunu unudarsa və bu su ilə dəstəmaz alıb namaz qılarsa, bu namazı yenidən qılmalıdır.

• Əgər bir şəxsin ixtiyarında napak və ya muzaf sudan qeyri bir su olmazsa, namaz üçün təyəmmüm etməlidir.

3. Dəstəmaz suyu mübah olmalıdır

Dəstəmaz suyu mübah olmalıdır. Odur ki, qəsbi su ilə dəstəmaz almaq olmaz və dəstəmaz düzgün deyildir.

c) Dəstəmazda istifadə edilən qabın şərti

Dəstəmazda istifadə edilən qab mübah olmalıdır.

1. Əgər bir şəxs qəsbi qabda olan mübah su ilə irtimasi dəstəmaz alsa, yaxud bu qabdan üzünə və əllərinə su töksə, onun dəstəmazı düzgün deyildir. Amma əgər bu qabdan ovucu və ya başqa bir vasitə ilə suyu götürüb üzünə və əllərinə töksə, onun dəstəmazı düzgündür. Baxmayaraq ki, qəsbi qabdan istifadə etdiyinə görə günah etmişdir.

2. Əgər bir şəxs qəsbi su və ya qabdan istifadə edərək dəstəmaz almağın düzgün olmadığını bilməsə, hətta dəstəmazın düzgün olmadığını ehtimal belə etməsə, onun dəstəmazı düzgündür.

Diqqət:

• Əgər hansısa bir məkanın suyu bütün namaz qılanların dəstəmaz alması üçün ümumi şəkildə nəzərdə tutulubsa, bu su ilə dəstəmaz almağın maneəsi yoxdur.

• Dövlətin başqa müsəlman ölkələrində tikdirdiyi məscidlərdə, obyektlərdə və dövlət idarələrində dəstəmaz almaq olar və bunun şəri maneəsi yoxdur.

• Əgər su idarəsi su motorlarının quraşdırılması və istifadəsini qadağan etsə, onları quraşdırmaq və istifadə etmək olmaz. Bu motor vasitəsilə əldə edilən su ilə alınan dəstəmaz məhəlli-işkaldır. Hətta bu hökm suyun təzyiqi aşağı olduğuna görə su motorundan istifadə etmək məcburiyyətində qalan yuxarı mərtəbələrin sakinlərinə də şamildir.

• İstər yaşayış, istərsə də qeyri-yaşayış binalarında ümumi xidmətlərdən (soyuq və isti su, hava təmizləyicilər, qapıçı və s.) istifadə edən sakinlərin hər biri şəri baxımdan bu xidmətlərdən istifadə etdikləri miqdarda onların xərcini ödəməlidirlər. Sakinlərdən hər kim su pulunu ödəməkdən imtina etsə, onun dəstəmazı məhəlli-işkaldır, hətta düzgün deyildir.

Suallar:

1- Dəstəmaz alan şəxsin şərtləri hansılardır?

2- Dəstəmaz suyunun şərtləri hansılardır?

3- Dövlətin başqa müsəlman ölkələrində tikdirdiyi məscidlərdə, obyektlərdə və dövlət idarələrində dəstəmaz almağın hökmü nədir?

4- Əgər su idarəsi su motorundan istifadə etməyi qadağan etsə, bu motor vasitəsilə əldə edilən su ilə alınan dəstəmazın hökmü nədir?

5- Yaşayış binalarında ümumi xidmətlərdən istifadə edən, lakin onların xərcini ödəməkdən boyun qaçıran şəxslərin dəstəmazı düzgündürmü?

On beşinci dərs: Dəstəmazın şərtləri (2)

ç) Dəstəmaz üzvlərinin şərtləri

1. Dəstəmaz üzvləri pak olmalıdır

Dəstəmaz üzvləri yuyulan və məsh çəkilən zaman pak olmalıdır. Amma əgər yuyulmuş və ya məsh çəkilmiş yer dəstəmaz tamamlanmamışdan qabaq napak olarsa, dəstəmaz düzgündür. Əlbəttə, namaz qılmaq üçün bu yeri paklamaq vacibdir.

Diqqət:

• Əgər bir şəxs dəstəmaz aldıqdan sonra şəkk etsə ki, qabaqcadan napak olan yeri paklayıb, sonra dəstəmaz almışdır, yoxsa paklamadan dəstəmaz almışdır, dəstəmazı düzgündür. Amma hər bir halda həmin yeri paklamalıdır.

2. Dəstəmaz üzvlərində suyun bədənə dəyməsi üçün bir maneə olmamalıdır

Dəstəmaz üzvlərində suyun bədənə dəyməsi üçün bir maneə olmamalıdır. Əks təqdirdə, dəstəmaz düzgün deyildir.

Diqqət:

• Saç və üzdə yaranan təbii yağlılıq maneə hesab olunmur. Amma əgər bu yağlılıq suyun dəriyə və saçlara dəyməsinin qarşısını alacaq bir həddə olarsa, bu halda maneə sayılır.

• Dırnaqda olan boya dırnağın üzərində qat yaratdığı təqdirdə, suyun dırnağa dəyməsinin qarşısını alır və dəstəmaz düzgün deyildir.

• Saçları və qaşları boyamaq üçün qadınların istifadə etdikləri süni (kimyəvi) boyalar əgər yalnız rəng olsa və suyun saçlara dəyməsinin qarşısını alan bir qat əmələ gətirməsə, dəstəmaz düzgündür.

• Əgər mürəkkəb dərinin üzərində qat əmələ gətirsə və suyun dəriyə dəyməsinin qarşısını alsa, dəstəmaz düzgün deyildir. Bunu müəyyən etmək isə insanın öz öhdəsindədir.

• Əgər bədənin üzərinə vurulan döymələr (tatu) yalnız boya olarsa və ya boya dərinin altında olub, dərinin üzərində suyun dəriyə dəyməsinə maneə yaradan bir qat əmələ gətirməzsə, dəstəmaz düzgündür.

• Bədən üzvləri quruduqdan sonra sabunun və ya əhəngin bədəndə müşahidə edilən izləri (ağlığı) dəstəmaza xələl gətirmir. Amma əgər bu, suyun dəriyə dəyməsinin qarşısını alan bir qat əmələ gətirərsə, dəstəmaz düzgün deyildir.

• Əgər insan dəstəmaz üzvünə bir şeyin yapışdığını bilsə, amma həmin şeyin suyun dəriyə dəyməsinin qarşısını alıb-almadığına şəkk etsə, onu aradan qaldırmalıdır.

• Əgər insan dəstəmaz almamışdan əvvəl dəstəmaz üzvlərində suyun dəriyə dəyməsinin qarşısını alan bir maneənin mövcud olduğunu bilsə, amma dəstəmazdan sonra maneənin olduğu yerlərə suyun dəyib-dəymədiyinə şəkk etsə, dəstəmazı düzgündür.

• Əgər insan dəstəmaz üzvünə suyun dəyməsinin qarşısını alan bir şeyin yapışıb-yapışmadığına şəkk etsə, bu ehtimal camaatın nəzərində əsaslı bir ehtimal olduğu təqdirdə (məsələn, bir şəxs divara suvaq çəkdikdən sonra əlinə palçıq yapışdığını ehtimal etsə), o, dəstəmaz üzvlərini diqqətlə nəzərdən keçirməli, yaxud əlini o qədər sürtüb təmizləməlidir ki, palçıq yapışmış olsa belə, onun aradan getdiyinə və ya suyun onun altına dəydiyinə əmin olmalıdır.

d) Dəstəmazın qaydasının şərtləri

1. Tərtib

Dəstəmaz bir qədər əvvəldə qeyd edilən ardıcıllıqla alınmalıdır. Əgər bu ardıcıllığa riayət olunmazsa, dəstəmaz düzgün deyildir.

2. Muvalat

Dəstəmaz işləri adi şəkildə bir-birinin ardınca və fasiləsiz yerinə yetirilməlidir. Yəni əgər dəstəmaz işlərinin arasında o qədər fasilə yaransa ki, bir üzv yuyulduğu və ya bir üzvə məsh çəkildiyi zaman bundan qabaq yuyulan və ya məsh çəkilən üzvlər qurumuş olsa, dəstəmaz düzgün deyildir.

3. Mubaşirət

Dəstəmaz alan şəxs dəstəmazın işlərini (üz və əlləri yumaq, baş və ayaqlara məsh çəkmək) şəxsən özü yerinə yetirməlidir. Əgər

başqa bir şəxs bu işləri onun üçün yerinə yetirsə, yaxud bu işlərdə ona köməklik etsə, onun dəstəmazı düzgün deyildir.

Diqqət:

• Xəstəlik və bu kimi səbəblərə görə özü dəstəmaz ala bilməyən bir şəxs yerinə yetirə bilmədiyi işlər üçün başqa bir şəxsdən dəstəmaz işlərində köməklik istəməlidir. Sübhəsiz, dəstəmaz alan şəxsin özü dəstəmaz niyyəti etməli, həmçinin məshi bacardığı qədər özü çəkməlidir. Əgər onun özü məsh çəkə bilməsə, ona kömək edən şəxs onun əlindən tutub məshi çəkdirməlidir. Əgər dəstəmaz alan şəxs bunu da etməkdə acizdirsə (səhhəti buna yol vermirsə), kömək edən şəxs onun əlinin içindən yaşlığı götürməli və məsh çəkməlidir. Əgər dəstəmaz alan şəxsin əli yoxdursa, kömək edən şəxs onun qolundan yaşlığı götürməli və əgər onun qolu da yoxdursa, üzündən yaşlığı götürüb, onun başına və ayaqlarına məsh çəkməlidir.

e) Dəstəmaz vaxtının şərti

Dəstəmaz alıb namaz qılmaq üçün kifayət qədər vaxt olmalıdır.

Əgər namaz vaxtı dar olsa (yəni başa çatmaq üzrə olsa) və namaz qılan şəxs dəstəmaz alacağı təqdirdə namazın hamısını öz vaxtında qıla bilməyəcəksə, yəni namazın bir hissəsi vaxtdan xaric qılınacaqsa, o, dəstəmaz almamalı və təyəmmüm edib namaz qılmalıdır. Amma əgər təyəmmüm etmək üçün dəstəmaz almaq qədər vaxt tələb olunursa, bu halda dəstəmaz almalıdır.

Suallar:

1- Dəstəmaz üzvlərinin şərtləri hansılardır?

2- Dəstəmazın qaydasının hansı şərtləri var?

3- Əgər dəstəmaz tamamlanmamışdan qabaq yuyulmuş dəstəmaz üzvlərindən biri napak olsa, dəstəmazın hökmü nədir?

4- Saç və üzdə yaranan təbii yağlılıq suyun dəstəmaz üzvünə dəyməsinə maneə sayılırmı?

5- Əgər insan dəstəmaz üzvünə bir şeyin yapışdığını bilsə, amma həmin şeyin suyun dəriyə dəyməsinin qarşısını alıb-almadığına şəkk etsə, nə etməlidir?

6- "Tərtib" və "muvalat" arasındakı fərqi izah edin.

On altıncı dərs: Dəstəmazın növləri

Dəstəmazın növləri

İrtimasi dəstəmaz

1. İrtimasi dəstəmaz nədir?

Dəstəmazda suyu üz və əllərə tökmək əvəzinə üz və əlləri dəstəmaz niyyətilə suya salıb-çıxartmaq da olar. Bu qaydada alınan dəstəmaz "irtimasi dəstəmaz" adlanır.

2. İrtimasi dəstəmazın hökmləri

1. İrtimasi dəstəmazda da dəstəmaz üzvlərinin yuxarıdan aşağıya doğru yuyulması vacibdir.

2. İrtimasi dəstəmazda üz və əlləri yalnız iki dəfə suya salıb-çıxartmaq olar. Birinci dəfə vacib, ikinci dəfə isə icazəlidir. Amma iki dəfədən artıq olmaz. Qeyd etməliyik ki, məshi dəstəmaz suyu ilə yerinə yetirmək mümkün olsun deyə, əlləri sudan çıxaran zaman dəstəmaz niyyəti etmək lazımdır.

Cəbirə dəstəmazı

1. Cəbirə dəstəmazı nədir?

Yaranın və sınığın bağlanıldığı sarğı, həmçinin yaranın, sınığın və s. üstünə qoyulan dərman "cəbirə" adlanır.

Əgər dəstəmaz üzvlərində olan yara, yanıq və ya sınıq sarğı ilə bağlanıbsa və sarğını açmaq mümkün deyildirsə, (yuxarıdan aşağıya doğru yumaq şərtinə riayət edərək) yuyulması mümkün olan yerləri yumaq, sarğının üstünü yumaq əvəzinə yaş əli ona çəkmək lazımdır. Əgər cəbirə məsh yerindədirsə, cəbirənin üstünə məsh çəkmək lazımdır. Bu qaydada alınan dəstəmaz "cəbirə dəstəmazı" adlanır.

2. Cəbirə dəstəmazının hökmləri

1. Əgər dəstəmaz üzvlərində (üz və əllərdə) olan yara və ya sınığın üstü açıqdırsa (yəni sarğı ilə bağlanmayıbsa) və suyun ona zərəri yoxdursa, o yeri yumaq lazımdır. Amma əgər suyun ona zərəri varsa, yara və ya sınığın ətrafını yumaq və yaş əli onun üstünə çəkməyin zərəri olmadığı təqdirdə, ehtiyat-vacibə görə, yaş əli onun üstünə çəkmək lazımdır.

2. Əgər məsh yerində yara varsa və yaranın üstünə yaş əli çəkmək mümkün deyildirsə, bu halda dəstəmaz əvəzinə təyəmmüm etmək lazımdır. Amma əgər yaranın üstünə bir parça qoyub onun üstünə məsh çəkmək mümkündürsə, ehtiyata görə, təyəmmümdən əlavə bu qaydada bir dəstəmaz da almaq lazımdır.

3. Əgər bir şəxsin dəstəmaz üzvündə yara varsa və bu yaradan dayanmadan qan gəlirsə, bu şəxs yaranın üstünü qan keçirməyən bir sarğı ilə (məsələn, sellofan ilə) bağlamalıdır.

4. Əgər bir şəxs şəri vəzifəsinin təyəmmüm etmək, yoxsa cəbirə dəstəmazı almaq olduğunu bilmirsə, ehtiyata görə, hər ikisini yerinə yetirməlidir (həm təyəmmüm etməli, həm də cəbirə dəstəmazı almalıdır).

5. Əgər cəbirəsi olan şəxs namaz vaxtının axırınadək üzrünün aradan qalxacağına ümid etmirsə, o, namaz vaxtının əvvəlində namazı qıla bilər. Amma əgər namaz vaxtının axırınadək üzrünün aradan qalxacağına ümid edirsə, ehtiyat-vacibə görə, namazı yubatmalı və üzrü aradan qalxmadığı təqdirdə, namazı cəbirə dəstəmazı ilə qılmalıdır.

Dəstəmazı pozan işlər

Dəstəmazı pozan işlər aşağıdakılardır:

1. Sidiyin xaric olması;

2. Nəcisin xaric olması;

3. Bağırsaq və mədə yelinin xaric olması;

4. Gözün görmədiyi və qulağın eşitmədiyi şəkildə yatmaq;

5. Ağılın aradan getməsi ilə nəticələnən işlər, məsələn, dəlilik, məstlik və huşdan getmək;

6. Qadınların istihazə olması;

7. Qüslə səbəb olan hər bir iş, məsələn, cənabətli olmaq, heyz olmaq və meyitə əl vurmaq.

Diqqət:

• Dəstəmazı pozan işlər həddi-büluğa çatmayan uşağın da aldığı dəstəmazı pozur.

Dəstəmazın hökmləri

1. Əgər bir şəxs dəstəmazının düzgün olmadığını bilmirsə və dəstəmaz aldıqdan sonra bunu başa düşərsə, təharətin şərt olduğu əməllər (yəni qüsl və dəstəmaz ilə yerinə yetirilən əməllər) üçün yenidən dəstəmaz almalıdır. Əgər o, düzgün olmayan dəstəmazla namaz qılıbdırsa, bu namazı yenidən qılmalıdır.

2. Əgər bir şəxs dəstəmazın işlərində və ya şərtlərində (məsələn, dəstəmaz suyunun pak olmasında və ya qəsbi olmamasında) çox şəkk edirsə, o öz şəkkinə etina etməməlidir.

3. Dəstəmazda şəkk etmək üç qismə ayrılır:

1) İnsan ümumiyyətlə dəstəmaz alıb-almadığına şəkk edir:

- Əgər namazdan qabaq bu şəkki etsə, dəstəmaz almalıdır.

- Əgər namaz əsnasında bu şəkki etsə, namazı pozulur və dəstəmaz alıb yenidən namaz qılmalıdır.

- Əgər namazdan sonra bu şəkki etsə (yəni namazı dəstəmazlı qılıb-qılmadığına şəkk etsə), qıldığı namaz düzgündür, amma sonrakı namazlar üçün dəstəmaz almalıdır.

2) İnsan aldığı dəstəmazın pozulub-pozulmadığına şəkk edir:

Bu halda o, dəstəmazının pozulmadığını qəbul etməlidir.

3) İnsan dəstəmazı düzgün alıb-almadığına şəkk edir:

Bu halda o öz şəkkinə etina etməməlidir, yəni dəstəmazı düzgün aldığını qəbul etməlidir.

Suallar:

1- İrtimasi dəstəmazda üz və əlləri neçə dəfə suya salıb-çıxarmaq olar?

2- Dəstəmaz üzvlərində yara və ya sınıq olan şəxs nə etməlidir?

3- Əgər bir şəxsin dəstəmaz üzvündə olan yaradan, hətta onun üstünü bağlasa belə, daim qan gəlirsə, o, necə dəstəmaz almalıdır?

4- Dəstəmazı pozan işlər hansılardır?

5- Dəstəmazı pozan işlər həddi-büluğa çatmayan uşağın da dəstəmazını pozurmu?

6- Əgər bir şəxs dəstəmazının pozulub-pozulmadığına şəkk etsə, onun şəri vəzifəsi nədir?

On yeddinci dərs: Dəstəmazlı yerinə yetirilən əməllər

Hansı əməllər üçün dəstəmaz alınmalıdır

1. Dəstəmaz bəzi əməllərin düzgün olmasının şərtidir. Yəni əgər bu əməllər dəstəmazsız yerinə yetirilərsə, düzgün deyildir. Bu əməllər aşağıdakılardır:

- Meyit namazı istisna olmaqla, bütün vacib və müstəhəb namazlar;

- Namazın unudulan əməlləri, məsələn, unudulan səcdə və təşəhhüd;

- Vacib təvaf.

2. Bəzi əməlləri dəstəmazsız yerinə yetirmək haramdır:

- Quranın xəttinə toxunmaq;

- Allahın xüsusi adları və sifətləri yazılan xəttə toxunmaq;

- Peyğəmbərlərin (ə) və İmamların (ə) adları yazılan xəttə toxunmaq (ehtiyat-vacibə görə).

3. Dəstəmaz bəzi əməllərin mükəmməllik şərtidir, məsələn, dəstəmazlı Quran oxumaq.

4. Bəzən dəstəmaz sırf təharətli olmaq üçün alınır.

5. Məkruhluğun aradan qalxması üçün dəstəmaz almaq, məsələn, cənabətli halda yemək və içmək məkruhdur, amma dəstəmaz aldıqda məkruhluq aradan qalxır.

Diqqət:

• Meyit namazı istisna olmaqla, dəstəmaz bütün vacib və müstəhəb namazların, həmçinin namazın unudulan əməllərinin düzgün olmasının şərtidir. Deməli, heç bir namaz dəstəmazsız düzgün deyildir. Yalnız meyit namazı üçün dəstəmaz almaq vacib deyildir.

• Dəstəmaz Allah evinin (Kəbənin) vacib təvafının düzgün olmasının şərtidir. Dəstəmazsız yerinə yetirilən vacib təvaf düzgün deyildir. "Vacib təvaf" dedikdə, həcc və ya umrənin tərkib hissəsi olan təvaf nəzərdə tutulur, baxmayaraq ki, bu həcc və ya umrənin özü müstəhəb ola bilər. Amma müstəhəb bir təvafı yerinə yetirmək üçün dəstəmazlı olmaq şərt deyildir.

• Vacib namazı qılmaq üçün dəstəmaz almaq əgər ürfə görə namaz vaxtının daxil olmasına yaxın bir vaxtda olarsa, maneəsi yoxdur.

• Təharətli olmaq niyyətilə dəstəmaz almaq şəri baxımdan müstəhəbdir və bəyənilir. Müstəhəb dəstəmazla namaz qılmaq olar.

• Hər zaman dəstəmazlı olmaq müstəhəbdir, xüsusilə də məscidə və ziyarətgahlara getdikdə, Quran oxuduqda, yatanda və s.

• Düzgün qaydada dəstəmaz aldıqdan sonra bu dəstəmaz pozulmayanadək onunla təharətin şərt olduğu hər bir əməli yerinə yetirmək olar. Odur ki, hər namaz üçün ayrıca dəstəmaz almaq lazım deyildir və dəstəmaz pozulmayanadək onunla istənilən qədər namaz qılmaq olar.

Quranın xəttinə toxunmaq

Quranın xəttinə dəstəmazsız toxunmaq haramdır və bu hökm yalnız Qurani-Kərimə xas deyildir, əksinə, hansısa bir kitabda, qəzet və ya jurnalda, rəsm əsərlərində və s. yazılan hər bir Quran kəlməsi və ayəsinə şamildir.

Diqqət:

• Bu hökm baxımından bədənin hər tərəfi, məsələn, dodaq, üz və s. "əl" hökmündədir.

Mütəal Allahın, Peyğəmbərlərin (ə) və Məsum İmamların (ə) adları yazılan xəttə toxunmaq

1. Mütəal Allahın xüsusi adlarına və sifətlərinə dəstəmazsız toxunmaq haramdır. Ehtiyat-vacibə görə, Peyğəmbərlərin (ə) və Məsum İmamların (ə) adlarına toxunmaq da Mütəal Allahın adlarına toxunmaq hökmündədir.

2. "Allah" sözünə, hətta bu söz mürəkkəb sözün tərkib hissəsi olsa belə (məsələn, Abdullah, Həbibullah sözləri kimi), dəstəmazsız toxunmaq olmaz.

3. Əgər ürfə görə İİR-nın gerbi Mütəal Allahın müqəddəs adı hesab olunsa və "Allah" sözü kimi oxunsa, ona dəstəmazsız toxunmaq haramdır. Əks halda, ona dəstəmazsız toxunmağın maneəsi yoxdur, baxmayaraq ki, ona təharətsiz toxunmamaq ehtiyat-müstəhəbə müvafiqdir.

4. Mütəal Allahın nəzərdə tutulduğu şəxs əvəzlikləri "Allah" sözü hökmündə deyildir. Məsələn, bəzən yazıda "Allahın adı ilə" ifadəsinin yerinə "Onun adı ilə" ifadəsindən istifadə olunur. Bu ifadədəki şəxs əvəzliyi "Allah" sözü hökmündə deyildir.

5. Bəzən yazıda "Allah" sözünün yalnız birinci hərfi yazılıb, digər hərflərin yerinə nöqtələr qoyulur. Şəri baxımdan bunun maneəsi yoxdur və bu hərf və nöqtələr "Allah" sözü hökmündə deyildir. Odur ki, ona dəstəmazsız toxunmaq olar.

6. Dəstəmazı olmayan şəxslərin toxunacağını ehtimal edib, "Allah" sözünü yazmaqdan çəkinməyin maneəsi yoxdur.

Quranın xəttinə və Mütəal Allahın, Peyğəmbərlərin (ə) və Məsum İmamların (ə) adlarına toxunmaq barədə bir neçə məsələ:

• Üzərində Quran ayələrinin və müqəddəs adların həkk olunduğu boyunbağını taxmağın maneəsi yoxdur. Amma əgər onu taxan şəxs təharətsiz olsa, bu yazılar bədənə toxunmamalıdır.

• Üzərində Quran ayələrinin, məsələn, Ayətəl-kürsinin və ya müqəddəs adların yazıldığı qabdan yemək qabı kimi istifadə etməyin maneəsi yoxdur. Amma bu qabdan istifadə edən şəxs bu yazılara dəstəmazlı halda toxunmalı və ya onlara toxunmamalıdır.

• Yazı vasitələri ilə Quran ayələrini, Mütəal Allahın və ya Məsumların (ə) adlarını yazarkən dəstəmazlı olmaq vacib deyildir. Amma yazı yazan şəxs onlara dəstəmazsız toxunmamalıdır.

• Üzüklərin üzərində həkk olunan Quran ayələrinə və sözlərinə, həmçinin müqəddəs adlara dəstəmazsız toxunmaq olmaz.

• Quran ayələrini və Mütəal Allahın, Peyğəmbərlərin (ə) və İmamların (ə) adlarını çap etməyin maneəsi yoxdur. Amma bu yazılara dair şəri hökmlərə əməl etmək və onlara hörmətsizlik etməkdən, dəstəmazsız əl vurmaqdan və onları napak etməkdən çəkinmək lazımdır.

• Əgər Quran ayələrinin və müqəddəs adların yazıldığı qəzetlərə yemək bükmək, onları süfrə kimi sərmək, yerə sərib üstündə əyləşmək və s. ürfə görə bu yazılara qarşı hörmətsizlik sayılarsa, onlardan bu məqsədlər üçün istifadə etməyə icazə verilmir. Amma əgər hörmətsizlik sayılmazsa, onlardan istifadə etməyin maneəsi yoxdur.

• Əgər Quran ayələrinin və müqəddəs adların yazıldığı əşyaları çaylara və arxlara atmaq ürfə görə hörmətsizlik sayılmazsa, bunu etməyin maneəsi yoxdur.

• Əgər bir vərəqdə Quran ayələrinin, Mütəal Allahın və Məsumların (ə) adlarının yazıldığı gözə dəyməzsə, onu yandırmağın və tullamağın maneəsi yoxdur, axtarış aparmaq da lazım deyildir.

Qeyd etmək lazımdır ki, israf ehtimalı mövcud olduğuna görə, təkrar emal oluna bilən və ya bir tərəfi yazılı olub, digər tərəfində yazı yazmaq mümkün olan kağızları yandırmaq və tullamaq məhəlli-işkaldır.

• Quran ayələrinin və müqəddəs adların yazıldığı vərəqləri torpağa basdırmaq, yaxud əriməsi üçün onları suyun içərisinə qoymağın maneəsi yoxdur. Lakin onların yandırılmasının icazəli olması məhəlli-işkaldır. Əgər belə vərəqləri yandırmaq hörmətsizlik sayılarsa, onları yandırmağa icazə verilmir. Müstəsna hal olaraq, yalnız çıxılmaz vəziyyətdə qaldıqda və Quran ayələrini və müqəddəs adları vərəqdən kəsib götürmək mümkün olmadıqda, onların yandırılmasına icazə verilir.

• Əgər Quran ayələrinin və müqəddəs adların yazıldığı kağızları hətta iki hərfin bir-birinə bitişik qalmadığı və yazının oxunmadığı bir şəkildə xırda-xırda doğramaq hörmətsizlik sayılarsa, buna icazə verilmir. Hörmətsizlik sayılmadığı təqdirdə, əgər "Allah" sözünün və Quran ayələrinin yazısı tam aradan getməzsə, kifayət etmir.

Həmçinin bəzi hərfləri artırıb-azaltmaqla yazının görünüşünü dəyişdirmək Quran ayələri və müqəddəs adları yazmaq məqsədilə yazılan hərflərin şəri hökmünün aradan qalxmasına səbəb olmur. Əlbəttə, əgər hərflər tamamilə dəyişdirilsə və onlardan əsər-əlamət qalmasa, bu halda müqəddəs adlara dair şəri hökmün aradan qalxması uzaq ehtimal deyildir. Amma onlara dəstəmazsız əl vurmaqdan çəkinmək ehtiyat-müstəhəbə müvafiqdir.

Suallar:

1- Namaz vaxtı daxil olmamışdan qabaq vacib namazı qılmaq niyyətilə dəstəmaz almaq olarmı?

2- Sübh namazı üçün alınan dəstəmazla zöhr və əsr namazlarını qılmaq olarmı?

3- Hansı müqəddəs adlara dəstəmazsız toxunmaq haramdır?

4- Abdullah və Həbibullah kimi adlara dəstəmazsız toxunmağın hökmü nədir?

5- Üzüklərin üstündə həkk olunan müqəddəs adlara toxunmaq olarmı?

6- İİR-nın gerbinə dəstəmazsız toxunmaq haramdırmı?

On səkkizinci dərs: Qüsl

Qüsl nədir?

Qüsl – başdan ayağa bütün bədəni xüsusi qaydada yumaqdır.

Qüslün qisimləri

Qüsl iki qismə ayrılır: vacib və müstəhəb.

1. Vacib qüsllər

Kişilərlə qadınlar arasında müştərək olan vacib qüsllər bunlardır:

- Cənabət qüslü;

- Məssi-meyit qüslü;

- Meyit qüslü;

- Nəzir etmək, and içmək və ya əhd etmək səbəbilə vacib olan qüsl.

Qadınlara xas olan vacib qüsllər isə bunlardır:

- Heyz qüslü;

- Nifas qüslü;

- İstihazə qüslü.

2. Müstəhəb qüsllər

Cümə qüslünü nümunə göstərmək olar.

Qüsl etməyin qaydası

Qüslü iki qaydada yerinə yetirmək olar:

1. Tərtibi:

Əvvəlcə baş və boyun yuyulur. Sonra ehtiyat-vacibə görə, bədənin sağ yarımhissəsi, daha sonra bədənin sol yarımhissəsi bütünlüklə yuyulur.

2. İrtimasi:

Bütün bədən birdəfəyə suya daxil edilir, belə ki, su bədənin hər tərəfinə dəyməlidir.

Diqqət:

• Qüsl edən zaman bədən və bədəndən sayılan qısa tüklər yuyulmaqla yanaşı, ehtiyat-vacibə görə, uzun tüklər də (uzun saçlar da) yuyulmalıdır.

• Qüsl edən zaman üzü qibləyə dayanmaq vacib deyildir.

• Qüsl edən zaman bədən üzvlərinin quru olması vacib deyildir. Odur ki, qüsldən qabaq baş və bədəni yumağın maneəsi yoxdur.

• Əgər bir şəxs tərtibi qüslü qeyd edilən ardıcıllıqla yerinə yetirməsə – istər qəsdən, istər ardıcıllığı unutduğuna görə, istərsə də qüslün qaydasını bilmədiyinə görə belə etsin – onun qüslü düzgün deyildir.

• Əgər bir şəxs qüsl etdikdən sonra bədəninin hansısa bir hissəsinə suyun dəymədiyini görərsə, aşağıdakı hallar yaranır:

1. Əgər irtimasi qüsl edibsə, yenidən qüsl etməlidir, istər bədəninin hansı hissəsinə suyun dəymədiyini bilsin, istərsə də bilməsin.

2. Əgər tərtibi qüsl edibsə, iki hal yaranır:

Birincisi, suyun dəymədiyi hissəni bilmir. Bu halda yenidən qüsl etməlidir.

İkincisi, suyun dəymədiyi hissəni bilir. Bu halda:

- Əgər bu hissə bədənin sol tərəfindədirsə, həmin hissəni yumaq kifayət edir.

- Əgər bu hissə bədənin sağ tərəfindədirsə, yuyulmayan hissəni yumalı, sonra ehtiyat-vacibə görə, bədənin sol yarimhissəsini yumalıdır.

- Əgər bu hissə baş və boyundadırsa, həmin hissəni yumalı, sonra bütün bədəni yumalıdır. Ehtiyat-vacibə görə, əvvəlcə bədənin sağ yarımhissəsini, daha sonra sol yarımhissəsini yumalıdır.

Cəbirə qüslü

Cəbirə qüslü eynilə cəbirə dəstəmazı kimidir.

Suallar:

1- Vacib qüsllər hansılardır?

2- Qüslü neçə qaydada etmək olar?

3- Tərtibi qüsldə əvvəlcə baş, sonra bədən yuyulmalıdır, yoxsa əvvəlcə baş, sonra bədənin sağ yarımhissəsi, daha sonra bədənin sol yarımhissəsi yuyulmalıdır?

4- Qüsl edən zaman bədənin yalnız dərisini yumaq kifayət edir, yoxsa uzun tüklər də yuyulmalıdır?

5- Qüsl edən zaman üzü qibləyə dayanmaq vacibdirmi?

6- Qüsl etdikdən sonra bədəninin bir hissəsinə suyun dəymədiyini bilən şəxs nə etməlidir?

On doqquzuncu dərs: Qüslün şərtləri

Qüslün şərtləri

Dəstəmaz üçün deyilən şərtlər, o cümlədən suyun pak və mübah olması və s. qüsl üçün də şərtdir. Amma qüsldə bədəni yuxarıdan aşağıya doğru yumaq, həmçinin bədən üzvlərini fasiləsiz yumaq şərt deyildir. Yəni qüsl əsnasında müəyyən zaman kəsimində başqa bir işi görmək, sonra qaldığı yerdən qüslə davam etmək olar.

Diqqət:

• Tərtibi qüsl edərkən qüsldən qabaq bütün bədənin pak olması vacib deyildir. Belə ki, əgər bədənin hansısa bir hissəsi napakdırsa, bu hissə qüsldən qabaq suya çəkilib paklanmalıdır. Deməli, əgər qüsldən qabaq napak hissə paklanarsa, qüsl düzgündür. Amma əgər napak hissə qüsldən qabaq paklanmazsa və insan bir yuma ilə həm bu hissəni paklamaq, həm də qüsl etmək istəsə, qüsl düzgün deyildir.

• İrtimasi qüsl edərkən qüsldən qabaq bütün bədən pak olmalıdır.

• Suyun bədənə dəyməsinin qarşısını alan hər bir şeyi aradan qaldırmaq lazımdır. Əgər bir şəxs maneənin aradan qalxdığına əmin olmadan qüsl etsə, qüsl düzgün deyildir.

Qüslün hökmləri

1. Əgər qüsl əsnasında insanda hədəsi-əsğər[1] baş versə (məsələn, ondan sidik xaric olsa), onun qüslü düzgündür və qüslü başdan başlamaq lazım deyildir, qüslü davam etdirməlidir. Amma əgər cənabət qüslü əsnasında insanda hədəsi-əsğər baş versə, bu cənabət qüslü digər qüsllər kimi, namaz, eləcə də dəstəmazlı yerinə yetirilən digər əməllər üçün dəstəmazı əvəz etmir.

2. Boynunda bir neçə vacib və ya müstəhəb qüslü olan şəxs əgər bütün qüslləri niyyət edib bir qüsl etsə, kifayətdir. Əgər boynundakı qüsllər içərisində cənabət qüslü olsa və yalnız cənabət qüslü niyyətilə qüsl etsə, digər qüslləri də əvəz edir, baxmayaraq ki, boynunda olan bütün qüslləri niyyət etmək ehtiyat-müstəhəbə müvafiqdir.

3. Cənabət qüslündən qeyri qüsllər dəstəmazı əvəz etmir.

4. Əgər bir şəxs qüsl etdikdən sonra qüslün düzgün olmadığına yəqin etsə, bu qüsl ilə qıldığı bütün namazların qəzasını qılmalıdır.

5. Qüsldə şəkk etmək iki qismə ayrılır:

Birincisi, insan qüsl edib-etmədiyinə şəkk edir. Bu halda o, qüsllü yerinə yetirilən əməllər üçün yenidən qüsl etməlidir, amma bu vaxtadək qıldığı namazlar düzgündür.

İkincisi, insan etdiyi qüslün düzgünlüyünə şəkk edir. Bu halda o öz şəkkinə etina etməməlidir (qüslün düzgün olduğunu qəbul etməlidir).

6. Əgər bir şəxs qüsl edərkən bədəninin hansısa bir hissəsini yuyub-yumadığına dair şəkk etsə, sonrakı hissəni yumağa başlamadığı təqdirdə, o, şəkk etdiyi hissəni yumalıdır. Sonrakı hissəni yumağa başladığı təqdirdə isə o öz şəkkinə etina etməməlidir. Amma əgər bədənin sol tərəfini yuyarkən sağ tərəfində hansısa bir hissəni yuyub-yumadığına dair şəkk etsə, ehtiyata görə, şəkk etdiyi hissəni yumalı, sonra sol tərəfdə qalan hissəni yumalıdır.

7. Əgər bir şəxs qüslü tamamladıqdan sonra bədənin sol tərəfinin hansısa bir hissəsini yuyub-yumadığına dair şəkk etsə, həmin hissəni yumaq kifayət edir. Həmçinin ehtiyat-vacibə görə, əgər bədənin sağ tərəfində hansısa bir hissəni yuyub-yumadığına dair şəkk etsə, yalnız həmin hissəni yumalıdır.

Suallar:

1- Dəstəmaz ilə qüslün şərtləri arasında hansı fərqlər vardır?

2- Qüsldən qabaq bütün bədənin pak olması şərtdirmi?

3- Əgər qüsl əsnasında insanda hədəsi-əsğər baş versə, o, yenidən qüsl etməlidirmi?

4- Boynunda bir neçə vacib və ya müstəhəb qüslü olan şəxs onları niyyət edib bir qüsl edə bilərmi?

5- Cənabət qüslündən qeyri qüsllər də dəstəmazı əvəz edirmi?

6- Əgər bir şəxs qüsl edib-etmədiyinə şəkk etsə, nə etməlidir?

[1] "Hədəsi-əsğər" dəstəmazı pozan işlərə deyilir. "Hədəsi-əkbər" isə qüslü pozan işlərə deyilir.

İyirminci dərs: Cənabət qüslü

Cənabət qüslü

1. Cənabətin səbəbləri

İnsan iki səbəbə görə cənabətli olur:

1. Sünnət yeri ölçüsündə cinsi əlaqədə olmaq (istər halal, istərsə də haram cinsi əlaqə olsun, yaxud istər məni (sperma) xaric olsun, istərsə də xaric olmasın, yaxud da istər tərəflər həddi-büluğa çatmış olsunlar, istərsə də çatmamış olsunlar);

2. Məninin xaric olması (istər yuxuda, istərsə də oyaqlıqda xaric olsun, yaxud istər ixtiyari olaraq, istərsə də qeyri-ixtiyari olaraq xaric olsun).

Diqqət:

• Əgər sağlam bir kişidən xaric olan maye şəhvət, sıçrayış və bədənin süstləşməsi ilə yanaşı olsa, bu maye məni hökmündədir. Amma əgər bu üç əlamətdən heç biri və ya biri mövcud olmazsa, yaxud bu əlamətlərin mövcud olub-olmadığına dair şəkk edilərsə, bu maye məni hökmündə deyildir. Əlbəttə, əgər şəxs başqa bir yol ilə ondan xaric olan mayenin məni olduğuna yəqin etsə, bu halda həmin maye məni hökmündədir.

• Qadından cinsi ləzzətin ən yüksək həddində xaric olan maye məni hökmündədir və qadın cənabət qüslü etməlidir. Amma əgər qadın cinsi ləzzətin ən yüksək həddinə çatıb-çatmadığına şəkk etsə, yaxud ondan mayenin xaric olub-olmadığına şəkk etsə, ona qüsl etmək vacib olmur.

• Cinsi əlaqədə olmadan kişinin mənisinin qadının bətninə (uşaqlıq yoluna və ya uşaqlığına) daxil edilməsi, qadının cənabətli olmasına səbəb olmur.

• Sünnət yeri ölçüsündə olsa belə, cinsi əlaqədə olduqda, hətta kişidən məni xaric olmasa və qadın da cinsi ləzzətin ən yüksək həddinə çatmasa belə, kişiyə də, qadına da cənabət qüslü etmək vacib olur.

• Əgər qadın cinsi əlaqədən dərhal sonra daxilində məni qaldığı halda qüsl etsə və qüsl etdikdən sonra bu məni ondan xaric olsa, hətta xaric olan məni kişinin mənisi olsa belə, qadının qüslü düzgündür. Amma bu məni napakdır.

• Qadının tibbi alətlərlə vaginal müayinəsindən sonra ondan məni xaric olmadığı təqdirdə, qadına qüsl etmək vacib olmur.

2. Cənabətli şəxsə haram olan işlər

Cənabətli şəxsə haram olan işlər aşağıdakılardan ibarətdir:

1. Quranın xəttinə, Mütəal Allahın xüsusi adlarına və sifətlərinə, həmçinin ehtiyat-vacibə görə, Peyğəmbərlərin (ə) və Məsum İmamların (ə) adlarına toxunmaq haramdır;

2. Məscidul-hərama və Məscidun-Nəbiyə daxil olmaq haramdır, hətta məscidin bir qapısından daxil olub, digər qapısından xaric olmaq belə olmaz;

3. Bu iki məsciddən qeyri məscidlərdə dayanmaq haramdır, amma məscidin bir qapısından daxil olub, dayanmadan digər qapısından xaric olmağın maneəsi yoxdur;

4. Məscidə bir şeyi qoymaq haramdır;

5. Vacib səcdəsi olan surələrdəki səcdə ayələrini oxumaq haramdır, amma bu surələrin digər ayələrini oxumağın maneəsi yoxdur.

Diqqət:

• Məsum İmamların (ə) hərəmi, ehtiyata görə, məscid hökmündədir.

• Cənabətli şəxsin İmamzadələrin (ə) hərəminə daxil olmasının maneəsi yoxdur.

• Hüseyniyyə, Məhdiyyə və s. bu kimi adlarla tanınan məkanlar məscid hökmündə deyildir.

• Səcdə ayələri aşağıdakılardır:

- "Səcdə" surəsi, ayə 15;

- "Fussilət" surəsi, ayə 37;

- “Nəcm” surəsi, ayə 62;

- “Ələq” surəsi, ayə 19.

Bu ayələri oxuyan və eşidən şəxslər səcdə etməlidirlər.

3. Cənabət qüslünün hökmləri

1. Şəri vəzifələri yerinə yetirməkdə utanmağın yeri yoxdur. Utanmaq, vacib bir əməlin (məsələn, cənabət qüslünün) tərk edilməsi üçün şəri üzr hesab olunmur. Amma əgər cənabət qüslünu etmək üçün imkan olmasa, namaz və oruc üçün qüsl əvəzinə təyəmmüm etmək lazımdır.

2. Əgər bir şəxsin qüsl etmək imkanı yoxdursa, məsələn, o, bilir ki, cinsi əlaqədə olduğu təqdirdə qüsl etmək üçün su tapmayacaq və ya qüsl edib namaz qılmaq üçün kifayət qədər vaxt olmayacaqdır, bu şəxs cinsi əlaqədə ola bilər. Amma bu şərtlə ki, təyəmmüm etmək imkanına malik olmalıdır. Bu şəxs təharətin şərt olduğu əməllər üçün cənabət qüslü əvəzinə təyəmmüm etməlidir və onun bu təyəmmümlə məscidə daxil olması, namaz qılması, Quranın xəttinə toxunması və s. əməlləri yerinə yetirməsinin maneəsi yoxdur. (Qeyd etmək lazımdır ki, əgər bir şəxsin qüsl əvəzinə təyəmmüm etmək üçün şəri üzrü “namaz vaxtının darlığı” olarsa, ehtiyat-vacibə görə, o, bu təyəmmümlə yalnız hansı iş üçün təyəmmüm edibdirsə, o işi yerinə yetirə bilər.)

3. Əgər bir şəxsdən məni xaric olsa və o, qüsl etsə, amma qüsl etdikdən sonra ondan bir maye xaric olsa və o, bu mayenin məni, yoxsa başqa bir axıntı olduğunu bilməsə, məni xaric olduqdan sonra və qüsl etməmişdən qabaq sidiyə çıxmadığı təqdirdə, bu maye məni hökmündədir və bu şəxs yenidən qüsl etməlidir.

4. Əgər bir şəxs paltarında bir ləkə görsə və onun məni, yoxsa başqa bir şey olduğunu müəyyən edə bilməsə, bu ləkənin məni olduğuna, habelə ondan xaric olduğuna yəqin etməyənədək cənabət qüslü ona vacib olmur.

5. Əgər bir şəxsə cənabət qüslü vacib olsa və o, cənabət qüslünü yerinə yetirsə, namaz qılmaq üçün dəstəmaz almamalıdır. Dəstəmazlı yerinə yetirilən digər əməlləri də bu qüsllə yerinə yetirə bilər.

6. Əgər bir şəxs cənabət qüslü etdikdən sonra qüslünün düzgün olub-olmadığına şəkk etsə, namaz üçün dəstəmaz alması lazım deyildir. Amma əgər ehtiyat baxımından dəstəmaz almaq istəsə, bunun maneəsi yoxdur.

7. Əgər qüsl etmək və namaz qılmaq üçün vaxt qalmadığına görə şəri vəzifəsi təyəmmüm etmək olan bir şəxs təyəmmüm etməyib, qüsl etsə və qüslü də yalnız bu namazı qılmaq niyyətilə deyil, ümumiyyətlə cənabətdən paklanmaq niyyətilə yerinə yetirsə, onun qüslü düzgündür, baxmayaraq ki, qüsl etdikdən sonra namaz üçün vaxt qalmadığını başa düşür.

Suallar:

1- Cənabətin səbəbləri hansılardır?

2- Hansı halda kişidən xaric olan mayenin məni olduğuna hökm verilir?

3- Qadınlar cinsi əlaqədə olmadan necə cənabətli ola bilərlər?

4- Tibbi alətlərlə vaginal müayinədən sonra qadına cənabət qüslü etmək vacibdirmi?

5- Cənabətli şəxsə hansı işlər haramdır?

6- Əgər bir şəxs paltarında bir ləkə görsə və onun məni, yoxsa başqa bir şey olduğunu müəyyən edə bilməsə, nə etməlidir?

İyirmi birinci dərs: Qadınlara xas olan qüsllər

1. Heyz qüslü

Heyz qanı

Heyz qanı – hər ay bir neçə gün təbii olaraq qadının uşaqlığından gələn qandır.

1. Doqquz yaşı tamamlanmamışdan qabaq qızın gördüyü qan, hətta heyz qanının əlamətlərinə malik olsa belə, heyz deyildir.

2. Heyz qanından paklandığına yəqinliyi olan bir qadının gördüyü ləkələr əgər qan deyildirsə, bu ləkələr heyz hökmündə deyildir. Amma əgər qandırsa, hətta sarı rəngli ləkələr olsa belə, heyz günlərinin sayı on günü keçmədiyi təqdirdə, bu ləkələr heyz hökmündədir. Məsələni aydınlaşdırmaq isə qadının öz öhdəsindədir.

3. Hamiləliyə qarşı dərmanlardan istifadə edən qadınların heyz günlərində və ya qeyri günlərdə gördüyü ləkələr heyzin şəri şərtlərinə malik olmadığı təqdirdə, heyz hökmündə deyildir və istihazə sayılır.

4. Heyzdə "ədədiyyə adəti"nə sahib olan (yəni hər ay bəlli sayda gün heyz qanı görən) qadın əgər hamiləliyə qarşı spiral istifadə etdiyinə görə ondan hər ay on gündən çox (məsələn, on iki gün) qan gəlirsə, adət günlərində gördüyü qan heyz, qalan günlərdə gördüyü qan isə istihazədir.

5. Hamiləlik dövründə qadının gördüyü qan əgər heyzin əlamətlərinə və şərtlərinə malik olsa, yaxud adət günlərində olub üç gün davamlı olaraq – hətta daxildə olsa belə – gəlsə heyz qanıdır. Əks təqdirdə, istihazə qanıdır.

Heyzin hökmləri

1. Cənabətli şəxsə haram olan işlər heyzli qadına da haramdır.

2. Əgər qadın heyz ikən cənabətli olsa, yaxud cənabətli ikən heyz olsa, heyzdən paklandıqdan sonra o, heyz qüslündən əlavə cənabət qüslü də etməlidir. Amma qüsl edən zaman (yəni əməl məqamında) yalnız cənabət qüslü ilə kifayətlənə bilər, baxmayaraq ki, hər iki qüslü niyyət etmək ehtiyat-müstəhəbə müvafiqdir.

3. Heyz ikən qadının etdiyi cənabət qüslünün düzgünlüyü məhəlli-işkaldır.

4. Əgər günü müəyyən olan nəzir orucunu tutan qadın heyz olsa, hətta günün bir hissəsində olsa belə, onun orucu pozulur. Heyzdən paklandıqdan sonra bu günün orucunun qəzasını tutmalıdır.

2. İstihazə qüslü

İstihazə qanı

İstihazə qanı – heyz və nifas günlərindən qeyri günlərdə qadının uşaqlığından xaric olan qandır. Həmçinin bakirəlik və yara qanı da deyildir.

Yaisəlik yaşında[1] qadının gördüyü qan istihazə qanıdır. Odur ki, atası haşimi seyidi olmayan qadının, hətta anası seyyidə olsa belə, əlli yaşından sonra gördüyü qan istihazə hökmündədir.

3. Nifas qüslü

Nifas qanı

Nifas qanı – doğuşdan sonra müəyyən müddət ərzində qadının uşaqlığından gələn qandır.

1. Hətta döl laxta qan şəklində olsa, uşaq saldırdıqdan sonra qadından gələn qan nifas hökmündədir.

2. Heyzli qadına haram olan bütün işlər nifaslı qadına da haramdır.

Suallar:

1- Əgər qadın heyzdən paklandığına əmin olduqdan sonra ləkə görsə və bu ləkə nə qan, nə də su ilə qarışıq bir qan olmasa, bu ləkənin hökmü nədir?

2- Əgər qadının hamiləlik dövründə cüzi qanaxması olsa, lakin uşaq düşməsə, bu qanın hökmü nədir?

3- Əgər qadın heyz ikən cənabətli olsa, yaxud cənabətli ikən heyz olsa, heyzdən paklandıqdan sonra hər iki qüslü etmək ona

vacibdirmi?

4- Heyz ikən edilən cənabət qüslü düzgündürmü?

5- Yaisəlik yaşında qadının gördüyü qanın hökmü nədir?

6- Uşaq saldıran qadın nifaslı sayılırmı?

---

[1] Qeyd edək ki, Ayətullah Xamenei yaisəlik yaşını təyin etməkdə ehtiyata əsaslanır. Ona təqlid edən şəxslər udulun şərtlərinə riayət edərək bu məsələdə başqa bir müctəhidə müraciət edə bilərlər.

İyirmi ikinci dərs: Meyitin hökmləri (1)

Məssi-meyit qüslü

Əgər bir şəxs bütün bədəni soyuyan, amma hələ meyit qüslü verilməyən ölü bir insanın bədəninə toxunsa, yəni əlini, ayağını, üzünü və ya bədəninin hansısa bir yerini ölü insanın bədəninin hansısa bir yerinə toxundursa, bu şəxs namaz, vacib təvaf, Quran ayəsinə toxunmaq və bu kimi əməllər üçün "məssi-meyit qüslü" etməlidir.

Diqqət:

• Ölü insanın bədənindən ayrılan bir üzvə soyuduqdan sonra və meyit qüslü verilməmişdən qabaq toxunmaq, eynilə ölü insanın bədəninə toxunmaq hökmündədir.

• Diri insanın bədənindən ayrılan üzvə toxunmaq məssi-meyit qüslünə səbəb olmur.

• Aşağıdakı hallarda ölü insanın bədəninə toxunmaq məssi-meyit qüslünə səbəb olmur:

1. Müharibə meydanında şəhid olan döyüşçünün bədəninə toxunmaq;

2. Bədəni hələ soyumayan meyitə toxunmaq;

3. Üç qüslü verilən meyitə toxunmaq.

• Əgər meyitə qüsl verilib-verilmədiyinə dair şəkk etsək, onun bədəninə və ya ondan ayrılan üzvlərə (əlbəttə ki, soyuduqdan sonra) toxunduqda, məssi-meyit qüslü etmək lazımdır. Məssi-meyit qüslü etmədən namaz düzgün deyildir. Amma əgər meyitə qüsl verildiyi məlum olsa, hətta qüslün düzgünlüyünə şəkk etsək belə, onun bədəninə və ya ondan ayrılan üzvlərə toxunduqda məssi-meyit qüslü vacib olmur.

• Məssi-meyit qüslü edən şəxs namaz üçün dəstəmaz almalıdır. Yəni məssi-meyit qüslü cənabət qüslü kimi dəstəmazı əvəz etmir.

• Əgər bir şəxs bir neçə meyitə toxunsa və ya bir meyitə bir neçə dəfə toxunsa, bir məssi-meyit qüslü kifayət edir.

Can verən insanın hökmləri

Yaxşı olar ki, can verən müsəlman şəxs arxası üstə və qibləyə tərəf, yəni ayaqlarının altı qibləyə tərəf yatırılsın. Müctəhidlərin əksəriyyəti bu əməli can verən şəxsin özünə – bu işi görməyə qadir olduğu təqdirdə – və onun ətrafındakı insanlara vacib biliblər. Bu əməlin yerinə yetirilməsində ehtiyat tərk edilməməlidir.

Meyit üçün görülən vacib işlər

Meyit üçün görülən vacib işlər aşağıdakılardır:

1. Qüsl;

2. Hənut;

3. Kəfən;

4. Namaz;

5. Dəfn.

Diqqət:

• İslam dininə görə həyatda olan müsəlman bir şəxsə hörmət olunduğu kimi, onun cənazəsinə də hörmət olunmalıdır. Müsəlman şəxsin cənazəsinə hörmət bir sıra əməllər, o cümlədən cənazəyə qüsl vermək, onu kəfənləmək, dəfn etmək və s. əməllər çərçivəsində gerçəkləşir. Bu əməllər İslam şəriətində vacib buyurulub və onları yerinə yetirmək şəri vəzifə daşıyan hər bir müsəlmanın öhdəsindədir.

• Müsəlmanın cənazəsinə qüsl vermək, onu hənutlamaq, kəfənləmək, meyit namazı qılmaq və dəfn etmək "kifayi-vacib əməl"dir. Yəni bu əməlləri yerinə yetirmək şəri vəzifə daşıyan hər bir müsəlmana vacibdir. Amma əgər kimlərsə bu əməlləri yerinə yetirsələr, bu vəzifə digərlərinin öhdəsindən götürülür. Əgər heç kim bu əməlləri yerinə yetirməsə, hamı günahkardır.

• Əgər bir şəxs meyitin qüsl, kəfən, namaz və ya dəfninin düzgün yerinə yetirilmədiyini bilsə, o, bu əməli yenidən yerinə yetirməlidir. Amma əgər bu əməllərin düzgün yerinə yetirilmədiyini güman etsə, yaxud onların düzgün yerinə yetirilib-yetirilmədiyinə şəkk etsə, onları yerinə yetirməsi lazım deyildir.

• Meyitin qüslünu, kəfənlənməsini, namazını və dəfnini yerinə yetirmək üçün onun başçısından icazə almaq lazımdır. Meyitin başçısı ata, ana, övladlar və bu ardıcıllıqla onun digər varisləridir. Mərhum qadın olduğu halda onun əri başqalarından öndə durur.

Suallar:

1- Meyitin bədənindən ayrılan üzvə toxunduqda məssi-meyit qüslü vacib olurmu?

2- Diri insanın bədənindən ayrılan ətlə örtülmüş sümüyə toxunduqda məssi-meyit qüslü etmək lazımdırmı?

3- Meyitə toxunduqda məssi-meyit qüslünun vacib olmadığı hallar hansılardır?

4- Can verən müsəlmanı üzü qibləyə yatırmaq vacibdirmi?

5- Meyit üçün görülən vacib əməllər hansılardır?

6- Meyitə qüsl vermək kifayi-vacib əməldir, yoxsa eyni-vacib əməl?

İyirmi üçüncü dərs: Meyitin hökmləri (2)

Meyit qüslü

1. Meyitə üç qüsl vermək vacibdir:

Birincisi, bir qədər sidr qatılmış su ilə (sidrli su);

İkincisi, bir qədər kafur qatılmış su ilə (kafurlu su);

Üçüncüsü, xalis su ilə.

2. Meyitə qüsl verən şəxs aşağıdakı şərtlərə malik olmalıdır:

1. On iki imam şiəsi olmalıdır;

2. Həddi-büluğa çatmış olmalıdır;

3. Ağıllı olmalıdır;

4. Qüslün qaydasını və hökmlərini bilməlidir;

5. Əgər meyit kişidirsə, ona kişi qüsl verməli və əgər qadındırsa, ona qadın qüsl verməlidir.

Diqqət:

• Kişi öz arvadına və qadın öz ərinə meyit qüslü verə bilər.

3. Niyyət etmək:

Digər ibadətlərdə olduğu kimi, meyitə qüsl verdikdə də ibadət niyyəti etmək lazımdır, yəni qüsl verən şəxs onu Allahın əmrinə itaət etmək niyyətilə yerinə yetirməlidir.

4. Bu şəxslərə meyit qüslü vermək vacibdir:

- Müsəlman qadın və kişiyə;

- Müsəlman uşağa;

- Ana bətnindən düşən dörd ayı tamamlanmış müsəlman uşağa;

Amma əgər dörd aydan az olarsa, meyit qüslü vacib olmur.

5. Əgər cənazənin bir yeri nəcasətə bulaşsa, meyit qüslü verilməmişdən qabaq bu yeri suya çəkib paklamaq lazımdır. Beləliklə, müəyyən bir üzvündə qanaxması olan cənazəni qüsldən öncə imkan daxilində paklamaq lazımdır. Əgər qanaxmanın öz-özünə dayanmasını gözləmək və ya qanaxmanı müəyyən tibbi yollarla dayandırmaq mümkündürsə, bunu etmək vacibdir.

6. Meyitin övrətinə baxmaq haramdır. Əgər meyitə qüsl verən şəxs onun övrətinə baxsa, günah etmişdir, amma qüsl düzgündür.

7. Əgər meyit qüslü vermək üçün su tapılmasa və ya suyun istifadəsi üçün müəyyən maneələr olsa, hər qüslün əvəzinə meyitə bir təyəmmüm verilməlidir.

Hənut

1. Meyit qüslü verildikdən sonra meyiti hənutlamaq vacibdir. Yəni meyitin alnına, iki əlinin içərisinə, dizlərinə və ayaqlarının baş barmağına kafur sürtmək lazımdır və elə etmək lazımdır ki, kafur bu üzvlərdə qalsın.

2. Kafur üyüdülmüş və təzə olmalı, meyiti ətirləndirməlidir. Əgər kafur köhnə olduğu üçün ətri getmiş olsa, hənut üçün kifayət etmir.

3. Həcc üçün ehram bağlayan və Səfa və Mərvə arasında səyi başa çatdırmamışdan qabaq dünyasını dəyişən şəxsi hənutlamaq olmaz. Həmçinin əgər bir şəxs umrə üçün ehram bağlayıbsa və saçlarını qısaltmamışdan qabaq dünyasını dəyişərsə, onu hənutlamaq olmaz.

Kəfən

1. Müsəlmanın cənazəsini üç kəsim parça ilə kəfənləmək lazımdır:

Birincisi, beldən ayaqlaradək olan hissəni bükmək üçün istifadə edilən parça;

İkincisi, çiyinin üstündən başlayaraq dizdən bir qədər aşağıya qədər olan hissəni bükmək üçün istifadə edilən parça;

Üçüncüsü, başdan ayağadək cənazəni bütünlüklə bükmək üçün istifadə edilən parça;

Bu parçanın uzunluğu o qədər olmalıdır ki, baş və ayaq hissədən onu bağlamaq mümkün olsun. Eni isə o qədər olmalıdır ki, parçanın iki tərəfini bir-birinin üstünə qoymaq mümkün olsun.

2. Əgər kəfən cənazədən xaric olan və ya kənardan dəyən bir nəcasət nəticəsində napak olsa, onu paklamaq, yaxud da kəfən korlanmadığı təqdirdə həmin yeri kəsib götürmək lazımdır. Beləliklə, əgər kəfən cənazədən xaric olan qan nəticəsində napak olsa və onu paklamaq, yaxud napak yeri kəsib götürmək, yaxud da dəyişdirmək mümkün olsa, bu işi yerinə yetirmək lazımdır. Amma əgər mümkün olmasa, cənazəni həmin kəfənlə dəfn etmək olar.

3. Kəfənin meyitin malından alınması vacib deyildir. Əgər valideyn, övlad, qohum, hətta dost və başqa şəxslər kəfəni hədiyyə etsələr, bunun maneəsi yoxdur.

Suallar:

1- Meyitə verilən üç qüslü sadalayın.

2- Meyitə qüsl verən şəxs hansı şərtlərə malik olmalıdır?

3- Ana bətnindən düşən müsəlman uşağa meyit qüslü vermək vacibdirmi?

4- Meyiti hənutlamaq nədir və hansı şərtləri vardır?

5- Meyiti kəfənləmək üçün istifadə edilən üç parça hansılardır?

6- Kəfən mərhumun öz malından alınmalıdır?

İyirmi dördüncü dərs: Meyitin hökmləri (3)

Meyit namazı

1. Müsəlmanın cənazəsinə qüsl verib hənutladıqdan və kəfənlədikdən sonra onun üçün qeyd edilən qaydada meyit namazı qılmaq vacibdir.

Diqqət:

• Altı yaşı tamam olan və valideynlərindən biri müsəlman olan uşaq həddi-büluğa çatan şəxs hökmündədir və onun cənazəsinə namaz qılınmalıdır.

2. Meyit namazı niyyətdən və beş təkbirdən ibarətdir. Hər təkbirdən sonra dua və salavat demək qeyd olunub. Əgər niyyət etdikdən sonra namaz bu qaydada qılınsa, kifayət edir:

- Birinci təkbirdən sonra deyilir:

اَشْهَدُ أَنْ لا اِلٰهَ اِلّا اللّٰهُ وَ أَنّ مُحَمّدًا رَسُولُ اللّٰهِ

Əşhədu ənlə iləhə illəllah və ənnə Muhəmmədən rəsulullah.

- İkinci təkbirdən sonra deyilir:

اَللّٰهُمّ صَلِّ عَلَىٰ مُحَمّدٍ وَ اٰلِ مُحَمّدٍ

Əllahummə salli ələ Muhəmmədin və Ali-Muhəmməd.

- Üçüncü təkbirdən sonra deyilir:

اَللّٰهُمّ اغْفِرْ لِلْمُؤْمِنِينَ وَ الْمُؤْمِنَاتِ

Əllahumməğfir lil-mu`mininə vəl-mu`minat.

- Dördüncü təkbirdən sonra deyilir:

اَللّٰهُمّ اغْفِرْ لِهٰذَا الْمَيّتِ

Əllahumməğfir li-həzəl məyyit (kişi üçün)

اَللّٰهُمّ اغْفِرْ لِهٰذِهِ الْمَيّتِ

Əllahumməğfir li-həzihil məyyit (qadın üçün)

- Beşinci təkbir deyilir və bununla da namaz tamamlanır.

Diqqət:

• Meyit namazının daha geniş şəkildə qılınma qaydası geniş dua kitablarında və şəriət hökmlərinin açıqlandığı kitablarda qeyd olunub.

3. Meyit namazını qılan şəxs ayaq üstə üzü qibləyə tərəf dayanmalıdır. Cənazəni isə arxası üstə onun qabağında uzatmaq lazımdır, belə ki, cənazənin baş hissəsi meyit namazını qılan şəxsin sağ tərəfində, ayaq hissəsi isə onun sol tərəfində olmalıdır.

4. Cənazə ilə meyit namazını qılan şəxs arasında divar və pərdə kimi bir maneə olmamalıdır. Amma cənazənin tabutda və bu kimi bir vasitədə olmasının maneəsi yoxdur.

5. Meyit namazını qılmaq üçün dəstəmazlı olmaq, bədənin və paltarın pak olması, habelə paltarın qəsbi olmaması şərt deyildir. Amma bunlara riayət etmək müstəhəbdir.

6. Əgər cənazəni bilərəkdən və ya unudaraq, yaxud müəyyən bir üzrlü səbəbə görə meyit namazı qılmadan dəfn etsələr, yaxud da dəfn etdikdən sonra qılınan namazın düzgün olmadığı məlum olsa, cənazə parçalanmayanadək qəbirin kənarında meyit namazı qılınmalıdır.

7. Digər namazlarda camaat namazı və imam-camaat üçün tələb olunan şərtlər meyit namazında şərt deyildir, baxmayaraq ki, bu şərtlərə meyit namazında da riayət etmək ehtiyat-müstəhəbə müvafiqdir.

Dəfn

1. Cənazəyə qüsl verib hənutladıqdan, kəfənlədikdən və meyit namazı qıldıqdan sonra onu torpağa dəfn etmək lazımdır. Qəbir elə bir dərinlikdə qazılmalıdır ki, cənazənin iyi çölə çıxmasın və vəhşi heyvanlar qəbiri qazıb onu çıxara bilməsin.

2. Cənazəni qəbirdə sağ tərəfi üstə və üzü, sinəsi və qarnı qibləyə tərəf uzatmaq lazımdır.

Dəfnə aid bir neçə məsələ:

• Meyit qüslü verilmiş müsəlmanın sümükləri pakdır. Əgər köhnə qəbirdə bir meyiti dəfn etmək istədikdə başqa bir meyitin sümükləri tapılsa, onu yenidən dəfn etmək vacibdir.

• Müsəlmanların qəbirləri bir neçə mərtəbə şəklində ola bilər, bu şərtlə ki, bu iş qəbirin açılması və ya müsəlmana ehtiramsızlıq sayılmasın.

• Dəfn günü qəbirin üstünə su səpmək müstəhəbdir. Amma sonralar da savab ümidilə bu işi görməyin maneəsi yoxdur.

Qəbirin açılması

1. Müsəlmanın qəbrinin açılmasına icazə verilmir. Amma aşağıdakı hallar istisna təşkil edir və qəbirin açılmasına icazə verilir:

- Meyit qəsbi və sahibinin razı olmadığı bir yerdə dəfn olunub;

- Meyitin kəfəni və ya onun yanında dəfn edilən bir şey qəsbidir və bu şeyin sahibi onun qəbirdə qalmasına razı deyildir;

- Meyit qüslsüz və ya kəfənsiz dəfn edilib, yaxud onun qüslünün düzgün olmadığı məlum olub, yaxud düzgün şəri qaydada kəfənlənməyib, yaxud da meyit qəbirdə üzü qibləyə uzadılmayıbdır. Bütün bu hallarda mərhuma hörmətsizlik olmadığı təqdirdə, qəbirin açılmasına icazə verilir.

- Hansısa bir həqiqəti isbat etmək üçün cənazəni görmək lazım gəldikdə;

- Meyit ona qarşı hörmətsizlik olan bir yerdə (məsələn, kafirlərin qəbiristanlığında və ya zibillikdə) dəfn edildikdə;

- Meyitin sümükləri ovulub torpağa qarışdıqda.

2. İmamzadələr, şəhidlər, alimlər və saleh insanların qəbiri ziyarətgah olduğu təqdirdə, illər ötsə belə, onların qəbirinin açılması haramdır. Hətta əgər ziyarətgah olmasa belə, ehtiyat-vacibə görə, onların qəbiri açılmamalıdır.

Şəhidin hökmü

Şəhid üçün meyit qüslü və kəfən şəri vəzifəsi ortadan qaldırılıbdır.

Diqqət:

• Burada nəzərdə tutulan "şəhid" döyüş meydanında şəhid olan şəxsdir. Beləliklə, əgər sərhəd ərazilər düşmən ilə, haqq və nahaqq dəstələr arasında döyüş meydanı sayılsa, bu ərazilərdə haqq dəstəsindən olub canlarını verən insanlar şəhid hökmündədirlər. Amma döyüş meydanından qeyri yerlərdə öldürülənlər, şəhid savabını qazansalar da, şəhid hökmündə deyildirlər. (Məsələn, əgər bir şəxs İslamın hökmlərini dirçəltmək üçün nümayişlərdə və ya qeyri yerlərdə öldürülsə, şəhid savabını qazansa da, şəhid hökmündə deyildir.) Başqa sözlə, şəhidin hökmü onlar üçün icra edilmir.

Edam olunan şəxsin hökmü

Edam olunan müsəlman şəxs digər müsəlmanlar hökmündədir. İslam şəriətində qüsl, kəfən, namaz və dəfn kimi meyit üçün olan hökmlər istisnasız olaraq, edam olunan müsəlmana da aiddir.

Bir neçə şəri məsələ:

• Yalnız qüsldə meyit ilə qüsl verən şəxsin eynicinsli olması şərtdir (yəni əgər meyit kişidirsə, qüsl verən şəxs kişi olmalı və əgər meyit qadındırsa, qüsl verən şəxs qadın olmalıdır). Deməli, əgər kişi meyitə kişinin və qadın meyitə qadının qüsl verməsinə imkan vardırsa, əks cinsin meyitə qüsl verməsi düzgün deyildir və meyit qüslü düzgün deyildir. (Əvvəldə qeyd olunduğu kimi, ər və arvad bu hökmdə istisna təşkil edirlər. Yəni qadına öz ərinin və ərə öz zövcəsinin meyit qüslü verməsinə icazə verilir.) Amma kəfənləyən və dəfn edən şəxsin meyit ilə eynicinsli olması şərt deyildir.

• Meyitin qüslü, kəfəni və dəfni üçün lazımi işlərin görülməsi və zəruri xərclərin çəkilməsində onun azyaşlı və həddi-büluğa çatmayan varisindən icazə almaq lazım deyildir. Yəni varisin azyaşlı uşaq olması meyitə aid işlərin görülməsi üçün maneə yaratmır.

• Dəfn mərasimində qadınların iştirak etmələri və cənazəni daşımalarının maneəsi yoxdur.

Suallar:

1- Meyit namazının qaydasını açıqlayın.

2- İmam-camaatın şərtlərinə malik olmayan bir şəxs mömin bir şəxs üçün qılınan meyit namazına imam-camaat dayana bilərmi?

3- Qəbirləri iki və ya daha çox mərtəbəli qazmaq olarmı?

4- Meyit qüslü və kəfən hansı şəhid üçün vacib deyildir?

5- Edam olunan müsəlmana meyit namazı qılınmalıdırmı?

6- Qüsl, kəfən və dəfn işlərində meyit ilə bu işləri görən şəxsin eynicinsli olması şərtdirmi?

İyirmi beşinci dərs: Təyəmmüm

Hansı hallarda təyəmmüm edilir

Aşağıdakı hallarda dəstəmaz və qüsl əvəzinə təyəmmüm etmək lazımdır:

1. Su əldə etmək mümkün olmadıqda, yaxud su mövcud olmadıqda, yaxud su mövcud olsa da insan onu əldə edə bilmədikdə (məsələn, su quyudadır və suyu quyudan çəkmək üçün bir vasitə yoxdur);

2. Sudan istifadə etmək insanın səhhəti üçün zərərli olduqda;

3. Suyu dəstəmaz və ya qüsl üçün istifadə etdiyi təqdirdə, insanın özünün, ailəsinin və ya canını qorumaq ona vacib olan insanın susuz qalma qorxusu olduqda;

4. İnsan əlində olan su ilə namaz qılmaq üçün bədənini və ya paltarını paklamaq istədikdə;

5. Sudan və ya suyun qabından istifadə etmək haram olduqda, məsələn, su və ya qab qəsbi olduqda;

6. Namaz vaxtı dar olduqda, belə ki, dəstəmaz almaq və ya qüsl etmək namazın hamısının, yaxud bir hissəsinin namaz vaxtından xaric qılınmasına səbəb olacaqdır.

Diqqət:

• Əgər dəstəmaz almaq və ya qüsl etməyin insana zərəri olsa (yəni sudan istifadə etmək insanın səhhəti üçün zərərli olsa), yaxud olduqca əziyyətli olsa, o, dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm etməlidir. Əgər dəstəmaz alsa və ya qüsl etsə, düzgün deyildir.

• Əgər insan dəstəmaz və ya qüslün ona zərəri olduğunu (məsələn, xəstələnəcəyini) bilib təyəmmüm etsə, bunun maneəsi yoxdur və bu təyəmmümlə qılınan namaz düzgündür. Amma əgər bu təyəmmümlə namaz qılmamışdan qabaq suyun ona zərəri olmadığını başa düşsə, onun təyəmmümü pozulur. Əgər o, bu təyəmmümlə namaz qıldıqdan sonra suyun ona zərəri olmadığını başa düşsə, ehtiyat-vacibə görə, dəstəmaz almalı və ya qüsl etməli və namazını yenidən qılmalıdır.

• Gəcə yarısı qüsl etməyin çətinliyi və ya bunun gənclər üçün eyib sayılması qüsl etməmək üçün şəri üzr hesab olunmur. Deməli, əgər qüsl etməyin zərəri və ya olduqca böyük əziyyəti olmazsa, mümkün olan şəkildə qüsl etmək vacibdir. Amma əgər zərəri və ya olduqca böyük əziyyəti olarsa, insan təyəmmüm etməlidir.

• Əgər bir şəxs cənabətli olsa və bədənini və ya paltarını paklamaq, yaxud paltarını dəyişdirmək üçün kifayət qədər vaxt olmasa, digər tərəfdən də hava soyuq olduğuna görə paltarsız namaz qıla bilməsə, bu şəxs cənabət qüslü əvəzinə təyəmmüm etməli və həmin napak paltarla namazını qılmalıdır. Bu namaz kifayət edir və namazın qəzasını qılmaq vacib deyildir.

• Əgər bir şəxs namaz vaxtı dar olduğuna görə qorxsa ki, qüsl edəcəyi və ya dəstəmaz alacağı təqdirdə namazın hamısı və ya bir hissəsi namaz vaxtından xaric qılınacaq, o, təyəmmüm edib namaz qılmalıdır.

• Əgər yuxuda ikən insandan bir maye xaric olsa və oyandıqdan sonra heç nə xatırlamasa, amma paltarını yaş görsə, o, möhtəlim olduğunu[1] bildiyi təqdirdə, cənabətlidir və qüsl etməlidir. Əgər namaz vaxtı dar olsa, bədənini pakladıqdan sonra təyəmmüm etməli və namaz qılmalıdır. Daha sonra geniş vaxtda (sonrakı namazlar üçün) qüsl etməlidir. Amma əgər möhtəlim olduğunu bilməsə (yuxuda cənabətli olduğuna şəkk etsə), o, cənabətli hökmündə deyildir.

• Təharətin şərt olmadığı əməllər (məsələn, ziyarət) üçün qüsl əvəzinə təyəmmüm etməyin düzgünlüyü məhəlli-işkaldır. Amma qüsl etmək mümkün olmadığı halda savab və bəyənilən əməl ümidilə qüsl əvəzinə təyəmmüm etməyin maneəsi yoxdur.

Nəyin üzərinə təyəmmüm etmək düzgündür

Torpaq, qum, kəsək, çınqıl, daş (daşın müxtəlif növləri, o cümlədən əhəng daşı, tabaşir, qara mərmər) və s. bu kimi "Yer" sayılan hər bir şeyin üzərinə təyəmmüm etmək düzgündür. Həmçinin bişmiş əhəngin və tabaşirin, kərpicin və s. bu kimi daşların da üzərinə təyəmmüm etmək düzgündür.

Diqqət:

• Qızıl, gümüş və s. bu kimi "Yer" sayılmayan faydalı qazıntıların üzərinə təyəmmüm etmək düzgün deyildir. Amma ürfə görə mədən daşları adlanan keyfiyyətli daşların, məsələn, mərmərin üzərinə təyəmmüm etmək düzgündür.

• Sementin və mozaikin (yerə döşənən daşların) üzərinə təyəmmüm etməyin maneəsi yoxdur, baxmayaraq ki, onların üzərinə təyəmmüm etməmək ehtiyat-müstəhəbə müvafiqdir.

Təyəmmümün qaydası

Təyəmmüm aşağıdakı qaydada yerinə yetirilir:

Birinci, təyəmmüm niyyəti edilir;

İkinci, iki əlin içi bütünlüklə və birlikdə üzərinə təyəmmüm etməyin düzgün olduğu şeyə vurulur;

Üçüncü, hər iki əlin içi birlikdə bütün alına və alının iki tərəfinə çəkilir, yəni saçların çıxdığı yerdən qaşlara və burunun üstünə qədər çəkilir;

Dördüncü, sol əlin içi sağ əlin bütünlüklə üstünə biləkdən barmaqların ucunadək çəkilir, daha sonra sağ əlin içi sol əlin bütünlüklə üstünə biləkdən barmaqların ucunadək çəkilir;

Beşinci, ehtiyat-vacibə görə, əllər yenidən yerə vurulur və sol əlin içi sağ əlin bütünlüklə üstünə və sağ əlin içi sol əlin bütünlüklə üstünə çəkilir.

Diqqət:

• Həm dəstəmaz əvəzinə olan təyəmmüm, həm də qüsl əvəzinə olan təyəmmüm eyni qaydadadır.

• Əgər alının və ya əlin üstünün bir hissəsinə, hətta kiçik bir hissəsinə əl çəkilməzsə, təyəmmüm düzgün deyildir. Bu, istər qəsdən olsun, istər unutqanlıq üzündən olsun, istərsə də hökmü bilməməkdən irəli gəlsin, fərqi yoxdur və təyəmmüm düzgün deyildir. Əlbəttə, çox diqqət etmək də lazım deyildir. Belə ki, əgər "alına və əlin üstünə bütünlüklə əl çəkildi" deyilərsə, kifayət edir.

• Əlin üstünə bütünlüklə əl çəkildiyinə əmin olmaq üçün biləkdən bir qədər yuxarıdan başlamaq lazımdır. Amma barmaqların arasına əl çəkmək lazım deyildir.

Cəbirə təyəmmümü

Əgər şəri vəzifəsi təyəmmüm etmək olan şəxsin təyəmmüm üzvləri və ya əlinin içi yara və bu kimi səbəblərə görə sarğı ilə bağlanıbsa, o, sarğını açmadan təyəmmüm etməlidir, yəni sarğını bədənin dərisi kimi qəbul etməlidir.

Suallar:

1- Hansı hallarda təyəmmüm edilir?

2- Əgər bir şəxs sübh namazı üçün qüsl edəcəyi təqdirdə xəstələnəcəyini düşünüb qüsl əvəzinə təyəmmüm etsə, onun hökmü nədir?

3- Əgər bir şəxsə hamama getmək çox çətin və əziyyətlidirsə, o, təharətin şərt olmadığı əməllər üçün qüsl əvəzinə təyəmmüm edə bilərmi? Yaxud müstəhəb qüsllər, o cümlədən cümə qüslü, ziyarət qüslü və s. əvəzinə təyəmmüm edə bilərmi?

4- Əgər namaz vaxtı dar olsa, cənabətli şəxs təyəmmüm edib napak bədən və paltarla namaz qıla bilərmi? Yoxsa bədənini və paltarını paklamalı və qüsl etməli, namazının qəzasını qılmalıdır?

5- Tabaşir və əhəng daşına, həmçinin bişmiş tabaşir və əhəngə, kərpicə təyəmmüm etmək olarmı?

6- Təyəmmümün qaydasını açıqlayın.

[1] Yuxuda cənabətli olmaq

İyirmi altıncı dərs: Təyəmmümün şərtləri və hökmləri

Təyəmmümün şərtləri

Üzərinə təyəmmüm edilən şeyin şərtləri:

- Pak olmalıdır;

- Mübah olmalıdır (qəsbi olmamalıdır).

Təyəmmüm üzvlərinin şərti:

- Təyəmmüm üzvlərində "maneə" olmamalıdır.

Təyəmmümün qaydasının şərtləri:

- Alına və əllərin üstünə yuxarıdan aşağıya doğru əl çəkilməlidir;

- Tərtibə, yəni ardıcıllığa riayət olunmalıdır;

- Muvalata riayət olunmalıdır, yəni təyəmmümün işləri fasiləsiz yerinə yetirilməlidir;

- Mubaşirətə riayət olunmalıdır, yəni təyəmmümün işlərini insanın özü ixtiyari şəkildə yerinə yetirməlidir.

Diqqət:

• Üzərinə təyəmmüm edilən şey pak olmalıdır.

• Üzərinə təyəmmüm edilən şey mübah olmalıdır (qəsbi olmamalıdır). Amma əgər insan bu şeyin mübah olduğunu bilməsə və ya qəsbi olduğunu unutsa, etdiyi təyəmmüm düzgündür.

• Təyəmmüm üzvlərində "maneə" olmamalıdır. Odur ki, təyəmmüm edərkən üzüyü və bu kimi şeyləri əldən çıxartmaq lazımdır. Həmçinin əgər bu üzvlərə bir şey yapışsa və ya dərinin üzərini bir şey örtsə, təyəmmümdən öncə onu aradan qaldırmaq lazımdır.

• Əlin üstündə və ya alında olan tüklər təyəmmüm üçün maneə sayılmır. Amma əgər başın saçları alına tökülsə, təyəmmüm zamanı onu kənara çəkmək lazımdır.

• Əgər yara, sınıq və bu kimi səbəblərə görə təyəmmüm üzvü sarğı ilə bağlanıbsa və sarğını açmağın zərəri vardırsa və ya olduqca əziyyətlidirsə, sarğını açmadan təyəmmüm etmək lazımdır.

• Alına və əllərin üstünə yuxarıdan aşağıya doğru əl çəkilməlidir.

• Təyəmmüm bir qədər əvvəldə qeyd edilən ardıcıllıqla yerinə yetirilməlidir. Ardıcıllığa riayət olunmadığı təqdirdə, təyəmmüm düzgün deyildir.

•Təyəmmümün işləri fasiləsiz yerinə yetirilməlidir. Əgər insan təyəmmümün işləri arasında o qədər fasilə etsə ki, ona "təyəmmüm edir" deyilməzsə, təyəmmüm düzgün deyildir.

• Təyəmmümün işlərini insan özü ixtiyari şəkildə yerinə yetirməli və heç kimdən köməklik almamalıdır. Əgər bir şəxs iflic olduğuna görə və ya digər xəstəliklərlə əlaqədar özü təyəmmüm edə bilməsə, naib tutmalıdır. Naib şəxs təyəmmüm edən şəxsin öz əli ilə ona təyəmmüm etdirməlidir. Əgər belə etmək də mümkün olmasa, naib şəxs öz əllərini yerə vurmalı və bu şəxsin alnına və əllərinin arxasına çəkməlidir.

• Təyəmmüm üzvlərinin (alının və əllərin üstünün) pak olması şərt deyildir, baxmayaraq ki, onların pak olması ehtiyata müvafiqdir.

Təyəmmümün hökmləri

1. Əgər üzərinə təyəmmüm etməyin düzgün olduğu şeylər tapılmasa, xalçanın, paltarın və bu kimi əşyaların üzərinə yığılan toza təyəmmüm etmək lazımdır. Əgər bunlar da tapılmasa, gil mövcud olduğu təqdirdə, onun üzərinə təyəmmüm etmək lazımdır. Əgər bunların heç birini əldə etmək mümkün olmasa (məsələn, insan təyyarədə olsa), ehtiyat-vacibə görə, namazı öz vaxtında dəstəmazsız və təyəmmümsüz qılmaq, sonra dəstəmaz və ya təyəmmümlə namazın qəzasını qılmaq lazımdır.

2. Şəri vəzifəsi təyəmmüm etmək olan şəxs, ehtiyat-vacibə görə, namaz vaxtı daxil olmamışdan qabaq namaz üçün təyəmmüm edə bilməz. Amma əgər namaz vaxtı daxil olmamışdan qabaq vacib və ya müstəhəb bir əməl üçün təyəmmüm etsə və namaz vaxtınadək təyəmmüm üçün olan üzrü aradan qalxmasa, bu təyəmmümlə namaz qıla bilər.

3. Əgər bir şəxs namaz vaxtının axırınadək təyəmmüm üçün şəri üzrünün aradan qalxacağını bilsə, namaz vaxtının əvvəlində təyəmmüm edib namaz qıla bilməz. Bu şəxs üzrü aradan qalxanadək gözləməli, üzrü aradan qalxdıqdan sonra dəstəmaz alıb və ya qüsl edib namaz qılmalıdır.

4. Əgər qüsl əvəzinə təyəmmüm edən bir şəxsdə hədəsi-əsğər baş versə (məsələn, sidiyə çıxsa), təyəmmüm üçün şəri üzrü aradan qalxmayanadək, o, ehtiyat-vacibə görə, təharətin şərt olduğu əməllər üçün qüsl əvəzinə yenidən təyəmmüm etməli və dəstəmaz da almalıdır. Əgər dəstəmaz ala bilmirsə, dəstəmaz əvəzinə də bir təyəmmüm etməlidir.

5. Əgər insan su olmadığı üçün və ya başqa səbəblərə görə təyəmmüm etsə, üzrü aradan qalxdıqdan sonra təyəmmüm pozulur.

6. **Dəstəmazı pozan işlər dəstəmaz əvəzinə olan təyəmmümü də pozur. Qüslü pozan işlər qüsl əvəzinə olan təyəmmümü də pozur.**

7. Əgər bir şəxs namaz vaxtının dar olduğuna görə dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm etsə, namaz vaxtı başa çatdıqda bu təyəmmüm pozulur və sonrakı namaz üçün dəstəmaz almaq və ya qüsl etmək lazımdır.

8. Namaz vaxtının dar olması səbəbi istisna olmaqla, əgər bir şəxs su olmadığına və ya digər səbəblərə görə qüsl əvəzinə təyəmmüm etsə, qüslün bütün şəri hökmləri bu təyəmmümə də aid olur. Deməli, insan cənabət qüslü əvəzinə etdiyi təyəmmümlə məscidə daxil ola, namaz qıla, Quranın yazısına toxuna və cənabətdən paklanmanın şərt olduğu digər əməlləri yerinə yetirə bilər.

9. Əgər bir şəxs cənabət qüslü əvəzinə təyəmmüm etsə, namaz üçün dəstəmaz almaq lazım deyildir. Amma başqa qüsllər (məsələn, məssi-meyit qüslü) əvəzinə təyəmmüm etdikdə, namaz üçün dəstəmaz almaq lazımdır. Dəstəmaz almaq mümkün olmadıqda, dəstəmaz əvəzinə daha bir təyəmmüm etmək lazımdır.

Suallar:

1- Təyəmmümün şərtləri hansılardır?

2- Təyəmmüm edərkən üzüyü barmaqdan çıxartmaq lazımdırmı?

3- Əlin üstündə və alında olan tüklər təyəmmüm üçün maneə sayılırmı?

4- Təyəmmüm üzvləri (alın və əllərin üstü) pak olmalıdırmı?

5- Əgər bir şəxs namaz qılmaq üçün dəstəmaz ala bilməsə və təyəmmüm etmək imkanı da olmasa, nə etməlidir?

6- Qüsl əvəzinə edilən təyəmmüm qüsl hökmündədirmi? Məsələn, bu təyəmmümlə məscidə daxil olmaq olarmı?

ÜÇÜNCÜ FƏSİL: NAMAZ

Namaz ən mühüm ibadətdir. Əgər bu ibadət düzgün şəkildə və diqqətlə yerinə yetirilsə, insanın ruhunu təmizləyər, qəlbini nurlandırar və insanı bəyənilməyən xasiyyətləri tərk etməyə qadir edər. Yəni namaz fərd və cəmiyyəti tədricən bütün çirkinliklərdən təmizləyə bilər.

Namazı vaxtın əvvəlində, hüzuri-qəlb ilə və riyakarlıqdan uzaq bir şəkildə qılmaq təkidlə tövsiyə olunur. Namaz qılan şəxs unutmamalıdır ki, o, Allahın hüzurunda dayanıb Allahla danışır və buna görə də dediyi hər bir sözün mənasına diqqət yetirməlidir.

İyirmi yeddinci dərs: Namazın qisimləri

Vacib və müstəhəb namazlar

Vacib namazlar aşağıdakılardır:

1. Gündəlik namazlar;

2. Təvaf namazı (Kəbə evinin vacib təvafından sonra qılınır);

3. Ayat namazı (Günəş və Ay tutulduqda, zəlzələ və bu kimi təbii fəlakətlər baş verdiyi zaman qılınır);

4. Meyit namazı (dünyasını dəyişən müsəlman şəxsin cənazəsinə qılınır);

5. Atanın və ehtiyat-vacibə görə, ananın qəza namazları (böyük oğula vacibdir);

6. Əhd, nəzir və and vasitəsilə, yaxud əcirlik vasitəsilə qılınması vacib olan namazlar[1].

Müstəhəb namazlar:

Məsələn, gündəlik nafilələr müstəhəb namazlardır.

Diqqət:

• Müstəhəb namazlar çoxdur və "nafilə" adlanırlar. Nafilə namazları arasında gündəlik namazların nafilələri, xüsusilə də gecə namazı təkidlə tövsiyə olunub.

Gündəlik namazların nafilələri

1. Gündəlik namazların hər birinin nafiləsi vardır. Bu nafilələri qılmaq olduqca mühümdür və onu qılanlara böyük savab vəd olunub. Bundan əlavə, gecənin ikinci yarısında gecə nafiləsi qılmaq müstəhəbdir. Gecə namazı böyük mənəvi təsirlərə malikdir və buna görə də onu qılmaq təkidlə tövsiyə olunub.

2. Gündəlik namazların nafilələri:

- Zöhr namazının nafiləsi: səkkiz rəkətdir və zöhr namazından qabaq qılınır;

- Əsr namazının nafiləsi: səkkiz rəkətdir və əsr namazından qabaq qılınır;

- Məğrib namazının nafiləsi: dörd rəkətdir və məğrib namazından sonra qılınır;

- İşa namazının nafiləsi: iki rəkətdir və işa namazından sonra oturan halda qılınır;

- Sübh namazının nafiləsi: iki rəkətdir və sübh namazından qabaq qılınır;

- Gecə nafiləsi: on bir rəkətdir və gecənin yarısından sübh namazınadək qılına bilər, amma gecənin axırıncı üçdə birində qılınması tövsiyə olunur, hətta sübh namazına nə qədər yaxın bir vaxtda qılınsa, savabı daha çoxdur.

Diqqət:

• Zöhr və əsr namazlarının nafiləsi cümə günü ümumilikdə iyirmi rəkətdir, yəni zöhr və əsrin nafiləsinə (on altı rəkət nafiləyə) dörd rəkət də əlavə olunur. Yaxşı olar ki, bu iyirmi rəkət nafilə şəri zöhrdən qabaq qılınsın. Amma əgər şəri zöhrdən qabaq qılınmazsa, onları Günəşin qürubunadək qılmağın maneəsi yoxdur.

• İşa namazının iki rəkət nafiləsi bir rəkət sayıldığı üçün gündəlik namazların nafilələri 34 rəkətdir (yəni gündəlik namazların iki misli qədərdir).

3. Əgər zöhr və əsr namazlarının nafiləsi "nafilənin vaxtı"nda[2], amma zöhr və əsr namazları qılındıqdan sonra qılınarsa, ehtiyat-vacibə görə, əda və qəza niyyəti etmədən (yəni "ma fiz-zimmə" niyyətilə) qılınmalıdır.

4. Gecə nafilələri on bir rəkətdir. Onun səkkiz rəkəti "gecə namazı" adlanır və iki rəkət-iki rəkət qılınır. Sonrakı iki rəkət "şəf" namazıdır və sübh namazı kimi qılınır. Axırıncı bir rəkət "vətr" namazı adlanır. Bu namazın qunutunda dua kitablarında qeyd olunan qaydada Allahdan bağışlanma diləmək, möminlər üçün dua etmək və Mənnan Allahdan istəklər diləmək müstəhəbdir.

5. Nafilə namazlarında "Həmd"dən sonra "Surə" oxumaq şərt deyildir, əksinə, hər rəkətdə təkcə "Həmd"i oxumaq kifayət edir. Amma "Surə"ni də oxumaq müstəhəbdir.

6. Gecə namazını qaranlıq və heç kimin olmadığı bir məkanda qılmaq şərt deyildir. Amma riyakarlıq da etmək olmaz.

Diqqət:

• Vətr namazı istisna olmaqla, nafilələri iki rəkət-iki rəkət qılmaq lazımdır. Vətr namazı isə bir rəkətdir. Odur ki, gecə namazını iki dördrəkətli namaz şəklində qılmaq düzgün deyildir.

• Nafilələri oturan halda qılmaq olar, amma ayaq üstə qılmaq daha yaxşıdır. Əgər nafilə əyləşən halda qılınarsa, iki rəkəti bir rəkət hesab etmək müstəhəbdir. İşa namazının nafiləsi isə istisna təşkil edir. Belə ki, bu nafiləni ehtiyata görə, ayaq üstə deyil, əyləşən halda qılmaq lazımdır.

• Namazın qəsr qılındığı səfərdə zöhr və əsr namazlarının nafilələrini (hətta qəsdi-rəca ilə) qılmaq olmaz.

• İşa namazının nafiləsini, (yəni "vuteyrə" namazını) səfərdə qəsdi-rəca ilə, yəni savab ümidilə qılmağın maneəsi yoxdur.

• Gündəlik namazların nafilələrinin öz xüsusi vaxtları vardır və "Şəriət hökmlərinin izahı" adlı kitablarda geniş şəkildə açıqlanmışdır.

Suallar:

1- Vacib namazlar hansılardır?

2- Gündəlik namazların nafilələri neçə rəkətdir? Açıqlayın.

3- Əgər zöhr və əsr namazlarının nafilələri "nafilənin vaxtı"nda, amma namazdan sonra qılınarsa, hansı niyyətlə qılınmalıdır?

4- Gecə namazının qaydası necədir?

5- Gecə namazını qaranlıq və heç kimin olmadığı bir məkanda qılmaq vacibdirmi?

6- Səfərdə hansı namazların nafilələri qılınmamalıdır?

---

[1] Burada müstəhəb namaz vacib namaza çevrilmir, əksinə, nəzir, əhd, and və əcirliyə əməl etmək vacib olur.

[2] Zöhrün nafiləsinin vaxtı şəri zöhrün əvvəlindən etibarən başlanır və "şaxis"in şəri zöhrdən sonra yaranan kölgəsi şaxisin yeddidə-ikisi uzunluğuna çatdığı zaman başa çatır. Məsələn, əgər şaxisin uzunluğu yeddi qarışdırsa, şaxisin şəri zöhrdən sonra yaranan kölgəsi iki qarışa çatdığı zaman zöhrün nafiləsinin vaxtı başa çatır. (Şaxis – şəri zöhrü təyin etmək üçün hamar yerə şaquli şəkildə sancılan düz bir çubuq və ya bu kimi bir vasitədir.) Əsrin nafiləsinin vaxtı isə şaxisin şəri zöhrdən sonra yaranan kölgəsi şaxisin yeddidə-dördü uzunluğuna çatdığı zaman başa çatır.

İyirmi səkkizinci dərs: Namaz paltarı (1)

Namazda örtünmə

1. Kişi namazda onu heç kim görməsə belə, "övrətəyn"i[1] örtməlidir. Daha yaxşı olar ki, göbəkdən dizlərə qədər nahiyəni örtsün.

2. Qadın namazda bədəninin hər tərəfini və başını (saçlarını) örtməlidir. Amma üzü dəstəmazda yuyulması vacib olan ölçüdə, həmçinin biləyə qədər əlləri və oynağa qədər ayaqları örtmək vacib deyildir. Qeyd edək ki, naməhrəm kişi qadını gördüyü təqdirdə, qadın oynağa qədər ayaqlarını da örtməlidir.

Diqqət:

• Çənə üzün bir hissəsi sayıldığına görə namazda onu örtmək lazım deyildir. Amma çənənin altını örtmək vacibdir.

• Əgər bir şəxs namaz əsnasında başa düşsə ki, lazımi ölçüdə örtünməyibdir, ehtiyata görə, o, namazı başa çatdırmalı və sonra namazı yenidən qılmalıdır. Əlbəttə, əgər dərhal örtünərsə, namazının düzgün olması uzaq ehtimal deyildir.

• Əgər bir şəxs namazdan sonra başa düşsə ki, namazda lazımi ölçüdə örtünməyibdir, onun namazı düzgündür.

Namaz paltarının şərtləri

Namaz paltarının şərtləri aşağıdakılardır:

1. Pak olmalıdır;

2. Qəsbi olmamalıdır (yəni mübah olmalıdır);

3. "Murdar"ın[2] hissələrindən olmamalıdır;

4. Əti haram heyvanın hissələrindən olmamalıdır;

5. Kişinin paltarı qızıldan olmamalıdır;

6. Kişinin paltarı xalis ipəkdən olmamalıdır.

1. Pak olmalıdır

1. Namaz paltarı pak olmalıdır.

2. Əgər bir şəxs napak bədən və ya paltarla namaz qılmağın düzgün olmadığını bilməsə və napak bədən və ya paltarla namaz qılsa, onun namazı düzgün deyildir. Amma əgər diqqətsiz olsa və ya "qasir cahil"[3] olsa, yəni napak paltarla namaz qılmağın düzgün olmadığını ehtimal belə etməsə, onun namazı düzgündür.

3. Əgər bir şəxs bədəninin və ya paltarının napak olduğunu bilməsə və namazı qılıb qurtardıqdan sonra bunu başa düşsə, onun qıldığı namaz düzgündür. Amma əgər bədəninin və ya paltarının napak olduğunu əvvəlcədən bilirdisə, amma bunu unudub, napak bədən və ya paltarla namaz qılıbsa, onun namazı düzgün deyildir.

4. Əgər bir şəxs namaz əsnasında bədəninin və ya paltarının napak olduğunu başa düşsə və onun namazdan öncə napak olduğunu bilsə, namaz vaxtı geniş olduğu təqdirdə, namazı düzgün deyildir. O, bədənini və ya paltarını pakladıqdan sonra namazı yenidən qılmalıdır. Namaz vaxtı dar olduğu təqdirdə isə, əgər bədəni və ya paltarı suya çəkib paklamaq, yaxud paltarı dəyişmək və ya əyindən çıxarmaq namazın surətini pozmazsa, bu şəxs namazda bu işləri görməli və sonra namazı davam etdirməlidir. Amma əgər bu işləri görmək namazın surətini pozarsa, həmin vəziyyətdə namazı davam etdirməlidir və onun namazı düzgündür.

5. Əgər bir şəxs napak paltarını suya çəksə və paltarın paklandığına yəqin edib onunla namaz qılsa, amma namazdan sonra paltarının paklanmadığını başa düşsə, qıldığı namaz düzgündür. Amma sonrakı namazlar üçün paltarını paklamalıdır.

6. Əgər bir şəxs paltarının napak olub-olmadığına şəkk etsə, paltarın pak olduğunu qəbul etməlidir. Bu paltarla namaz qılmaq düzgündür. Deməli, tərkibində spirt olan ətirlərin napak olduğunu bilmədiyimiz təqdirdə, bu ətirlərin dəydiyi paltarda namaz qılmağın maneəsi yoxdur. Həmçinin əgər bir şəxs çıxılmaz vəziyyətdə qalıb, sidiyin xaric olduğu yeri daş, çubuq və s. bu kimi şeylərlə paklasa və evə döndükdən sonra özünü su ilə paklasa, paltarının sidiyin yaşlığı ilə napak olduğuna əmin olmayanadək, namaz qılmaq üçün bu paltarı dəyişməsinə və ya onu paklamasına ehtiyac yoxdur.

Namazda bədənin və ya paltarın pak olmasının vacib olmadığı hallar

Aşağıdakı hallarda namazda bədənin və ya paltarın paklığı vacib deyildir:

1. Bədən və ya paltar yara, çiban və ya bədənin kəsilməsi nəticəsində qana bulaşdıqda;

2. Bədəndə və ya paltarda olan qan dirhəmin[4] ölçüsündən (işarə barmağının bir bəndinin ölçüsündən) kiçik olduqda;

3. Corab və bu kimi övrəti örtmək üçün kifayət etməyən paltarlar napak olduqda;

4. İnsan napak bədən və ya paltarla namaz qılmaq məcburiyyətində qaldıqda.

1. Bədən və ya paltar yara, çiban və bədənin kəsilməsi nəticəsində qana bulaşdıqda

1. Əgər bir şəxsin paltarı və ya bədəni yara, kəsik və ya çiban qanına bulaşıbsa və bu, elə bir şəkildədir ki, bədəni və ya paltarı paklamaq, yaxud paltarı dəyişmək adətən çətindirsə və ya bu şəxs üçün çətindirsə, yara, kəsik və ya çiban sağalanadək bu şəxs qana bulaşan bədən və ya paltarda namaz qıla bilər. Həmçinin qanla xaric olan irin və ya yaranın üstünə qoyulan və napak olan dərman eyni hökmü daşıyır.

2. Tez bir zamanda sağalan və yuyulması asan olan yara və ya kəsiklərin qanı yuxarıdakı məsələdəki hökmü daşımır. (Yəni bu qana bulaşan bədən və ya paltarla namaz qılmaq düzgün deyildir.)

2. Bədəndə və ya paltarda olan qan dirhəmin ölçüsündən kiçik olduqda

1. Əgər bir şəxsin bədəni və ya paltarı "birinci hal"da qeyd edilən qanlardan[5] qeyri bir qana bulaşsa, onun ölçüsü işarə barmağının bir bəndi ölçüsündən kiçik olduğu təqdirdə, (irəlidə qeyd ediləcək şərtlər daxilində) bu qanla namaz qılmağın maneəsi yoxdur. Amma əgər bu qan işarə barmağının bir bəndi ölçüsündə olsa və ya bundan daha böyük olsa, bu qanla namaz qılmağın maneəsi vardır.

2. Ölçüsü dirhəmdən kiçik olan qanın şərtləri aşağıdakılardır:

- Bu qan heyz qanı olmamalıdır. Əgər heyz qanı çox az miqdarda belə, namazda insanın bədənində və ya paltarında olsa, namaz düzgün deyildir. Ehtiyat-vacibə görə, nifas qanı və istihazə qanı da bu hökmdədir.

- İt və donuz kimi nəcisul-eyn heyvanların (bu heyvanlar "nəcasət" hesab olunur), əti haram heyvanların, "murdar"ın (ölü və ya şəri qaydada kəsilməyən heyvanın) və kafir insanın qanı olmamalıdır.

- Bu qana kənardan yaşlıq dəyməməlidir. Amma əgər qana dəyən yaşlıq qana tamamilə qarışsa və ümumi ölçü işarə barmağının bir bəndindən böyük olmasa, bu halda onunla namaz qılmaq düzgündür. Əks halda, ehtiyat-vacibə görə, onunla namaz qılmağın maneəsi vardır.

3. Əgər bədən və ya paltar qana bulaşmasa, amma qanla təmasda olmaq nəticəsində napak olsa, məsələn, bir şəxsin yaş əli və ya paltarı quruyan qana dəysə və bunun nəticəsində əl və ya paltar napak olsa, amma ələ və ya paltara qan keçməsə, bu halda napak olan hissə işarə barmağının bir bəndi ölçüsündən kiçik olsa belə, onunla namaz qılmaq olmaz.

3. Corab və bu kimi övrəti örtmək üçün kifayət etməyən paltarlar napak olduqda

1. Əgər namaz qılan şəxsin corabı, əlcəyi, araqçını və bu kimi övrəti örtmək üçün kifayət etməyən kiçik paltarları, həmçinin üzük, qolbaq və bu kimi əşyaları "nəcasət"lə (məsələn, qan, idrar və s.) təmasda olub napak olsa, onunla namaz qılmağın maneəsi yoxdur.

2. Əgər insanın üstündə gəzdirdiyi cib dəsmalı, çanta, bıçaq və bu kimi əşyalar napakdırsa, onunla namaz qılmağın maneəsi yoxdur.

4. İnsan napak bədən və ya paltarla namaz qılmaq məcburiyyətində qaldıqda

Əgər insan havanın soyuq olması, suyun olmaması və bu kimi səbəblərə görə napak bədən və ya paltarla namaz qılmaq məcburiyyətində qalsa, qıldığı namaz düzgündür.

2. Qəsbi olmamalıdır

1. Namaz qılanın paltarı qəsbi olmamalıdır, yəni mübah olmalıdır.

2. Əgər bir şəxs paltarının qəsbi olduğunu bilməsə və ya unutsa və bu paltarla namaz qılsa, onun namazı düzgündür. Həmçinin əgər bir şəxs qəsbi paltarı geyinməyin haram olduğunu bilməsə, qəsbi paltarla qıldığı namaz düzgündür. Əgər bir şəxs qəsbi paltarı geyinməyin haram olduğunu bilsə, amma qəsbi paltarla namaz qılmağın düzgün olmadığını bilməsə, bilərəkdən qəsbi paltarla namaz qıldığı təqdirdə, o, namazını mübah paltarla yenidən qılmalıdır.

3. "Murdar"ın hissələrindən olmamalıdır

1. Namaz paltarı qanı sıçrayışlı olan ölmüş bir heyvanın hissələrindən olmamalıdır. Ehtiyat-vacibə görə, qanı sıçrayışlı olmayan ölmüş bir heyvanın da hissələrindən olmamalıdır.

2. Əgər "murdar"ın hansısa hissəsi namaz qılarkən insanın üstündə olsa, ehtiyat-vacibə görə, onun namazı düzgün deyildir. Amma

əgər onun ruhsuz hissələri, məsələn, tükü, yunu və buynuzu namaz qılarkən insanın üstündə olsa və heyvan da əti halal heyvan olsa, namaz düzgündür.

3. Qeyri-müsəlman ölkələrindən idxal edilən və şəri kəsim[6] olduğuna şəkk edilən əti halal heyvanın gön və dərisi paklıq-napaklıq baxımından "murdar" hökmündə deyildir və pak sayılır. Lakin onunla namaz qılmaq olmaz. Amma əgər bir şəxs bu hökmü bilmədiyinə görə əvvəllər belə bir paltarla namaz qılıbdırsa, onun namazı düzgündür. Əgər bu gön və dəriləri idxal edən şəxs müsəlman olsa və şəri kəsim barəsində onun araşdırma apardığı ehtimal edilsə, bu paltarla namaz qılmağın maneəsi yoxdur.

4. Əti haram heyvanın hissələrindən olmamalıdır

1. Namaz paltarı əti haram heyvanın hissələrindən olmamalıdır. Əgər namaz qılarkən insanın bədəninə və ya paltarına əti haram heyvanın tükü belə yapışmış olsa, namaz düzgün deyildir.

2. Əgər pişik və bu kimi "əti haram heyvan"ın ağız və burun suyu və ya başqa bir yaşlığı namaz qılarkən insanın bədənində və ya paltarında olsa, onun namazı düzgün deyildir. Amma əgər bu yaşlıq quruyub tamamilə aradan gedərsə, bu halda namaz düzgündür. Həmçinin əgər əti haram quşların nəcisi namaz qılarkən insanın bədənində və ya paltarında olsa, onun namazı düzgün deyildir. Amma əgər bu nəcis quruyub tamamilə aradan gedərsə, bu halda namaz düzgündür.

3. Namaz qılarkən insanın bədənində və ya paltarında insan tükü, təri və ağız suyunun, həmçinin arı pətəyi, mirvari və sədəfin olmasının iradı yoxdur.

4. Əgər bir şəxs bir paltarın əti halal, yoxsa əti haram heyvanın hissələrindən olduğuna şəkk etsə, bu paltarda namaz qılmaq düzgündür.

Suallar:

1- Qadın namazda hansı ölçüdə örtünməlidir? Namazda qısaqol paltar geyinmək və corab geyinməmək olarmı?

2- Əgər qadın namaz əsnasında saçının göründüyünü başa düşsə və onu dərhal örtsə, namazı yenidən qılmalıdırmı?

3- Namaz paltarının şərtləri hansılardır?

4- Əgər bir şəxs namaz əsnasında bədəninin və ya paltarının napak olduğunu başa düşsə, nə etməlidir?

5- Hansı hallarda namazda bədənin və ya paltarın pak olması vacib deyildir?

6- Əgər namazda insanın üstündə qana bulaşan cib dəsmalı və bu kimi bir şey olsa, onun namazı pozulurmu?

7- Əgər namaz qılarkən insanın bədənində və ya paltarında pişiyin tükü və ya ağzının suyu olsa, namaz pozulurmu?

---

[1] "Övrətəyn" dedikdə, cinsiyyət və arxa tərəf nəzərdə tutulur.

[2] Ölü və ya şəri qaydada kəsilməyən heyvan

[3] "Qasir cahil" o şəxsə deyilir ki, o, ümumiyyətlə, bilmədiyini bilmir, yaxud bilmədiyini bilsə belə, şəriəti öyrənmək imkanı əsla yoxdur.

[4] Keçmişin gümüş pul vahididir. *Müt.*

[5] Yəni təmizlənib paklanması olduqca çətin və əziyyətli olan yara, kəsik və ya çiban qanı

[6] İslam dinində heyvanların ətinin halal olması və ya hissələrinin paklanması üçün bir sıra kəsim qaydaları müəyyən edilmişdir. Əti halal heyvanlar şəri kəsim olduğu zaman onun həm əti halal olur, həm də hissələri pak olur. Əti haram heyvanlar şəri kəsim olduğu zaman isə onun hissələri pak olur. Dəvə "nəhr" edilir, dəvədən qeyri heyvanların başı kəsilir və çöl heyvanları ov edilir.

İyirmi doqquzuncu dərs: Namaz paltarı (2)

5. Kişinin paltarı qızıldan olmamalıdır

1. Kişinin qızıldan toxunan parçadan paltar geyinməsi və ya qızıl işləməsi olan paltar geyinməsi haramdır və bu paltarda qıldığı namaz düzgün deyildir. Amma qadının istər namazda, istərsə də qeyri-namazda belə paltar geyinməsinin iradı yoxdur.

2. Kişinin qızıl boyunbağı, qızıl üzük və qızıl saat taxması haramdır və ehtiyat-vacibə görə, qızıl zinət əşyaları ilə qıldığı namaz düzgün deyildir.

3. Əgər kişi barmağındakı üzüyün və ya əynindəki paltarın qızıldan olduğunu bilməsə və ya bunu unutsa və onunla namaz qılsa, namazı düzgündür.

Diqqət:

• Kişinin qızılla toxunmuş parçadan paltar geyinməsi və ya qızıl boyunbağı taxmasının haramlığının meyarı onların "zinət" adlandırılması deyildir. Əksinə, hər bir şəkildə və hər bir məqsədlə onlardan istifadə etmək haramdır. Məsələn, camaatın nəzərində zinət deyil, evlilik nişanəsi sayılan qızıl nişan üzüyü, qızıl saat və bu kimi əşyaları taxmaq kişiyə haramdır. Yaxud heç kim görməsə belə, yenə də onlardan istifadə etmək kişiyə haramdır.

Amma dişlərin düzəldilməsində və ya sümüyün cərrahiyyə əməliyyatında qızıldan istifadə edilməsinin maneəsi yoxdur.

• Qısa bir müddət üçün, məsələn, yalnız toy məclisində belə, kişilərə qızıl zinət əşyaları taxmaq haramdır.

• Əgər ağ qızıl adlanan metal elə sarı qızıl olub müəyyən bir kimyəvi maddənin təsiri nəticəsində rəngi dəyişibdirsə, bu, sarı qızıl hökmündədir. Amma əgər bu metalın tərkibində sarı qızıl çox az olduğu üçün ürfdə sarı qızıl adlandırılmırsa, kişilərin ondan istifadə etmələrinin maneəsi yoxdur.

• Platin qızıl sayılmır və qızıl hökmündə də deyildir. Odur ki, kişilərin ondan istifadə etmələrinin maneəsı yoxdur.

6. Kişinin paltarı xalis ipək olmamalıdır

Ümumiyyətlə, kişiyə xalis ipəkdən tikilmiş paltar geyinmək haramdır. Namazda da kişi xalis ipəkdən paltar geyinə bilməz, hətta onun araqçını, corabı, paltarının astarı belə xalis ipək olmamalıdır. Lakin xalis ipək parçadan olan cib dəsmalının və bu kimi şeylərin onun cibində olmasının maneəsi yoxdur və namaz düzgündür.

Suallar:

1- Kişilər qızıl zinət əşyalarından, zinət məqsədilə olmasa və heç kim görməsə belə, istifadə edə bilərlərmi?

2- Kişilər ağ qızıldan olan üzük taxa bilərlərmi?

Otuzuncu dərs: Namaz məkanı (1)

Namaz məkanının şərtləri

Namaz məkanının şərtləri aşağıdakılardır:

1. Mübah olmalıdır (yəni qəsbi olmamalıdır);

2. Hərəkətsiz olmalıdır;

3. Bu məkanda dayanmaq haram olmamalıdır;

4. Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) qəbrindən öndə olmamalıdır;

5. Səcdə yeri pak olmalıdır;

6. Ehtiyat-vacibə görə, namaz qılarkən qadın ilə kişi arasında ən azı bir qarış məsafə olmalıdır;

7. Səthi düz olmalıdır.

1. Mübah olmalıdır

1. Namaz məkanı qəsbi olmamalıdır. Qəsbi məkanda qılınan namaz, hətta üstündə namaz qılınan xalça və taxt qəsbi olmasa belə, düzgün deyildir.

2. Əgər bir şəxs bir məkanın qəsbi olduğunu bilməsə və ya bunu unutsa və orada namaz qılsa, namazı düzgündür.

3. Əgər bir şəxs bir məkanın qəsbi olduğunu bilsə, amma qəsbi məkanda namaz qılmağın düzgün olmadığını bilməsə və orada namaz qılsa, onun namazı düzgün deyildir.

4. Əgər bir şəxs müəyyən bir mülkdə başqa bir şəxs ilə şərikdirsə və onların payı bir-birindən ayrı deyildirsə, bir şərik digər şərikin razılığı olmadan orada namaz qıla bilməz.

Diqqət:

• Bir ərazi əvvəllər vəqfi ərazi olmuş, amma sonradan dövlət bu ərazini öz balansına keçirərək orada məktəb tikdirmişdir. Əgər dövlətin bu ərazidən şəri icazə əsasında istifadə etdiyi məqbul bir əsasla ehtimal edilsə, bu məkanda namaz qılmağın maneəsi yoxdur. Həmçinin bəzi məktəblərin ərazisi sahiblərinin razılığı olmadan onlardan alınmışdır. Əgər aidiyyatı qurumların bu ərazilərdə rəsmi və şəri icazə əsasında məktəb tikdirdiyi məqbul bir əsasla ehtimal edilsə, orada namaz qılmağın maneəsi yoxdur.

• Bir şəxs dövlət müəssisəsinə aid bir evdə yaşayır və hazırda yaşayış üçün ona verilən müddət başa çatmışdır. Evin boşaldılması barədə ona xəbərdarlıq da edilmişdir. Əgər yaşayış üçün verilən müddət başa çatdıqdan sonra aidiyyatı qurum bu şəxsə orada yaşamaq üçün icazə verməyibsə, bu evdən istifadə etmək (o cümlədən orada namaz qılmaq) qəsbi məkandan istifadə etmək hökmündədir.

• Əvvəllər qəbiristanlıq olan bir ərazidə tikilən idarə binasında namaz qılmağın və digər istifadələrin maneəsi yoxdur. Amma əgər şəri yolla sübuta yetsə ki, bu ərazi ölüləri dəfn etmək üçün vəqf edilibmiş və qeyri-şəri şəkildə mənimsənilərək orada idarə binası tikilmişdir, bu binada namaz qılmaq qəsbi məkandan istifadə etmək hökmündədir.

• İndiki parklarda və bu kimi məkanlarda namaz qılmağın maneəsi yoxdur. Bu ərazilərin qəsb olması və onların sahibinin məlum olmamasına dair ehtimala etina edilmir.

• Əgər bir şəxs sahibi olduğu torpaq sahəsinin dövlət tərəfindən alınmasına razı olmasa və bu məkanda namaz qılınmasına və digər istifadələrə razı olmadığını bildirsə, bu torpaq sahəsi dövlət qanunlarına müvafiq şəkildə onun sahibindən alındığı təqdirdə, orada namaz qılmağın və digər istifadələrin maneəsi yoxdur.

• Dövlət tərəfindən məhkəmə yolu ilə sahibindən müsadirə edilən şirkət və müəssisələrə gəlincə, əgər ehtimal edilsə ki, hakim öz səlahiyyətləri çərçivəsində şəriət və dövlət qanunlarına müvafiq olaraq müsadirə hökmü çıxarmışdır, belə məkanlarda namaz qılmaq və digər istifadələr icazəlidir. Bu məkanlar qəsb hökmündə deyildir.

• Əgər zalım dövlətin mənimsədiyi məkanların, əslində, qəsb edildiyi məlum olarsa, bu məkanlar qəsbi məkan hökmündədir. (Odur ki, orada namaz qılmaq olmaz.)

Suallar:

1- Namaz məkanının şərtlərini sadalayın.

2- Əgər bir şəxs qəsbi məkanda səccadənin və ya taxta parçasının üstündə namaz qılsa, onun namazı düzgündür, yoxsa düzgün deyildir?

3- Əgər dövlət müəssisəsinə aid olan bir evdə yaşayan şəxsdən yaşayış üçün verilən müddət başa çatdığına görə evin boşaldılması tələb olunsa, bu evdə qılınan namazların hökmü nədir?

4- Əgər bir şəxs sahibi olduğu torpaq sahəsinin dövlət tərəfindən alınmasına razı olmazsa və həmin yerdən namaz qılmaq və ya digər məqsədlər üçün istifadə edilməsinə narazı olarsa, orada namaz qılmağın hökmü nədir?

5- Zalım dövlətin qəsb etdiyi yerlərdə namaz qılmaq və oradan keçib getmək olarmı?

Otuz birinci dərs: Namaz məkanı (2)

2. Hərəkətsiz olmalıdır

Namaz məkanı hərəkətsiz olmalıdır. Yəni elə olmalıdır ki, namaz qılan şəxs bədəni hərəkətsiz vəziyyətdə və tərpənmədən namaz qıla bilsin. Deməli, maşında, yaylı çarpayının üstündə və bu kimi bədənin qeyri-ixtiyari olaraq hərəkət etdiyi məkanlarda namaz qılmaq düzgün deyildir. Əlbəttə, namaz vaxtı dar olduğu zaman və ya bu kimi başqa hallarda insan bu məkanlarda namaz qılmaq məcburiyyətində qaldıqda, orada namaz qıla bilər.

Diqqət:

• Avtobusla uzaq şəhərlərə səfərə çıxan sərnişinlər namazlarının qəza olacağını ehtimal etdikləri təqdirdə, namaz qılmaq üçün sürücüdən avtobusu münasib bir yerdə saxlamağı tələb etməlidirlər. Sürücü də sərnişinlərin bu tələbini qəbul etməlidir. Əgər sürücü məqbul bir üzrə görə və ya səbəbsiz olaraq avtobusu saxlamasa, sərnişinlər namazın qəza olacağını ehtimal etdikləri təqdirdə, maşın hərəkətdə ikən namazlarını qılmalı və imkan daxilində qiblə, rüku, qiyam və səcdəyə riayət etməlidirlər.

• Əgər qayıqla ezamiyyətə göndərilən şəxslər namaz vaxtı daxil olduğu zaman namazı qılmadıqları təqdirdə namaz qəza olacaqdırsa, mümkün olan hər şəkildə, hətta qayıqda belə, namazı öz vaxtında qılmalıdırlar.

3. Bu məkanda dayanmaq haram olmamalıdır

Namaz məkanı elə bir məkan olmamalıdır ki, orada dayanmaq haram olsun. Məsələn, insan həyatı üçün ciddi təhlükə hesab olunan bir yerdə (məsələn, uçmaq üzrə olan bir divarın kənarında) namaz qılınmamalıdır. Həmçinin namaz məkanı üstündə əyləşmək və ya dayanmağın haram olduğu bir məkan olmamalıdır. Məsələn, hər tərəfində Allahın adı və ya Quran ayələri yazılan bir xalçanın üstündə namaz qılınmamalıdır.

4. Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) qəbrindən öndə olmamalıdır

İnsan Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) qəbrindən öndə dayanıb namaz qılmamalıdır. Lakin qəbirin bərabərində namaz qılmağın maneəsi yoxdur.

5. Səcdə yeri pak olmalıdır

Səcdə yeri pak olmalıdır. Səcdə yerindən qeyri yerlərin isə napak olmasının maneəsi yoxdur və namaz düzgündür, amma bu şərtlə ki, napaklıq namaz qılan şəxsin bədəninə və ya paltarına sirayət etməməlidir.

6. Ehtiyat-vacibə görə, namaz qılarkən qadın ilə kişi arasında ən azı bir qarış məsafə olmalıdır

Ehtiyat-vacibə görə, namaz qılarkən qadın ilə kişi arasında ən azı bir qarış məsafə olmalıdır. Bu halda əgər qadın ilə kişi yanaşı dayansalar, yaxud qadın kişidən öndə dayansa, hər ikisinin namazı düzgündür.

7. Səthi düz olmalıdır

Namaz qılan şəxsin səcdə yeri onun dizlərini və ayaq barmaqlarını qoyduğu yerdən dörd bağlı barmaqdan hündürdə və ya alçaqda olmamalıdır.

Namaz məkanı barəsində iki məsələ:

• Kəbə evinin daxilində vacib bir namazı qılmaq məkruhdur. Damında isə ehtiyat-vacibə görə, namaz qılınmasın.

• Şəkilli səccadənin üstündə namaz qılmağın, yaxud üzərinə yazı və ya şəkil həkk olunan möhürə alın qoymağın öz-özlüyündə maneəsi yoxdur. Amma əgər bu məsələ şiəliyə töhmət vuranların əlinə bəhanə verəcəkdirsə, belə səccadələri və möhürləri istehsal etmək və namazda onlardan istifadə etməyə icazə verilmir. Həmçinin əgər belə səccadə və möhürlər namaz qılan insanın fikrini yayındırarsa və hüzuri-qəlbə xələl gətirərsə, onlardan istifadə etmək məkruhdur.

Suallar:

1- Bədənin qeyri-ixtiyari olaraq hərəkət etdiyi məkanlarda, məsələn, hərəkət edən maşında namaz qılmağın hökmü nədir?

2- Əgər namaz məkanı pak olmasa və yalnız səcdə yeri pak olsa, namaz düzgündürmü?

3- Hər tərəfində Allahın adı və Quran ayələri yazılan xalçanın üstündə namaz qılmağın hökmü nədir?

4- Namazda kişilər qadınlardan öndə dayanmalıdırlarmı?

5- Vacib namazı Kəbə evinin daxilində qılmağın hökmü nədir?

6- Şəkilli səccadənin üstündə namaz qılmağın, yaxud üzərinə yazı və ya şəkil həkk olunan möhürə alın qoymağın hökmü nədir?

Otuz ikinci dərs: Məscidin hökmləri (1)

Məscidə dair haram əməllər

Məscidə dair haram əməllər aşağıdakılardır:

1. Məscidi napak etmək;

2. İsraf sayıldığı təqdirdə məscidi qızıl ilə zinətləndirmək;

3. Məscidə qarşı hörmətsizlik olan işləri görmək;

4. Kafirlərin məscidə daxil olması;

5. Məscidin dağıdılması və sökülməsi;

6. Məscidin vəqfinin şərtlərinə zidd hərəkət etmək.

1. Məscidi napak etmək

Məscidin yerini, tavanını, divarlarını və damını napak etmək haramdır. Əgər napak olarsa, oranı dərhal paklamaq vacibdir.

Diqqət:

• Əgər qəsb edilən, tərk edilən və ya sökülən məscidin yerində başqa bir bina tikilibsə, yaxud tərk edildiyi üçün (məsələn, bir kəndin əhalisi oranı tərk edib başqa yerdə məskunlaşdığı üçün artıq oradakı məscid xarabalığa çevrilib) məscid kimi istifadəsi yoxdursa və yenidən bərpa olunacağına da ümid yoxdursa, o yeri napak etmək haram deyildir. Baxmayaraq ki, oranın napak edilməməsi ehtiyat-müstəhəbə müvafiqdir.

2. İsraf sayıldığı təqdirdə məscidi qızıl ilə zinətləndirmək

İsraf sayıldığı təqdirdə məscidi qızıl ilə zinətləndirmək haramdır. İsraf sayılmadığı təqdirdə isə bu iş məkruhdur.

3. Məscidə qarşı hörmətsizlik olan işləri görmək

Məscidin hörmətini və mövqeyini saxlamaq vacibdir. Məscidə qarşı hörmətsizlik sayılan və onun mövqeyinə zidd olan işlərdən çəkinmək lazımdır.

4. Kafirlərin məscidə daxil olması

Kafirlərin müsəlman məscidlərinə daxil olmasına, hətta tarixi abidələrin müşahidəsi məqsədilə olsa belə, icazə verilmir. Bu hökm baxımından məscidlər arasında fərq yoxdur, istər Məscidul-həram olsun, istərsə də digər məscidlər olsun. Həmçinin kafirlərin məscidə daxil olması istər məscidə qarşı hörmətsizlik sayılsın, istərsə də sayılmasın, onların məscidə daxil olmasına icazə verilmir.

5. Məscidin dağıdılması və sökülməsi

Məscid binasını bütünlüklə və ya onun bir hissəsini sökməyə icazə verilmir. Yalnız çox böyük əhəmiyyəti olan bir məsələ üçün buna icazə verilir.

Diqqət:

• Məscidin dağıdılması və sökülməsi onu məscidlikdən xaric etmir, odur ki, məscidin hökmləri onun üçün qüvvədədir. Amma əgər sökülən və ya tərk edilən məscidin yerində başqa bir bina tikilibsə, yaxud tərk edildiyi üçün məscid kimi istifadəsi yoxdursa və yenidən bərpa olunacağına da ümid yoxdursa, bu yer məscid hökmündə deyildir. Deməli, əgər yol çəkilərkən məscid binasının bir hissəsi məcburiyyətdən irəli gələn zərurətə görə sökülsə və o hissənin yenidən bərpa olunacağı ehtimal edilməsə, bu yer məscid hökmündə deyildir.

6. Məscidin vəqfinin şərtlərinə zidd hərəkət etmək

1. Məscidin vəqfinin şərtlərinə zidd hərəkət etmək və ya vəqfin şərtlərini dəyişdirmək olmaz. Odur ki, məscidi kinofilmlərin yayımlanması məkanına (başqa sözlə, kinoteatra) çevirməyə icazə verilmir. Amma müəyyən əlamətdar günlərdə ehtiyac duyulduğu zaman və imam-camaatın nəzarəti altında dini filmlər kimi faydalı və tərbiyəvi əhəmiyyət daşıyan filmləri yayımlamağın maneəsi yoxdur.

2. Məscidin mövqeyinə zidd olmadığı və camaat namazının təşkil olunmasına və namaz qılanlara maneəçilik törətmədiyi təqdirdə, məsciddə tədris kurslarının təşkil edilməsi və bu kimi işlərin maneəsi yoxdur.

3. Yas və bu kimi məclislərin məsciddə keçirilərək oranın işıq, istilik, havalandırma sistemlərindən və başqa imkanlarından istifadə edilməsinə icazənin verilməsi məscidin vəqfinin şərtlərinə, habelə bu imkanlar məscidə nəzir olunduğu təqdirdə, nəzirin şərtlərinə bağlıdır.

4. Məscidin şəbistanının[1] bir guşəsində muzey, kitabxana və bu kimi məkanlar yaratmaq məscidin şəbistanının vəqfinin şərtlərinə müvafiq olmadığı və ya məscid binasının dəyişdirilməsinə səbəb olduğu təqdirdə, bu məkanları yaratmağa icazə verilmir. Yaxşı olar ki, məscidin yaxınlığında bu məqsədlər üçün yer alınsın.

5. Əgər məscidin suyunun yalnız namaz qılanların dəstəmaz alması üçün vəqf olunduğu məlum olmazsa və məscidin yerləşdiyi məhəllədə adətən məhəllə sakinləri və oradan ötüb keçənlər məscidin suyundan istifadə edirlərsə, bu sudan içmək, çay dəmləmək və bu kimi şəxsi istifadələrin maneəsi yoxdur. Amma bu məsələdə ehtiyata riayət etmək bəyənilir. Həmçinin əgər məscid qəbiristanlığın qonşuluğunda yerləşirsə və adətən məscidin ərazisindən kənarda yerləşən qəbirlərin üstünə su səpmək üçün məscidin suyundan istifadə olunursa və heç kim buna etiraz bildirmirsə, habelə məscidin suyunun yalnız dəstəmaz və təharət üçün vəqf olunduğuna dair sübut yoxdursa, bu qəbirlərin üstünə su səpmək üçün məscidin suyundan istifadə etməyin maneəsi yoxdur.

6. Əgər məscidin şəri hökmlərini bilməmək nəticəsində məscid binasında, başqa sözlə, məscidin damı altında otaqlar tikilsə, bu otaqları söküb məscidi əvvəlki vəziyyətinə gətirmək vacibdir. Həmçinin əgər məscidin şəri hökmlərini bilməmək nəticəsində məscid binasında çay hazırlamaq və bu kimi işlər üçün otaq tikilsə, onu söküb məscidi əvvəlki vəziyyətinə gətirmək vacibdir.

7. Məsciddə cənazə dəfn etmək olmaz və bu məsələdə mərhumun vəsiyyəti heç bir rol oynamır. Amma əgər vəqf zamanı məsciddə cənazənin dəfn edilməsi istisna edilibdirsə, bu halda orada cənazə dəfn etmək olar.

8. Məscidin zirzəmisini üç şərt daxilində kirayə vermək olar:

1- Zirzəmi məscid adını daşımasın;

2- Məscidin bu yerə ehtiyacı olmasın;

3- Oranın vəqfi "intifa vəqfi" deyil, "mənfəət vəqfi" olsun.

Suallar:

1- Məscidə dair haram əməllər hansılardır?

2- Məsciddə idman məşqləri etmək olarmı?

3- Məsum İmamların (ə) mövludu münasibətilə məsciddən səsucaldanlar vasitəsilə şən mahnıların yayımlanmasının şəri hökmü nədir?

4- Kafirlər müsəlmanların məscidlərinə, hətta tarixi abidələrin müşahidəsi məqsədilə olsa belə, daxil ola bilərlərmi?

5- Yas məclisini məsciddə keçirən şəxsin oranın işığından, istilik sistemindən və bu kimi imkanlarından istifadə etməsinin hökmü nədir?

6- Məscidin zirzəmisini onun şəninə uyğun bir iş üçün kirayə vermək olarmı?

[1] Şəbistan – böyük məscidlərin üstü tavanlı və kənarları örtülü hissələridir. Oxşar və bir-birinə paralel sütunlara malikdir və bir tərəfi məscidin daxilinə açılır. Şəbistan – qədim memarlıqda məscid binasının o hissəsi idi ki, insanlar orada ibadət edir və gecələr isə orada yatırdılar.

Otuz üçüncü dərs: Məscidin hökmləri (2)

Məscidə dair müstəhəb əməllər

Məscidə dair müstəhəb əməllər aşağıdakılardır:

1. Məscidi təmizləmək və abadlaşdırmaq;

2. Məscidə gedəndə ətirlənmək, təmiz və gözəl paltar geyinmək;

3. Ayaqqabını və ya ayağı çirklənməkdən və nəcasətə bulaşmaqdan qorumaq;

4. Hamıdan qabaq məscidə getmək və hamıdan sonra oradan xaric olmaq;

5. Məscidə zikr deyərək və Allahı yad edərək daxil və xaric olmaq;

6. Məscidə daxil olduqda "məscidin təhiyyət namazı" niyyətilə iki rəkət namaz qılmaq.

Məscid barəsində bir neçə şəri məsələ:

1. İnsan çarəsiz qalmadığı təqdirdə, məsciddə yatmaq məkruhdur.

2. Namazı məsciddə qılmağın fəzilətli olması yalnız kişilərə deyil, qadınlara da şamildir.

3. Başqa bir məsciddə, xüsusilə də şəhərin cami məscidində camaat namazı qılmaq üçün məhəllə məscidində namaz qılmamağın maneəsi yoxdur.

4. Cami məscidi xas bir dəstəyə aid olmayıb, bütün şəhər əhalisinin cəm olması üçün tikilən məsciddir.

5. Əgər ilkin ödənişlərlə yaşayış kompleksi tikən şirkətlər məhəllədə məscid kimi ümumi məkanların tikilməsinə dair alıcılarla əvvəlcədən razılığa gəlsələr, amma mənzili təhvil alarkən bəzi alıcılar bu məsələdə öz fikirlərini dəyişsələr və desələr ki, "Biz məscidin tikilməsinə razı deyilik", məscid tikilib vəqf edildiyi təqdirdə, onların fikir dəyişmələri daha rol oynamır. Amma əgər məscid şəri şəkildə vəqf edilməmişdən öncə bu alıcılar öz fikirlərini dəyişdirdiklərini bildirsələr, bütün alıcılara aid olan bu məkanda hamının razılığı olmadan onların sərmayəsi ilə məscid tikmək olmaz. Amma əgər şirkət alıcılarla imzaladığı müqavilədə (lazım əqddə) onların hamısı qarşısında şərt qoysa ki, bina tikilən ərazinin bir hissəsi məscidin tikintisinə ayrılacaqdır və alıcılar da bu şərti qəbul etsələr, bu halda alıcıların fikir dəyişdirmək haqqı yoxdur və onların sonradan fikir dəyişdirmələri rol oynamır.

6. Əgər təmirə ehtiyac duyulan bir məscid könüllü şəkildə və xeyriyyəçilərin pulu ilə təmir olunarsa, bu halda şəri-hakimin icazəsinə ehtiyac yoxdur.

7. Kafirlərin tikdiyi məsciddə namaz qılmağın, həmçinin kafirlərin könüllü şəkildə məscidə göstərdikləri maddi yardımları almağın maneəsi yoxdur.

8. Bir məsciddə istifadəsiz qalan bəzi əşyaları istifadə edilməsi üçün başqa bir məscidə aparmağın maneəsi yoxdur.

9. Məsumların (ə) və İmamzadələrin (ə) adına olan əzadarlıq məkanları, həmçinin hüseyniyyələr məscid hökmündə deyildir.

10. Düzgün şəri qaydada hüseyniyyə ünvanında vəqf olunan məkanı məscid etmək və ya onun bir hissəsini məscid ünvanında məscidə əlavə etmək olmaz.

11. İmamzadələrin ziyarətgahına nəzir olunan xalça-palaz, qab-qacaq və s. bu kimi əşyalara ziyarətgahda ehtiyac olmadığı halda onları məhəllənin cami məscidində istifadə etmək olar.

Suallar:

1- Məscidə dair müstəhəb əməlləri açıqlayın.

2- Məsciddə yatmağın hökmü nədir?

3- Qadınlar namazlarını evdə qılsalar yaxşıdır, yoxsa məsciddə?

4- Cami məscid hansı məscidə deyilir?

5- Təmirə ehtiyacı olan məscidi təmir etmək üçün şəri-hakimdən və ya onun vəkilindən icazə almaq lazımdırmı?

6- Həzrət Əbulfəzlin (ə) və ya başqa Kərbəla şəhidlərinin, həmçinin Məsum İmamların (ə) adına olan əzadarlıq məkanları məscid hökmündədirmi?

Otuz dördüncü dərs: Qiblə

Qiblənin hökmləri

1. Müsəlmanlar namazı üzü Kəbə evinə tərəf qılmalıdırlar. Buna görə də Kəbə evinə tərəf olan istiqamət "qiblə" adlanır. Təbii ki, Kəbə evindən uzaqda yaşayanlar üçün tam dəqiqliklə üzü Kəbə evinə tərəf dayanmaq qeyri-mümkündür. Bu baxımdan "üzü qibləyə tərəf namaz qılır" deyilməsi kifayət edir.

Diqqət:

• Üzü qibləyə tərəf olmaq odur ki, insan Yer səthində üzü Məkkə şəhərində yerləşən Kəbə evinə tərəf dayansın. Beləliklə, əgər insanın dayandığı nöqtədən Yer səthi ilə dörd istiqamətə Məkkəyə tərəf xəyali xətlər çəkilsə və bu xətlərin hamısı eyni uzunluqda olsa, insan bu istiqamətlərdən birini seçib o istiqamətə namaz qıla bilər. Amma əgər bəzi istiqamətlərə çəkilən xəyali xətlər digərləri ilə müqayisədə qısa olsa və bu səbəbdən ürfə görə üzü qibləyə dayanmağa dair fikirayrılığı yaransa, ən qısa xətt istiqaməti seçilərək o istiqamətə namaz qılınmalıdır.

• Müstəhəb namazları piyada yol gedərkən və ya minikdə hərəkət edərkən qılmaq olar. Bu zaman namazı üzü qibləyə qılmaq vacib deyildir.

2. Namaz qılan şəxsin qiblə istiqaməti barəsində yəqinliyi və ya əminliyi olmalıdır. Bu yəqinlik və ya əminlik düzgün və etibarlı qiblənüma vasitəsilə, yaxud Günəşin və ulduzların işıq saçması yolu ilə (əlbəttə, bu yoldan istifadə edən şəxsin bu barədə məlumatı və bacarığı olmalıdır), yaxud da başqa yollar vasitəsilə yarana bilər. Əgər bir şəxs qiblənin hansı istiqamətdə olduğuna əmin ola bilməsə, böyük ehtimal etdiyi istiqamətə namaz qılmalıdır. Məsələn, məscidlərin mehrabına əsaslanaraq yaranan ehtimala müvafiq əməl edə bilər.

3. Əgər bir şəxsin qiblə istiqamətini təyin etmək üçün heç bir yolu olmazsa və heç bir istiqamət barəsində də ehtimalı olmazsa, ehtiyat-vacibə görə, o, dörd istiqamətə namaz qılmalıdır. Əgər dörd namaz qılmaq üçün kifayət qədər vaxt olmazsa, vaxt çatdığı qədər namazı təkrar qılmalıdır.

4. Əgər bir şəxsin qiblə istiqaməti barəsində yəqinliyi yoxdursa, o, qiblə istiqamətinə tərəf yerinə yetirilən digər əməllərdə, məsələn, heyvan kəsimində öz ehtimalı əsasında əməl etməlidir. Əgər heç bir istiqamət barəsində ehtimalı olmazsa və bütün istiqamətlər onun üçün bərabər olarsa, bu işləri hansı istiqamətə tərəf yerinə yetirərsə, düzgündür.

Diqqət:

• Qibləni təyin etmək üçün "şaxis"ə və ya qiblənümaya əsaslanmaq insanda əminlik yaratdığı təqdirdə düzgündür. Bu halda o, öz əminliyinə müvafiq şəkildə əməl etməlidir. Əks halda, böyük ehtimal etdiyi istiqamətə namaz qılmalıdır.

• Qibləni təyin etməkdə şaxisdən istifadə etməyin qaydası belədir:

May ayının 28-i və iyul ayının 16-ı Günəş Məkkə üfüqü ilə şəri zöhr vaxtı (Məkkənin azan səsi ucaldığı vaxt) Kəbənin üstündə şaquli vəziyyətdə saçır. Əgər bir "şaxis"i (məsələn, düz bir çubuğu və ya dəmir bir mili) hamar yerə şaquli vəziyyətdə sancsaq, şaxisin kölgəsinin istiqaməti qiblənin əks istiqaməti olacaqdır (başqa sözlə, qiblə şaxisin kölgəsinin əks istiqamətidir).

Suallar:

1- "Üzü qibləyə dayanmaq" dedikdə, nə nəzərdə tutulur?

2- Əgər insan müstəhəb namazları piyada yol gedərkən və ya minikdə hərəkət edərkən qılarsa, üzü qibləyə dayanması şərtdirmi?

3- Əgər namaz qılan şəxs hansı istiqamətin qiblə olduğuna əmin ola bilməsə, nə etməlidir?

4- Əgər qibləni təyin etmək üçün heç bir yol olmasa və namaz qılan şəxs də heç bir tərəfi qiblə ehtimal etməsə, nə etməlidir?

5- Qiblənümaya hansı halda əsaslanmaq düzgündür?

6- Qibləni təyin etmək üçün şaxisdən istifadə etməyin qaydası necədir?

Otuz beşinci dərs: Gündəlik namazlar

Gündəlik namazların[1] əhəmiyyəti

1. Hər gün beş vaxtda qılınan "gündəlik namazlar" İslam dininin çox mühüm vacib əməllərindən biridir, hətta dinin sütunu hesab olunur. Bu namazları qılmamaq və ya onlara qarşı səhlənkar yanaşmaq şəri baxımdan haramdır və cəzası vardır.

2. Heç bir vəziyyətdə, hətta müharibə meydanında belə, namazı tərk etmək olmaz. Odur ki, əgər müharibə meydanında döyüşən döyüşçü "Fatihə" surəsini oxumağa və ya səcdə və rükunu yerinə yetirməyə qadir olmazsa, bacardığı şəkildə namazını qılmalıdır, məsələn, rüku və səcdəni işarə ilə yerinə yetirməsi kifayətdir.

Gündəlik namazların sayı

Gündəlik namazlar aşağıdakılardan ibarətdir:

1. Sübh namazı - 2 rəkət;

2. Zöhr namazı - 4 rəkət;

3. Əsr namazı - 4 rəkət;

4. Məğrib namazı - 3 rəkət;

5. İşa namazı - 4 rəkət.

Diqqət:

• Səfərdə dördrəkətli namazlar (zöhr, əsr və işa namazları) iki rəkət qılınır. Bu barədə bir qədər irəlidə məlumat veriləcəkdir.

Gündəlik namazların vaxtı

1. Sübh namazının vaxtı

1. Sübh namazının vaxtı "sadiq fəcr" doğandan Günəş doğanadəkdir.

2. Sübh namazının vaxtı "kazib fəcr"in deyil, "sadiq fəcr"in[2] doğduğu vaxtdır və bunu təyin etmək mükəlləfin öhdəsindədir.

3. "Sadiq fəcr"in doğması (yəni sübh namazının vaxtının başlanması) baxımından "aylı gecələr" ilə "qeyri-aylı gecələr"[3] arasında fərq yoxdur. Amma "aylı gecələr"də sübhün işığı ayın işığını üstələyənədək gözləmək və bu zaman sübh namazını qılmaq daha yaxşıdır.

2. Zöhr namazının vaxtı

Zöhr namazının vaxtı zöhrün əvvəlindən (yəni Günəşin səmaya qalxması nəticəsində əşyaların kölgəsi tam qısaldıqdan sonra yenidən şərq tərəfə doğru uzanmağa başladığı andan etibarən) başlanır və Günəşin qürubuna əsr namazını qılmaq ölçüsündə vaxt qaldıqda başa çatır.

3. Əsr namazının vaxtı

Əsr namazının vaxtı zöhrün əvvəlindən zöhr namazını qılmaq ölçüsündə vaxt keçdikdə başlanır və Günəş qürub etdikdə başa çatır.

4. Məğrib namazının vaxtı

Günəş qürub etdikdən sonra səmada yaranan qırmızılıq şərq tərəfdən tamamilə çəkildikdə məğrib namazının vaxtı başlanır. Gecə yarısına işa namazını qılmaq ölçüsündə vaxt qaldıqda məğrib namazının vaxtı başa çatır.

Diqqət:

• Günəşin qürubu ilə şərq tərəfdən qırmızılığın çəkilməsi arasındakı vaxt fəsillərə görə dəyişir.

5. İşa namazının vaxtı

Məğrib namazının vaxtı daxil olduqdan sonra məğrib namazını qılmaq ölçüsündə vaxt keçdikdə işa namazının vaxtı başlanır və gecə yarısı olduqda başa çatır.

Diqqət:

• (Məğrib və işa namazları baxımından) "gecə yarısı" Günəşin qürub etdiyi an ilə sübh namazının vaxtının daxil olduğu an arasındakı müddətin yarısı götürülür. Bu hesabla şəri zöhrdən təxminən 11 saat 15 dəqiqə keçdikdə məğrib və işa namazlarının vaxtı başa çatır.

Suallar:

1- Namazı bilərəkdən qılmamağın və ya namaza səhlənkar yanaşmağın hökmü nədir?

2- "Aylı gecələr"də sübh namazını qılmaq üçün vaxt daxil olduqdan sonra on beş-iyirmi dəqiqə gözləmək lazımdırmı?

3- Əsr namazının vaxtı günəş qürub edənədəkdir, yoxsa məğrib namazının vaxtı daxil olanadək?

4- Günəşin qürubundan məğrib namazının vaxtı daxil olanadək zaman fasiləsi neçə dəqiqədir?

5- İşa namazı üçün şəri "gecə yarısı" nə vaxtdır?

---

[1] Gün ərzində beş vaxtda qılınan vacib namazlar fiqh terminilə "yovmiyyə namazlar" adlanır.

[2] "Fəcr" sözü burada "işıq kütləsi" mənasında işlənir. Sübh vaxtı gündoğan tərəfdə iki növ işıq müşahidə olunur. Bunlardan biri "kazib fəcr", digəri isə "sadiq fəcr" adlanır.
"Kazib fəcr" o işıqdır ki, "sadiq fəcr" doğmamışdan bir qədər əvvəl səmada əmələ gəlir və üfüq boyunca yayılmaq əvəzinə, şaquli şəkildə və üzü yuxarıya doğru saçır. Dəqiqələr sonra üfüq xəttində zəif bir ağ işıq əmələ gəlir və üfüq boyunca yayılmağa başlayır, getdikcə də işığın şiddəti artır. Bu işıq "sadiq fəcr" adlanır.
"Sadiq fəcr" doğarkən zəif bir işıq olduğuna görə, onu müşahidə edə bilmək üçün şərq tərəfin üfüqü tam açıq və qaranlıq olmalıdır. Şəhərlərin daxilində onu müşahidə etmək olduqca çətindir. "Sadiq fəcr"in doğduğunu dəqiqliklə müəyyən etməyin çətin olduğunu nəzərə alaraq, ehtiyata riayət etmək məqsədilə kütləvi informasiya vasitələrində azan deyilməyə başlayandan təxminən on dəqiqə sonra sübh namazı qılınsın.

3. Burada "aylı gecələr" dedikdə, nisbətən daha işıqlı gecələr nəzərdə tutulur. Belə ki, bu gecələrdə "sadiq fəcr" doğmağa başladığı zaman ayın işığı onu görməyə mane olur. Bu gecələrdə "sadiq fəcr"i bir qədər təxirlə (ayın işığının gücündən asılı olaraq təxminən on dəqiqə sonra) müşahidə etmək mümkün olur. Odur ki, ayın 13-cü gecəsindən 17-ci gecəsinədək olan gecələrə – belə ki, bu gecələrdə Ayın dairəsi təxminən tam görünür və ayın işığı da çox olur – "aylı gecələr" deyilir. Həmçinin ayın 17-ci gecəsindən sonra ayın axırınadək Ay tədricən şərq üfüqünə (yəni fəcrin doğduğu yerə) yaxınlaşdığına görə, bu gecələrə də "aylı gecələr" deyilir və ya "aylı gecələr" hökmü bu gecələrə də şamil edilir.

Otuz altıncı dərs: Namaz vaxtlarının şəri hökmləri və namazların ardıcıllığı

Namaz vaxtlarının şəri hökmləri

1. Aşağıdakı yollarla namaz vaxtının daxil olduğunu bilmək olar:

1- İnsanın özü namaz vaxtının daxil olduğuna yəqin edir və ya əmin olur;

2- İki ədalətli kişi namaz vaxtının daxil olduğunu söyləyir;

3- Etibarlı və namaz vaxtlarını bilən bir azançı azan verir.

Diqqət:

• Qeyd olunan bu üç yoldan biri ilə namaz vaxtının daxil olduğu dəqiqləşməzsə, namaza başlamaq olmaz.

• Əgər bir şəxs namaz vaxtının daxil olduğuna yəqin edib namaza başlasa, amma namaz əsnasında vaxtın daxil olub-olmadığına şəkk etsə, onun namazı pozulur. Amma əgər namaz əsnasında vaxtın daxil olduğuna yəqinliyi olsa, sadəcə namazdan qıldığı hissəni namaz vaxtında qılıb-qılmadığına şəkk etsə, onun namazı düzgündür.

2. Namaz vaxtının daxil olduğuna insanın əminliyi olmalıdır. Odur ki:

1- Əgər kütləvi informasiya vasitələrində sabahkı günün namaz vaxtının elan edilməsi insanda namaz vaxtının daxil olduğuna əminlik yaradarsa, ona əsaslana bilər.

2- Əgər azan çəkilən kimi insanda namaz vaxtının daxil olduğuna əminlik yaranarsa, azanın sonunadək gözləmək lazım deyildir və o, namaza başlaya bilər[1].

3. İnsan gündəlik namazların vaxtı barəsində yaşadığı məntəqənin üfüqünə (hətta qütbə yaxın məntəqələrdə belə) riayət etməlidir.

4. Əgər iki məntəqənin (məsələn) şəri zöhr vaxtı arasında 25 dəqiqə fərq varsa, bu o demək deyildir ki, bu məntəqələrin sübh və məğrib namazlarının şəri vaxtı arasında da 25 dəqiqə fərq olacaqdır. (Başqa sözlə, bu məntəqələrin sübh və məğrib namazlarının şəri vaxtı arasında 25 dəqiqədən az və ya çox zaman fasiləsi ola bilər). Sadiq fəcrin doğması, şəri zöhrün daxil olması və Günəşin qürub etməsi kimi şəri vaxtlar, adətən, müxtəlif məntəqələrdə fərqlidir.

5. Əgər namaz vaxtının başa çatmasına bir rəkət namaz qılmaq ölçüsündə vaxt qalsa, namazı "əda" niyyətilə qılmaq lazımdır. Amma namazı qəsdən bu vaxta qədər yubatmaq olmaz. Əgər insan namaz vaxtının başa çatmasına bir rəkət namaz qılmaq ölçüsündə vaxt qalıb-qalmadığına dair şəkk etsə, namazı "ma fiz-zimmə" niyyətilə qılmalıdır.

6. Zöhr və əsr, həmçinin məğrib və işa namazlarının vaxtı daxil olduqdan sonra şəxs hər iki namazı həm fasiləsiz bir-birinin ardınca, həm də hər bir namazı öz fəzilətli vaxtında qıla bilər.

7. Namazı vaxtın əvvəlində qılmaq müstəhəbdir. İslam dinində namazı vaxtın əvvəlində qılmaq təkidlə tövsiyə olunmuşdur. Əgər namazı vaxtın əvvəlində qılmaq mümkün olmasa, namaz vaxtının əvvəlinə nə qədər yaxın bir vaxtda qılınsa, daha yaxşıdır. Yalnız o halda namazı yubatmaq olar ki, namazı yubatmaq onu vaxtında qılmaqdan

müəyyən baxımdan daha yaxşıdır, məsələn, camaat namazı qılmaq üçün namazı yubatmaq.

8. Əgər borc verən şəxs borcu istəsə, borcu qaytarmağa insanın imkanı olduğu təqdirdə, əvvəlcə borcu qaytarmalı, sonra namazı qılmalıdır. Həmçinin başqa bir təcili iş qarşıya çıxdıqda, onu namazdan qabaq yerinə yetirə bilər. Amma əgər namaz vaxtı dar olsa, əvvəlcə namazı qılmaq lazımdır.

Namazların ardıcıllığı

1. Zöhr və əsr namazları ardıcıllıqla qılınmalıdır, yəni birinci zöhr namazı, sonra əsr namazı qılınmalıdır. Həmçinin məğrib və işa namazlarında ardıcıllığa riayət olunmalıdır, yəni birinci məğrib namazı, sonra işa namazı qılınmalıdır. Deməli, əgər bir şəxs bilərəkdən əsr namazını zöhr namazından qabaq və ya işa namazını məğrib namazından qabaq qılsa, namaz düzgün deyildir.

2. Əgər bir şəxs səhvən və ya bilmədiyinə görə sözügedən ardıcıllığı pozsa, məsələn, əsr namazını zöhr namazından qabaq qılsa və namazı qılıb qurtardıqdan sonra səhvini başa düşsə, qıldığı namaz düzgündür.

3. Əgər bir şəxs zöhr namazını niyyət edib namaza başlasa və namaz əsnasında zöhr namazını qıldığını xatırlasa, namazı kəsməli, sonra əsr namazını qılmağa başlamalıdır. Məğrib və işa namazlarında da hökm eynidir.

4. Əgər bir şəxs zöhr namazını qıldığını düşünüb əsr namazını qılmağa başlasa və namaz əsnasında zöhr namazını qılmadığını xatırlasa, zöhr və əsr namazlarının müştərək vaxtı olduğu təqdirdə, o, dərhal niyyətini zöhr namazına dəyişməli və namazı tamamlamalıdır. Sonra əsr namazını qılmalıdır. Amma əgər bu hal zöhr namazının xüsusi vaxtında qarşıya çıxsa, ehtiyat-vacibə görə, o, niyyəti zöhr namazına dəyişib namazı tamamlamalı, sonra hər iki namazı (zöhr və əsr namazlarını) ardıcıllıqla qılmalıdır.

5. Əgər bir şəxs məğrib namazını qıldığını düşünüb işa namazını qılmağa başlasa və namaz əsnasında məğrib namazını qılmadığını xatırlasa, məğrib və işa namazlarının müştərək vaxtı olduğu, habelə dördüncü rəkətin rükusuna getmədiyi təqdirdə, o, dərhal niyyətini məğrib namazına dəyişməli və namazı tamamlamalıdır. Sonra işa namazını qılmalıdır. Amma əgər dördüncü rəkətin rükusuna gedibdirsə, ehtiyat-vacibə görə, o, namazı tamamlamalı, sonra məğrib və işa namazlarını ardıcıllıqla qılmalıdır. Həmçinin əgər bu hal məğrib namazının xüsusi vaxtında və dördüncü rəkətin rükusuna getməmişdən qabaq qarşıya çıxsa, ehtiyat-vacibə görə, o, niyyətini məğrib namazına dəyişməli və namazı tamamlamalı, sonra hər iki namazı ardıcıllıqla qılmalıdır.

Suallar:

1- Namaz vaxtının daxil olduğunu hansı yollarla bilmək olar?

2- Azan çəkilməyə başladıqda namaz vaxtı da başlanırmı, yoxsa azan qurtaranadək gözləmək və sonra namaza başlamaq lazımdır?

3- Əgər iki məntəqənin zöhr namazının şəri vaxtı arasında 25 dəqiqə fərq olarsa, bu o deməkdir ki, bu məntəqələrin sübh və məğrib namazlarının şəri vaxtları arasında da 25 dəqiqə fərq vardır?

4- Namazın hansı miqdarı namaz vaxtında qalınacağı təqdirdə “əda” niyyəti etmək düzgündür? Əgər bu miqdarın namaz vaxtında qılınıb-qılınmadığına şəkk edilsə, vəzifə nədir?

5- Əgər bir şəxs zöhr namazını niyyət edib namaza başlasa və namaz əsnasında zöhr namazını qıldığını xatırlasa, nə etməlidir?

6- Əgər bir şəxs işa namazını qılarkən məğrib namazını qılmadığını xatırlasa, nə etməlidir?

[1] Əvvəldə qeyd olunduğu kimi, sübh namazı barəsində ehtiyata riayət etmək məqsədilə azan başlanandan təxminən on dəqiqə sonra sübh namazı qılınsın.

Otuz yeddinci dərs: Azan və iqamə

Azan və iqamə

1. Gündəlik vacib namazlardan qabaq azan və iqamə oxumaq müstəhəbdir. Sübh və məğrib namazlarında, xüsusilə də camaatla qılındığı halda azan və iqamə oxumağın müstəhəbliyi təkidlə vurğulanmışdır. Amma digər vacib namazlarda, məsələn, Ayat namazında azan və iqamənin oxunması fiqhi mənbələrdə qeyd olunmamışdır.

2. Azan 18 cümlədən ibarətdir və aşağıdakı ardıcıllıqladır:

Əllahu Əkbər (4 dəfə)

Əşhədu ən la ilahə illəllah (2 dəfə)

Əşhədu ənnə Muhəmmədən Rəsulullah (2 dəfə)

Həyyə ələs-sələti (2 dəfə)

Həyyə ələl-fələhi (2 dəfə)

Həyyə əla xəyril-əməl (2 dəfə)

Əllahu Əkbər (2 dəfə)

La ilahə illəllah (2 dəfə)

Tərcüməsi:

Allah vəsf olunmaqdan ucadır.

Şəhadət verirəm ki, Allahdan qeyri ilah yoxdur.

Şəhadət verirəm ki, Muhəmməd (s) Allahın elçisidir.

Namaza tələs!

Nicata tələs!

Yaxşı əmələ tələs!

Allah vəsf olunmaqdan ucadır.

Allahdan qeyri ilah yoxdur.

3. İqamə isə 17 cümlədən ibarətdir və aşağıdakı ardıcıllıqladır:

Əllahu Əkbər (2 dəfə)

Əşhədu ən la ilahə illəllah (2 dəfə)

Əşhədu ənnə Muhəmmədən Rəsulullah (2 dəfə)

Həyyə ələs-sələti (2 dəfə)

Həyyə ələl-fələhi (2 dəfə)

Həyyə əla xəyril-əməl (2 dəfə)

Qəd qamətis-sələh (2 dəfə)

Əllahu Əkbər (2 dəfə)

La ilahə illəllah (1 dəfə)

Tərcüməsi:

Allah vəsf olunmaqdan ucadır.

Şəhadət verirəm ki, Allahdan qeyri ilah yoxdur.

Şəhadət verirəm ki, Muhəmməd (s) Allahın elçisidir.

Namaza tələs!

Nicata tələs!

Yaxşı əmələ tələs!

Namaz quruldu.

Allah vəsf olunmaqdan ucadır.

Allahdan qeyri ilah yoxdur.

İqamə ilə azan arasındakı fərqlər aşağıdakılardır:

1- Əvvəldə 4 dəfə deyil, 2 dəfə "Əllahu Əkbər" deyilir;

2- Sonda 2 dəfə deyil, 1 dəfə "La ilahə illəllah" deyilir;

3- "Həyyə əla xəyril əməl" cümləsindən sonra 2 dəfə "Qəd qamətis-səlah" cümləsi əlavə olunur.

Azan və iqaməyə aid bir neçə şəri məsələ:

• "Əşhədu ənnə Əliyyən vəliyyullah" (yəni "Şəhadət verirəm ki, Əli (ə) Allahın vəlisidir") cümləsi azan və iqamənin tərkib hissəsi deyildir. Amma şiəliyin şüarı ünvanında bu cümləni azan və iqamədə demək bəyənilir, hətta mühüm sayılır. Bu cümlə "mütləq qəsdi-qürbət"[1] ilə deyilməlidir.

• Gündəlik vacib namazların vaxtının daxil olduğunu elan etmək üçün azanın çəkilməsi və azanı eşidənlərin onu təkrar etmələri təkid olunan müstəhəb əməldir.

• Namaz vaxtının daxil olduğunu elan etmək üçün məscidlərdən və başqa məkanlardan səsucaldan vasitəsilə adi qaydada azan yayımlamağın maneəsi yoxdur. Amma əgər səsucaldan vasitəsilə Quran tilavətinin və duaların yayımlanması qonşuların əziyyət çəkmələrinə səbəb olarsa, buna icazə verilmir.

• Qadının çəkdiyi azanla kişinin kifayətlənməsi məhəlli-işkaldır.

Suallar:

1- Azan və iqamənin hökmü nədir?

2- İqamə ilə azan arasındakı fərqlər hansılardır?

3- Azan və iqamədə İmam Əlinin (ə) vəliliyinə şəhadət vermək vacibdirmi?

4- Qadının çəkdiyi azanla kişi kifayətlənə bilərmi?

---

[1] Vacib və ya müstəhəb niyyəti etmədən müəyyən bir əməli Mütəal Allahın razılığını qazanmaq üçün yerinə yetirmək

Otuz səkkizinci dərs: Namazın vacib əməlləri. Niyyət

Namazın vacib əməlləri

Namazı təşkil edən vacib əməllər aşağıdakılardır:

1- Niyyət; 2- Təkbirətul-ehram; 3- Qiyam; 4- Qiraət; 5- Rüku; 6- Səcdə; 7- Zikr; 8- Təşəhhüd; 9- Salam; 10- Tərtib; 11- Muvalat.

Diqqət:

• Namazın vacib əməllərindən bəzisi "rükn" sayılır. Belə ki, əgər bu əməllər namazda yerinə yetirilməsə, yaxud vacib saydan artıq yerinə yetirilsə, hətta səhv və ya unutqanlıq üzündən olsa belə, namaz düzgün deyildir. (Amma namazın qeyri-rükn olan vacib əməlləri bilərəkdən azaldılıb-çoxaldıldığı halda namaz düzgün deyildir. Səhvən olduğu halda isə namaz düzgündür.)

• Namazın "rükn"ləri aşağıdakılardır:

1-Niyyət; 2- Təkbirətul-ehram; 3- Qiyam (təkbirətul-ehramı deyərkən, həmçinin rükuya getməmişdən qabaq olan qiyam); 4- Rüku; 5- İki səcdə.

Niyyət

1. Niyyətin mənası və şəri hökmü

"Niyyət" namazın vacib əməllərindəndir. "Niyyət" dedikdə, müəyyən bir namazı Allahın əmrinə itaət məqsədilə qılmaq nəzərdə tutulur.

Diqqət:

• Namazda vacib olan niyyət, elə namazı Allaha xatir qılmaq niyyətində olmaqdır. Ürəkdə və ya dildə, məsələn, "dörd rəkət zöhr namazı qılıram qürbətən iləllah" deməyə ehtiyac yoxdur.

• İnsan hansı namazı qıldığını bilməlidir. Beləliklə, əgər insan niyyətində dörd rəkət namaz qılmağı tutsa, amma zöhr, yoxsa əsr namazı olduğunu müəyyən etməsə, onun namazı düzgün deyildir.

• İnsan namazı aləmlərin Rəbbinin əmrinə itaət məqsədilə qılmalıdır. Beləliklə, əgər riyakarlıq, yəni özünü dindar kimi göstərmək məqsədilə və ya bu kimi başqa məqsədlərlə namaz qılsa, o, haram iş görmüşdür və namazı düzgün deyildir. Əgər bir şəxs namazın bəzi əməllərində riyakarlıq etsə, ehtiyat-vacibə görə, namazı yenidən qılmalıdır.

2. Niyyəti döndərmək

Aşağıdakı hallarda niyyəti döndərmək vacibdir:

1- Niyyəti əsr namazından zöhr namazına döndərmək: Mükəlləf əsr namazının xüsusi vaxtı olmamışdan qabaq əsr namazını qılarkən zöhr namazını qılmadığını xatırladıqda, niyyəti əsr namazından zöhr namazına döndərməlidir;

2- Niyyəti işa namazından məğrib namazına döndərmək: Mükəlləf işa namazının xüsusi vaxtı olmamışdan qabaq işa namazını qılarkən məğrib namazını qılmadığını xatırladıqda, niyyəti dəyişməyin yeri keçmədiyi təqdirdə, yəni dördüncü rəkətin rükusuna getməmişdən qabaq niyyəti işa namazından məğrib namazına döndərməlidir;

3- Qəzaya gedən iki namazı qılarkən namazların ardıcıllığınariayət etmək şərt olduqda (məsələn, zöhr və əsr namazlarının qəzasını qılarkən): Bu halda insan unutqanlıq üzündən birinci namazı qılmamış ikinci namazı qıldıqda, niyyətini birinci namaza döndərməlidir.

Aşağıdakı hallarda niyyəti döndərmək müstəhəbdir:

1- Niyyəti əda namazından vacib namazın qəzasına döndərmək (əlbəttə, əgər insanın boynunda yalnız bir qəza namazı olarsa, xüsusilə də qəza namazı həmin günə aid olduğu təqdirdə, ehtiyat-vacibə görə, niyyəti qəza namazına döndərməlidir);

2- Niyyəti vacib namazdan müstəhəb namaza döndərmək: Camaat namazının savabını əldə etmək üçün (yəni namazı camaatla qılmaq üçün) mükəlləf qıldığı vacib namazın niyyətini müstəhəb namaza döndərir;

3- Cümə gününün zöhründə niyyəti vacib namazdan nafilə namazına döndərmək: Belə ki, mükəlləf unudaraq "Həmd"dən sonra "Cümə" surəsinin əvəzinə başqa bir "Surə"ni yarıyadək və ya daha çox hissəsini oxuduqda, vacib namazın niyyətini nafilə namazına döndərməsi müstəhəbdir.

Suallar:

1- Namazın vacib əməllərini sadalayın.

2- Namazın rüknləri ilə qeyri-rüknləri arasında fərq nədir?

3- Namazın rüknləri hansılardır?

4- Niyyəti ürəkdə və ya dildə demək vacibdirmi?

5- Hansı hallarda namazın niyyətini döndərmək vacibdir?

6- Hansı hallarda namazın niyyətini döndərmək müstəhəbdir?

Otuz doqquzuncu dərs: Təkbirətul-ehram və qiyam

Təkbirətul-ehram

1. Təkbirətul-ehramın mənası və şəri hökmü

Təkbirətul-ehram namazın vacib əməllərindən olub, namazın başlanğıcında deyilən "Əllahu əkbər"dir.

Diqqət:

• Əgər təkbirətul-ehram səhvən və ya qəsdən deyilməzsə, namaz düzgün deyildir. Həmçinin əgər insan namaza başlayarkən təkbirətul-ehram niyyətilə düzgün şəkildə "Əllahu əkbər" desə və bir qədər ara verdikdən sonra (əlbəttə, muvalat pozulmayacaq ölçüdə) və ya fasiləsiz olaraq yenidən təkbirətul-ehram niyyətilə "Əllahu əkbər" desə – istər səhvən desin, istərsə də qəsdən desin – namaz düzgün deyildir.

2. Təkbirətul-ehramın vacibatları

1. Təkbirətul-ehram "tələffüz" edilməlidir. Başqa sözlə, insanın qulağı ağır eşitmədiyi və ya ətrafda səs-küy olmadığı təqdirdə, o, dediyi və dilə gətirdiyi sözü eşitməlidir.

2. Təkbirətul-ehram ərəbcə düzgün deyilməlidir. Əgər ərəbcə səhv deyilərsə (məsələn, "Əllahu" əvəzinə "Əllahə" deyilərsə), yaxud başqa bir dildə tərcüməsi deyilərsə, namaz düzgün deyildir.

Diqqət:

• Əgər namaz qılan şəxs təkbirətul-ehramın düzgün tələffüzünü bilmirsə, onu öyrənməlidir.

3. Təkbirətul-ehramı deyərkən bədən hərəkətsiz olmalıdır. Deməli, əgər bir şəxs bədəni hərəkət etdiyi vəziyyətdə bilərəkdən və ixtiyari şəkildə təkbirətul-ehramı deyərsə, namaz düzgün deyildir.

3. Təkbirətul-ehramda şəkk etmək

Təkbirətul-ehramda şəkk iki surətdə ola bilər:

1- İnsantəkbirətul-ehramıdeyib-demədiyinə şəkk edir:

- Əgər zikrləri deməyə və "qiraət"ə başlayıbdırsa, öz şəkkinə etina etməməli və namazı davam etdirməlidir.

- Əgər zikrləri deməyə və "qiraət"ə başlamayıbdırsa, təkbirətul-ehramı deməlidir.

2- İnsan təkbirətul-ehramı dedikdən sonra onu düzgün deyib-demədiyinə şəkk edir:

Bu halda o, öz şəkkinə etina etməməlidir.

Qiyam

1. Qiyamın qisimləri

Vacib qiyam iki qisimdir: rükn və qeyri-rükn.

Rükn olan qiyam aşağıdakılardır:

1- Təkbirətul-ehramı deyərkən;

2- Rükuya gedərkən.

Qeyri-rükn olan qiyam isə aşağıdakılardır:

1- Qiraət edərkən;

2- Rükudan sonra.

1. Namazı ayaq üstə qıla bilən və heç bir üzrü olmayan şəxs namaza başlayandan etibarən rükuya gedənədək ayaq üstə dayanmalıdır. Həmçinin rükudan qalxdıqdan sonra və səcdəyə getməmişdən qabaq ayaq üstə dayanmalıdır. Bu iki halda qiyamı bilərəkdən tərk etmək namazın pozulmasına səbəb olur.

2. Təkbirətul-ehramı deyərkən, həmçinin "qiraət" başa çatdıqdan sonra və rükuya getməmişdən qabaq ayaq üstə dayanmaq (qiyam etmək) rükndur. Yəni əgər bu iki halda qiyam səhvən və unutqanlıq üzündən yerinə yetirilməzsə, namaz pozulur.

Diqqət:

• Əgər bir şəxs rükunu yerinə yetirməyi unutsa və "Həmd" və "Surə"ni oxuduqdan sonra əyləşsə, bu vaxt rükunu yerinə yetirmədiyini xatırlasa, o, ayağa qalxıb dayanmalı və ayaq üstə olduğu vəziyyətdə rükuya getməlidir. Deməli, əgər o, ayağa qalxıb dayanmadan və elə əyləşdiyi yerdən rüku vəziyyəti alsa, namazı düzgün deyildir.

2. Qiyamın vacibatları

Namaz qılan şəxs qiyamda olarkən bədənini hərəkət etdirməməli, heç bir tərəfə aydın bir şəkildə əyilməməli və heç yerə söykənməməlidir. Amma əgər çarəsizlikdən, yaxud səhvən, yaxud da unutqanlıq üzündən bunu etsə, iradı yoxdur.

Diqqət:

• Həmd" və "Surə"ni oxuyarkən, yaxud üçüncü və dördüncü rəkətlərdə təsbihati-ərbə`əni deyərkən namaz qılan şəxsin bədəni hərəkətsiz olmalıdır. Deməli, əgər o, bir qədər irəli və ya geri getmək istəsə, yaxud bədənini sağ və ya sol tərəflərə bir qədər hərəkət etdirmək istəsə, deməkdə olduğu ayə və ya zikrləri hərəkət zamanı dayandırmalıdır.

3. Qiyamın müstəhəb əməlləri

Qiyamın müstəhəb əməllərindən bəzisi aşağıdakılardır:

1- Qaməti düz saxlamaq;

2- Çiyinləri aşağı salmaq;

3- Əlləri budların üstünə qoymaq;

4- Barmaqlarını bitişik saxlamaq;

5- Səcdə yerinə baxmaq;

6- Bədənin ağırlığını iki ayağın üstünə bərabər şəkildə salmaq;

7- Xüzu və xüşu halında olmaq;

8- Ayaqları bir-birindən arxaya və ya qabağa qoymamaq.

4. Qiyamın şəri hökmləri

1. Namazı ayaq üstə dayanıb qılmağa qadir olmayan şəxs əyləşən halda namaz qılmalıdır. Amma əgər o, nəyəsə söykənib ayaq üstə dayana bilərsə, ayaq üstə dayanaraq namaz qılmalıdır.

2. Əyləşən halda namaz qılmağa qadir olmayan bir şəxs uzanan halda namaz qılmalıdır. Ehtiyat-vacibə görə, o, imkan daxilində sağ tərəfi üstə uzanmalı və onun üzü və bədəni qibləyə tərəf olmalıdır. Sağ tərəfi üstə uzanmaq mümkün olmadığı halda sol tərəfi üstə uzanmalı və onun üzü və bədəni qibləyə tərəf olmalıdır. Əgər sol tərəfi üstə də uzanmaq imkanı yoxdursa, arxası üstə uzanmalı və ayaqlarının altı qibləyə tərəf olmalıdır.

3. Əyləşən halda namaz qılan şəxs əgər "Həmd" və "Surə"ni oxuduqdan sonra ayağa qalxa və rükuya gedə bilərsə, o, ayağa qalxmalı və ayaq üstə olan vəziyyətdə rükuya getməlidir.

4. Əgər uzanan halda namaz qılan bir şəxs namaz əsnasında əziyyət çəkmədən əyləşə və ya ayağa qalxa bilsə, namazın hansı miqdarını əyləşən halda və ya ayaq üstə qıla bilərsə, bu miqdarı əyləşən halda və ya ayaq üstə qılmalıdır. Həmçinin əgər əyləşən halda namaz qılan bir şəxs namazın hansı miqdarını əziyyət çəkmədən ayaq üstə qıla bilərsə, bu miqdarı ayaq üstə qılmalıdır.

5. Namazı ayaq üstə qılmağa qadir olan bir şəxs əgər ayaq üstə dayanmaq nəticəsində xəstələnəcəyindən və ya başqa bir ziyan görəcəyindən qorxarsa, o, əyləşən halda namaz qıla bilər. Əgər namazı əyləşən halda qıldıqda da belə bir qorxu yaranarsa, o, namazı uzanan halda qıla bilər.

6. Əgər bir şəxs namaz vaxtı başa çatmamış ayaq üstə dayanaraq namaz qıla biləcəyini ehtimal edirsə, ehtiyat-vacibə görə, o vaxtadək gözləməlidir. Amma əgər bir şəxs namaz vaxtının əvvəlində müəyyən bir üzrə görə namazını əyləşən halda qılsa və namaz vaxtı başa çatanadək onun üzrü aradan qalxmasa, qıldığı namaz düzgündür və namazı yenidən qılmaq lazım deyildir.

7. Əgər bir şəxs namaz vaxtının əvvəlində ayaq üstə dayanıb namaz qılmağa qadir olmasa, eyni zamanda namaz vaxtı başa çatanadək ayaq üstə dayanıb namaz qıla bilməyəcəyini də yəqin bilsə, o, namazını əyləşən halda namaz vaxtının əvvəlində qıla bilər. Amma əgər namaz vaxtı başa çatmamış ayaq üstə dayanıb namaz qılmaq imkanı yaransa, namazı ayaq üstə yenidən qılmalıdır.

Suallar:

1- Əgər təkbirətul-ehram ərəbcə düzgün və tam tələffüz edilməsə, namaz düzgündürmü?

2- Əgər bir şəxs təkbirətul-ehramı deyib-demədiyinə şəkk etsə, nə etməlidir?

3- Vacib qiyam neçə qismə ayrılır?

4- İnsan namazda bir qədər irəli və ya geri, sağa və ya sola hərəkət edə bilərmi?

5- Qiyamın müstəhəb əməllərini sadalayın.

6- Namaz vaxtının əvvəlində ayaq üstə namaz qılmağa qadir olmayan bir şəxs namazını əyləşən halda qıla bilərmi?

Qırxıncı dərs: Qiraət (1)

Qiraət

1. “Qiraət”də oxunan surələr və zikrlər

Gündəlik namazların “qiraət”ində aşağıdakı surələr və zikrlər oxunur:

- Birinci və ikinci rəkətlərdə “Həmd” və ehtiyat-vacibə görə, tam bir “Surə” (yəni Quran surələrindən biri) oxunur;

- Üçüncü və dördüncü rəkətlərdə yalnız “Həmd” və ya bir dəfə “təsbihati-ərbə`ə” oxunur, “təsbihati-ərbə`ə”ni üç dəfə oxumaq isə ehtiyat-müstəhəbə müvafiqdir.

1. Gündəlik namazların birinci və ikinci rəkətlərində təkbirətul-ehramdan sonra “Həmd”, ardınca isə ehtiyat-vacibə görə, Qurani-Kərimin tam bir surəsi oxunmalıdır. Surənin bir və ya bir neçə ayəsini oxumaq kifayət etmir.

2. Gündəlik namazların üçüncü və dördüncü rəkətlərində yalnız “Həmd” və ya “təsbihati-ərbə`ə” (Subhanəllah, vəl-həmdu lillah, və la ilahə illəllah, vəllahu əkbər) oxunur.

2. Birinci və ikinci rəkətlərdə qiraətin şəri hökmləri

1. “Əl-Fil” və “Qurəyş” surələri bir surə hökmündədir. “Həmd”dən sonra onlardan birini oxumaq kifayət etmir. “Əz-Zuha” və “Əş-Şərh” surələri də eyni hökmü daşıyır.

Diqqət:

• Əgər bir şəxs hökmü bilmədiyinə görə “Həmd”dən sonra “Əl-Fil” və ya “Əş-Şərh” surələrini təklikdə oxusa, hökmü öyrənməkdə səhlənkarlıq göstərmədiyi təqdirdə, onun qıldığı namazlar düzgün hökmündədir.

2. Gündəlik namazlarda “Həmd”i və tam bir “Surə”ni oxuduqdan sonra Quran oxumaq niyyətilə bir sıra ayələri oxumağın maneəsi yoxdur.

3. Əgər namaz vaxtı dar olsa və ya insan “Surə”ni oxuyacağı təqdirdə oğrunun, yaxud yırtıcı bir heyvanın, yaxud da başqa bir şeyin ona ziyan verəcəyindən qorxsa, “Surə”ni oxumamalıdır.

4. Əgər bir şəxs səhvən “Surə”ni “Həmd”dən qabaq oxusa və rükuya getməmişdən öncə bu səhvini başa düşsə, “Həmd”i oxuduqdan sonra “Surə”ni yenidən oxumalıdır. Amma əgər “Surə”ni oxuduğu zaman səhvini başa düşsə, “Surə”ni kəsməli və “Həmd”i oxuduqdan sonra “Surə”ni əvvəldən oxumalıdır.

5. Əgər bir şəxs “Həmd” və “Surə”ni və ya onlardan birini oxumağı unutsa və rüku etdikdən sonra bunu başa düşsə, onun namazı düzgündür.

6. Əgər bir şəxs rükuya getməmişdən qabaq “Həmd” və “Surə”ni və ya təkcə “Surə”ni oxumadığını başa düşsə, onu oxumalı və sonra rükuya getməlidir. Əgər təkcə “Həmd”i oxumadığını başa düşsə, “Həmd”i oxumalı, sonra “Surə”ni yenidən oxumalıdır. Həmçinin əgər rüku həddində əyilməmişdən qabaq “Həmd”i və ya “Surə”ni və ya onların hər ikisini oxumadığını başa düşsə, ayağa qalxıb eyni qaydada əməl etməlidir.

7. Vacib namazlarda vacib səcdəsi olan ayələrin yerləşdiyi surələri oxumağa icazə verilmir. Əgər bir şəxs bilərəkdən və ya səhvən bu surələrdən birini oxusa və səcdə ayəsinə çatsa, ehtiyat-vacibə görə, tilavət səcdəsini yerinə yetirməli və ayağa qalxmalıdır. “Surə” başa çatmadığı təqdirdə, onu başa çatdırmalı və namazı qılıb qurtardıqdan sonra onu yenidən qılmalıdır. Amma əgər bir şəxs səcdə ayəsinə çatmamışdan qabaq bunu başa düşsə, ehtiyat-vacibə görə, bu “Surə”ni kəsməli və başqa bir “Surə” oxumalıdır. Namazı qılıb qurtardıqdan sonra onu yenidən qılmalıdır.

8. Əgər bir şəxs namaz qıldığı əsnada səcdə ayəsini eşidərsə, onun namazı düzgündür. O, səcdə ayəsini eşitdikdən sonra səcdə etmək əvəzinə səcdəyə işarə etməli, sonra namazını davam etdirməlidir.

9. Əgər bir şəxs “Həmd”i oxuduqdan sonra “İxlas” və ya “Kafirun” surələrini oxumağa başlasa, onu kəsib başqa bir “Surə” oxuya bilməz. Amma əgər bir şəxs cümə namazında unutqanlıq üzündən “Cümə” və “Munafiqun” surələrinin yerinə bu surələrdən birini oxusa, onu kəsib “Cümə” və “Munafiqun” surələrini oxuya bilər.

10. Əgər bir şəxs namazda “İxlas” və “Kafirun” surələrindən qeyri bir surəni oxusa, bu surənin yarısını keçmədiyi təqdirdə, onu kəsib başqa bir surə oxuya bilər.

11. Əgər bir şəxs oxumaqda olduğu surənin bir hissəsini unutsa, yaxud vaxtın darlığına və ya başqa bir səbəbə görə surəni oxumağı başa çatdıra bilməsə, həmin surəni kəsməli və başqa bir surəni oxumalıdır. Bu halda surənin yarısını keçib-keçməməyin, yaxud bu

surənin “İxlas” və “Kafirun” surələri olub-olmamasının bir fərqi yoxdur.

12. Müstəhəb namazlarda “Surə” oxumaq vacib deyildir. Hətta əgər bir müstəhəb namaz nəzir etmək nəticəsində vacib olsa belə, bu namazda “Surə” oxumaq vacib deyildir. Amma xüsusi bir surənin oxunması vurğulanan müstəhəb namazları (məsələn, valideyn üçün olan namazı) qaydası üzrə qılmaq istədikdə, həmin surə oxunmalıdır.

3. Üçüncü və dördüncü rəkətlərdə qiraətin şəri hökmləri

1. Namazın üçüncü və dördüncü rəkətlərində təsbihati-ərbə`əni bir dəfə demək kifayətdir, baxmayaraq ki, üç dəfə demək ehtiyat-müstəhəbə müvafiqdir.

2. Əgər bir şəxs “təsbihati-ərbə`ə”ni üç dəfə, yoxsa üç dəfədən çox və ya az dediyini bilməsə, onun üzərinə heç bir vəzifə düşmür. Amma rükuya getməmişdən qabaq ən az sayı götürə bilər və “təsbihati-ərbə`ə”ni üç dəfə dediyinə yəqin etmək üçün onu təkrar edə bilər.

3. Əgər bir şəxs adəti üzrə namazın üçüncü və dördüncü rəkətlərində “təsbihati-ərbə`ə”ni deyirsə, amma “Həmd”i oxumağı qərara alarsa, buna baxmayaraq, bu qərarına diqqət etməyib öz adəti üzrə “təsbihati-ərbə`ə”ni deyərsə, onun namazı düzgündür. Həmçinin əgər bir şəxs adəti üzrə namazın üçüncü və dördüncü rəkətlərində “Həmd”i oxuyursa, amma “təsbihati-ərbə`ə”ni deməyi qərara alarsa, buna baxmayaraq, bu qərarına diqqət etməyib öz adəti üzrə “Həmd”i oxuyarsa, onun namazı düzgündür.

4. Əgər bir şəxs namazın üçüncü və dördüncü rəkətlərində diqqətsizlik üzündən “Həmd” və “Surə”ni oxusa və bunu namazdan sonra başa düşsə, onun namazı düzgündür və namazı yenidən qılmaq lazım deyildir.

5. Əgər bir şəxs ayaq üstə ikən “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxuyub-oxumadığına şəkk etsə, o, “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxumalıdır. Amma əgər müstəhəb istiğfarı (yəni “Əstəğfirullahə Rəbbi və ətubu iləyh” cümləsini) deyərkən “təsbihati-ərəbə`ə”ni oxuyub-oxumadığına şəkk etsə, onu oxuması lazım deyildir.

6. Əgər bir şəxs üçüncü və dördüncü rəkətlərin rükusunda “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxuyub-oxumadığına şəkk etsə, o öz şəkkinə etina etməməlidir. Amma əgər rükuya gedərkən və rüku həddində əyilməmişdən qabaq bu şəkki etsə, ehtiyat-vacibə görə, ayağa qalxıb “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxumalıdır.

Suallar:

1- Gündəlik namazların “qiraət”ində hansı surələr və zikrlər oxunur?

2- Əgər bir şəxs hökmü bilmədiyinə görə “Həmd”dən sonra “Əl-Fil” və ya “Əş-Şərh” surələrini təklikdə oxusa, nə etməlidir?

3- Vacib namazlarda vacib səcdəsi olan surələri oxumağın hökmü nədir?

4- Müstəhəb namazlarda “Həmd”dən sonra “Surə” oxunmalıdırmı?

5- Əgər bir şəxs “təsbihati-ərbə`ə”ni üç dəfə, yoxsa üç dəfədən çox və ya az dediyini bilməsə, hökmü nədir?

6- Əgər bir şəxs namazın üçüncü və dördüncü rəkətlərində diqqətsizlik üzündən “Həmd” və “Surə”ni oxusa və bunu namazdan sonra başa düşsə, namazı yenidən qılmalıdırmı?

Qırx birinci dərs: Qiraət (2)

4. “Qiraət”də surələrin və zikrlərin ucadan və ya astadan oxunması

1. Sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni ucadan oxumaq kişiyə vacibdir. Amma zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni astadan oxumalıdır. Qadın da zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni astadan oxumalıdır. Amma sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni ucadan və ya astadan oxuya bilər. Əgər naməhrəm kişi qadının səsini eşidirsə, onu astadan oxuması daha yaxşıdır.

2. Namazın üçüncü və dördüncü rəkətlərində həm kişi, həm də qadın “təsbihati-ərbə`ə”ni və ya “Həmd”i astadan oxumalıdır. Əgər “Həmd”i oxuyursa, ehtiyata görə, “Bismilləhir rahmənir rahim”i də astadan deməlidir.

Diqqət:

• Sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində ucadan oxumağın, zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində isə astadan oxumağın vacibliyi “Həmd” və “Surə”nin qiraətinə aiddir. Həmçinin məğrib və işa namazlarının üçüncü və dördüncü rəkətlərində astadan oxumağın vacibliyi “Həmd”in və ya təsbihati-ərbə`ənin qiraətinə aiddir. Amma rüku və səcdənin zikrlərini, təşəhhüdü və salamları, həmçinin gündəlik namazların digər vacib zikrlərini həm ucadan, həm də astadan oxumaq olar.

• Gündəlik namazlarda ucadan və ya astadan oxumağın vacibliyi baxımından əda namazı ilə qəza namazı arasında – hətta ehtiyat qəza namazı olsa belə – fərq yoxdur.

• Astadan oxumağın meyarı “səsin cövhərinin əsla mövcud olmaması” (yəni səsin heç çıxmaması) deyildir, əksinə, səsin cövhərini aşkar etməməkdir (yəni səsi ucaltmamaq və bir növ pıçıltı ilə oxumaqdır). Bunun əksi olaraq, ucadan oxumağın meyarı səsin cövhərini aşkar etməkdir (yəni səsi ucaltmaqdır).

• Əgər bir şəxs namazın ucadan oxunan “qiraət”ini bilərəkdən astadan oxusa və ya astadan oxunan “qiraət”ini bilərəkdən ucadan oxusa, onun namazı düzgün deyildir. Amma əgər unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə belə etsə, onun namazı düzgündür. Əgər o, “Həmd” və “Surə”ni oxuyarkən səhvini başa düşsə, səhvən ucadan və ya astadan oxuduğu hissəni yenidən oxuması lazım deyildir.

• Əgər bir şəxs səsini adi həddən çox qaldıraraq “Həmd” və “Surə”ni oxusa, məsələn, fəryad çəkərək oxusa, onun namazı pozulur.

5. Qiraətin vacibatları

1. Qiraət zamanı sözləri tələffüz etmək, başqa sözlə, dildə demək vacibdir. Odur ki, sözləri tələffüz etmədən ürəkdə oxumaq, yəni sözləri ürəkdən keçirmək kifayət etmir. Namazın sözlərini tələffüz etməyin göstəricisi isə odur ki, əgər bir şəxs ağır eşitmirsə və ya ətrafda səs-küy yoxdursa, o öz dediyini eşitsin.

Diqqət:

• Lal insan, yəni danışmaq qabiliyyətinə malik olmayan, amma başqa cəhətlərdən sağlam olan bir şəxs əgər namazı işarə ilə qılsa, namazı düzgündür və kifayət edir.

2. Namazın sözləri düzgün və səhvsiz tələffüz edilməlidir. Əgər bir şəxs namazın sözlərini düzgün tələffüz etməyi heç bir vəchlə öyrənə bilmirsə, bacardığı şəkildə tələffüz etsin. Ehtiyat-müstəhəb odur ki, bu şəxs namazını camaatla qılsın.

Diqqət:

• Əgər bir şəxs “Həmd” və “Surə”ni, yaxud namazın digər sözlərini və zikrlərini yaxşı bilmirsə, amma onları öyrənə bilərsə, namazın vaxtı geniş olduğu təqdirdə onları öyrənməlidir. Amma əgər namazın vaxtı dardırsa, namazı camaatla qılmaq mümkün olduğu təqdirdə, ehtiyat-vacibə görə, namazını camaatla qılmalıdır.

• Ümumiyyətlə, qiraətin (yəni oxunuş və tələffüzün) düzgünlüyü meyarı hərflərin hərəkələrini düzgün oxumaq və sükuna riayət etmək, həmçinin hərfləri öz məxrəcindən tələffüz etməkdir, belə ki, ərəbdillilər başqa bir hərfin deyil, məhz həmin hərfin tələffüz edildiyini söyləsinlər.

• Qiraətdə təcvid qaydalarına riayət etmək vacib deyildir.

• Əgər bir şəxs “Həmd” və “Surə”nin hansısa bir kəlməsini bilmirsə, yaxud bilsə də, bilərəkdən onu demirsə, yaxud hansısa bir hərfin yerinə bilərəkdən başqa bir hərfi dey” hərfinin yerinə “” hərfini deyirsə, yaxud kəlmələrin “hərəkələr”ini dəyişirsə və ya təşdidə riayət etmirsə, onun namazı düzgün deyildir.

• Əgər bir şəxs “Həmd” və “Surə”ni və ya namazın digər zikrlərini səhv tələffüz edibdirsə, məsələn, “yuləd” sözünü “yulid” olaraq tələffüz edibdirsə, “müqəssir cahil”[1] olduğu təqdirdə, ehtiyat-vacibə görə, onun namazı düzgün deyildir. Amma əgər “qasir cahil”[2] olubsa və həmin tələffüzün düzgün olduğunu düşünübsə, onun namazı düzgündür.

• “Maliki yəvmiddin” ayəsində “maliki” sözü “məliki” kimi də oxunmuşdur. Odur ki, ehtiyat ünvanında bu sözün iki şəkildə oxunmasının maneəsi yoxdur.

• Əgər bir şəxs “Həmd” və “Surə”ni oxuyarkən bir ayəni digər ayəyə birləşdirərsə, əvvəlki ayənin axırıncı hərəkəsini tələffüz etməsi vacib deyildir. Məsələn, əgər o, “Maliki yəvmiddin” ayəsində “yəvmiddin” kəlməsinin axırıncı hərəkəsini deməsə və fasiləsiz olaraq “İyyakə nə`budu və iyyakə nəstə`in” desə, bunun iradı yoxdur. Bu, “sükunlu vəsl” adlanır. Ayənin təşkil olunduğu kəlmələrin axırıncı hərəkəsi barəsində də hökm eynidir, baxmayaraq ki, burada “sükunlu vəsl” etməmək ehtiyat-müstəhəbə müvafiqdir.

• Əgər bir şəxs “Ğəyril məğzubi əleyhim” ifadəsindən sonra bir qədər dayanıb, daha sonra “Vələzzallin” ifadəsini desə, bu, cümlənin bütövlüyünə xələl gətirmədiyi təqdirdə, iradı yoxdur.

• Əgər bir şəxs bir ayəni oxumağa başladıqdan sonra əvvəlki ayəni düzgün oxuyub-oxumadığına şəkk etsə, o öz şəkkinə etina etməsin. Həmçinin əgər bir ayənin bir cümləsini deyərkən əvvəlki cümləni düzgün deyib-demədiyinə şəkk etsə, məsələn, “İyyakə nəstə`in” cümləsini deyərkən “İyyakə nə`budu” cümləsini düzgün deyib-demədiyinə şəkk etsə, o öz şəkkinə etina etməsin. Əlbəttə, düzgün tələffüz edib-etmədiyinə şəkk etdiyi kəlmə və ifadəni ehtiyat üzrə yenidən desə, bunun maneəsi yoxdur.

3. “Həmd” və “Surə”ni oxuyarkən və ya “təsbihati-ərbə`ə”ni deyərkən bədən hərəkətsiz olmalıdır. Əgər şəxs bir qədər irəli və ya geri hərəkət etmək istəsə, yaxud bədənini bir qədər sağa və ya sola hərəkət etdirmək istəsə, deməkdə olduğu zikri hərəkət zamanı dayandırmalıdır.

6. Qiraətin bir sıra müstəhəb və məkruh əməlləri

Qiraətin müstəhəb əməllərindən bəzisi aşağıdakılardır:

1. Birinci rəkətdə “Həmd”dən qabaq “Ə`uzu billahi minəş-şəytanir-rəcim” demək;

2. Zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində “Bismillahir rahmənir rahim”i ucadan demək;

3. “Həmd” və “Surə”ni aram-aram və tələsmədən oxumaq;

4. Hər ayənin sonunda vəqf etmək, yəni əvvəlki ayəni sonrakı ayəyə birləşdirməmək;

5. “Həmd” və “Surə”ni oxuyarkən ayələrin mənasına diqqət yetirmək;

6. “Həmd”i oxuduqdan sonra “Əlhəmdu lillahi rəbbil aləmin” demək, istər camaat namazında olsun, istərsə də tək halda (furada) qılınan namazda olsun, həmçinin namaz qılan şəxs istər imam-camaat olsun, istərsə də iqtida edən olsun, fərqi yoxdur;

7. “İxlas” surəsini oxuduqdan sonra bir, ya iki və ya üç dəfə “Kəzalikəllahu Rəbbi” cümləsini demək;

8. “Həmd”i, həmçinin “Surə”ni oxuduqdan sonra bir qədər dayanmaq, sonra namazı davam etdirmək;

9. Üçüncü və dördüncü rəkətlərdə təsbihati-ərbə`əni dedikdən sonra Allahdan bağışlanma diləyərək bu cümləni demək: “Əstəğfirullahə Rəbbi və ətubu iləyh”, yaxud “Əllahummə iğfir li”.

Qiraətin məkruh əməllərindən bəzisi aşağıdakılardır:

1. Gündəlik namazlarda “İxlas” surəsini bir dəfə belə oxumamaq;

2. “İxlas” surəsi istisna olmaqla, eyni bir “Surə”ni hər iki rəkətdə təkrar oxumaq.

Suallar:

1- Qadınlar sübh, məğrib və işa namazlarının “Həmd” və “Surə”sini ucadan oxuya bilərlərmi?

2- Sübh namazının qəzasını qılan şəxs namazı ucadan qılmalıdır, yoxsa astadan?

3- Əgər sübh, məğrib və işa namazlarının “Həmd” və “Surə”si ucadan oxunmazsa, hökm nədir?

4- Namazın sözlərini ata-anasının və ya müəlliminin öyrətdiyi kimi tələffüz edən bir şəxs əgər sonradan bu sözləri səhv tələffüz etdiyini bilsə, qıldığı namazların hökmü nədir?

5- Qiraətin düzgünlüyünün meyarı nədir?

6- “Sükunlu vəsl” nə deməkdir və hökmü nədir?

[1] Müqəssir cahil – o şəxsdir ki, öz cəhalətini, yəni “bilmədiyi”ni bilir və bu cəhaləti aradan qaldırmağın yollarını da bilir, amma şəriəti öyrənməyə səhlənkar yanaşır.

[2] Qasir cahil – o şəxsdir ki, ümumiyyətlə, öz cəhalətindən xəbərsizdir, yəni bilmədiyini bilmir, yaxud da öz cəhalətindən xəbərdar olsa da, onu aradan qaldırmağa bir yolu yoxdur.

Qırx ikinci dərs: Rüku

Rüku

1. Rükunun mənası və şəri hökmləri

Hər rəkətdə "qiraət"dən sonra bir rüku yerinə yetirmək vacibdir. Rüku – əlləri dizlərə qoymaq mümkün olan bir həddə əyilməkdir.

Diqqət:

• Əgər bir şəxs rüku həddində əyildikdən və bədəni hərəkətsiz olduqdan sonra qalxsa və rüku niyyətilə yenidən əyilsə, namazı pozulur. (Çünki rüku rükndür və onu artırmaq namazın pozulmasına səbəb olur.)

2. Rükunun vacibatları

Rükunun vacib əməlləri aşağıdakılardır:

1- Əlləri dizlərə qoymaq mümkün olan bir həddə əyilmək;

2- Zikr demək;

3- Rükunun zikrini deyərkən bədənin hərəkətsiz olması;

4- Rüku etdikdən sonra qalxıb ayaq üstə dayanmaq;

5- Rükudan qalxdıqdan sonra bədənin hərəkətsiz olması.

1- Əlləri dizlərə qoymaq mümkün olan bir həddə əyilmək

1. Hər rəkətdə "qiraət"dən sonra o həddə əyilmək lazımdır ki, əlləri dizlərə qoymaq mümkün olsun. Əgər əl barmaqlarının ucu dizlərə çatarsa, bu da kifayət edir.

2. Ehtiyat-vacibə görə, rüku halında əllər dizlərə qoyulmalıdır.

3. Əyilmək rüku niyyətilə olmalıdır. Beləliklə, əgər bir şəxs başqa bir iş üçün, məsələn, bir həşəratı öldürmək və ya yerdən nəyisə götürmək niyyətilə əyilsə, bunu rüku hesab edə bilməz. Əksinə, o, ayağa qalxmalı və rüku niyyətilə yenidən əyilməlidir. Bu halda "rükn" artırılmış hesab olunmur və namaz pozulmur.

4. Əgər bir şəxs rükunu əyləşən halda yerinə yetirirsə, kifayət edir ki, o, üzü dizlərinin müqabilinə çatacaq həddə əyilsin. Əlləri dizlərə qoymaq isə lazım deyildir.

2- Zikr demək

1. Rükunun vacib zikri bir dəfə "Subhanə Rabbiyəl-əzimi və bi-həmdihi" və ya üç dəfə "Subhanəllah"dan ibarətdir. Əgər "Subhanəllah" zikrinin yerinə (səcdənin xüsusi zikrindən qeyri) başqa bir zikr, məsələn, "Əl-həmdu lilləh", "Əllahu əkbər" və s. üç dəfə deyilərsə, kifayət edir.

2. Əgər bir şəxs səhvən rükunun zikrinin yerinə səcdənin zikrini desə, iradı yoxdur. Həmçinin əgər bunu Mütəal Allahın ümumi zikri niyyətilə desə, iradı yoxdur, amma rükunun xüsusi zikrini də deməlidir.

3- Rükunun zikrini deyərkən bədənin hərəkətsiz olması

1. Rükunun vacib zikri deyildiyi zaman bədən hərəkətsiz olmalıdır. Hətta rüku zikri müstəhəb niyyətilə deyildiyi zaman, məsələn, "Subhanə Rabbiyəl-əzimi və bi-həmdihi" zikri və ya başqa bir zikr təkrar edildiyi zaman, ehtiyat-vacibə görə, bədən hərəkətsiz olmalıdır.

2. Əgər rükunun vacib zikrini deyərkən bədən qeyri-ixtiyari olaraq hərəkət etsə, belə ki, vacib olan hərəkətsizlik aradan getsə, bədən hərəkətsiz vəziyyətə gəldikdən sonra vacib zikr təkrar deyilməlidir.

3. Rükunun zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilən bir şəxs əgər rüku həddində əyilməmişdən və bədəni hərəkətsiz vəziyyət almamışdan qabaq bilərəkdən rükunun zikrini desə, onun namazı pozulur. Amma əgər səhvən rükunun zikrini desə, rüku həddində əyildikdən və bədəni hərəkətsiz vəziyyət aldıqdan sonra vacib zikri yenidən deməlidir.

4. Rükunun zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilən bir şəxs əgər rükunun vacib zikrini tamamlamamışdan qabaq bilərəkdən rükudan qalxsa, onun namazı pozulur. Amma əgər səhvən rükudan qalxsa, rüku həddindən xaric olmamışdan

qabaq səhvini başa düşdüyü təqdirdə, həmin vəziyyətdə dayanmalı və rükunun zikrini deməlidir. Rüku həddindən xaric olduğu təqdirdə isə onun namazı düzgündür.

5. Əgər bir şəxs xəstəliklə və ya bu kimi başqa bir səbəblə əlaqədar olaraq üç dəfə "Subhanəllah" zikrini demək ölçüsündə rükuda qala bilmirsə, onun bir dəfə "Subhanəllah" deməsi kifayət edir. Əgər o, yalnız bir an rükuda qala bilirsə, ehtiyat-vacibə görə, həmin an zikri deməyə başlamalı və rükudan qalxa-qalxa zikri tamamlamalıdır.

4 və 5- Rüku etdikdən sonra qalxıb ayaq üstə dayanmaq və bədənin hərəkətsiz olması

zikrini dedikdən sonra qalxıb ayaq üstə dayanmaq və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra səcdəyə getmək lazımdır. Əgər bir şəxs bilərəkdən qalxıb ayaq üstə dayanmadan və ya bədən hərəkətsiz vəziyyət almadan səcdəyə gedərsə, onun namazı pozulur.

3. Rükunu unutmaq

1. Əgər bir şəxs rüku etməyi unutsa və birinci səcdəyə getməmişdən qabaq bunu xatırlasa, o, ayağa qalxıb dayanmalı və ayaq üstə dayandığı halda rükuya getməlidir. Əgər o, tam ayağa qalxmamış və əyilmiş vəziyyətdə ikən rükuya gedərsə, bu, kifayət etmir. Belə rüku ilə kifayətləndiyi təqdirdə, onun namazı düzgün deyildir. Amma əgər o, ikinci səcdəyə getdikdən sonra bunu xatırlasa, namazı pozulur. (Çünki namazın bir rüknünü yerinə yetirməmişdir və digər rüknə daxil olmuşdur.)

2. Əgər bir şəxs ikinci səcdəyə getməmişdən qabaq (yəni birinci səcdədə ikən və ya birinci səcdədən sonra və ikinci səcdəyə daxil olmamışdan qabaq) rüku etmədiyini xatırlasa, ayağa qalxıb dayanmalı və rüku etməlidir. Rükudan sonra iki səcdəni yerinə yetirməlidir. Namaz tamamlandıqdan sonra isə artıq səcdə üçün iki səhv-səcdəsi yerinə yetirmək ehtiyat-müstəhəbdir.

4. Rükunun müstəhəb əməlləri

Rükunun müstəhəb əməllərindən bəzisi aşağıdakılardır:

1. Rükuya getməzdən öncə ayaq üstə ikən təkbir (yəni "Əllahu əkbər") demək;

2. Əgər namaz qılan şəxs kişidirsə, dizlərini geriyə versin, yox əgər qadındırsa, dizlərini geriyə verməsin;

3. Başı aşağı salmamaq və bədən səviyyəsində saxlamaq;

4. Əlin içini dizlərin üstünə qoymaq;

5. İki ayağın arasına baxmaq;

6. Rükunun zikrindən qabaq və ya sonra salavat demək;

7. Rükudan qalxıb ayaq üstə dayandıqdan və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra "Səmi`əllahu li-mən həmidəh" demək;

8. Əgər namaz qılan şəxs qadındırsa, əllərini dizlərindən yuxarıya qoysun.

Suallar:

1- Rükunun vacib əməlləri hansılardır?

2- Rükuda əlləri dizlərə qoymaq vacibdirmi?

3- Əyləşən halda namaz qılan şəxs rüku edərkən nə qədər əyilməlidir?

4- Əgər rükunun vacib zikrini deyərkən bədən qeyri-ixtiyari hərəkət etsə və vacib olan hərəkətsizlik aradan getsə, nə etmək lazımdır?

5- Rükunu unudan şəxs əgər ikinci səcdəni yerinə yetirməmişdən öncə rüku etmədiyini xatırlasa, nə etməlidir?

6- Rükunun müstəhəb əməllərindən beşini sadalayın.

Qırx üçüncü dərs: Səcdə (1)

Səcdə

1. Səcdənin mənası və şəri hökmləri

Vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra iki səcdə yerinə yetirmək vacibdir. Səcdə – təvazökarlığı bildirmək niyyətilə alını yerə qoymaqdır.

Diqqət:

• Bir rəkətdə iki səcdə birlikdə "rükn" sayılır. Yəni əgər bir şəxs istər bilərəkdən, istərsə də səhvən səcdənin ikisini də yerinə yetirməsə və ya iki səcdə artıq yerinə yetirsə, namazı pozulur.

• Əgər bir şəxs bilərəkdən bir səcdə az və ya çox yerinə yetirsə, onun namazı pozulur. Amma əgər bunu səhvən etsə, namazı pozulmur. Bunun özünəxas hökmü vardır ki, bir qədər irəlidə açıqlanacaqdır.

2. Səcdənin vacibatları

Səcdənin vacib əməlləri aşağıdakılardır:

1- Bədənin yeddi üzvünü yerə qoymaq;

2- Zikr demək;

3- Səcdənin zikrini deyərkən bədənin hərəkətsiz olması;

4- Zikri deyərkən yeddi üzvün yerdə olması;

5- Birinci səcdədən qalxıb əyləşmək və bədən hərəkətsiz olduqdan sonra ikinci səcdəyə getmək;

6- Səcdə üzvlərinin qoyulduğu yerlərin biri-digərindən dörd bağlı barmaqdan hündürdə və ya alçaqda olmaması;

7- Alının qoyulduğu yerin pak olması;

8- Üzərinə səcdə edilən şey ilə alın arasında bir maneənin olmaması;

9- Alının "üzərinə səcdə etməyin düzgün olduğu şey"in üzərinə qoyulması;

10- Ehtiyat-vacibə görə, təşəhhüd deyilməyən rəkətlərdə ikinci səcdədən sonra əyləşmək.

1- Bədənin yeddi üzvünü yerə qoymaq

1. Səcdə edərkən bədənin yeddi üzvü yerə qoyulmalıdır: alın, iki əlin içi, iki dizlər və ayağın iki baş barmağının başı.

Diqqət:

• Səcdə edərkən əlləri xırda dəlikləri olan döşəmə daşlarının üstünə qoymağın maneəsi yoxdur.

• Səcdədə ayağın baş barmağından əlavə digər barmaqları yerə qoymağın maneəsi yoxdur.

2. Əgər bir şəxs alnını bilərəkdən və ya səhvən yerə qoymasa, səcdə etməmişdir, baxmayaraq ki, digər altı üzv (yəni iki əlin içi, iki diz və iki ayağın baş barmağının başı) yerə qoyulubdur. Amma əgər alnını yerə qoysa, digər üzvləri isə səhvən yerə qoymasa, yaxud səcdənin zikrini səhvən deməsə, səcdə düzgündür.

3. Əgər bir şəxs əyilib alnını yerə qoya bilmirsə, bacardığı qədər əyilməli və möhürü və ya üzərinə səcdə etməyin düzgün olduğu başqa bir şeyi hündür bir əşyanın üstünə qoymalı və alnını möhürə elə bir şəkildə qoymalıdır ki, ətrafdakılar onun səcdə etdiyini söyləsinlər. Amma mümkün olduğu təqdirdə əllərin içini, dizləri və ayağın baş barmağının başını adi qaydada yerə qoymalıdır. Əgər möhürü qoymaq üçün bir əşya tapılmazsa, möhürü əli ilə yuxarı qaldırmalı və alnını ona qoymalıdır.

4. Əgər bir şəxs əsla əyilə bilmirsə və hündür bir yerə də səcdə edə bilmirsə, səcdə etmək əvəzinə başı ilə səcdəyə işarə etməlidir. Əgər bunu da edə bilmirsə, gözü ilə səcdəyə işarə etməlidir.

Diqqət:

• Əlil arabasından istifadə edən və vəziyyətinə görə yeddi səcdə üzvünü yerə qoya bilməyən bir şəxs əgər möhürü arabanın dəstəyinə

və ya balış və s. vasitələrin üstünə qoyub səcdə edə bilirsə, bu qaydada səcdə etməlidir. Qıldığı namaz da düzgündür. Əgər bu qaydada namaz qılmaq mümkün deyildirsə, bacardığı şəkildə, hətta başın işarəsi ilə və ya başın işarəsi ilə mümkün olmadığı halda gözün işarəsi ilə səcdə və rükunu yerinə yetirsin. Onun namazı düzgündür.

5. Əgər bir şəxs palçıqlı yerdə namaz qılırsa və səcdə etdiyi təqdirdə bədəninin və paltarının palçığa bulaşması onu böyük çətinliyə salacaqdırsa, o, ayaq üstə dayandığı vəziyyətdə başı ilə səcdəyə işarə edə bilər və təşəhhüdü də ayaq üstə oxuya bilər.

2. Zikr demək

1. Səcdənin vacib zikri bir dəfə "Subhanə Rabbiyəl-ə`la və bi-həmdihi" və ya üç dəfə "Subhanəllah"dan ibarətdir. Əgər "Subhanəllah" zikrinin yerinə (rükunun xüsusi zikrindən qeyri) başqa bir zikr, məsələn, "Əl-həmdu lilləh", "Əllahu əkbər" və s. üç dəfə deyilərsə, kifayət edir.

2. Əgər rüku və səcdənin zikri bir-birinin yerinə deyilsə, bu, səhvən olduğu təqdirdə, iradı yoxdur. Həmçinin əgər bilərəkdən belə deyilsə, amma izzətli və cəlalətli Allahı ümumi zikr etmək niyyətilə deyilsə, iradı yoxdur, lakin rüku və ya səcdənin xüsusi zikri də deyilməlidir.

3. Səcdənin zikrini deyərkən bədənin hərəkətsiz olması

1. **Səcdənin vacib zikri deyilən zaman bədən hərəkətsiz olmalıdır. Həmçinin ehtiyat-vacibə görə, müstəhəb zikr niyyətilə hansısa bir zikr deyilərkən, məsələn, "Subhanə Rabbiyəl-ə`la və bi-həmdihi" və ya başqa bir zikr təkrar edilərkən bədən hərəkətsiz olmalıdır.**

2. Səcdənin zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilən bir şəxs əgər alnını yerə qoymamışdan və bədəni hərəkətsiz olmamışdan qabaq bilərəkdən zikr desə, onun namazı pozulur. Amma əgər səhvən zikr desə, səcdə zamanı səhvini başa düşdüyü təqdirdə, bədəni hərəkətsiz olduqdan sonra zikri yenidən deməlidir. Səcdədən qalxdıqdan sonra səhvini başa düşdüyü təqdirdə isə onun namazı düzgündür.

3. Səcdənin zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilən bir şəxs əgər zikr tamamlanmamışdan qabaq bilərəkdən başını səcdədən qaldırsa, onun namazı pozulur. Amma əgər səhvən başını səcdədən qaldırsa, onun namazı düzgündür.

4. Əgər döşəyin və ya bu kimi bir şeyin üstündə dayanaraq səcdə yerinə yetirilsə (belə ki, döşəyin üstündə dayanaraq səcdə etdikdə bədən əvvəlcə hərəkət edir və sonra dayanır), bədən hərəkətsiz olduğu zaman zikr deyildiyi təqdirdə, namaz düzgündür.

4. Zikri deyərkən yeddi üzvün yerdə olması

1. Əgər səcdənin zikri deyilərkən yeddi üzvdən biri bilərəkdən yerdən qaldırılsa, namaz pozulur. Amma zikr deyilməyən zaman alından başqa üzvlər yerdən qaldırılsa və yenidən yerə qoyulsa, bunun iradı yoxdur.

2. Əgər səcdənin zikri tamamlanmamışdan qabaq alın səhvən yerdən qaldırılsa, alını yenidən yerə qoymaq olmaz. Bu, bir səcdə hesab olunmalıdır. Amma əgər digər üzvlər səhvən yerdən qaldırılsa, onları yenidən yerə qoymaq və zikri demək lazımdır.

3. Əgər səcdə edərkən alın səcdə yerinə dəyib qeyri-ixtiyari olaraq yerdən qalxsa, alını yenidən yerə qoymaq və zikri demək lazımdır. Bu, birlikdə bir səcdə hesab olunur.

5. Birinci səcdədən qalxıb əyləşmək və bədən hərəkətsiz olduqdan sonra ikinci səcdəyə getmək

Birinci səcdənin zikri tamamlandıqdan sonra əyləşmək və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra ikinci səcdəyə getmək lazımdır.

6- Səcdə üzvlərinin qoyulduğu yerlərin birinin-digərindən dörd bağlı barmaq ölçüsündən hündürdə və ya alçaqda olmaması

Səcdə edərkən alının qoyulduğu yer dizlərin və ayaq barmaqlarının başının qoyulduğu yerdən dörd bağlı barmaq ölçüsündən hündürdə və ya alçaqda olmamalıdır (başqa sözlə desək, namaz məkanı düz və hamar yer olmalıdır).

7. Alının qoyulduğu yerin pak olması

Möhür, ümumiyyətlə, üzərinə səcdə edilən şey pak olmalıdır. Amma möhürü napak xalçanın üstünə qoyub səcdə etməyin, yaxud bir tərəfi napak olan möhürün pak tərəfinə alını qoyub səcdə etməyin maneəsi yoxdur.

8. Üzərinə səcdə edilən şey ilə alın arasında bir maneənin olmaması

Üzərinə səcdə edilən şey ilə alın arasında heç bir maneə olmamalıdır. Beləliklə, əgər saç, papaq və ya möhürün üzərini örtən çirk qatı "üzərinə səcdə edilən şey" ilə alın arasında maneə əmələ gətirərsə, namaz düzgün deyildir. Amma əgər möhürün sadəcə rəngi dəyişmiş olarsa, bunun iradı yoxdur.

Diqqət:

• Əgər bir şəxs səcdə zamanı başa düşsə ki, alnı hansısa bir maneəyə görə, məsələn, çadraya görə möhürə dəymir, o, başını yerdən qaldırmadan alnını hərəkət etdirməli və alnını möhürə qoymalıdır. Əgər başını yerdən qaldırsa, bu hərəkət məsələni bilməmək və ya unutqanlıq üzündən olduğu, habelə bir rəkətin iki səcdəsindən yalnız birində baş verdiyi təqdirdə, namaz düzgündür və namazı yenidən qılmaq vacib deyildir. Amma əgər məsələni bilərək bu hərəkəti edərsə və ya bir rəkətin hər iki səcdəsində bunu edərsə, namaz düzgün deyildir və namazı yenidən qılmalıdır.

9. Alının "üzərinə səcdə etməyin düzgün olduğu şey"in üzərinə qoyulması

Alın "üzərinə səcdə etməyin düzgün olduğu şey"in üzərinə qoyulmalıdır.

10. Ehtiyat-vacibə görə, təşəhhüd deyilməyən rəkətlərdə ikinci səcdədən sonra əyləşmək

Ehtiyat-vacibə görə, bütün namazların birinci rəkətində və dördrəkətli namazların üçüncü rəkətində ikinci səcdədən sonra əyləşmək, daha sonra növbəti rəkət üçün ayağa qalxmaq lazımdır. Əlbəttə, əgər mükəlləf bir qədər əyləşmədən sonrakı rəkət üçün ayağa qalxarsa, onun namazı pozulmur.

Suallar:

1- Namazda bir səcdəni artırıb-azaltmağın hökmü nədir?

2- Səcdə edərkən ayağın baş barmağından əlavə digər barmaqları yerə qoymaq olarmı?

3- Alnını yerə qoya bilməyən şəxs nə etməlidir?

4- Döşək və s. bu kimi yumşaq əşyaların üstünə möhür qoyub səcdə etmək olarmı?

5- Üzəri qaralmış və çirk tutmuş möhürün üzərinə səcdə etmək olarmı?

6- Təşəhhüd deyilməyən rəkətlərdə ikinci səcdədən sonra əyləşmək vacibdirmi?

Qırx dördüncü dərs: Səcdə (2)

3. Üzərinə səcdə etməyin düzgün olduğu şeylər

Yerin və Yerdən çıxan şeylərin üzərinə üç şərt daxilində səcdə etmək düzgündür:

1- Yeyilən olmamalıdır;

2- Geyinilən olmamalıdır;

3- Mədəndən çıxarılmamalıdır.

1. Namazın səcdəsində alın Yerə və ya Yerdən çıxıb yeyilməyən və geyinilməyən bitkilərin üzərinə qoyulmalıdır, məsələn, daş, torpaq, çubuq, ağacların yarpağı və s. Amma Yerdən çıxmasına baxmayaraq, yeyilən və geyinilən bitkilərin, məsələn, buğda və pambığın üzərinə səcdə etmək düzgün deyildir. Həmçinin Yerin tərkibindən sayılmayan qazıntıların, məsələn, metalların və şüşənin üzərinə səcdə etmək düzgün deyildir.

2. Binaların tikintisində və ya dekorasiyasında istifadə edilən mərmər daşının və bu kimi başqa daşların üzərinə səcdə etmək düzgündür. Həmçinin əqiq, firuzə, dürr və bu kimi daşların üzərinə səcdə etmək düzgündür, amma bu daşların üzərinə səcdə etməmək ehtiyat-müstəhəbə müvafiqdir.

3. Yerdən çıxan və yalnız heyvan yemi olan bitkilərin, məsələn, ot və samanın üzərinə səcdə etmək düzgündür.

4. Çayın yaşıl yarpağı üzərinə səcdə etmək, ehtiyat-vacibə görə, düzgün deyildir. Amma qəhvə yarpağının üzərinə səcdə etmək – onun yarpağı qida kimi istifadə edilmədiyinə görə – düzgündür.

5. Qida kimi istifadə edilməyən güllərin, həmçinin yalnız xəstəliklərin müalicəsində istifadə edilən bitki dərmanlarının, məsələn, gülxətminin və bənövşə gülünün üzərinə səcdə etmək düzgündür. Amma tibbi xassələrinə görə müalicədən əlavə, qida kimi də istifadə edilən bitkilərin, məsələn, kətan toxumunun üzərinə səcdə etmək düzgün deyildir.

6. Bəzi məntəqələrdə və ya bəzi toplumlarda yeyilən, amma başqalarının qida kimi istifadə etmədikləri bitkilər yeyilən bitkilər sayılır. Belə bitkilərin üzərinə səcdə etmək düzgün deyildir.

7. Kərpic, saxsı, tabaşir, əhəng və sementin üzərinə səcdə etmək düzgündür.

8. Çubuqdan və bitkidən (kətan və pambıq istisna olmaqla) hazırlanan kağızın üzərinə səcdə etmək düzgündür.

9. Əgər bir şəxsin ixtiyarında "üzərinə səcdə etməyin düzgün olduğu bir şey" yoxdursa, yaxud soyuq və ya istiliklə, yaxud da başqa bir səbəblə əlaqədar onun üzərinə səcdə edə bilmirsə, onun paltarı pambıqdan və ya kətandan olduğu, yaxud pambıq və ya kətandan olan başqa bir şey onun ixtiyarında olduğu təqdirdə, onların üzərinə səcdə etməlidir. Ehtiyat-vacibə görə, pambıq və ya kətandan olan paltarın üzərinə səcdə etmək mümkün olduğu halda başqa bir şeyin (yəni pambıq və ya kətandan olan başqa bir şeyin üzərinə) səcdə etməsin. Amma əgər onun ixtiyarında bu kimi paltar və ya başqa bir əşya yoxdursa, ehtiyat-vacibə görə, o, əlinin üstünə səcdə etməlidir.

10. Əgər namaz əsnasında üzərinə səcdə edilən şey itərsə və üzərinə səcdə etməyin düzgün olduğu bir şey insanın əli altında olmazsa, namaz vaxtı geniş olduğu təqdirdə, namazı kəsmək lazımdır. Namaz vaxtı dar olduğu təqdirdə isə əvvəlki məsələdə qeyd edilən ardıcıllığa riayət edərək səcdəni yerinə yetirmək lazımdır.

11. Təqiyyə etməyin vacib olduğu yerdə xalçanın və bu kimi əşyanın üzərinə səcdə etmək olar. Namaz qılmaq üçün başqa yerə getmək vacib deyildir. Amma əgər həmin yerdə zəhmətə düşmədən həsirin, daşın və ya bu kimi əşyaların üzərinə səcdə etmək mümkündürsə, ehtiyat-vacibə görə, bu əşyaların üzərinə səcdə etmək lazımdır.

12. Əgər birinci səcdəni yerinə yetirərkən möhür alına yapışsa, ikinci səcdəni yerinə yetirmək üçün möhürü alından qoparmaq lazımdır. Əgər bir şəxs belə bir hal ilə qarşılaşdığı zaman möhürü alnından qoparmasa və möhür alnında ikən səcdəyə getsə, bunun iradı vardır.

Diqqət:

• Ən yaxşı səcdə torpağın və Yerin üstünə edilən səcdədir, çünki Mütəal Allah qarşısında xüzu və xüşu əlamətidir. Səcdə üçün heç bir torpaq fəzilətdə Seyyidüş-şühəda İmam Hüseynin (ə) türbətinə çatmır.

4. Səcdənin müstəhəb əməlləri

Səcdənin müstəhəb əməllərindən bəzisi aşağıdakılardır:

1. Səcdədən əvvəl və sonra bədən hərəkətsiz vəziyyətdə ikən "təkbir" demək;

2. İki səcdə arasında bədən hərəkətsiz vəziyyətdə ikən“Əstəğfirullahə Rabbi və ətubu iləyh” demək;

3. Səcdəni uzadıb zikrlər demək, dünya və axirət hacətlərini istəmək, salavat demək;

4. Səcdədən qalxıb sol bud üstündə əyləşmək və sağ ayağın üstünü sol ayağın altına qoymaq.

Diqqət:

• Səcdədə Quran oxumaq məkruhdur (yəni savabı azdır).

Səcdəyə aid iki şəri məsələ:

• Mütəal Allahdan qeyrisi üçün səcdə etmək haramdır. Məsum İmamların (ə) hərəminin girişində alınlarını yerə qoyan şəxslər əgər Mütəal Allaha şükür etmək niyyətilə səcdə edirlərsə, bunun maneəsi yoxdur. Əks halda, bu iş haramdır.

• “Səcdə”, “Fussilət”, “Nəcm” və “Ələq” surələrinin hər birində bir vacib səcdəsi olan ayə vardır. Əgər bir şəxs bu ayəni oxusa və ya onu dinləsə, ayə tamamlanandan sonra dərhal səcdə etməlidir. Əgər səcdə etməyi unudarsa, yadına düşdüyü vaxt səcdəni yerinə yetirməlidir.

Diqqət:

• Səcdə ayələri aşağıdakılardır:

1. “Səcdə” surəsi, 15-ci ayə;

2. “Fussilət” surəsi, 37-ci ayə;

3. “Nəcm” surəsi, 62-ci ayə;

4. “Ələq” surəsi, 19-cu ayə.

• Əgər bir şəxs radio, televiziya və ya disk oxuducu və bu kimi vasitələrlə yayımlanan səcdə ayəsini dinləsə, səcdə etməlidir.

• Quranın vacib səcdəsində o şeylərin üzərinə səcdə etmək lazımdır ki, namazda onların üzərinə səcdə etmək düzgün hesab olunurdu. Amma namazın səcdəsinin digər şərtlərinə riayət etmək, məsələn, üzü qibləyə tərəf olmaq, dəstəmazlı olmaq və s. vacib deyildir.

• Quranın vacib səcdəsində alını səcdə məqsədilə yerə qoymaq kifayət edir və zikr demək vacib deyildir, amma zikr demək müstəhəbdir. Daha yaxşı olar ki, bu zikr deyilsin: “La ilahə illəllahu həqqən həqqa. La ilahə illəllahu imanən və təsdiqa. La ilahə illəllahu ubudiyyətən və riqqa. Səcədtu ləkə ya Rəbbi tə`əbbudən və riqqa, la mustənkifən və la mustəkbirən, bəl ənə əbdun zəlilun zəifun xaifun mustəcir”.

Suallar:

1- Hansı şeylərin üzərinə səcdə etmək düzgündür və hansı şərtləri vardır?

2- Kağızın üzərinə səcdə etmək olarmı?

3- Əgər namaz əsnasında üzərinə səcdə edilən şey itərsə və üzərinə səcdə etməyin düzgün olduğu bir şey insanın əli altında olmazsa, nə etməlidir?

4- Hansı torpağın üzərinə səcdə etmək daha fəzilətlidir?

5- Məsum İmamların (ə) hərəmlərinin qapısı ağzında səcdə etməyin hökmü nədir?

6- Əgər bir şəxs radio, televiziya və ya disk oxuducu və bu kimi vasitələrlə yayımlanan səcdə ayəsini dinləsə, dərhal səcdə etməlidirmi?

Qırx beşinci dərs: Zikr. Təşəhhüd. Salam

Zikr

1. Zikrin mənası

İzzətli və cəlalətli Allahın yad edilməsini ehtiva edən hər bir ifadə "zikr" sayılır (məsələn, Əllahu əkbər, Əl-həmdu lilləh, Subhanəllah). Həzrət Peyğəmbərə (s) və onun Əhli-beytinə (s) salavat ən yaxşı zikrlərdəndir. Amma rüku və səcdənin vacib zikri rükuda bir dəfə "Subhanə Rabbiyəl azimi və bi-həmdih" və səcdədə bir dəfə "Subhanə Rabbiyəl ə`la və bi-həmdih" zikrini demək, yaxud da üç dəfə "Subhanəllah" zikrini deməkdən ibarətdir. Əgər "Subhanəllah"ın yerinə başqa zikrlər, məsələn, "Əl-həmdu lillah", "Əllahu əkbər" və s. zikrlər eyni sayda deyilərsə, kifayət edir.

2. Zikrin vacibatları

1. Namazın zikrlərini tələffüz etmək lazımdır. Tələffüz etməyin göstəricisi isə odur ki, əgər bir şəxs ağır eşitmirsə və ya ətrafda səs-küy yoxdursa, o öz dediyini eşitsin.

2. Namazın bütün vacib zikrləri ərəbcə düzgün tələffüz edilməlidir. Əgər namaz qılan şəxs ərəb sözlərinin düzgün tələffüzünü bilmirsə, bunu öyrənməlidir. Amma əgər öyrənməyə qadir deyildirsə, üzrlü hesab olunur.

3. Namazın bütün vacib və müstəhəb zikrlərini deyərkən bədən hərəkətsiz olmalıdır. Əgər namaz qılan şəxs bir qədər irəliyə və ya geriyə, yaxud sağa və ya sola hərəkət etmək istəsə, hərəkət etdiyi zaman dediyi zikri kəsməlidir. Bəli, hərəkət edə-edə "mutləq zikr" niyyətilə (yəni namazın zikrini niyyət etmədən və sadəcə zikr deməyi niyyət edərək) zikr deməyin maneəsi yoxdur.

Zikrə aid bir neçə şəri məsələ:

• Əgər rüku və səcdənin zikri bir-birinin yerinə deyilsə, bu, səhvən olduğu təqdirdə, iradı yoxdur. Bilərəkdən deməyə isə icazə verilmir. Amma əgər bilərəkdən deyilsə də, izzətli və cəlalətli Allahı ümumi zikr etmək niyyətilə olsa, iradı yoxdur. Bu halda rüku və ya səcdənin xüsusi zikri də deyilməlidir.

• Əgər bir şəxs rüku və ya səcdəni yerinə yetirdikdən sonra zikri səhv dediyini başa düşsə, namazı düzgündür.

• Səcdə və rükunun vacib zikrini dedikdən sonra həmin zikri təkrar etməyin savabı vardır və yaxşı olar ki, tək sayda (məsələn, 3, 5 və ya 7 dəfə) deyilsin. Səcdədə bu deyilənlərdən əlavə, salavat demək, dünya və axirət hacətləri üçün dua etmək müstəhəbdir.

• Rükuya getməmişdən qabaq və hər səcdədən əvvəl və sonra "təkbir" demək müstəhəbdir. Bu təkbir rükuya və ya səcdəyə gedərkən, yaxud rükudan və ya səcdədən qalxarkən (yəni bədən hərəkət edərkən) deyilməməlidir. Amma namazda istənilən halda, o cümlədən rükuya və səcdəyə gedərkən və ya rükudan və səcdədən qalxarkən "mutləq zikr" niyyətilə hər bir zikri, eləcə də təkbir demək olar.

• "Bihəvlilləhi və quvvətihi əqumu və əq`udu" (Allahın güc- qüvvəsilə oturub-qalxıram) zikrini sonrakı rəkət üçün ayağa qalxarkən demək müstəhəbdir.

Təşəhhüd

1. Təşəhhüdün mənası və şəri hökmü

Bütün namazların ikinci rəkətində, həmçinin məğrib namazının üçüncü rəkətində və zöhr, əsr və işa namazlarının dördüncü rəkətində ikinci səcdədən sonra əyləşmək və bədən hərəkətsiz olduqdan sonra "təşəhhüd" adlanan zikri demək vacibdir. Bu əməl "təşəhhüd" adlanır.

2. Təşəhhüdün sözləri

Təşəhhüdün vacib zikri belədir:

"Əşhədu ən-la ilahə illəllah, vəhdəhu la şərikə ləhu. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu, Əllahummə salli əla Muhəmmədin və Ali-Muhəmməd".

Diqqət:

• Təşəhhüdün vacib zikrindən qabaq "Əl-həmdu lilləh" və ya "Bismilləhi və billəhi, vəl-həmdu lilləhi, və xəyrul-əsmai lilləhi" cümləsini demək müstəhəbdir. Həmçinin təşəhhüdün salavatından sonra bu cümləni demək müstəhəbdir: "Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu".

• Təşəhhüdün salavatını deyərkən "Əllahummə salli əla Muhəmmədin"ə çatdıqda vəqf edib "Muhəmməd" demək, sonra salavatın ardını, yəni "və Ali-Muhəmməd"i demək cümlənin bütövlüyünə xələl gətirmədiyi təqdirdə, düzgündür.

3. Təşəhhüdü unudan şəxsin vəzifəsi

1. Əgər bir şəxs üçüncü rəkət üçün ayağa qalxsa, amma rükuya getməmişdən qabaq təşəhhüdü oxumadığını xatırlasa, o, əyləşməli və təşəhhüdü oxumalı, sonra ayağa qalxaraq üçüncü rəkətin təsbihati-ərbə`əsini yenidən deməli və namazı davam etdirməlidir. Namazı qılıb qurtardıqdan sonra artıq yerə ayağa qalxdığı üçün ehtiyat-müstəhəbə görə, iki səhv-səcdəsi də yerinə yetirsin.

2. Əgər bir şəxs təşəhhüdü deməyi unutsa və üçüncü rəkətin rükusunda və ya rükudan sonra bunu xatırlasa, o, namazı başa çatdırmalı və salamdan sonra unudulan təşəhhüd üçün iki səhv-səcdəsi yerinə yetirməlidir. Ehtiyat-vacibə görə, səhv-səcdəsindən qabaq unudulan təşəhhüdün qəzasını da deməlidir.

Salam

1. Salamın mənası və şəri hökmü

Salam – namazın axırıncı hissəsidir və onu dedikdən sonra namaz başa çatır. Namazın vacib salamı budur: "Əssəlamu ələykum". Daha yaxşı olar ki, bu ifadə də ona əlavə olunsun: "Və rəhmətullahi və bərəkatuhu". Yaxud salam ünvanında bu cümlə deyilsin: "Əssəlamu ələyna və əla ibadillahis-salihin".

Diqqət:

• Bu iki salamdan qabaq "Əssələmu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuhu" demək isə müstəhəbdir.

2. Namazın salamını unudan şəxsin vəzifəsi

Əgər bir şəxs namazın salamını deməyi unutsa, amma namazın surəti pozulmamışdan qabaq bunu xatırlasa, yaxud namazı pozan bir işi – istər bu işi bilərəkdən görmək namazı pozsun, istərsə də onu səhvən görmək namazı pozsun, məsələn, qiblədən dönmək – yerinə yetirməyibsə, o, namazın salamını deməlidir və namazı düzgündür.

Suallar:

1- Zikrin mənası nədir? Həzrət Peyğəmbər (s) və onun Əhli-beytinə (ə) salavat demək zikr hesab olunurmu?

2- Rüku və səcdənin zikrini bilərəkdən bir-birinin yerinə deməyin iradı varmı?

3- Rüku və səcdənin vacib zikrini dedikdən sonra hansı zikri demək daha yaxşıdır?

4- "Bihəvlillahi və quvvətihi əqumu və əqu`du" zikrini ayağa qalxarkən demək olarmı?

5- Təşəhhüdün salavatını oxuyarkən "Allahummə salli əla Muhəmmədin"ə çatdıqda vəqf edib "Muhəmməd" demək, sonra salavatın ardını, yəni "və Ali-Muhəmməd" demək hansı halda düzgündür?

6- Namazın salamını unudan şəxs nə etməlidir?

Qırx altıncı dərs: Tərtib və muvalat

Tərtib

1. Tərtib və onun şəri hökmü

Namaz qeyd edilən tərtib və ardıcıllıqla qılınmalı və onun hər bir hissəsi öz yerində yerinə yetirilməlidir. Deməli, əgər namazın tərtibinə bilərəkdən riayət olunmazsa, məsələn, "Surə" "Həmd"dən qabaq oxunarsa, yaxud səcdə rükudan qabaq yerinə yetirilərsə, namaz pozulur.

2. Tərtibin səhvən pozulması

Tərtibin səhvən pozulmasının aşağıdakı surətləri vardır:

1- Namazın bir rüknünü digər rüknündən qabaq yerinə yetirmək, məsələn, iki səcdəni unudub yerinə yetirməmək və sonrakı rəkətin rükusuna getdikdən sonra iki səcdənin yerinə yetirilmədiyini xatırlamaq:

Bu halda namaz pozulur.

2- Namazın qeyri-rüknünü rükndən qabaq yerinə yetirmək, məsələn, iki səcdəni unudub yerinə yetirməmək və təşəhhüdü oxuyarkən iki səcdənin yerinə yetirilmədiyini xatırlamaq:

Bu halda unudulan rükn yerinə yetirilməli, sonra səhvən yerinə yetirilən hissə yenidən yerinə yetirilməlidir.

3- Namazın rüknünü qeyri-rükndən qabaq yerinə yetirmək, məsələn, "Həmd"i unudub oxumamaq və rükuya getdikdən sonra "Həmd"in oxunmadığını xatırlamaq:

Bu halda namaz düzgündür.

4- Namazın bir qeyri-rüknünü digər qeyri-rüknündən qabaq yerinə yetirmək, məsələn, "Həmd"i unudub "Surə"ni oxumağa başlamaq, amma rükuya getməmişdən öncə "Həmd"in oxunmadığını xatırlamaq:

Bu halda unudulan qeyri-rükn yerinə yetirilməli (məsələn, "Həmd" oxunmalı), sonra səhvən yerinə yetirilən hissə yenidən yerinə yetirilməlidir (məsələn, "Surə" yenidən oxunmalıdır.)

Muvalat

Namazın hissələri, məsələn, rüku, səcdələr, təşəhhüd və s. fasiləsiz yerinə yetirilməli və onların arasında böyük və normal hesab olunmayan fasilə edilməməlidir. Deməli, əgər namazın hissələri arasında o qədər fasilə edilsə ki, ətrafdakı insanların nəzərində bu, namazın surətindən çıxmaq hesab olunsa, namaz pozulur.

Diqqət:

• Əgər bir şəxs namazın sözləri və ya bir sözün hərfləri arasında səhvən normal olmayan fasilə etsə, amma bu, namazın surətinin aradan gedəcəyi bir tərzdə olmasa və bunu növbəti rüknə daxil olduqdan sonra başa düşsə, namaz düzgündür. Həmin sözləri və cümlələri təkrar etmək lazım deyildir. Amma əgər bunu növbəti rüknə daxil olmamışdan qabaq başa düşsə, geri qayıdıb onları yenidən deməlidir.

Qunut

1. Qunutun mənası və şəri hökmü

Bütün vacib və müstəhəb namazların ikinci rəkətində "Həmd" və "Surə"ni oxuduqdan sonra və rükuya getməmişdən qabaq əlləri qaldırıb dua etmək müstəhəbdir. Bu əməl "qunut" adlanır.

Diqqət:

• Cümə namazında qunut birinci rəkətdə rükudan qabaq və ikinci rəkətdə rükudan sonra yerinə yetirilir.

• Fitr və Qurban bayramlarının namazında birinci rəkətdə beş qunut, ikinci rəkətdə dörd qunut yerinə yetirilir.

2. Qunutun zikrləri

Qunutda istənilən zikri, duanı və ya Quran ayəsini oxumaq olar. Hətta bir salavat, ya "Subhanəllah" zikri, ya "Bismillah" cümləsi

və ya "Bismilləhir rahmənir rahim" ayəsi ilə kifayətlənmək olar. Amma Qurani-Kərimdə keçən duaları oxumaq daha yaxşıdır. Məsələn, "Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən, və-qina əzabən-nar" dua məzmunlu ayəsini oxumaq olar. Yaxud Məsumların (ə) buyurduqları zikr və duaları oxumaq olar. Məsələn, "La ilahə illəllahu əl-həlimul-kərim. La ilahə illəllahu əl-əliyyul-əzim. Subhanəllahi rəbbis-səmavatis-səb`i və rəbbil-ərəzinəl-səb`i, və ma fihinnə və ma bəynəhunnə, və rəbbil-ərşil-əzim, vəl-həmdu lilləhi rəbbil-aləmin."

Təqibat

Namazın təqibatını[1] ərəbcə oxumaq şərt deyildir. Amma Məsum İmamlardan (ə) nəql olunan duaları və zikrləri oxumaq tövsiyə olunur. O cümlədən "Xanım Zəhranın təsbihi" adlı zikri deməyin çox böyük savabı vardır. Bu zikr belədir: 34 dəfə "Əllahu əkbər", 33 dəfə "Əlhəmdu lilləh" və 33 dəfə "Subhanəllah".

Diqqət:

• Dua kitablarında Məsum İmamlardan (ə) ali məzmunlu və çox dəyərli dualar mövcuddur.

• Namazdan sonra şükür səcdəsi etmək müstəhəbdir. Yəni bütün nemətlərə görə, həmçinin namazı bizə nəsib etdiyinə görə Allaha şükür etmək niyyətilə alını yerə qoymaq müstəhəbdir. Yaxşı olar ki, bu səcdədə üç dəfə "şukrən lilləh" cümləsi də deyilsin.

Suallar:

1- Əgər namaz qılan şəxs səhvən namazın bir rüknünü digər rüknündən qabaq yerinə yetirsə, namazın hökmü nədir?

2- Tərtib ilə muvalatın fərqi nədir?

3- Əgər namazda muvalata riayət olunmasa, namazın hökmü nədir?

4- Fitr və Qurban bayramları namazının neçə qunutu var?

5- Qunutda bir salavat deməklə kifayətlənmək olarmı?

6- Namazın təqibatında hansı dua və zikrləri oxumaq daha yaxşıdır?

---

[1] Namazdan sonra oxunan surə, ayə, dua və zikrlər. *Müt.*

Qırx yeddinci dərs: Namazın tərcüməsi

Namazın tərcüməsi

Yaxşı olar ki, insan namazın sözləri və zikrlərinin mənasına diqqət yetirsin və onları hüzuri-qəlb ilə dilə gətirsin. Bununla da ruhun paklanması və qəlbin Mütəal Allaha yaxınlaşması təsirinə malik olan namazdan bəhrələnsin.

1 "Həmd" surəsinin tərcüməsi

1- Bismilləhir rahmənir rahim.

Rəhman (rəhməti dünyada bütün insanlara şamil olan) və rəhim (əbədi rəhməti möminlərə xas olan) Allahın adı ilə.

2- Əl-həmdu lilləhi rabbil-aləmin.

Həmd-səna yalnız aləmlərin rəbbi olan Allaha məxsusdur.

3- Ər-rahmənir-rahim.

(O Rəbb ki,) rəhman və rəhimdir.

4- Məliki yəvmiddin.

Din gününün (Qiyamətin) ixtiyar sahibidir.

5- İyyakə nə`budu və iyyakə nəstə`in.

Yalnız Sənə bəndəlik edir və yalnız Səndən kömək diləyirik.

6- İhdinəs-siratəl-mustəqim.

Bizi düz yola yönəlt.

7- Siratəlləzinə ən`əmtə ələyhim, ğəyril-məğzubi ələyhim və-ləz-zallin.

O kəslərin yoluna ki, onlara nemət vermisən (Səni tanımanın nurunu onların qəlbinə saçmısan). O kəslər ki, Sənin qəzəbinə düçar olmamış və düz yolu azmamışlar. (Yəni onlara böyük nemət verdikdən sonra onlar nankorluq və üsyan etməmiş, beləliklə də Sənin qəzəbini qazanmamış və düz yoldan azmamışlar.)

2. "Tövhid" surəsinin tərcüməsi

1- Bismilləhir rahmənir rahim. Qul huvəllahu əhəd.

Rəhman və rəhim Allahın adı ilə. De: Odur yeganə olan Allah.

2- Əllahus-saməd.

Allah ehtiyacsızdır. (Hamı Ona möhtacdır.)

3- Ləm yəlid və ləm yuləd.

Övladı yoxdur və heç kimin də övladı deyildir.

4- Və ləm yəkun ləhu kufuvən əhəd.

Ona tay-bərabər yoxdur.

3. Rüku və səcdənin və bir sıra müstəhəb zikrlərin tərcüməsi

1- Subhanəllah.

Allah pak və eyibsizdir.

2- Subhanə Rabbiyəl-əzimi və bi-həmdihi.

Əzəmətli Rəbbim pak və eyibsizdir və mən Ona həmd-səna deyirəm.

3- Subhanə Rabbiyəl ə`la və bi-həmdihi.

Uca Rəbbim pak və eyibsizdir və mən Ona həmd-səna deyirəm.

4- Səmiəllahu li-mən həmidəhu.

Allahın lütfü Ona həmd-səna deyən kəsə şamil olsun.

5- Əstəğfirullahə Rabbi və ətubu iləyh.

Rəbbim olan Allahdan bağışlanma diləyirəm və Ona tərəf qayıdıram.

6- Bi-həvlilləhi və quvvətihi əqumu və əq`udu.

Allahın güc-qüvvəsi ilə ayağa qalxır və əyləşirəm.

4. Qunutun zikrlərinin tərcüməsi

1- Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən, və qina əzabən-nar.

"Ey Rəbbim! Dünyada da, axirətdə də bizə xeyirlər əta et və bizi odun əzabından qoru."

2- La ilahə illəllahu əl-həlimul-kərim. La ilahə illəllahu əl-əliyyul-əzim. Subhanəllahi rəbbis-səmavatis-səb`i və rəbbil-ərəzinəl-səb`i, və ma fihinnə və ma bəynəhunnə, və rəbbil-ərşil-əzim, vəl-həmdu lilləhi rəbbil-aləmin.

"Həlim və kərim Allahdan qeyri ilah yoxdur. Uca və əzəmətli Allahdan qeyri ilah yoxdur. Yeddi səmanın və yeddi yerin, onlarda olanların və onların arasında olanların və əzəmətli ərşin rəbbi olan Allah pak və eyibsizdir. Həmd-səna yalnız aləmlərin rəbbi olan Allaha məxsusdur."

5. Təsbihati-ərbə`ənin tərcüməsi

Subhanəllah, vəl-həmdu lilləh, və la ilahə illəllah, vəllahu əkbər.

"Allah pak və eyibsizdir. Həmd-səna yalnız Allaha məxsusdur. Allahdan qeyri ilah yoxdur. Allah ən böyükdür."

6. Təşəhhüd və salamın tərcüməsi

Təşəhhüdün tərcüməsi:

Əl-həmdu lilləh. Əşhədu ən-la ilahə illəllah, vəhdəhu la şərikə ləhu. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu. Əllahummə salli əla Muhəmmədin və Ali-Muhəmməd. Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu.

"Həmd-səna yalnız Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan qeyri ilah yoxdur, yeganədir və şəriki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd Onun bəndəsi və elçisidir. Ey Allahım, Muhəmmədə və Ali-Muhəmmədə salavat göndər. Onun şəfaətini qəbul et və dərəcəsini ucalt."

Salamların tərcüməsi:

Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuhu. Əssəlamu ələyna və əla ibadillahis-salihin. Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuhu.

"Salam və Allahın rəhməti və bərəkətləri olsun sənə, ey Peyğəmbər. Salam olsun bizə və Allahın saleh bəndələrinə. Salam və Allahın rəhməti və bərəkətləri olsun sizə (möminlərə, mələklərə)."

Suallar:

1- "Həmd" surəsinin tərcüməsini deyin.

2- "Tövhid" surəsinin tərcüməsini deyin.

3- "Səmiəllahu limən həmidəhu" zikrinin mənası nədir?

4- "Bihəvlillahi və quvvətihi əqumu və əq`udu" zikrinin mənası nədir?

5- "Və təqəbbəl şəfaətəhu vərfə dərəcatəhu" cümləsinin mənası nədir?

6- Namazın salamlarının tərcüməsini deyin.

Qırx səkkizinci dərs: Namazın düzgün olmamasına və pozulmasına səbəb olan işlər

Namazın düzgün olmamasına və pozulmasına səbəb olan işlər aşağıdakılardır:

1- Namazda riayət edilməsi vacib olan şərtlərdən birinin (məsələn, namaz məkanının qəsbi olmaması) aradan getməsi;

2- Dəstəmazın, qüslün və ya təyəmmümün pozulması;

3- Qiblədən dönmək;

4- Danışmaq;

5- Əlləri bədənin önündə bir-birinin üstünə qoymaq (təkəttuf);

6- "Həmd"dən sonra "Amin" ifadəsini demək;

7- Gülmək;

8- Ağlamaq;

9- Namazın surətinin aradan getməsi (məsələn, əl çalmaq, atılıb-düşmək);

10- Yemək və içmək;

11- Namazı pozan şəklər[1];

12- Namazın "rükn" olan vacib əməllərini bilərəkdən və ya səhvən azaldıb-artırmaq (məsələn, rükunu azaldıb-artırmaq), həmçinin namazın "qeyri-rükn" olan vacib əməllərini bilərəkdən azaldıb-artırmaq.

1- Namazda riayət edilməsi vacib olan şərtlərdən birinin aradan getməsi

Əgər namaz əsnasında "namazda riayət edilməsi vacib olan şərtlər"dən biri aradan getsə, məsələn, bir şəxs namaz əsnasında namaz qıldığı məkanın qəsbi olduğunu başa düşsə, onun namazı pozulur və namaz düzgün deyildir.

2- Dəstəmazın, qüslün və ya təyəmmümün pozulması

Əgər namaz əsnasında dəstəmazı və ya qüslü və ya təyəmmümü pozan bir iş baş versə, məsələn, bir şəxs namaz qıldığı halda yatsa, yaxud ondan sidik və bu kimi bir şey xaric olsa, namaz pozulur.

3- Qiblədən dönmək

Əgər bir şəxs namazda bilərəkdən üzünü və bədənini, yaxud onlardan birini qiblədən döndərsə, belə ki, sağ və ya sol tərəfini asanlıqla görə bilsə, onun namazı pozulur. Əgər bu işi səhvən etsə belə, ehtiyat-vacibə görə, namazı pozulur. Amma üzü sağ və ya sol tərəflərə cüzi miqdarda döndərmək namazı pozmur.

4- Danışmaq

Namazda bilərəkdən danışmaq, hətta bir söz belə demək, namazı pozur.

Diqqət:

• Əgər bir şəxs bir zikri "zikr" məqsədilə desə, məsələn, "Əllahu əkbər" desə və bunu deyərkən başqa bir şəxsə hansısa bir məsələni başa salmaq üçün səsini yüksəltsə, bu hərəkətin iradı yoxdur. Amma əgər başqa bir şəxsə hansısa bir məsələni başa salmaq üçün bir zikr desə, hətta zikr deməyi nəzərdə tutmuş olsa belə, onun namazı pozulur.

• Namaz qılmaqda olan şəxs başqa bir şəxsə salam verməməlidir. Amma əgər başqa bir şəxs ona salam verərsə, salamın cavabını verməlidir. Salamın cavabını verərkən "salam" sözü əvvəldə işlənməlidir. Məsələn, "Səlamun ələykum" və ya "Əssəlamu ələykum" deməlidir. "Ələykumus-səlam" deyə bilməz.

• Əgər bir şəxs bir dəstə insana salam deyərək "Əssəlamu ələykum cəmiən" desə və onlardan biri namazda olsa, başqa bir şəxs salamın cavabını verdiyi təqdirdə namaz qılan şəxs salamın cavabını verməməlidir.

• Namaz qılarkən "salam" ifadəsi ilə deyil, başqa bir ifadə ilə (məsələn, "sabahınız xeyir" ifadəsilə) görüşən şəxsin cavabını vermək olmaz. Amma namazdan qeyri hallarda əgər bu ifadə ürfdə (camaatın nəzərində) görüşmək sayılırsa, ehtiyat-vacibə görə, həmin şəxsin cavabını vermək lazımdır.

Salama aid bir neçə şəri məsələ:

• Muməyyiz uşağın (yəni həddi-büluğa çatmayan, eyni zamanda yaxşı və pisi ayırd edən uşağın) salamının cavabını vermək, eynilə həddi-büluğa çatan şəxsin salamının cavabını vermək kimi vacibdir.

• Salamın cavabı dərhal verilməlidir. Əgər bir şəxs hansısa bir səbəbə görə salamın cavabını verməyi yubatsa, belə ki, verilən cavab həmin salamın cavabı hesab olunmasa, bu şəxs namaz halında olduğu təqdirdə daha salamın cavabını verməməlidir. Qeyri-namaz halında olduqda da salamın cavabını vermək vacib deyildir. Həmçinin salamın cavabını çox yubadıb-yubatmadığına şəkk etdikdə, hökm eynidir. Əgər bir şəxs salamın cavabını verməyi bilərəkdən yubadarsa, günah etmişdir.

• Əgər bir şəxs namaz qılmaqda olan başqa bir şəxsə salam verərkən "Səlamun əleykum" ifadəsini deyil, sadəcə "Salam" ifadəsini istifadə edərsə, buna ürfdə (camaatın nəzərində) görüşmək və salamlaşmaq deyildiyi təqdirdə bu salamın cavabını vermək vacibdir. Ehtiyat-vacibə görə, bir qədər əvvəlki məsələdə qeyd edilən şəkildə salamın cavabı verilməlidir.

• Əgər bir şəxs eyni vaxtda bir neçə dəfə "salam" desə, bir cavab vermək kifayətdir. Həmçinin əgər bir neçə şəxs eyni vaxtda salam versələr, onların hamısına şamil olacaq bir ifadə ilə və onların hamısına cavab vermək məqsədilə ümumi bir cavab vermək (məsələn, "Səlamun əleykum" demək) kifayətdir.

5- Əlləri bədənin önündə bir-birinin üstünə qoymaq (təkəttuf);

Əlləri bədənin önündə bir-birinin üstünə qoyub bağlamağa gəlincə, əgər bu əməl namazın tərkib hissəsi niyyətilə yerinə yetirilərsə, namazı pozur. Ehtiyat-vacibə görə, hətta bu niyyət olmadan belə, bu əməl yerinə yetirilməsin.

6- "Həmd"dən sonra "Amin" ifadəsini demək

"Həmd"dən sonra "Amin" ifadəsini deməyə icazə verilmir və bu ifadəni demək namazı pozur. Amma əgər təqiyyə məqsədilə deyilərsə, iradı yoxdur.

7- Gülmək

Bilərəkdən ucadan gülmək (qəhqəhə ilə gülmək) namazı pozur. Amma səhvən gülmək və ya səssiz gülmək namazı pozmur.

8- Ağlamaq

Dünya işləri üçün bilərəkdən səsli ağlamaq namazı pozur. Amma Allah qorxusundan ağlamaq və ya axirət işləri üçün ağlamağın iradı yoxdur, hətta ən yaxşı əməllərdən hesab olunur.

9- Namazın surətinin aradan getməsi (məsələn, əl çalmaq, atılıb-düşmək)

Namazın surətini aradan aparan işləri görmək, məsələn, əl çalmaq və ya atılıb-düşmək, istər bilərəkdən olsun, istərsə də səhvən olsun, namazı pozur.

Diqqət:

• Əgər bir şəxs namaz əsnasında başqa bir şəxsə hansısa məsələni anlatmaq üçün və ya onun sualına cavab olaraq əlini, gözlərini və ya qaşlarını cüzi miqdarda hərəkət etdirsə, bu hərəkət bədənin hərəkətsizliyinə xələl gətirmədiyi və ya namazın surətini aradan aparmadığı təqdirdə, namaz pozulmur.

10- Yemək və içmək

Namazda yemək və içmək, istər az olsun, istərsə də çox olsun, namazı pozur. Amma ağızda qalan yemək qırıntılarını udmaq, yaxud ağızda qalan cüzi miqdarda qənd və şəkəri sovurmaq namazı pozmur. Həmçinin namazda səhvən və ya unutqanlıq üzündən nə isə yemək və içmək, namazın surətini aradan aparmadığı təqdirdə, namazı pozmur.

Bir neçə şəri məsələ:

• Namazda gözləri yummağın maneəsi yoxdur və namazı pozmur, baxmayaraq ki, rükudan qeyri hallarda gözləri yummaq məkruhdur.

• Namazda qunutdan sonra əlləri üzə çəkmək məkruhdur, amma bu iş namazı pozmur.

• Həsəd aparmaq, kin və ədavət bəsləmək olmaz, amma bu işlər namazın pozulmasına səbəb olmur.

Suallar:

1- Namazın düzgün olmamasına və pozulmasına səbəb olan işlər hansılardır?

2- “Səlamun ələykum” ifadəsi ilə görüşməyən şəxsin cavabını vermək vacibdirmi?

3- Uşaqların verdiyi salama cavab vermək vacibdirmi?

4- Əgər bir nəfər eyni vaxtda bir neçə dəfə salam desə, bir cavab vermək kifayət edirmi?

5- Hansı tərzdə gülmək namazı pozur?

6- Namazda qunutdan sonra əlləri üzə çəkməyin hökmü nədir?

---

[1] Bu barədə “Namazın şəkləri” başlığı altında danışılacaq.

Qırx doqquzuncu dərs: Namazın şəkkiyatı

Namazın şəkkiyatı

Namazın şəkkiyatı 23 qisimdir, bunlardan:

- 8 qismi namazın pozulmasına səbəb olur;

- 6 qisminə etina olunmamalıdır;

- 9 qismi namazın düzgünlüyünə xələl gətirmir.

1- Namazın pozulmasına səbəb olan şəklər

Namazın pozulmasına səbəb olan şəklər aşağıdakılardır:

1. İkirəkətli vacib namazların, məsələn, sübh namazı və ya müsafir namazının rəkətlərinin sayında şəkk etmək (amma iki rəkət qılınan ehtiyat namazının rəkətlərinin sayında şəkk etmək namazı pozmur);

2. Üçrəkətli namazların (məğrib namazının) rəkətlərinin sayında şəkk etmək;

3. Dördrəkətli vacib namazların rəkətlərinin sayında şəkk etdikdə və şəkkin bir tərəfi "bir rəkət" olduqda, məsələn, şəxs bir rəkət, yoxsa üç rəkət qıldığına şəkk edir;

4. Dördrəkətli vacib namazlarda ikinci səcdə tamamlanmamışdan qabaq rəkətlərin sayında şəkk etdikdə və şəkkin bir tərəfi "iki rəkət" olduqda, məsələn, şəxs iki rəkət, yoxsa üç rəkət qıldığına şəkk edir;

5. İki və beş rəkət arasında, yaxud beşdən çox rəkət arasında şəkk etmək;

6. Üç və altı rəkət arasında, yaxud altıdan çox rəkət arasında şəkk etmək.

7. Dörd və altı rəkət arasında, yaxud altıdan çox rəkət arasında şəkk etmək;

8. Namazın rəkətlərinin sayında şəkk etmək, belə ki, şəxs neçə rəkət qıldığını ümumiyyətlə bilmir.

Diqqət:

• Əgər bir şəxs namazın rəkətlərinin sayında şəkk etsə, məsələn, üç rəkət, yoxsa dörd rəkət qıldığını bilməsə, o, ilk öncə bir qədər fikirləşməlidir. Əgər onda şəkkin bir tərəfinə yəqin və ya güman hasil olarsa, bu yəqinə və ya gümana müvafiq olaraq namazı davam etdirməlidir və namaz düzgündür. Amma əgər şəkkin heç bir tərəfinə yəqin və ya güman hasil olmazsa, şəkk barəsində açıqlanan qaydalar üzrə əməl etməlidir.

• Əgər namaz əsnasında insanda "namazın pozulmasına səbəb olan şəklər"dən biri yaransa, ehtiyata görə, namazı dərhal kəsməməlidir. Əksinə, bir qədər fikirləşməlidir ki, onda şəkkin bir tərəfinə yəqin və ya güman hasil olsun. Əgər şəkkin bir tərəfinə yəqin və ya güman hasil olmazsa, bu vaxt namazı kəsə bilər.

2- Etina olunmayan şəklər

Etina olunmayan şəklər aşağıdakılardır:

1. Yeri keçdikdən sonra şəkk etmək, məsələn, rükuya getdikdən sonra "Həmd" və "Surə"ni oxuduğuna şəkk etmək;

2. Namazın salamından sonra şəkk etmək;

3. Namazın vaxtı keçdikdən sonra şəkk etmək;

4. Çox şəkk edən şəxsin şəkki;

5. İmam-camaatın və məmumun şəkki;

6. Müstəhəb namazlarda şəkk etmək.

Müxtəlif məsələlər:

1. Əgər bir şəxs qıldığı namazların düzgün olub-olmadığına bir neçə ildən sonra şəkk etsə, o öz şəkkinə etina etməməlidir. (Çünki yeri keçdikdən sonra yaranan şəkkə etina edilmir.)

2. Əgər çox şəkk edən şəxs müəyyən bir əməli yerinə yetirib-yetirmədiyinə şəkk etsə, bu əməli yerinə yetirdiyini qəbul etməlidir.

Amma bu şərtlə ki, bu əməlin yerinə yetirilməsi namazın pozulmasına səbəb olmamalıdır. Əgər bu əməlin yerinə yetirilməsi namazın pozulmasına səbəb olarsa, onu yerinə yetirmədiyini qəbul etməlidir. Burada rəkətlərin sayı, yaxud namazın hərəkətləri və ya sözləri eyni hökmü daşıyır. (Məsələn, əgər bir şəxs səcdə və ya rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, onu yerinə yetirdiyini qəbul etməlidir. Amma əgər şəkk etsə ki, sübh namazını iki rəkət qılıb, yoxsa üç rəkət, bu halda iki rəkət qıldığını qəbul etməlidir.)

3. Nafilə namazının sözlərində və hərəkətlərində şəkk etmək, eynilə vacib namazın sözlərində və hərəkətlərində şəkk etməyin hökmünü daşıyır. Yəni əgər barəsində şəkk edilən əməlin yeri keçməyibdirsə, şəkkə etina olunmalıdır. Əks təqdirdə, ona etina olunmamalıdır. (Məsələn, əgər bir şəxs "Həmd"i oxuyub-oxumadığına və ya rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, yeri keçmədiyi təqdirdə bu əməli yerinə yetirməlidir. Əks təqdirdə, öz şəkkinə etina etməməlidir).

3- Namazın düzgünlüyünə xələl gətirməyən şəklər

Dördrəkətli namazların rəkətlərinin sayında yaranan şəkk doqquz halda namazın düzgünlüyünə xələl gətirmir:

1. İkinci səcdədən qalxdıqdan sonra iki rəkət və üç rəkət arasında şəkk etmək;

2. İkinci səcdədən qalxdıqdan sonra iki rəkət və dörd rəkət arasında şəkk etmək;

3. İkinci səcdədən qalxdıqdan sonra iki rəkət, üç rəkət və dörd rəkət arasında şəkk etmək;

4. İkinci səcdədən qalxdıqdan sonra dörd rəkət və beş rəkət arasında şəkk etmək;

5. Yerindən asılı olmayaraq, üç rəkət və dörd rəkət arasında şəkk etmək;

6. Ayaq üstə ikən dörd rəkət və beş rəkət arasında şəkk etmək;

7. Ayaq üstə ikən üç rəkət və beş rəkət arasında şəkk etmək;

8. Ayaq üstə ikən üç rəkət, dörd rəkət və beş rəkət arasında şəkk etmək;

9. Ayaq üstə ikən beş rəkət və altı rəkət arasında şəkk etmək.

Namazın şəkkiyatına aid bir neçə şəri məsələ:

• Ehtiyat namazının neçə rəkət qılınması rəkətlərin sayında yaranan şəkdən asılıdır. Belə ki, iki rəkət və dörd rəkət arasında şəkk etdikdə, iki rəkət ehtiyat namazı qılınır. Üç rəkət və dörd rəkət arasında şəkk etdikdə, bir rəkət ayaq üstə və ya iki rəkət əyləşən halda ehtiyat namazı qılınır.

• Əgər namazın zikrlərindən, Quran ayələrindən və ya qunutun dualarından bir söz səhvən yanlış oxunarsa, səhv-səcdəsi yerinə yetirmək vacib olmur.

Suallar:

1- Namazın düzgün olmamasına və pozulmasına səbəb olan şəklər hansılardır?

2- Hansı şəklərə etina olunmur?

3- Nəzərə alsaq ki, çox şəkk edən şəxs öz şəkkinə etina etməməlidir, əgər o, namazda şəkk etsə, nə etməlidir?

4- Əgər bir şəxs nafilə namazlarında rəkətlərin sayında yaranan şəklərdən qeyri bir şəkk etsə, məsələn, şəkk etsə ki, bir səcdə, yoxsa iki səcdə yerinə yetiribdir, o öz şəkkinə etina etməlidirmi?

5- Namazın düzgünlüyünə xələl gətirməyən şəklər hansılardır?

6- Mükəlləf neçə rəkət ehtiyat namazı qılacağını necə təyin etməlidir?

Əllinci dərs: Cümə namazı

Cümə namazı

1. Cümə namazının şəri hökmü

1. Cümə günlərində zöhr namazının yerinə qılınan cümə namazı hazırkı dövrdə (yəni İmam Zamanın (ə.f) qeyb dövründə) "təxyiri-vacib əməl"dir.

Diqqət:

• Burada "təxyiri-vacib əməl" dedikdə, bu nəzərdə tutulur ki, mükəlləf cümə günü cümə namazını və ya zöhr namazını qılmaqda seçim edə bilər.

• Baxmayaraq ki, hazırkı dövrdə cümə namazı təxyiri-vacib əməldir və bu namazda iştirak etmək vacib deyildir, amma cümə namazında iştirak etməyin fayda və təsirlərini nəzərə alaraq, möminlərin bir sıra qeyri-məqbul əsaslarla bu namazda iştirak etməməyi bəyənilmir.

• Qadınların cümə namazında iştirak etməklərinin heç bir maneəsi yoxdur və camaat namazının savabına malikdir.

• Cümə namazında iştirak etməmək əgər bu namaza əhəmiyyət verməməkdən qaynaqlanarsa, şəri baxımdan bəyənilmir.

• Cümə namazında iştirak etməyən şəxs zöhr və əsr namazlarını namaz vaxtının əvvəlində qıla bilər və cümə namazının qurtarmasını gözləmək vacib deyildir.

• Cümə günü cümə namazının qılındığı yerə yaxın bir yerdə zöhr namazının camaatla qılınmasının öz-özlüyündə maneəsi yoxdur. Çünki hazırkı dövrdə cümə namazı təxyiri-vacib əməldir. Amma nəzərə alsaq ki, bu iş möminlər arasında təfriqə yarada, yaxud cümə namazına etinasızlıq hesab oluna, yaxud da imam-cüməyə qarşı hörmətsizlik sayıla bilər, bu camaat namazını təşkil etməmək daha yaxşıdır. Əksinə, əgər bu işin hansısa bir fəsadı olarsa və ya haram bir işlə yanaşı olarsa, bu camaat namazı təşkil edilməməlidir.

2. Cümə namazı zöhr namazını əvəz edir.

Diqqət:

• Baxmayaraq ki, cümə namazı zöhr namazını əvəz edir, amma ehtiyat ünvanında cümə namazından sonra zöhr namazını qılmağın – hətta imam-cümə cümə namazından sonra zöhr namazını qılmasa belə – maneəsi yoxdur. Əgər ehtiyata riayət edərək cümə namazından sonra zöhr namazını qılan bir şəxs əsr namazını camaatla qılmaq istəsə, kamil ehtiyat budur ki, ehtiyat ünvanında cümə namazından sonra zöhr namazını qılan bir şəxsə iqtida etsin.

• Avropa ölkələrində və ya başqa ölkələrdə universitet tələbələrinin dini birlikləri tərəfindən təşkil olunan cümə namazlarında namaz qılanların əksəriyyətinin, həmçinin imam-cümənin əhli-sünnə olmalarına baxmayaraq, müsəlmanların vəhdətini qorumaqdan ötrü bu cümə namazlarında iştirak etməyin maneəsi yoxdur. Bu halda da cümə namazından sonra zöhr namazını qılmaq vacib deyildir.

• Səfərdə olan məmumun (yəni imam-camaata iqtida edən şəxsin) cümə namazı düzgündür və zöhr namazını əvəz edir.

• Bədənin beldən aşağı hissəsi amputasiya edilən və sidiyini saxlaya bilməyən müharibə əlilləri cümə namazında iştirak edə bilərlər. Lakin onların şəri vəzifəsi dəstəmaz alan kimi yubanmadan namaz qılmaq olduğuna görə, cümə namazının xütbələrindən öncə aldıqları dəstəmaz pozulmadığı təqdirdə bu dəstəmazla namaz qıla bilərlər.

2. Cümə namazının şərtləri

Cümə namazının şərtləri aşağıdakılardır:

1- Cümə namazı camaatla qılınmalıdır;

2- Namazda iştirak edənlərin sayı ən azı beş nəfər olmalıdır – bir nəfər imam-cümə və dörd nəfər məmum olmalıdır;

3- Camaat namazının bütün şərtləri, məsələn, cərgələrin bir-birinə birləşməsi cümə namazında da riayət olunmalıdır;

4- Təşkil edilən iki cümə namazı arasındakı məsafə ən azı bir fərsəx[1] olmalıdır.

1- Cümə namazı camaatla qılınmalıdır

Cümə namazının düzgün olmasının şərtlərindən biri budur ki, cümə namazı camaatla qılınmalıdır. Hətta cümə namazını camaatla qılanların kənarında dayanıb furada, yəni tək halda cümə namazı qılmaq düzgün deyildir.

3- Camaat namazının bütün şərtlərinə riayət olunmalıdır

Camaat namazının bütün şərtləri, məsələn, cərgələrin bir-birinə birləşməsi cümə namazında da riayət olunmalıdır.

Diqqət:

• İmam-cümə ədalətli şəxs olmalıdır. Odur ki, əgər bir şəxs imam-cüməni ədalətli şəxs hesab etmirsə və ya onun ədalətli olmasına şəkk edirsə, ona iqtida etməsi düzgün deyildir, qıldığı cümə namazı da düzgün deyildir. Amma vəhdəti qorumaq məqsədilə cümə namazında iştirak etməyin maneəsi yoxdur. Hər bir halda – istər cümə namazında iştirak etsin, istərsə də etməsin – başqalarını cümə namazında iştirak etməkdən çəkindirməyə heç kimin haqqı yoxdur.

• Əgər bir şəxs cümə namazını qılıb qurtardıqdan sonra imam-cümənin ədalətinə şəkk etsə və ya onun ədalətsizliyinə yəqin etsə, qıldığı namazlar düzgündür və onları yenidən qılmaq vacib deyildir.

• Əgər bir şəxsin imam-cümə təyin edilməsi onun ədalətli bir şəxs olduğuna dair məmumda əminlik yaradarsa, bu, ona iqtida etməyin düzgün olması baxımından kifayət edir.

4- Təşkil edilən iki cümə namazı arasındakı məsafə ən azı bir fərsəx olmalıdır

İki cümə namazı arasındakı məsafə bir fərsəxdən az olmamalıdır. Əgər təşkil edilən iki cümə namazı arasındakı məsafə bir fərsəxdən az olsa, daha tez qılınan namaz düzgündür, digər namaz isə düzgün deyildir. Amma əgər hər ikisi eyni zamanda qılınarsa, heç biri düzgün deyildir.

3. Cümə namazının vaxtı

Cümə namazının vaxtı şəri zöhr daxil olduqda başlanır. Ehtiyat-vacibə görə, cümə namazı zöhr namazının ürfə görə əvvəl vaxtı sayılan vaxtda qılınmalı və yubadılmamalıdır.

4. Cümə namazının qaydası

1. Cümə namazı sübh namazı kimi iki rəkətdir. Bu fərqlə ki, cümə namazından qabaq imam-cümə iki xütbə (nitq) söyləməlidir.

2. Ehtiyata görə, cümə namazının "Həmd" və "Surə"si uca səslə oxunmalıdır. Birinci rəkətdə "Həmd"dən sonra "Cümə" surəsini, ikinci rəkətdə isə "Həmd"dən sonra "Munafiqun" surəsini oxumaq müstəhəbdir. Həmçinin iki qunut tutmaq (bir qunut birinci rəkətdə rükudan qabaq, digər qunut ikinci rəkətdə rükudan sonra) müstəhəbdir.

Diqqət:

• Ehtiyata görə, cümə namazında iştirak edənlər imam-cümənin xütbələrinə qulaq asmalı və sakit dayanıb danışmamalıdırlar.

• Əgər bir şəxs xütbələri dinləməyə yetişməsə, amma cümə namazını qılsa, onun namazı düzgündür. Hətta cümə namazının axırıncı rükusunda namaza qatılsa belə, onun namazı düzgündür.

• İmam-cümə cümə namazının xütbələrini şəri zöhrdən qabaq söyləyə bilər.

Cümə namazına aid bir neçə şəri məsələ:

• Möminlər arasında təfriqə yaradan və onların vəhdətini pozan bir işə əsla icazə verilmir. Cümə namazı müsəlmanların vəhdətini təmin edən ibadətlərdən biri olduğuna görə bu ibadətin yerinə yetirilməsində vəhdətin qorunmasına daha çox diqqət olunmalıdır.

• Cümə günü əsr namazını imam-cüməyə deyil, başqa bir şəxsə iqtida edib qılmağın maneəsi yoxdur.

• Cümə namazında imam-cüməyə başqa bir vacib namazı iqtida edərək qılmağın düzgünlüyü məhəlli-işkaldır.

Suallar:

1- Cümə namazının təxyiri-vacib əməl olması nə deməkdir?

2- Cümə namazının təşkil olunduğu məkana yaxın bir məkanda zöhr namazını camaatla qılmaq olarmı?

3- Əgər bir şəxs cümə namazını qılıb qurtardıqdan sonra imam-cümənin ədalətinə şəkk etsə və ya onun ədalətsizliyinə yəqin etsə, qıldığı namazlar düzgündürmü? Bu namazlar yenidən qılınmalıdırmı?

4- Bir şəxsin imam-cümə təyin olunması onun ədalətliliyinin sübuta yetməsi üçün kifayət edirmi?

5- Xütbələri dinləməyə yetişməyib cümə namazını qılan şəxsin namazı düzgündürmü?

6- Cümə namazının xütbələrini zöhr namazının vaxtı daxil olmamışdan öncə söyləmək olarmı?

[1] Bir fərsəx təxminən 5125 metrdir.

Əlli birinci dərs: Müsafir namazı (1)

Müsafir namazı və onun şərtləri

1. Səfərdə dördrəkətli namazların qəsr qılınması

Səfərdə dördrəkətli namazlar müəyyən şərtlər daxilində "qəsr", yəni iki rəkət qılınmalıdır.

Diqqət:

• Səfərdə yalnız dördrəkətli namazlar, yəni zöhr, əsr və işa namazları qəsr qılınır. Sübh və məğrib namazları qəsr olmur.

2. Müsafir namazının şərtləri

Müsafir şəxs, yəni səfərdə olan şəxs səkkiz şərt daxilində dördrəkətli namazları iki rəkət qılmalıdır:

1- Səfər "şəri məsafə" ölçüsündə olmalıdır. Yəni müsafir şəxsin getdiyi və ya qayıtdığı və ya gedib-qayıtdığı məsafə ən azı səkkiz fərsəx olmalıdır. (Qeyd edək ki, gediş-qayıdış məsafə birlikdə səkkiz fərsəx olduğu təqdirdə, gediş istiqamətindəki məsafə ən azı dörd fərsəx olmalı, başqa sözlə, dörd fərsəxdən az olmamalıdır).

2- Səfər edən şəxs əvvəlcədən səkkiz fərsəx məsafəni qət etmək niyyətində olmalıdır. Beləliklə, əgər bir şəxs əvvəlcədən səkkiz fərsəx məsafəni qət etmək niyyətində olmasa və ya səkkiz fərsəxdən az bir məsafəni qət etmək niyyətində olsa, amma getmək istədiyi yerə çatdıqdan sonra başqa bir yerə səfər etməyi qərara alsa və həmin yerədək məsafə şəri məsafədən az olsa, amma özünün yaşadığı yerdən həmin yerədək məsafə şəri məsafə ölçüsündə olsa, bu halda o, namazı tam qılmalıdır.

3- Müsafir şəxs yol əsnasında şəri məsafəni qət etmək niyyətindən dönməməlidir. Beləliklə, əgər səfər edən şəxs yol əsnasında dörd fərsəxə çatmamışdan qabaq öz niyyətindən dönsə və ya tərəddüd etsə, bu andan etibarən o, müsafir hökmündə deyildir. Əgər o, tərəxxüs-həddini keçdikdən sonra və niyyətindən dönməmişdən qabaq namazını qəsr qılıbdırsa, ehtiyat-vacibə görə, namaz vaxtı keçmədiyi təqdirdə, o, namazı yenidən tam qılmalı və namaz vaxtı keçdiyi təqdirdə, namazın qəzasını tam qılmalıdır.

4- Səfər edən şəxs səfərin əvvəlindən bu niyyətdə olmamalıdır və ya səfər əsnasında bu qərara gəlməməlidir ki, o, şəri məsafəyə çatmamışdan qabaq öz vətənindən keçəcək və ya müəyyən bir yerdə on gün qalacaqdır.

5- Səfər edən şəxs üçün səfər şəri baxımdan icazəli olmalıdır. Beləliklə, əgər səfər edən şəxsin səfəri günah və haram olsa – istər səfərin özü haram olsun, məsələn, cihaddan qaçmaq, istərsə də haram bir iş üçün səfər etsin, məsələn, oğurluğa getmək – bu səfər şəri baxımdan səfər hökmündə deyildir və namaz tam qılınmalıdır.

6- Səfər edən şəxs "evi kürəyində olan" şəxslərdən olmamalıdır, məsələn, sabit yaşayış yeri olmayan və səhralarda dolaşıb su, bitki və otlaq yeri tapdıqda orada köç salan insanlar kimi olmamalıdır.

7- Səfər edən şəxsin peşəsi səfər etmək olmamalıdır, məsələn sürücü, gəmiçi və s. bu kimi peşələrin sahibi olmamalıdır. İşi səfərdə olan şəxs də bu hökmü daşıyır.

8- Səfər edən şəxs "tərəxxüs həddi"nə çatmalıdır. Tərəxxüs həddi o məkana deyilir ki, şəhərdə səsucaldandan istifadə edilmədən adi səslə çəkilən azan səsi bu məkanda daha eşidilmir.

Birinci şərt: Şəri məsafə (səkkiz fərsəx)

1. Əgər səfər edən şəxsin gediş istiqamətindəki yolu dörd fərsəxdən az olsa və qayıdış istiqamətindəki yolu da şəri məsafə ölçüsündə olmasa, onun namazı tamdır. Deməli, əgər bir şəxsin vətəni ilə iş yeri arasındakı məsafə – hətta gediş-qayıdış birlikdə – şəri məsafə ölçüsündə olmasa, o, müsafir hökmündə deyildir.

2. Əgər bir şəxs müəyyən bir yerə getmək niyyətilə öz şəhərindən xaric olsa və getdiyi yerdə gəzintiyə çıxsa, bu gəzintidə qət etdiyi məsafə "yaşadığı şəhərdən həmin yerədək qət etdiyi məsafə"nin bir hissəsi hesab olunmayacaqdır.

3. Şəri məsafə, yəni səkkiz fərsəx şəhərin axırından hesablanır. Şəhərin axırını təyin etmək isə ürfə (camaatın nəzərinə) həvalə olunur. Əgər camaatın nəzərində şəhərin ətrafında yerləşən zavod və fabriklər, qəsəbələr şəhərdən sayılmazsa, şəri məsafə şəhərin sonuncu evlərindən hesablanmalıdır.

4. Əgər bir şəxs şəhərin özünə deyil, əksinə, şəhərin ətrafında yerləşən müəyyən və müstəqil bir məkana – məsələn, şəhərdən kənarda yerləşən bəzi universitetlər, hərbi hissələr, xəstəxanalar və bu kimi məkanlara – getmək niyyətindədirsə, belə ki, ürfə görə şəhərə çatmaq şəxsin getmək istədiyi məkana çatmaq hesab olunmursa və şəhərə daxil olub, oradan keçmək sadəcə şəxsin getmək istədiyi məkana çatmaq üçün bir yol qismindədirsə, bu halda şəri məsafənin hesablanması üçün şəhərin başlanğıcı deyil, həmin xüsusi məkana qədər olan yol hesablanacaqdır.

İkinci şərt: Şəri məsafəni qət etmək niyyəti

1. Əgər bir şəxs üç fərsəxlikdə yerləşən bir yerə səfər etmək niyyətindədirsə, amma əvvəlcədən nəzərdə tutubdur ki, müəyyən bir işlə əlaqədar olaraq yol əsnasında əsas yoldan xaric olub qeyri-əsas bir yol ilə bir fərsəx məsafə qət edəcək və sonra yenidən əsas yola daxil olub səfərini davam etdirəcəkdir, bu halda o, müsafir hökmündədir. Əsas yoldan xaric olub, yenidən bu yola daxil olmaqla qət edilən məsafənin ümumi yola əlavə edilməsi şəri məsafənin tamamlanması üçün kifayət edir.

2. Əgər bir şəxs yaşadığı yerdən şəri məsafə ölçüsündən az olan başqa bir yerə səfər etsə və həftə ərzində həmin yerdən bir neçə dəfə başqa yerlərə getsə, belə ki, qət edilən ümumi məsafə səkkiz fərsəxdən çox olsa, bu şəxs əvvəlcədən şəri məsafəni qət etmək niyyətində olmadığı və səfər etdiyi birinci yer ilə başqa yerlər arasındakı məsafə də şəri məsafə ölçüsündə olmadığı təqdirdə, o, müsafir hökmündə deyildir.

Beşinci şərt: Səfərin şəri baxımdan icazəli olması

1. Səfərin şəri baxımdan icazəli olması şərti yalnız səfərin başlanğıcına aid deyildir, əksinə, səfər boyunca bu şərt mövcud olmalıdır. Beləliklə, əgər səfər əsnasında şəxsin niyyəti günah səfərinə çevrilsə, səfər haram olur və namaz tam qılınmalıdır, baxmayaraq ki, o, şəri məsafə ölçüsündə yol qət etmişdir.

2. Əgər bir şəxs şəri baxımdan icazəli bir səfərə çıxsa və səfər əsnasında (səkkiz fərsəxə çatmamışdan qabaq) öz vəzifəsinə müvafiq olaraq namazı qəsr qılsa, amma sonradan onun niyyəti haram səfərə çevrilsə, qəsr olaraq qıldığı namazı namaz vaxtı keçmədiyi təqdirdə, tam olaraq yenidən qılmalı, namaz vaxtı keçdiyi təqdirdə isə namazın qəzasını tam olaraq qılmalıdır.[1]

3. Əgər səfərin özü və ya hədəfi günah olmasa, amma səfər əsnasında haram bir iş görülsə (məsələn, qeybət edilsə və ya şərab içilsə), bu səfər "günah səfəri" hökmündə deyildir və namaz qəsr qılınmalıdır. Amma əgər haram iş (az bir müddət istisna olmaqla) səfər boyunca yerinə yetirilsə, belə ki, səfərin günahla keçdiyi deyilsə, bu halda ehtiyata görə, namaz həm qəsr, həm də tam qılınmalıdır.

4. Əgər bir şəxs müəyyən bir səfərdə namazın vacib əməllərindən bəzisini tərk edəcəyini bilsə, ehtiyat-vacibə görə, həmin səfərə getməməlidir. Amma əgər səfərə getməməyin ona ziyanı olarsa və ya səfərə getmədiyinə görə böyük çətinliyə düşərsə, bu hallarda səfərə gedə bilər. Ümumiyyətlə, heç bir halda namazı tərk etməyə icazə verilmir.

Yeddinci şərt: Səfərin peşə olmaması

1. Səfərdə namazın qəsr qılınmasının daha bir şərti səfərin peşə olmamasıdır. Beləliklə, əgər səfər etmək bir şəxsin peşəsi olsa, istər səfər etmək müəyyən bir peşənin əsasında dayansın (məsələn, sürücülük və pilot kimi peşələr), istərsə də səfər etmək müəyyən bir peşənin müqəddiməsi olsun (məsələn, peşəsi ilə əlaqədar səfər edən həkim və müəllim kimi), bu səfərdə namaz tamdır və oruc düzgündür.

Diqqət:

• Yuxarıdakı məsələdə işin pul və qazanc əldə etmək üçün olub-olmamasının bir fərqi yoxdur.

• Namazın tam qılınması və orucun düzgün olması üçün səfər ürfə görə insanın işi-peşəsi hesab olunmalıdır. Bu, istər bir neçə səfər nəticəsində gerçəkləşsin, istərsə də bir uzun səfər nəticəsində gerçəkləşsin (məsələn, bir şəxs peşəsi ilə əlaqədar uzun bir dəniz yolunu qət edir), fərqi yoxdur.

• Səfərin ürfə görə "iş səfəri" hesab olunması üçün üç məsələ əsas götürülür:

1- İş səfərinə getmək niyyətində olmaq;

2- İş səfərinə getmək;

3- İş səfərini davam etdirmək niyyətində olmaq.

• Səfərin "iş səfəri" adlanması barədə şəkk-şübhə mövcud olduğu hallarda namaz qəsrdir və oruc düzgün deyildir.

• Əgər elm öyrənmək üçün səfər etmək işin-peşənin tərkib hissəsi sayılarsa – məsələn, bir işçi üçün kurs qoyulur və o, bu kursu keçmək üçün səfər etmək məcburiyyətindədir – bu halda onun səfəri iş səfəridir.

• Elm öyrənmək və bu yolla gələcəkdə bir peşə sahibi olmaq üçün səfər edən şagird və tələbə, ehtiyat-vacibə görə, təhsil səfərində namazı həm tam, həm də qəsr qılmalı, həmçinin orucu tutmalı, sonradan orucun qəzasını da tutmalıdır.

• Əgər elm öyrənmək hansısa bir təbəqəyə daxil olmaqla yanaşı olarsa və bu təbəqənin adı müəyyən bir peşə adıdırsa – məsələn, dini hövzə tələbəsi elə təhsilə başladığı ilk vaxtlarda "ruhani" adlanır, yaxud hərbi məktəbə daxil olan tələbələr bir neçə ay təlim gördükdən sonra onlara dərəcə verilir və hərbiçi adlanırlar – bu növ təhsil peşənin tərkib hissəsi hesab olunur. Odur ki, bu təhsil səfərində onlar namazı tam qılmalı və orucu tutmalıdırlar.

• Bir şəxsin işi ildə bir dəfə bir ay davam edir, məsələn, həcc ziyarətində qrup rəhbəri olur. Əgər o, hər il bu işlə məşğul olmaq niyyətindədirsə, birinci səfərdə belə, onun namazı tamdır. Amma əgər bu işi davam etdirmək niyyətində deyildirsə, onun səfəri iş

səfəri hökmündə deyildir.

• Əgər bir şəxs ilin müəyyən bir fəslində iş səfərinə getsə və hər il bu işlə məşğul olmaq istəsə, yaxud da bu işlə bir dəfə, amma uzun müddət, məsələn, ən azı üç ay adi şəkildə və davamlı olaraq məşğul olsa və yalnız tətil günlərində işləməsə, onun səfəri iş səfəri hökmündədir və hətta birinci səfərdə belə, namazı tamdır. Amma əgər işin müddəti uzun olmasa, məsələn, bir ay bu işdə işləmək istəsə, bu səfərin ürfə görə iş səfəri adlanması məlum deyildir. Məsələ şübhə altında olduqda isə namaz qəsr olur.

• Bir şəxsin işi (məsələn, bəzi taksi sürücüləri kimi) şəhər ətrafına şəri məsafədən az olaraq gedib-qayıtmaqdır. Əgər bu şəxs bu işdə təsadüfən şəhər ətrafına şəri məsafə ölçüsündə səfər etsə, bu səfər iş səfəri hesab olunmayacaq və onun namazı qəsrdir. Amma əgər işi ilə əlaqədar uzun bir müddət şəri məsafədən çox olaraq səfər etmək niyyətində olarsa, bu halda elə birinci səfərdə onun səfəri "iş səfəri" hökmündə olacaqdır və namazı tamdır.

• Əgər peşəsi səfər etmək və vəzifəsi namazı tam qılıb, oruc tutmaq olan şəxs vətəndə və ya qeyri-vətəndə istər məqsədli şəkildə olaraq, istərsə də məqsədli şəkildə olmayaraq on gün qalsa, bu on gündən sonra getdiyi birinci səfərdə namazı qəsrdir.

• Əgər peşəsi səfər etmək olan şəxs vətəndə və ya qeyri-vətəndə on gün qalsa, sonra qeyri-iş səfərinə, məsələn, ziyarətə getsə, daha sonra müəyyən bir yerdə on gün qalmadan iş səfərinə getsə, ehtiyat-vacibə görə, bu iş səfərində namazı həm tam, həm də qəsr qılmalıdır.

• Əgər "gediş və qayıdış" ürfə görə "bir səfər" hesab olunarsa (məsələn, bir müəllim tədris məqsədilə öz vətənindən başqa bir şəhərə səfər edir və axşam vaxtı, yaxud sabahısı gün öz vətəninə qayıdır, yaxud bir sürücü yalnız bir ünvana səfər edir və bir şəhərə yük aparıb geri qayıdır), bu halda "gediş və qayıdış" birinci səfər hesab olunacaqdır. Amma əgər "gediş və qayıdış" ürfə görə "bir səfər" hesab olunmazsa (məsələn, bir sürücü sərnişin və ya yük daşımaq məqsədilə bir şəhərə hərəkət edir, sonra həmin şəhərdən başqa bir şəhərə sərnişin və ya yük daşımaq məqsədilə səfər edir, daha sonra öz vətəninə qayıdır, yaxud da o, elə əvvəlcədən bu niyyətdə olubdur), bu halda birinci şəhərə çatdıqda "birinci səfər" başa çatır.

• Namazın tam qılındığı və orucun düzgün olduğu "iş səfəri"nin hökmünün icra olunması baxımından yolun, ya peşənin, ya da miniyin əvvəlki yol, peşə və minik olması və ya onların dəyişməsinin bir fərqi yoxdur.

• Əgər bir şəxsin peşəsi səfər etmək deyildirsə, o, çoxsayda səfər etsə belə, namazı qəsrdir, istər əvvəlcədən çoxsayda səfər etmək niyyətində olmuşdur, istərsə də sonradan bu qərara gəlmişdir.

• Əgər peşəsi səfər etmək olan bir şəxs qeyri-iş səfərinə getsə, namazı qəsrdir. Məsələn, bir şəxsin peşəsi sürücülükdür və o, bir şəhərdən başqa bir şəhərə sərnişin daşıyır. Əgər o, Həcc ziyarətinə və ya İmamların (ə) ziyarətinə getsə, namazı qəsr qılmalıdır. Amma əgər o, iş səfəri əsnasında şəxsi bir işini görsə, məsələn, ziyarət etsə – istər onun əsas məqsədi öz şəxsi işini görmək olsun və sərnişin daşımaq əsas məqsədin kənarında olsun, istər əsas məqsədi sərnişin daşımaq olsun və şəxsi işi görmək əsas məqsədin kənarında olsun, istərsə də hər iki məqsəd bərabər həddə olsun – onun namazı tamdır.

• Əgər bir şəxs peşəsi ilə əlaqədar səfər etsə və bu səfər əsnasında, yaxud səfərdən sonra (yəni işi başa çatdıqdan sonra) bəzi müəyyən işləri görsə, məsələn, qohumların və ya dostların görüşünə getsə, hətta bəzən bir və ya bir neçə gün də orada qalsa, bu müddət ərzində onun peşə səfərinin hökmü dəyişmir və namazı tamdır.

• Əgər peşəsi səfər etmək olan bir şəxs işi başa çatdıqdan sonra dərhal öz yaşadığı yerə qayıtsa, qayıdış istiqamətindəki yolda onun namazı tamdır. Amma əgər işi başa çatdıqdan sonra peşəsindən qeyri bir iş üçün, məsələn, ziyarət və ya gəzinti üçün bir neçə gün (on gündən az olaraq) orada qalıb sonra qayıtsa, ehtiyat-vacibə görə, qayıdış istiqamətindəki yolda namazı həm qəsr, həm də tam qılmalıdır.

• Əgər səfər bir şəxsin peşəsi və ya onun peşəsinin tələbidirsə, bu şəxs peşəsi ilə əlaqədar olmayan bir səfərə çıxdığı zaman, hətta özünün iş yerinə səfər etsə belə, namazı qəsrdir.

• Əvvəlki məsələni nəzərə alaraq, əgər bir şəxs peşəsi ilə əlaqədar olmayan bir iş üçün özünün iş yerinə səfər etsə, amma işinə görə orada qalmağı qərara alsa, işə gedənədək orada qaldığı müddət ərzində ehtiyata görə, namazı həm qəsr, həm də tam qılmalıdır, baxmayaraq ki, namazı tam qılmaq hökmü uzaq ehtimal deyildir. Amma iş zamanı və işdən geri qayıdarkən namazı tamdır.

• Əgər peşəsi səfər etmək olan bir şəxs peşəsi ilə əlaqədar olmayan bir səfərə, hətta işlədiyi yerə getsə, onun namazı qəsrdir.

• Əvvəlki məsələni nəzərə alaraq, əgər o, işlədiyi yerə səfər etsə, amma işi ilə əlaqədar orada qalmağı qərara alsa, işinə gedənədək orada qaldığı müddət ərzində ehtiyata görə, namazı həm qəsr, həm də tam qılmalıdır, baxmayaraq ki, namazın tam qılınması uzaq ehtimal deyildir. Amma bundan sonra, yəni iş yerində və geri qayıdarkən yolda onun namazı tamdır.

• Əgər peşəsi səfər etmək olan bir şəxs peşəsi ilə əlaqədar olmayan bir səfərə getsə, onun namazı qəsrdir. Amma əgər o, həmin yerdən işlədiyi yerə və iş məqsədilə səfər etsə, orada on gün qalmadığı təqdirdə (istər on gün qalmamağı əvvəlcədən qərara almışdır, istərsə də qərara almamışdır), iş yerinə etdiyi səfərdə onun namazı tamdır.

• Əgər peşəsi sürücülük olan bir şəxsin avtomobili peşə səfəri əsnasında xarab olsa və o, avtomobilin təmiri üçün, məsələn, onun hansısa bir hissəsini almaq üçün şəri məsafə ölçüsündə yerləşən bir yerə səfər etsə, bu səfər peşə səfəri hesab olunur və bu şəxsin namazı tamdır.

• Əvvəlki məsələni nəzərə alaraq, əgər peşə səfərinə getməmişdən öncə bu şəxsin avtomobili xarab olsa və o, avtomobilin təmiri üçün, məsələn, onun hansısa bir hissəsini almaq üçün şəri məsafə ölçüsündə yerləşən bir yerə səfər etsə, bu şəxsin namazı qəsrdir.

• Əgər peşəsi səfər etmək olan şəxs axırıncı iş səfərinə getsə və ya yol əsnasında işi davam etdirməkdən daşınsa, bu halda əgər səfər etmək onun peşəsinin əsasında dayanırsa, məsələn, bu şəxs sürücüdürsə, axırıncı iş səfərindən qayıdarkən sərnişin aparmadığı təqdirdə, geri qayıdarkən onun səfəri iş səfəri hesab olunmur və namazı qəsrdir. O, istər öz maşını ilə qayıtsın, istərsə də başqa bir nəqliyyat vasitəsilə qayıtsın, hökm dəyişmir. Amma əgər səfər etmək onun peşəsinin müqəddiməsi olarsa, axırıncı iş səfərindən qayıdarkən, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır.

• Əgər maarifləndirmə və ya "yaxşı işlərə dəvət etmək" və "pis işlərdən çəkindirmək" işi ürfə görə bir şəxsin işi-peşəsi hesab olunarsa, bu işləri görmək üçün etdiyi səfərdə o öz işinə-peşəsinə görə səfər edən müsafir hökmündədir. Amma bu işindən qeyri bir iş üçün səfər etdiyi zaman həmin səfərdə başqa müsafirlər kimi namazı qəsrdir.

Səkkizinci şərt: Tərəxxüs həddinə[2] çatmaq

1. Tərəxxüs-həddini müəyyən etmək üçün meyar budur ki, şəhərin axırıncı evindən o hüdudda uzaqlaşırsan ki, şəhərdə səsucaldandan istifadə edilmədən adi səslə çəkilən azan səsini eşitmirsən. Bu yerdə istər şəhərin divarları görünsün, istərsə də görünməsin, rol oynamır.

2. Tərəxxüs-həddini müəyyən etmək üçün qədim məscidlərdə azan deyilən minarələr kimi adi həddə uca bir məkanda və şəhərin axırında deyilən azanın səsini eşitmək meyar götürülür.

3. Əgər müsafir şəxs şəhərdən xaric olduqdan sonra azan səsini eşitsə və onun azan olduğunu müəyyən etsə, amma azanın cümlələrini müəyyən edə bilməsə, bu yerdə namaz qılmaq istədiyi təqdirdə, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Amma azan səsini əsla eşitmədiyi yerədək şəhərdən uzaqlaşdıqda namazı qəsr qılacaqdır.

4. Vətənindən yola düşən və şəri məsafəni qət etmək niyyətində olan müsafir tərəxxüs-həddinə çatdıqda onun namazı qəsrdir. Həmçinin səfərdən qayıdarkən tərəxxüs-həddinə çatdıqda namazı tam qılmalıdır. Amma səfərdən qayıdarkən tərəxxüs-həddi ilə şəhərin girişinədək olan məsafədə namazı həm qəsr, həm də tam qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

5. Bir şəxs on gün qalmaq istədiyi yer ilə bu yerin tərəxxüs-həddi arasındakı məsafədə, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Yaxud da bu yerə çatanadək gözləməli, sonra namazını qılmalıdır və ya bu yerdən xaric olarkən oranın tərəxxüs-həddinə çatanadək gözləməli, sonra namazını qılmalıdır. Həmçinin otuz gün tərəddüdlə qaldığı bir yerdən xaric olarkən bu yerin tərəxxüs-həddinədək olan məsafədə, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Yaxud da oranın tərəxxüs-həddinə çatanadək gözləməli, sonra namazını qılmalıdır.

Suallar:

1- Müsafir namazının səkkiz şərtini açıqlayın.

2- Haram səfər hansı səfərə deyilir?

3- Səkkiz fərsəx olan şəri məsafənin hesablanması üçün "şəhərin axırı" dedikdə, hara nəzərdə tutulur?

4- "Peşəsi səfər etmək olan şəxs" dedikdə, kimlər nəzərdə tutulur?

5- Müsafirin "birinci səfər"i səfər etdiyi ünvana çatdıqda tamamlanır, yoxsa vətəndən xaric olub vətənə geri döndükdə tamamlanır?

6- Tərəxxüs-həddi necə müəyyən edilir?

---

[1] Amma əgər səkkiz fərsəxi keçdikdən sonra onun niyyəti dəyişərsə, qəsr olaraq qıldığı namazlar düzgündür.

[2] Aparılan araşdırmalara əsasən, tərəxxüs-həddi şəhərin axırıncı nöqtəsindən 1350 metr uzaqlıqda yerləşir.

Əlli ikinci dərs: Müsafir namazı (2)

Səfəri kəsən səbəblər

Aşağıdakı səbəblər səfəri kəsir (yəni bu səbəblərdən biri baş verdikdə səfər başa çatır və namazı tam qılmaq lazımdır):

1- Vətəndən keçmək;

2- Müəyyən bir yerdə on gün qalmağı qərara almaq və ya bilmək;

3- Müəyyən bir yerdə tərəddüdlə və on gün qalmağı qərara almadan otuz gün qalmaq.

Diqqət:

• Əgər müsafir şəxs öz vətənindən çıxdıqdan sonra elə bir yol ilə hərəkət etsə ki, bu yolda onun vətənində çəkilən azan səsi eşidilir, o öz vətənindən keçməyənədək şəri məsafəyə xələl gəlmir və səfəri kəsilmir (yəni onun qət etdiyi məsafə şəri məsafədən hesab olunur). Amma o öz vətəni ilə tərəxxüs-həddi arasındakı məsafədə olduğu zaman müsafir hökmündə deyildir.

Səfəri kəsən səbəblər: 1- Vətəndən keçmək

1. Vətən iki qismə bölünür:

1- Əsl vətən: Əsl vətən o yerdir ki, insan öz ömrünün ilkin dövrünün böyük hissəsini (uşaqlıq və yeniyetməlik illərini) orada yaşayıb boya-başa çatmışdır.

2- Seçilən vətən: Seçilən vətən o yerdir ki, insan oranı vətən və yaşayış yeri olaraq seçir, halbuki o yer əvvəllər onun vətəni olmayıbdır. Bu şəxs istər öz əsl vətənini vətənlikdən çıxarsın, istərsə də çıxarmasın, bunun fərqi yoxdur. Əgər bir şəxs müəyyən bir yerdə təxminən on il yaşamaq niyyətində olsa, uzaq ehtimal deyildir ki, ürfə görə bu yerin onun üçün seçilən vətən sayılmasında kifayət etsin.

2. Bir şəxsin bir-iki il yaşamaq üçün seçdiyi yer ürfə görə vətən sayılmır, amma bu şəxs burada müsafir də sayılmır. Odur ki, on gün qalmağı niyyət etmədən belə, onun namazı tamdır.

3. Hansısa bir şəhərdə sadəcə dünyaya gəlmək və doğulmaq, bu şəhərin insanın "əsl vətən"i olmasına səbəb olmur. Əksinə, ömrün ilkin dövrünün böyük hissəsini (uşaqlıq və yeniyetməlik illərini) orada yaşayıb boya-başa çatmaq tələb olunur. Məsələn, əgər bir şəxs hansısa bir yerdə dünyaya gəlsə, amma doğulduqdan sonra həmin yerdə böyüməsə, bu yer onun əsl vətəni hesab olunmur. Əksinə, onun əsl vətəni doğulduqdan sonra aparıldığı və ömrünün ilkin dövrünün böyük hissəsini orada yaşayıb boya-başa çatdığı yerdir.

4. Müəyyən bir yerin "seçilən vətən" hesab olunması üçün üç şərt tələb olunur:

1- İnsan o yerdə daimi olaraq, yaxud uzun müddət olaraq (hətta ilin bir neçə ayı orada qalsa belə), yaxud da müddət təyin etmədən yaşamağı qəti surətdə qərara alır.

2- İnsan müəyyən bir şəhərdə və ya qəsəbədə məskunlaşmağı və oranı özünə vətən seçməyi qərara almalıdır. Odur ki, məsələn, bütöv bir ölkəni özünə vətən seçə bilməz.

3- İnsan o yerdə vətənliyi gerçəkləşdirən işləri görməlidir. Məsələn, müəyyən bir yerdə məskunlaşmaq üçün insanın adətən gördüyü işləri (o cümlədən ev almaq və ya kirayələmək, iş qurmaq kimi işləri) görür. Bu halda o, hətta o yerdə bir müddət qalmasa belə, ora onun vətəni hesab olunur. Amma əgər vətənliyi gerçəkləşdirən işləri görməzsə, o yerin onun vətəni hesab olunması üçün orada bir müddət (bir-iki ay) qalmalıdır.

5. Yeni vətəndə ev-mülk sahibi olmaq şərt deyildir.

6. İnsanın iki "əsl vətən"inin olması mümkündür. Məsələn, bəzi köçəri tayfalar daimi olaraq və ya uzun illər boyunca yaylaqdan qışlağa, yaxud əksinə, qışlaqdan yaylağa köç edirlər. Onlar ilin bir hissəsini yaylaqda, bir hissəsini də qışlaqda yaşayırlar. Belə ki, hər iki məkanı özlərinin daimi və ya uzun müddət üçün yaşayış yeri seçirlər. Bu halda bu iki məkanın hər biri onların vətəni hesab olunacaq və bu iki məkanda onlar üçün vətən hökmü icra olunacaqdır. Amma əgər bu iki məkan arasındakı yol şəri məsafə qədər olarsa, bunların birindən digərinə səfər etdikləri zaman müsafir hökmündədirlər.

7. İnsanın eyni vaxtda iki və ya üç vətəni ola bilər və bunun maneəsi yoxdur. Belə ki, bu yerlərin hər birində onun evi və yaşayışı vardır və il ərzində bir neçə ay bu yerlərdə yaşayır. Amma eyni vaxtda üç vətəndən artıq vətənin olması iradlıdır.

2. Vətənlikdən çıxarmaq

1. Vətəni vətənlikdən çıxarmaq o deməkdir ki, insan yaşayış üçün bir daha vətəninə qayıtmamağı qərara alaraq, həmçinin vətənə qayıtmağın qeyri-mümkün olduğunu bilərək və ya buna əmin olaraq vətəni tərk edir.

2. Əgər bir şəxs çox uzun müddət, məsələn, qırx-əlli il öz vətənindən çıxsa və bu müddət ərzində ora qayıtmaq onun zehnindən keçməsə, bu halda uzaq ehtimal deyildir ki, uzun müddət vətəndən çıxmaq oranı vətənlikdən çıxarmaq hökmündə olsun və orada on gün qalmaq niyyətində olmadığı təqdirdə bu şəxsin namazı qəsr olsun.

3. İnsan öz vətənini vətənlikdən çıxarmayanadək ora onun üçün vətən hökmündədir və orada namazı tamdır. Amma vətənini vətənlikdən çıxardıqdan sonra daha ora onun üçün vətən hökmündə deyildir. Yalnız o halda yenidən vətən hökmündə ola bilər ki, bu şəxs daimi və ya uzun müddət yaşamaq üçün (hətta ilin bir neçə ayını orada qalsa belə), yaxud da müddət təyin etmədən yenidən ora geri qayıtsın. Bu şərtlə ki, yaşayış üçün lazım olan şəraiti orada yaratsın və ya orada bir müddət qalsın.

3. Vətən və ya vətənlikdən çıxarmaq baxımından zövcə və övladın tabeliyi

1. Ər-arvadlıq münasibəti məcburi tabeliyə səbəb olmur, başqa sözlə, qadın vətən seçməkdə və ya vətəni vətənlikdən çıxarmaqda öz ərinə tabe olmaya bilər. Beləliklə, əgər bir yer ərin vətəni olarsa, bu o demək deyildir ki, həmin yer zövcənin də vətəni olmalı və orada onun üçün vətən hökmü icra olunmalıdır.

2. Qadının ailə qurması və ərinin başqa şəhərdə olan evinə köçməsi onun öz əsl vətənini vətənlikdən çıxarması demək deyildir. Beləliklə, başqa şəhərdən olan bir kişi ilə ailə quran bir qadın atası evinə getdikdə, öz əsl vətənini vətənlikdən çıxarmadığı təqdirdə, orada namazı tam qılmalıdır.

3. Əgər qadın vətən seçməkdə və ya vətəni vətənlikdən çıxarmaqda öz ərinin istəyinə tabedirsə, ərin qərarı onun üçün kifayət edir. Beləliklə, daimi yaşayış və məskunlaşma məqsədilə öz əri ilə birlikdə getdiyi şəhər onun da vətəni hesab olunur. Həmçinin ərin onların müştərək vətənini vətənlikdən çıxarması və həmin yerdən çıxıb başqa bir yerə getmələri qadının da həmin yeri vətənlikdən çıxarması hesab olunur.

4. Əgər övlad öz həyatı üçün qərarlar almaqda və yaşayışda müstəqil deyildirsə, yəni təbii olaraq atanın istəyinə tabedirsə, əvvəlki vətəni vətənlikdən çıxarmaq və yeni vətən seçməkdə – belə ki, o, ata ilə birlikdə daimi yaşayış üçün oraya getmişdir – övlad ataya tabedir. Beləliklə, əgər bir şəxs ataya tabe olaraq öz vətənindən başqa bir şəhərə köçsə və ata yaşayış üçün əvvəlki yerə qayıtmamaq niyyətində olsa, əvvəlki yer daha onun üçün vətən hökmündə deyildir. Əksinə, atanın yeni vətəni onun vətənidir.

5. Əgər övlad öz həyatı üçün qərarlar almaqda və yaşayışda müstəqil olsa, vətənin hökmlərində ata və anaya tabe olmayacaqdır.

Suallar:

1- Səfəri kəsən səbəblər hansılardır?

2- Əsl vətən və seçilən vətənin hansı fərqləri vardır?

3- Seçilən vətənin şərtlərini sadalayın.

4- İnsanın birdən artıq vətəni ola bilərmi? Nümunə çəkərək izah edin.

5- Vətəni vətənlikdən çıxarmaq nə deməkdir?

6- Ailə qurub başqa şəhərə gəlin köçən qız öz atası evinə getdikdə namazını qəsr qılmalıdır, yoxsa tam?

Əlli üçüncü dərs: Müsafir namazı (3)

Səfəri kəsən səbəblər: 2- Müəyyən bir yerdə on gün qalmağı qərara almaq və ya bilmək

1. Əgər müsafir şəxs müəyyən bir yerdə on gün ardıcıl olaraq qalmağı qərara alsa və ya məcburi olaraq orada on gün qalacağını bilsə, namazı tam qılmalıdır. (Buna fiqh termini ilə "qəsdi-iqamət" deyilir.) Amma əgər on gündən az qalmaq niyyətində olsa, başqa müsafirlər hökmündədir. Beləliklə, əgər hərbi xidmətdə olan əsgərlər və ya hərbiçilər müəyyən bir məkanda (məsələn, hərbi hissədə, sərhəd bölgələrində və s.) on gün qalmaq niyyətində olsalar, yaxud məcburi şəkildə olsa belə, orada on gün və ya daha çox qalacaqlarını bilsələr, namazı tam qılmalıdırlar.

Diqqət:

• Müəyyən bir yerdə on gün qalmayacağını bilən bir şəxsin "on gün qalmaq niyyəti" etməsi mənasızdır və o, həmin yerdə namazı qəsr qılmalıdır. Məsələn, İmam Rzanın (ə) ziyarətinə gedən şəxs orada on gündən az qalacağını bilir, amma namazını tam qılmaqdan ötrü orada on gün qalmaq niyyəti edir. Bu niyyətin heç təsiri yoxdur və o, namazını qəsr qılmalıdır.

2. On gün qalmaq qərarında yalnız müəyyən bir yer (məsələn, bir şəhər, bir kənd və s.) nəzərdə tutulmalıdır, iki yer nəzərdə tutula bilməz. Deməli, camaatın nəzərində iki ayrı məntəqə sayılan yerlərə ezamiyyətə göndərilən bir şəxs yalnız onların birində on gün qalmağı qərara ala bilər. Əgər o, bu yerlərin birində bir neçə gün, digərində də bir neçə gün qalmağı qərara alıbsa və ümumilikdə on gün qalacaqdırsa, müəyyən bir yerdə on gün qalmaq niyyəti gerçəkləşmir. O, hər iki yerdə namazı qəsr qılmalıdır.

Diqqət:

• Əgər bir şəhərin məntəqələri ürfə görə müstəqil məntəqələr sayılacaq ölçüdə bir-birindən ayrı olmazsa, müsafir şəxs bu şəhərin bir məntəqəsində on gün qalmağı qərara aldıqdan sonra şəhərin digər məntəqələrinə getdiyi təqdirdə – hətta qaldığı məntəqə ilə getdiyi məntəqələr arasındakı məsafə şəri məsafə ölçüsündə olsa belə – on gün qalmaq niyyətinə və onun hökmünə xələl gəlmir.

3. Müsafir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara aldığı zaman bu on gün əsnasında qaldığı yerdən xaric olmağı və dörd fərsəxdən az bir məsafədə yerləşən başqa bir yerə getməyi də nəzərdə tutur[1]. Bu halda əgər o, ürfə görə "müəyyən bir yerdə on gün qalmağ"a zidd olmayan miqdarda, məsələn, on gün ərzində iki-üç dəfə və hər dəfə ən çoxu yarım gün oradan xaric olmağı nəzərdə tutubsa, onun "müəyyən bir yerdə on gün qalmaq" niyyətinə xələl gəlmir və namazı tam qılmalıdır.

4. Əgər müsafir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara aldığı zaman bu on gün əsnasında qaldığı yerdən xaric olmağı və dörd fərsəx və ya daha uzaq məsafədə yerləşən başqa bir yerə getməyi – hətta bir dəfə və bir neçə dəqiqəliyə olsa belə – nəzərdə tutarsa, bu halda "müəyyən bir yerdə on gün qalmaq niyyəti" gerçəkləşmir və o, namazı qəsr qılmalıdır.

5. Əgər müsafir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alsa və orada bir dördrəkətli namaz (zöhr, əsr və ya işa namazlarından birini) qılmamışdan qabaq öz qərarından dönsə və ya tərəddüd etsə, "müəyyən bir yerdə on gün qalmaq niyyəti" gerçəkləşmir və orada qaldığı müddətdə namazı qəsr qılmalıdır. Amma əgər ən azı bir dördrəkətli namaz qılarsa, "müəyyən bir yerdə on gün qalmaq niyyəti" gerçəkləşmişdir və bundan sonra on gün qalmaq qərarından dönmək və ya tərəddüd etməyin heç bir təsiri yoxdur. Beləliklə, o, həmin yerdə qaldığı müddətdə (hətta bir gün qalsa belə) və yeni bir səfərə getməyənədək namazı tam qılmalıdır.

6. Müəyyən bir yerdə on gün qalmaq niyyəti gerçəkləşdikdən sonra bu yerdən dörd fərsəxdən az bir məsafədə yerləşən başqa bir yerə getməyin – hətta bir gün və ya daha çox müddət getməyin – maneəsi yoxdur və namaz tam qılınmalıdır. Bu halda müsafir şəxs istər ilk on gün ərzində oradan xaric olsun, istərsə də bundan sonra xaric olsun, fərqi yoxdur. Əgər o, qaldığı yerə yenidən qayıtmaq niyyətində olarsa, gediş-qayıdış yolunda, getdiyi yerdə və qaldığı yerdə namazı tam qılmalıdır. Amma əgər dörd fərsəx ölçüsündə oradan xaric olarsa, başqa müsafirlər hökmündə olacaqdır.

Deməli, əgər müsafir şəxs on gün qalmağı qərara aldığı bir şəhərdən dörd fərsəx uzaqlıqda yerləşən başqa bir şəhərə getsə, onun "müəyyən bir yerdə on gün qalmaq niyyəti" pozulur və qaldığı şəhərə qayıtdıqdan sonra yenidən orada on gün qalmağı qərara almalıdır.

7. Bir qədər əvvəldə "Vətən və ya vətənlikdən çıxarmaq baxımından zövcə və övladın tabeliyi" başlığı altında açıqladığımız məsələlər zövcə və övlad üçün "Müəyyən bir yerdə on gün qalmağı qərara almaq" mövzusuna da aiddir.

Səfəri kəsən səbəblər: 3- Müəyyən bir yerdə tərəddüdlə və on gün qalmağı qərara almadan otuz gün qalmaq

1. Əgər müsafir şəxs səkkiz fərsəxi qət etdikdən sonra müəyyən bir yerdə qalsa, amma orada nə qədər (on gün, yoxsa daha az) qalacağını bilməsə, bir qərara gəlməyənədək namazı qəsr qılmalıdır. Amma otuz gün keçdikdən sonra, hətta həmin gün geri qayıtmaq istəsə belə, namazı tam qılmalıdır.

2. Əgər müsafir şəxs müəyyən bir yerdə on gündən az qalmaq niyyətində olsa, amma bu müddət başa çatdıqdan sonra oradan getmək fikrindən dönüb, yenə də on gündən az olaraq (məsələn, bir həftə) orada qalmağı qərara alsa və bu minvalla orada qalmağı bir ayadək uzatsa, bu halda əvvəlki məsələdə qeyd olunduğu kimi, o, otuz birinci gündən etibarən namazı tam qılmalıdır.

Böyük şəhər

Müsafirin hökmləri, vətən seçmək və müəyyən bir yerdə on gün qalmaq niyyəti baxımından "böyük şəhər" ilə adi şəhərlər arasında fərq yoxdur. Bir şəxs böyük bir şəhəri vətən seçib, yaşayış üçün tələb olunan şəraiti orada qurduqdan və ya bir müddət orada yaşadıqdan sonra həmin şəhər bütünlüklə onun vətəni sayılır. Həmçinin əgər müsafir şəxs böyük bir şəhərdə on gün qalmağı qərara alarsa, şəhərin bütün məntəqələrində namazı tam qılmalıdır. O, istər böyük şəhərin müəyyən bir məntəqəsini vətən seçməyi və ya orada on gün qalmağı qərara almış olsun, istərsə də müəyyən bir məntəqə barəsində bu qərarı almamış olsun, fərqi yoxdur.

Müsafir namazının hökmləri:

1. Əgər müsafir şəxs səfərdə namazın müəyyən şərtlər daxilində qəsr qılındığını bilsə, həmçinin onun səfərinin də bu şərtlərə malik olduğunu bilsə, amma namazı tam qılsa, onun namazı düzgün deyildir. İstər namazın vaxtı keçməmiş olsun, istərsə də keçmiş olsun, namazı qəsr olaraq yenidən qılmalıdır.

2. Əgər müsafir şəxs səfərdə olan bir şəxsin namazı qəsr qılmalı olduğunu unutsa, yaxud özünün səfərdə olduğunu unutsa və buna görə də namazı tam qılsa, namaz vaxtı başa çatmamışdan qabaq bunu xatırladığı təqdirdə, namazı yenidən qəsr olaraq qılmalıdır. Əgər yenidən qılmazsa, sonradan onun qəzasını qılmalıdır. Amma əgər namaz vaxtı başa çatdıqdan sonra bunu xatırlasa, namazın qəzası yoxdur.

3. Əgər müsafir şəxs səfərdə namazın qəsr olduğunu bilmirsə və vəzifəsinə zidd olaraq namazı tam qılsa, qasir-cahil[2] olduğu təqdirdə, hökmü bildikdən sonra namazı yenidən qılması və ya onun qəzasını qılması lazım deyildir. Amma əgər o, müqəssir-cahil[3] olsa, hökmü öyrənmədiyinə görə günah etmişdir və hökmü bildikdən sonra namaz vaxtı keçmədiyi təqdirdə namazı yenidən qılmalı, namaz vaxtı keçdiyi təqdirdə isə namazın qəzasını qılmalıdır.

4. Əgər müsafir şəxs səfərdə namazın hökmünü (yəni qəsr qılındığını) bilirsə, amma hökmün təfərrüatını bilmədiyinə görə namazı tam qılsa, ehtiyat-vacibə görə, namaz vaxtı keçməmişdən qabaq səhvini başa düşdüyü təqdirdə, namazı yenidən qılmalıdır. Namaz vaxtı keçdikdən sonra səhvini başa düşdükdə isə namazın qəzasını qılmalıdır. Məsələn, müsafir şəxs səfərdə namazın qəsr olduğunu bilir, amma bilmir ki, müəyyən bir yerdə on gün qalmağı qərara aldıqdan sonra və bir dördrəkətli namaz qılmamışdan qabaq orada qalmaq qərarından daşındığı halda namazı qəsr qılmalıdır. Bunu bilmədiyinə görə namazı tam qılır.

5. Əgər vəzifəsi namazı tam qılmaq olan müsafir bir şəxs vəzifəsinə zidd olaraq namazı qəsr qılsa, onun namazı düzgün deyildir. İstər bilərəkdən, istər unutqanlıq üzündən, istərsə də məsələnin hökmünü və ya tətbiqini unutduğuna və ya bilmədiyinə görə belə etsin, fərqi yoxdur. Amma sonrakı məsələdə açıqlanan hal istisna təşkil edir.

6. Əgər müsafir şəxs müəyyən bir yerdə on gün qalmaq istəsə, amma hökmü bilmədiyinə görə namazı qəsr qılsa, onun namazı düzgündür. Amma əgər hökmün tətbiqini bilmədiyinə və ya bunu unutduğuna görə namazı qəsr qılsa, onun namazı düzgün deyildir. Namazı yenidən tam olaraq qılmalıdır.

Suallar:

1- Əgər müəyyən bir yerdə qeyri-ixtiyari olsa belə, on gün qalacağını bilən əsgərin namazının hökmü nədir?

2- Əgər İmam Rzanın (ə) ziyarətinə gedən şəxs orada on gündən az qalacağını bilsə, amma namazını tam qılsın deyə, orada on gün qalmağı niyyət etsə, onun bu əməlinin hökmü nədir?

3- Müəyyən bir yerdə on gün qalmağı qərara alarkən oradan dörd fərsəxdən az bir məsafədə yerləşən başqa bir yerə getməyi də nəzərdə tutmaq olarmı?

4- "Müəyyən bir yerdə on gün qalmaq niyyəti" hansı şərtlər daxilində gerçəkləşir? İzah edin.

5- Əgər müsafir şəxs getdiyi yerdə nə qədər qalacağını – on gün, yoxsa daha az qalacağını – bilməsə, namazını necə qılmalıdır?

6- Müsafirin hökmlərində böyük şəhər ilə adi şəhər arasında hansı fərqlər vardır?

---

[1] Yəni müəyyən bir yerdə on gün qalmağı qərara alarkən, eyni zamanda oradan xaric olub, şəri məsafədən az olan bir məsafəni qət etməyi nəzərdə tutubdur.

[2] Yəni hökmü bilməyən və bilmədiyini də bilməyən şəxs

[3] Yəni hökmü bilmədiyini bilən, amma öyrənmək imkanı olsa da, öyrənməyən şəxs

Əlli dördüncü dərs: Qəza namazı. Əcir namazı. Ata və ananın qəza namazları

Qəza namazı

1. Əgər bir şəxs vacib namazı öz vaxtında qılmasa, onun qəzasını qılmalıdır, baxmayaraq ki, namaz vaxtı ərzində yatıb yuxuya qalmış, yaxud xəstəliklə əlaqədar olaraq namazı qıla bilməmiş, yaxud da məst vəziyyətində olmuşdur. Amma əgər bir şəxs namaz vaxtı ərzində qeyri-ixtiyari olaraq huşsuz vəziyyətdə olubsa, namazın qəzası ona vacib olmur. Həmçinin müsəlmanlığı qəbul edən kafirin kafirlik dövründə və namaz vaxtı ərzində heyz və nifas vəziyyətində olan qadının qılmadığı namazların qəzası yoxdur. Amma əgər mürtəd, yəni İslam dinindən dönən müsəlman şəxs yenidən İslam dininə gəlsə, mürtədlik dövrünün namazlarının qəzasını qılmalıdır.

2. Əgər bir şəxs qıldığı namazın düzgün olmadığını namaz vaxtı keçdikdən sonra bilsə, bu namazın qəzasını qılmalıdır. Məsələn, bir şəxs qüslün hökmlərini bilmədiyinə görə düzgün qaydada qüsl etməyibdir. Bu şəxs düzgün olmayan qüsl ilə qıldığı namazların qəzasını qılmalıdır.

3. Namazın qəzasını qılmaq o halda vacib olur ki, namazı qılmadığına və ya namazın düzgün olmadığına mükəlləfin yəqinliyi vardır. Amma əgər mükəlləf namazı qılmadığına və ya namazın düzgün olmadığına şəkk və ya güman etsə, namazın qəzasını qılmaq vacib deyildir.

4. Qəza namazını qılarkən namazların ardıcıllığına riayət etmək vacib deyildir. Amma eyni günün zöhr və əsr namazlarının qəzasını, həmçinin eyni günün məğrib və işa namazlarının qəzasını qılmaq istədikdə namazların ardıcıllığına riayət olunmalıdır. Beləliklə, bir ilin qəza namazlarını qılmaq istəyən şəxs onları aşağıdakı ardıcıllıqla qıla bilər:

Məsələn, əvvəlcə iyirmi sübh namazı, sonra iyirmi zöhr namazı, sonra iyirmi əsr namazı, sonra iyirmi məğrib namazı, sonra iyirmi işa namazı qıla bilər. Bir ilin namazları tamamlananadək bu şəkildə davam edə bilər. Yaxud da bir namazdan başlayıb gündəlik namazların ardıcıllığı ilə davam edə bilər.

5. Qəza namazlarının sayını bilməyən, (məsələn) iki, yoxsa üç qəza namazı olduğunu bilməyən şəxsin az olan sayı götürüb, həmin sayda qəza namazını qılması kifayət edir. (Başqa sözlə desək, yəqin bildiyi sayda qəza namazı qılması kifayət edir.)

6. Əgər bir şəxs üç cənabət qüslü etsə, məsələn, ayın 21-i, 25-i və 27-si qüsl etsə, amma sonradan bu qüsllərdən birinin düzgün olmadığına yəqin etsə, ehtiyat-vacibə görə, o, boynunda olan qəza namazlarını qıldığına yəqin edəcəyi sayda qəza namazı qılmalıdır.

7. Nafilələr və müstəhəb namazlar qəza namazını əvəz etmir. Əgər bir şəxsin boynunda qəza namazı varsa, onu qəza namazı niyyətilə qılmalıdır.

8. Qəza etdiyi namazların hamısını qılmağa qadir olmayan bir şəxs bacardığını qılmalı, qıla bilmədiyini isə vəsiyyət etməlidir.

9. Boynunda qəza namazı olan şəxs əda namazı qıla bilər. Amma əgər onun bir qəza namazı varsa – xüsusilə də qəza namazı həmin günə aiddirsə – ehtiyat-vacibə görə, əvvəlcə qəza namazını qılmalıdır.

Əcir namazı

1. Həyatda olan bir şəxsin qəza namazını heç kim qıla bilməz, baxmayaraq ki, o öz qəza namazlarını qılmağa qadir deyildir. Amma insan dünyasını dəyişdikdən sonra onun qəza namazlarını qılmağın maneəsi yoxdur. Hər bir kəs həyatda ikən öz vacib namazlarını bacardığı şəkildə özü qılmalıdır. Başqa bir şəxsin onun yerinə qıldığı namaz – istər zəhmət haqqı alaraq qılsın, istərsə də zəhmət haqqı almadan qılsın – kifayət etmir.

2. Əcir namazını qılarkən mərhumun xüsusiyyətlərini vurğulamaq lazım deyildir. Həmçinin yalnız eyni günün zöhr və əsr namazlarının, eləcə də eyni günün məğrib və işa namazlarının ardıcıllığına riayət etmək şərtdir. Əgər əcirlik müqaviləsində əcir namazını qılan şəxsin qarşısında heç bir şərt qoyulmazsa (məsələn, namazı məsciddə və ya filan saatda qılması deyilməzsə), əcir namazını qılan şəxsə yalnız namazın vacibatlarını yerinə yetirərək qəza namazını qılmaq vacib olur.

Ata və ananın qəza namazları

1. Ata və ana dünyasını dəyişdikdən sonra atanın və ehtiyat-vacibə görə, ananın qəza namazlarını qılmaq böyük oğula vacibdir.

2. Əgər ata və ya ana əsla namaz qılmayıbsa, ehtiyat-vacibə görə, yenə də onların qəza namazlarını qılmaq böyük oğula vacibdir.

3. "Böyük oğul" dedikdə, ata və ana vəfat etdikdən sonra həyatda olan böyük oğul övladı nəzərdə tutulur. Deməli, əgər ailənin böyük oğlu ata və anadan qabaq vəfat etsə, istər həddi-büluğa çatmış olsun, istərsə də çatmamış olsun, ata və ana vəfat etdikdən sonra onların qəza namazları həyatda olan böyük oğula vacib olur.

4. "Böyük oğul" dedikdə, mərhumun oğlan övladları arasında ən böyüyü nəzərdə tutulur. Deməli, əgər mərhumun böyük övladı qız və ikinci övladı oğlandırsa, valideynlərin qəza namazı ailənin ikinci övladı, eyni zamanda böyük oğul sayılan oğlana vacibdir.

5. Ata və ananın qəza namazları böyük oğula vacib olsa da, başqa bir şəxs bu namazları qıldığı təqdirdə böyük oğulun boynundan götürülür.

6. Ata və ananın qılmadığını yəqinliklə bildiyi namazların qəzasını qılmaq böyük oğula vacibdir. Əgər o, ata və anasının qəza namazı olub-olmadığını dəqiq bilmirsə, onun üzərinə heç bir vəzifə düşmür. Bu barədə araşdırma aparmaq da lazım deyildir.

7. Böyük oğul mümkün olan hər hansı bir şəkildə ata və ananın qəza namazlarını qılmalıdır. Əgər o, ata və ananın qəza namazlarını qılmaqda acizdirsə, bu halda onun üzərinə heç bir vəzifə düşmür.

8. Əgər bir şəxsin özünün qəza namazı varsa, həmçinin ata və anasının da qəza namazı onun öhdəsindədirsə, hansını istəsə qabağa sala və birinci qıla bilər.

9. Əgər ata və ana vəfat etdikdən sonra böyük oğul vəfat etsə, heç kimin üzərinə bir vəzifə düşmür. Deməli, ata-ananın qəza namazları böyük oğulun oğluna (yəni nəvəyə) və ya qardaşına vacib olmur.

Suallar:

1- Müsəlmanlığı qəbul edən kafirə kafir olduğu dövrdə qılmadığı namazların qəzasını qılmaq vacibdirmi?

2- Boynunda qəza namazı olan şəxs əgər müstəhəb namaz qılsa, qəza namazını əvəz edirmi?

3- Əcir namazında mərhumun xüsusiyyətlərini vurğulamaq şərtdirmi?

4- Ömür boyu namaz qılmayan atanın qəza namazını qılmaq böyük oğula vacibdirmi?

5- Böyük oğul kimə deyilir?

6- Əgər böyük oğulun özünün qəza namazı olsa və ata-anasının da qəza namazı ona vacib olsa, hansını birinci qılmalıdır?

Əlli beşinci dərs: Ayat namazı. Fitr bayramı və Qurban bayramının namazı

Ayat namazı

1. Ayat namazını vacib edən şəri səbəblər

Ayat namazı dörd halda vacib olur:

1- Günəş tutulduqda (küsuf), hətta Günəşin çox az hissəsi tutulsa belə;

2- Ay tutulduqda (xüsuf), hətta Ayın çox az hissəsi tutulsa belə;

3- Zəlzələ baş verdikdə;

4- İnsanların əksəriyyətinin qorxmasına səbəb olan göy hadisəsi baş verdikdə, məsələn, qara və ya qırmızı küləyin əsməsi, şimşəyin çaxması və s.

Diqqət:

• Günəş və Ay tutulması və zəlzələ istisna olmaqla, digər göy hadisələri insanların əksəriyyətinin qorxmasına səbəb olmalıdır. Əgər baş verən hadisə insanların qorxmasına səbəb olmazsa və ya bəzi insanların qorxmasına səbəb olarsa, Ayat namazı vacib olmur.

• Ayat namazını qılmaq o şəxslərə vacib olur ki, hadisə zamanı həmin məntəqədə olublar.

• Əgər Seysmoloji Xidmət Mərkəzi müəyyən bir məntəqədə zəif yeraltı təkanların baş verdiyini elan etsə, belə ki, bu yeraltı təkanlar yalnız cihazlar vasitəsilə müəyyən edilir və həmin məntəqədə yaşayan insanlar onları əsla hiss etmirlər, bu halda Ayat namazı vacib olmur.

• Hər bir zəlzələ üçün (istər güclü olsun, istərsə də zəif olsun), hətta zəlzələdən sonrakı yeraltı təkanlar ayrıca bir zəlzələ sayıldığı təqdirdə, onlar üçün ayrıca olaraq Ayat namazı qılınmalıdır.

2. Ayat namazının vaxtı

1. Günəş və Ay tutulmasında Ayat namazının vacib olması vaxtı Günəş və Ay tutulmağa başladığı andan etibarən başlanır. Ehtiyat-vacibə görə, namaz o qədər yubadılmamalıdır ki, Günəş və Ay açılmağa başlasın.

2. Əgər bir şəxs Ayat namazını qılmağı yubatsa və Günəş və ya Ay açılmağa başlasa, namazı qəsdi-qürbət ilə, yəni əda və qəza niyyəti etmədən (ma fiz-zimmə niyyətilə) qılmalıdır. Amma əgər Günəş və ya Ay tam açılarsa, namazı qəza niyyətilə qılmalıdır.

3. Zəlzələ baş verdikdə, göy gurultusu və şimşək çaxdıqda və ya bu kimi hadisələr (yəni baş vermə müddəti az olan hadisələr) baş verdikdə, ehtiyata görə, şəri vəzifə daşıyan şəxs Ayat namazını dərhal qılmalıdır. Əgər namazı qılmağı yubatsa, ömrünün axırınadək bu Ayat namazını əda və qəza niyyəti etmədən (ma fiz-zimmə niyyətilə) qılmalıdır.

4. Əgər bir şəxsin Günəş və ya Ay tutulduğu zaman bu hadisədən əsla xəbəri olmayıbsa və Günəş və ya Ay açıldığı zaman bunu başa düşübsə, tutulma tam olduğu təqdirdə, o, Ayat namazının qəzasını qılmalıdır. Amma əgər tutulma qismən olubsa, ona Ayat namazının qəzası vacib olmur.

5. Əgər bir şəxs Günəş və ya Ay tutulduğu zaman bu hadisədən xəbərdar olubsa, amma Ayat namazını (hətta unutqanlıq üzündən) qılmayıbsa, namazın qəzasını qılmalıdır, baxmayaraq ki, tutulma qismən olubdur.

6. Günəş və Ay tutulması istisna olmaqla, əgər bir şəxs digər təbiət hadisələri baş verdiyi zaman hadisədən xəbərdar olubsa və Ayat namazını, hətta unutqanlıq üzündən qılmayıbsa, o, Ayat namazını qılmalıdır. Əgər bu hadisələr baş verdiyi zaman hadisədən xəbərdar olmayıbsa və sonradan bunu başa düşübsə, ehtiyat-vacibə görə, Ayat namazını qılmalıdır.

3. Ayat namazının qılınma qaydası

Ayat namazı iki rəkətdir. Hər rəkətdə beş rüku və iki səcdə yerinə yetirilir. Ayat namazı bir neçə surətdə qılına bilər:

Birinci surət: Hər rəkətdə beş dəfə "Həmd" və "Surə" oxunur.

Niyyət etdikdən və "təkbirətul-ehram"ı dedikdən sonra "Həmd" və tam bir "Surə" oxunur və rükuya gedilir. Daha sonra rükudan qalxıb, "Həmd" və tam bir "Surə" oxunur və ikinci rükuya gedilir. Bu qaydada beş rüku yerinə yetirilir. Beşinci rükudan qalxdıqdan sonra səcdəyə gedilir və iki səcdə yerinə yetirilir. İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır. İkinci rəkətin iki səcdəsindən sonra təşəhhüd və salam deyilir.

İkinci surət: **Hər rəkətdə bir dəfə "Həmd" və "Surə" oxunur. "Surə" beş hissəyə (bu hissə bir ayə, yaxud bir ayədən çox və ya az ola bilər) bölünür.**

Niyyət etdikdən və "təkbirətul-ehram"ı dedikdən sonra "Həmd" və "Surə"nin bir hissəsi oxunur və rükuya gedilir. (Qeyd edək ki, ehtiyat-vacibə görə, "Bismilləhir rahmənir rahim" ayəsi "Surə"nin bir hissəsi kimi götürülə bilməz və onu dedikdən sonra rüku edilə bilməz.) Rükudan qalxdıqdan sonra "Həmd"i oxumadan "Surə"nin ikinci hissəsi oxunur və ikinci rükuya gedilir. Namaz bu qaydada davam etdirilir. Beşinci rükudan qabaq "Surə"nin beşinci hissəsi oxunur və rükuya gedilir. Beşinci rükudan qalxdıqdan sonra səcdəyə gedilir və iki səcdə yerinə yetirilir. İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır. İkinci rəkətin iki səcdəsindən sonra təşəhhüd və salam deyilir.

Üçüncü surət: **Birinci rəkəti yuxarıda izah olunan iki surətdən biri şəklində, ikinci rəkəti isə digər surətdə qılmaq olar.**

Dördüncü surət: **Birinci rükudan qabaq bir hissəsi oxunan "Surə" ikinci, üçüncü və ya dördüncü rükudan əvvəl tamamlanır. Bu halda rükudan qalxdıqdan sonra qiyamda "Həmd" surəsi yenidən oxunur, ardınca tam bir "Surə" və ya "Surə"nin bir hissəsi oxunmağa başlanır, belə ki, beşinci rükudan qabaq bu "Surə" tamamlanmalıdır.**

• Diqqət:

Gündəlik namazlarda vacib və ya müstəhəb olan əməllər Ayat namazında da eyni hökmü daşıyır. Amma Ayat namazında azan və iqamənin yerinə savab əldə etmək ümidilə üç dəfə "Əs-səlah" deyilir.

Fitr bayramı və Qurban bayramının namazı

1. Hazırkı dövrdə (yəni İmam Zamanın (ə.f) qeyb dövründə) Fitr bayramı və Qurban bayramının namazı vacib deyildir, əksinə, müstəhəbdir.

2. Fitr bayramı və Qurban bayramının namazı iki rəkətdir. Birinci rəkətdə "Həmd" və "Surə"dən sonra beş "təkbir" (Əllahu əkbər) deyilir və hər təkbirdən sonra qunut tutulur. Beşinci qunutdan sonra daha bir təkbir deyilir və rükuya gedilir. Daha sonra iki səcdə yerinə yetirilir.

İkinci rəkətdə isə "Həmd" və "Surə"dən sonra dörd təkbir deyilir və hər təkbirdən sonra qunut tutulur. Dördüncü qunutdan sonra daha bir təkbir deyilir və rükuya gedilir. Daha sonra iki səcdə yerinə yetirilir və səcdələrdən sonra təşəhhüd və salam deyilərək namaz tamamlanır.

3. Bayram namazının qunutunda uzun və ya qısa dua oxumağın maneəsi yoxdur və namazın düzgün olmamasına səbəb olmur. Amma qunutların sayını azaldıb-artırmağa icazə verilmir.

4. Bayram namazında "iqamə" yoxdur. Əgər imam-camaat bayram namazında iqamə oxusa, onun və ona iqtida edənlərin namazının düzgünlüyünə xələl gəlmir.

5. Vəliyyi-fəqih tərəfindən bayram namazı qılmaq səlahiyyəti verilən nümayəndələr, həmçinin vəliyyi-fəqihin təyin etdiyi imam-cümələr hazırkı dövrdə (İmam-Zamanın (ə.f) qeyb dövründə) bayram namazını camaat namazı şəklində qıla bilərlər. Lakin ehtiyat-vacibə görə, onlardan qeyriləri bayram namazını furada (tək halda) qılsınlar. Amma bayram namazını "qəsdi-vurud"[1] ilə deyil, "qəsdi-rəca"[2] ilə camaat namazı şəklində qılmağın maneəsi yoxdur. Əgər bir şəhərdə bayram namazı qılınarsa, yaxşı olar ki, vəliyyi-fəqih tərəfindən təyin edilən imam-cümədən qeyrisi imam-camaat dayanmasın.

6. Bayram namazının qəzası yoxdur.

7. Bayram namazına yetişməyən namaz qılanlar üçün bu namazı ikinci dəfə camaat namazı şəklində qılmağın maneəsi yoxdur.

Suallar:

1- Ayat namazı neçə halda vacib olur? İzah edin.

2- Bir məntəqədə baş verən zəlzələnin ardınca adətən az bir müddət ərzində onlarca nisbətən zəif yeraltı təkanlar baş verir. Bu yeraltı təkanlar baş verdikdə Ayat namazının hökmü nədir?

3- Ayat namazının qılınma qaydasını açıqlayın.

4- İmam Zamanın (ə.f) qeyb dövründə Fitr bayramı və Qurban bayramının namazının hökmü nədir?

5- Hazırkı dövrdə imam-camaat Fitr bayramı və Qurban bayramının namazını camaat namazı şəklində qıla bilərmi?

6- Fitr bayramı namazının qəzası varmı?

---

[1] Şəriətdə bu barədə hökm mövcuddur. *Müt.*

[2] **Şəriətdə bu barədə hökm mövcud deyildir, amma Allaha yaxın olmaq niyyətilə hər hansı bir əməli yerinə yetirməkdir.** ***Müt.***

Əlli beşinci dərs: Ayat namazı. Fitr bayramı və Qurban bayramının namazı

Ayat namazı

1. Ayat namazını vacib edən şəri səbəblər

Ayat namazı dörd halda vacib olur:

1- Günəş tutulduqda (küsuf), hətta Günəşin çox az hissəsi tutulsa belə;

2- Ay tutulduqda (xüsuf), hətta Ayın çox az hissəsi tutulsa belə;

3- Zəlzələ baş verdikdə;

4- İnsanların əksəriyyətinin qorxmasına səbəb olan göy hadisəsi baş verdikdə, məsələn, qara və ya qırmızı küləyin əsməsi, şimşəyin çaxması və s.

Diqqət:

• Günəş və Ay tutulması və zəlzələ istisna olmaqla, digər göy hadisələri insanların əksəriyyətinin qorxmasına səbəb olmalıdır. Əgər baş verən hadisə insanların qorxmasına səbəb olmazsa və ya bəzi insanların qorxmasına səbəb olarsa, Ayat namazı vacib olmur.

• Ayat namazını qılmaq o şəxslərə vacib olur ki, hadisə zamanı həmin məntəqədə olublar.

• Əgər Seysmoloji Xidmət Mərkəzi müəyyən bir məntəqədə zəif yeraltı təkanların baş verdiyini elan etsə, belə ki, bu yeraltı təkanlar yalnız cihazlar vasitəsilə müəyyən edilir və həmin məntəqədə yaşayan insanlar onları əsla hiss etmirlər, bu halda Ayat namazı vacib olmur.

• Hər bir zəlzələ üçün (istər güclü olsun, istərsə də zəif olsun), hətta zəlzələdən sonrakı yeraltı təkanlar ayrıca bir zəlzələ sayıldığı təqdirdə, onlar üçün ayrıca olaraq Ayat namazı qılınmalıdır.

2. Ayat namazının vaxtı

1. Günəş və Ay tutulmasında Ayat namazının vacib olması vaxtı Günəş və Ay tutulmağa başladığı andan etibarən başlanır. Ehtiyat-vacibə görə, namaz o qədər yubadılmamalıdır ki, Günəş və Ay açılmağa başlasın.

2. Əgər bir şəxs Ayat namazını qılmağı yubatsa və Günəş və ya Ay açılmağa başlasa, namazı qəsdi-qürbət ilə, yəni əda və qəza niyyəti etmədən (ma fiz-zimmə niyyətilə) qılmalıdır. Amma əgər Günəş və ya Ay tam açılarsa, namazı qəza niyyətilə qılmalıdır.

3. Zəlzələ baş verdikdə, göy gurultusu və şimşək çaxdıqda və ya bu kimi hadisələr (yəni baş vermə müddəti az olan hadisələr) baş verdikdə, ehtiyata görə, şəri vəzifə daşıyan şəxs Ayat namazını dərhal qılmalıdır. Əgər namazı qılmağı yubatsa, ömrünün axırınadək bu Ayat namazını əda və qəza niyyəti etmədən (ma fiz-zimmə niyyətilə) qılmalıdır.

4. Əgər bir şəxsin Günəş və ya Ay tutulduğu zaman bu hadisədən əsla xəbəri olmayıbsa və Günəş və ya Ay açıldığı zaman bunu başa düşübsə, tutulma tam olduğu təqdirdə, o, Ayat namazının qəzasını qılmalıdır. Amma əgər tutulma qismən olubsa, ona Ayat namazının qəzası vacib olmur.

5. Əgər bir şəxs Günəş və ya Ay tutulduğu zaman bu hadisədən xəbərdar olubsa, amma Ayat namazını (hətta unutqanlıq üzündən) qılmayıbsa, namazın qəzasını qılmalıdır, baxmayaraq ki, tutulma qismən olubdur.

6. Günəş və Ay tutulması istisna olmaqla, əgər bir şəxs digər təbiət hadisələri baş verdiyi zaman hadisədən xəbərdar olubsa və Ayat namazını, hətta unutqanlıq üzündən qılmayıbsa, o, Ayat namazını qılmalıdır. Əgər bu hadisələr baş verdiyi zaman hadisədən xəbərdar olmayıbsa və sonradan bunu başa düşübsə, ehtiyat-vacibə görə, Ayat namazını qılmalıdır.

3. Ayat namazının qılınma qaydası

Ayat namazı iki rəkətdir. Hər rəkətdə beş rüku və iki səcdə yerinə yetirilir. Ayat namazı bir neçə surətdə qılına bilər:

Birinci surət: Hər rəkətdə beş dəfə "Həmd" və "Surə" oxunur.

Niyyət etdikdən və "təkbirətul-ehram"ı dedikdən sonra "Həmd" və tam bir "Surə" oxunur və rükuya gedilir. Daha sonra rükudan qalxıb, "Həmd" və tam bir "Surə" oxunur və ikinci rükuya gedilir. Bu qaydada beş rüku yerinə yetirilir. Beşinci rükudan qalxdıqdan sonra səcdəyə gedilir və iki səcdə yerinə yetirilir. İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır. İkinci rəkətin iki səcdəsindən sonra təşəhhüd və salam deyilir.

İkinci surət: **Hər rəkətdə bir dəfə "Həmd" və "Surə" oxunur. "Surə" beş hissəyə (bu hissə bir ayə, yaxud bir ayədən çox və ya az ola bilər) bölünür.**

Niyyət etdikdən və "təkbirətul-ehram"ı dedikdən sonra "Həmd" və "Surə"nin bir hissəsi oxunur və rükuya gedilir. (Qeyd edək ki, ehtiyat-vacibə görə, "Bismilləhir rahmənir rahim" ayəsi "Surə"nin bir hissəsi kimi götürülə bilməz və onu dedikdən sonra rüku edilə bilməz.) Rükudan qalxdıqdan sonra "Həmd"i oxumadan "Surə"nin ikinci hissəsi oxunur və ikinci rükuya gedilir. Namaz bu qaydada davam etdirilir. Beşinci rükudan qabaq "Surə"nin beşinci hissəsi oxunur və rükuya gedilir. Beşinci rükudan qalxdıqdan sonra səcdəyə gedilir və iki səcdə yerinə yetirilir. İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır. İkinci rəkətin iki səcdəsindən sonra təşəhhüd və salam deyilir.

Üçüncü surət: **Birinci rəkəti yuxarıda izah olunan iki surətdən biri şəklində, ikinci rəkəti isə digər surətdə qılmaq olar.**

Dördüncü surət: **Birinci rükudan qabaq bir hissəsi oxunan "Surə" ikinci, üçüncü və ya dördüncü rükudan əvvəl tamamlanır. Bu halda rükudan qalxdıqdan sonra qiyamda "Həmd" surəsi yenidən oxunur, ardınca tam bir "Surə" və ya "Surə"nin bir hissəsi oxunmağa başlanır, belə ki, beşinci rükudan qabaq bu "Surə" tamamlanmalıdır.**

• Diqqət:

Gündəlik namazlarda vacib və ya müstəhəb olan əməllər Ayat namazında da eyni hökmü daşıyır. Amma Ayat namazında azan və iqamənin yerinə savab əldə etmək ümidilə üç dəfə "Əs-səlah" deyilir.

Fitr bayramı və Qurban bayramının namazı

1. Hazırkı dövrdə (yəni İmam Zamanın (ə.f) qeyb dövründə) Fitr bayramı və Qurban bayramının namazı vacib deyildir, əksinə, müstəhəbdir.

2. Fitr bayramı və Qurban bayramının namazı iki rəkətdir. Birinci rəkətdə "Həmd" və "Surə"dən sonra beş "təkbir" (Əllahu əkbər) deyilir və hər təkbirdən sonra qunut tutulur. Beşinci qunutdan sonra daha bir təkbir deyilir və rükuya gedilir. Daha sonra iki səcdə yerinə yetirilir.

İkinci rəkətdə isə "Həmd" və "Surə"dən sonra dörd təkbir deyilir və hər təkbirdən sonra qunut tutulur. Dördüncü qunutdan sonra daha bir təkbir deyilir və rükuya gedilir. Daha sonra iki səcdə yerinə yetirilir və səcdələrdən sonra təşəhhüd və salam deyilərək namaz tamamlanır.

3. Bayram namazının qunutunda uzun və ya qısa dua oxumağın maneəsi yoxdur və namazın düzgün olmamasına səbəb olmur. Amma qunutların sayını azaldıb-artırmağa icazə verilmir.

4. Bayram namazında "iqamə" yoxdur. Əgər imam-camaat bayram namazında iqamə oxusa, onun və ona iqtida edənlərin namazının düzgünlüyünə xələl gəlmir.

5. Vəliyyi-fəqih tərəfindən bayram namazı qılmaq səlahiyyəti verilən nümayəndələr, həmçinin vəliyyi-fəqihin təyin etdiyi imam-cümələr hazırkı dövrdə (İmam-Zamanın (ə.f) qeyb dövründə) bayram namazını camaat namazı şəklində qıla bilərlər. Lakin ehtiyat-vacibə görə, onlardan qeyriləri bayram namazını furada (tək halda) qılsınlar. Amma bayram namazını "qəsdi-vurud"[1] ilə deyil, "qəsdi-rəca"[2] ilə camaat namazı şəklində qılmağın maneəsi yoxdur. Əgər bir şəhərdə bayram namazı qılınarsa, yaxşı olar ki, vəliyyi-fəqih tərəfindən təyin edilən imam-cümədən qeyrisi imam-camaat dayanmasın.

6. Bayram namazının qəzası yoxdur.

7. Bayram namazına yetişməyən namaz qılanlar üçün bu namazı ikinci dəfə camaat namazı şəklində qılmağın maneəsi yoxdur.

Suallar:

1- Ayat namazı neçə halda vacib olur? İzah edin.

2- Bir məntəqədə baş verən zəlzələnin ardınca adətən az bir müddət ərzində onlarca nisbətən zəif yeraltı təkanlar baş verir. Bu yeraltı təkanlar baş verdikdə Ayat namazının hökmü nədir?

3- Ayat namazının qılınma qaydasını açıqlayın.

4- İmam Zamanın (ə.f) qeyb dövründə Fitr bayramı və Qurban bayramının namazının hökmü nədir?

5- Hazırkı dövrdə imam-camaat Fitr bayramı və Qurban bayramının namazını camaat namazı şəklində qıla bilərmi?

6- Fitr bayramı namazının qəzası varmı?

---

[1] Şəriətdə bu barədə hökm mövcuddur. *Müt.*

[2] **Şəriətdə bu barədə hökm mövcud deyildir, amma Allaha yaxın olmaq niyyətilə hər hansı bir əməli yerinə yetirməkdir.** ***Müt.***

Əlli yeddinci dərs: Camaat namazı (2)

Camaat namazının şərtləri

Camaat namazının şərtləri aşağıdakılardır:

1- Hail[1] olmamalıdır;

2- İmam-camaatın dayandığı yer məmumun dayandığı yerdən hündürdə olmamalıdır;

3- İmam-camaat ilə məmum arasında məsafə olmamalıdır;

4- Məmum imam-camaatdan öndə dayanmamalıdır.

1- Hail olmamalıdır

1. Əgər camaat namazının cərgələrinin birində məmumların hamısının namazı qəsr olsa, amma onların arxasında dayanan cərgədəki məmumların hamısının namazı tam olsa, namazı qəsr qılan məmumlar iki rəkət namazı qıldıqdan sonra dərhal növbəti iki rəkəti qılmaq üçün iqtida etdikləri təqdirdə, camaat namazının davamı üçün maneə yaranmayacaqdır.

2. Əgər camaat namazına həddi-büluğa çatmayan uşaq vasitəsilə birləşmək mümkün olarsa, uşağın namazı düzgün qıldığı məlum olduğu təqdirdə, imam-camaata iqtida etmək və camaatla namaz qılmaq olar.

3. Əgər camaat namazında kişilər qadınların vasitəsilə namaza birləşə bilirsə (məsələn, İmam Rzanın (ə) hərəmində təşkil edilən camaat namazında və ya bəzən cümə namazlarında bu hal baş verir), bu, heç bir maneə yaratmır. Amma ehtiyat-vacibə görə, qadınlar ilə kişilər arasında ən azı bir qarış məsafə olmalıdır. Onların arasında pərdə və ya bu kimi bir şey mövcud olduğu halda isə bir qarış məsafənin olması vacib deyildir.

Diqqət:

• Əgər camaat namazında qadınlar kişilərin arxasında dayansalar, hətta arada məsafə olmasa belə, bir arakəsməyə və ya pərdəyə ehtiyac yoxdur. Amma əgər qadınlar kişilərlə yanaşı dayansalar, onların arasında bir arakəsmənin olması yaxşıdır. Bununla da, namazda qadın ilə kişinin yanaşı dayanmasının məkruhluğu aradan qalxar. "Namazda qadınlar ilə kişilərin arasında bir arakəsmə yaratmaq qadınların şəxsiyyətinə və şəninə qarşı təhqir və hörmətsizlikdir" düşüncəsinə gəlincə, bu, əsası olmayan bir düşüncədir.

2- İmam-camaatın dayandığı yer məmumun dayandığı yerdən hündürdə olmamalıdır

Əgər imam-camaatın dayandığı yer məmumların dayandığı yerdən şəriətdə icazə verilən ölçüdən çox (bir qarış və ya daha çox) hündürdə olarsa, camaat namazı düzgün deyildir.

3- İmam-camaat ilə məmum arasında məsafə olmamalıdır

1. Ehtiyat-vacibə görə, məmumun səcdə məkanı ilə imam-camaatın dayandığı yer arasındakı məsafə, həmçinin qabaq cərgənin dayandığı yer ilə arxadakı cərgənin səcdə yeri arasındakı məsafə bir böyük addımdan (təxminən bir metrdən) çox olmamalıdır.

2. Əgər bir məmum qabaq tərəfdən imam-camaata birləşməsə və yalnız sağ və ya sol tərəfində dayanan məmum vasitəsilə imam-camaata birləşsə, onun namazı düzgündür.

3. Əgər namazda məmum ilə imam-camaat arasında, yaxud bir məmum ilə digər məmum (belə ki, bu məmum vasitəsilə imam-camaata birləşir) arasında bir böyük addımdan çox məsafə yaranarsa, camaata bağlanma kəsilir və onun namazı furada namaza (yəni tək halda qılınan namaza) çevrilir.

4. Əgər bir məmum birinci cərgənin sağ və ya sol tərəfinin axırında dayansa və onunla imam-camaat arasında dayanan məmumlar imam-camaat namaza başladıqdan sonra namaza başlamaq və təkbirətul-ehramı demək üzrə olsalar, bu məmum camaat namazı niyyətilə namaza başlaya bilər.

Camaat namazının hökmləri

1. Ehtiyat-vacibə görə, məmum zöhr və əsr namazlarında, hətta fikrini cəmləmək məqsədilə olsa belə, "Həmd" və "Surə"ni oxuya bilməz. "Həmd" və "Surə"nin yerinə zikr deməsi müstəhəbdir.

2. Əgər məmum sübh namazında, həmçinin məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində imam-camaatın "Həmd" və "Surə"sini eşidərsə, surələrin sözlərini ayırd edə bilməsə belə, "Həmd" və "Surə"ni oxumamalıdır. Həmçinin əgər imam-camaatın "Həmd" və "Surə"sinin bəzi sözlərini eşidərsə, ehtiyat-vacibə görə, "Həmd" və "Surə"ni oxumamalıdır. Amma əgər imam-camaatın

səsini eşitmirsə, “Həmd” və “Surə”ni astadan oxuması müstəhəbdir. Əgər səhvən ucadan oxusa, iradı yoxdur.

3. Əgər imam-camaat işa namazının üçüncü və ya dördüncü rəkətində olsa, məmum isə ikinci rəkətində olsa, məmum “Həmd” və “Surə”ni astadan oxumalıdır.

4. Əgər bir şəxs camaat namazının ikinci rəkətinə çatsa və məsələni bilmədiyi üçün öz namazının ikinci rəkətində (belə ki, bu vaxt camaat namazının üçüncü rəkəti olacaqdır) qunutu və təşəhhüdü oxumasa, onun namazı düzgündür. Amma ehtiyata görə, təşəhhüdün qəzasını yerinə yetirməli, həmçinin iki səhv-səcdəsi də yerinə yetirməlidir. Ehtiyat-vacibə görə, unudulmuş təşəhhüdün qəzasını səhv-səcdəsindən qabaq yerinə yetirsin.

5. Əgər bir şəxs camaat namazının üçüncü rəkətinə çatsa, amma namazın birinci rəkəti olduğunu düşünüb heç nə oxumasa, səhvini rükudan qabaq başa düşdüyü təqdirdə, “Həmd” və “Surə”ni oxumalıdır. Əgər vaxt azdırsa, təkcə “Həmd”i oxumalı və rükuda özünü imam-camaata çatdırmalıdır. Amma rükuya getdikdən sonra səhvini başa düşsə, onun namazı düzgündür və heç nə ona vacib olmur. Baxmayaraq ki, “qiraət”i səhvən tərk etdiyi üçün iki səhv-səcdəsi yerinə yetirməsi ehtiyat-müstəhəbə müvafiqdir.

6. Əgər imam-camaat təkbirətul-ehramı dedikdən sonra səhvən rükuya getsə (yəni “Həmd” və “Surə”ni oxumadan rükuya getsə), məmum camaat namazına başladıqdan və rükuya getməmişdən qabaq imam-camaatın səhvini başa düşdüyü təqdirdə, o, furada namaz niyyəti etməli, “Həmd” və “Surə”ni oxumalıdır.

7. Əgər məmum imam-camaatın üçüncü və ya dördüncü rəkətlərində ona iqtida etsə, “Həmd” və “Surə”ni oxumalıdır. Əgər “Surə”ni oxumağa vaxt çatmazsa, təkcə “Həmd”i oxumalı və rükuda özünü imam-camaata çatdırmalıdır.

8. Əgər məmum bilsə ki, “Surə”ni oxuduğu təqdirdə rükuda imam-camaata çatmayacaqdır, “Surə”ni oxumamalıdır. Əgər oxusa və rükuda imam-camaata çatmasa, onun namazı furada namaza çevrilir.

9. Əgər imam-camaat namaz əsnasında bir sözü tələffüz etdikdən sonra onu düzgün tələffüz edib-etmədiyinə şəkk etsə və namazdan sonra həmin sözü səhv tələffüz etdiyini başa düşsə, onun və ona iqtida edən məmumların namazı düzgündür.

10. Məmum namazın hərəkətlərini imam-camaatla eyni vaxtda və ya imam-camaatdan bir qədər sonra yerinə yetirməlidir. Əgər o, bilərəkdən imam-camaatdan qabağa keçərsə və ya namazın hərəkətlərini imam-camaatdan çox gec olaraq (yəni imam-camaata tabe olmaq hesab olunmayacaq bir şəkildə) yerinə yetirərsə, onun namazı tək halda qılınan namaz olacaqdır.

11. Əgər məmum səhvən imam-camaatdan qabaq rükuya getsə, rükudan qalxmalı və yenidən imam-camaatla birlikdə rükuya getməli, namazı onunla birlikdə tamamlamalıdır. Bu halda onun camaat namazı düzgündür. Amma əgər o, rükudan qalxmazsa, onun namazı furada namaz olaraq düzgündür.

12. Müsəlmanların vəhdətini qorumaqdan ötrü əhli-sünnə olan imam-camaata iqtida etmək olar. Əgər vəhdəti qorumaqdan ötrü onların yerinə yetirdikləri işləri yerinə yetirmək gərəkdirsə, hətta xalçanın üzərinə səcdə etmək olsa belə, namaz düzgündür və kifayət edir. Amma zərurət yaranmayanadək (məsələn, təqiyyə etmək zəruri olmayanadək) əli bağlı namaz qılmaq olmaz.

13. Yaxşı olar ki, imam-camaat cərgənin ortasında dayansın və elm, kamal və təqva əhli birinci cərgədə dayansınlar.

İmam-camaatın şərtləri

1- Ehtiyata görə, həddi-büluğa çatan bir fərd olmalıdır;

2- Ağıllı olmalıdır;

3- Ədalətli olmalıdır;

4- Halalzadə olmalıdır;

5- On iki imam şiəsi olmalıdır;

6- Namazı düzgün qılmalıdır;

7- Kişi olmalıdır (məmum kişi olduğu təqdirdə).

3- Ədalətli olmalıdır [2]

1. Əgər imam-camaat xoşagəlməyən və din aliminə yaraşmayan bir söz desə və ya bir zarafat etsə, onun bu sözü şəriətə zidd olmadığı təqdirdə, ədalətə xələl gətirmir.

2. İmam-camaatın “yaxşı işlərə dəvət etmək” və “pis işlərdən çəkindirmək” şəri vəzifəsini yerinə yetirməməsi onun ədalətinə xələl gətirmir və ona iqtida etməyə maneə yaratmır, çünki bunu etməməkdə onun məqbul bir üzrü ola bilər.

3. Bir şəxs bir imam-camaatı ədalətli bilir, amma bəzi hallarda onun tərəfindən zülm və haqsızlığa məruz qaldığını düşünür. Əgər bu şəxsin zülm və haqsızlıq hesab etdiyi həmin əməli imam-camaatın bilərəkdən və ixtiyari olaraq, habelə heç bir şəri üzr olmadan yerinə yetirdiyi onun üçün dəqiqləşməyənədək, o, imam-camaatın ədalətsizliyinə hökm verə bilməz.

Diqqət:

• Bir imam-camaata iqtida etmək üçün onu həqiqətən tanımaq şərt deyildir. Əgər imam-camaatın ədalətli olduğu hər hansı bir yolla məmum üçün sübuta yetsə, ona iqtida edə bilər və camaat namazı düzgündür.

6- Namazı düzgün qılmalıdır

1. Əgər mükəlləf namazın sözlərini düzgün tələffüz edə bilmirsə və düzgün tələffüzü öyrənməyə də qadir deyildirsə, onun namazı düzgündür. Amma başqaları ona iqtida edə bilməzlər.

2. Əgər məmum imam-camaatın qiraətini düzgün hesab etmirsə və nəticədə, onun namazının düzgün olmadığını hesab edirsə, ona iqtida edə bilməz. Əgər iqtida etsə, namazı düzgün deyildir və namazı yenidən qılmalıdır.

7- Kişi olmalıdır (məmum kişi olduğu təqdirdə)

Qadın yalnız qadınlar üçün imam-camaat dayana bilər.

İmam-camaatın şərtlərinə aid bir neçə şəri məsələ:

• Əgər din aliminə iqtida etmək mümkündürsə, din alimi olmayan şəxsə iqtida etməkdən çəkinilsin.

• Əgər bir şəxs namazda ayaq üstə təbii surətdə dayana bilirsə, "Həmd" və "Surə"ni oxuyarkən, namazın zikrlərini deyərkən və namazın hərəkətlərini yerinə yetirərkən bədənin hərəkətsizliyini qoruya bilirsə, həmçinin rüku və səcdələri yerinə yetirməyə qadirdirsə və düzgün qaydada dəstəmaz ala bilirsə, bu şəxsin imam-camaatın digər şərtlərinə malik olduğu aydın olduqdan sonra başqalarının ona iqtida etməsi düzgündür.

Əgər bir şəxsin əli və ya ayağı bütünlüklə kəsilibsə, yaxud əli və ya ayağı tamamilə iflicdirsə, onun imam-camaat dayana bilməsi məhəlli-işkaldır. Amma ayağının baş barmağı kəsilən şəxsin imam-camaat dayanması düzgündür.

• Ayaq üstə namaz qılan şəxs əyləşən və ya uzanan halda namaz qılan şəxsə iqtida edə bilməz. Amma əyləşən halda namaz qılan şəxs əyləşən halda namaz qılan şəxsə iqtida edə bilər.

• Müəyyən bir şəri üzrə görə təyəmmümlə, yaxud cəbirə dəstəmazı ilə, yaxud da napak bədən və ya paltarla namaz qılan şəxsə iqtida etmək olar.

• Əgər bir şəxs şəri üzrü olduğuna görə qüsl edə bilməsə, qüsl əvəzinə təyəmmüm edib imam-camaat dayana bilər və ona iqtida etməyin maneəsi yoxdur.

• Əgər bir şəxs şəri məsələləri bilmədiyinə görə əvvəllər elə bir şəxsə iqtida etmiş olsa ki, ona iqtida etmək şəri baxımından düzgün deyilmiş, məsələn, sağ əli olmayan bir əlilə iqtida etmişdir, onun qıldığı namazlar düzgündür və namazları yenidən qılmaq lazım deyildir.

Namazın müxtəlif məsələləri:

1. Müstəhəbdir ki, uşaqlar yaxşı və pisi ayırd edə bildikləri bir yaşa çatdıqda uşaqların başçısı onlara şəriət hökmlərini və ibadətləri öyrətsinlər.

2. Hədisdə qeyd olunub ki, şərab içən şəxsin namazı qırx gün qəbul olunmur[3]. Amma bu o demək deyildir ki, namaz şərab içən şəxsin üzərindən qırx gün götürülür və o, sonradan namazların qəzasını qılmalıdır. Yaxud bu qırx gün ərzində həm namazlarını qılmalı, həm də sonradan onların qəzasını qılmalıdır.

3. Namazın salamından sonra əl-ələ görüşməyin maneəsi yoxdur. Ümumiyyətlə, möminlərin əl-ələ görüşməsi müstəhəbdir.

4. Bir şəxs görür ki, başqa bir şəxs namazın bəzi əməllərini səhv yerinə yetirir. Əgər bu səhv hökmü bilməməkdən irəli gələrsə və bilmədən bu əməlləri səhv yerinə yetirmək namazın düzgünlüyünə xələl gətirməzsə, səhvini ona demək vacib deyildir. Amma əgər bilmədən olsa belə, bu əməlləri səhv yerinə yetirmək namazın düzgünlüyünə xələl gətirərsə (məsələn, dəstəmaz, qüsl, namazın vaxtı, rüku, səcdələr və s.) və namazı yenidən qılmaq vacib olarsa, bu halda düzgün qaydanı ona demək lazımdır.

Suallar:

1- Əgər camaat namazında qadınlar kişilərin arxasında dayansalar, pərdə və arakəsməyə ehtiyac varmı?

2- Məmum zöhr və əsr namazlarında fikrini cəmləmək üçün "Həmd" və "Surə"ni oxuya bilərmi?

3- Əgər imam-camaat təkbirətul-ehramı dedikdən sonra səhvən rükuya getsə (yəni "Həmd" və "Surə"ni oxumadan rükuya getsə), bu halda məmumun vəzifəsi nədir?

4- Əgər imam-camaat xoşagəlməyən və din aliminə yaraşmayan bir söz desə və ya bir zarafat etsə, onun ədalətinə xələl gəlirmi?

5- Əgər mükəlləf namazın sözlərini düzgün tələffüz edə bilmirsə və düzgün tələffüzü öyrənməyə də qadir deyildirsə, onun namazının hökmü nədir? Bu halda başqaları ona iqtida edə bilərlərmi?

6- Qadın qadınlar üçün imam-camaat dayana bilərmi?

---

[1] "Hail" sözünün lüğəvi mənası "iki şeyin arasındakı sədd və maneə"dir. Burada isə xüsusi məna ifadə edir ki, bir qədər irəlidə şəri hökmlərin izahında aydınlaşacaqdır. *Müt.*

[2] "Ədalət" və "ədalətli şəxs" ifadələrinin mənası üçün "Mərcəyi-təqlidin şərtləri" başlığı altında olan mətnə müraciət edin.

[3] "Namazı qəbul olunmur" dedikdə, bu şəxsin namazına savab verilmədiyi nəzərdə tutulur. Amma əgər bu şəxs namazı düzgün şəkildə qılarsa, namazı tərk edənlərdən sayılmır və namazı tərk edənlərə şamil olan cəza ona şamil olmur. Baxmayaraq ki, onun namazına savab və mükafat da yazılmır.

Əlli səkkizinci dərs: Orucun mənası və qisimləri

Orucun mənası

Müqəddəs İslam şəriətində "oruc" odur ki, insan Mütəal Allahın əmrinə itaət niyyətilə gün ərzində sübh azanından məğrib azanınadək yemək və içməkdən, həmçinin bir qədər irəlidə açıqlanacaq bir sıra işlərdən çəkinməlidir.

Diqqət:

• Oruc "kazib fəcr"dən etibarən deyil, "sadiq fəcr"dən etibarən başlanır. Bunu təyin etmək isə mükəlləfin öhdəsindədir.

• "Sadiq fəcr"in doğması baxımından "aylı gecələr" ilə "qeyri-aylı gecələr" arasında fərq yoxdur.

• İmsak baxımından ehtiyata riayət etmək üçün informasiya vasitələrində sübh azanı verilməyə başlayanda oruc üçün imsak etmək lazımdır.

• Əgər oruc tutan şəxs əmin olsa ki, namaz vaxtı daxil olduğu zaman azan verilməyə başlamışdır, azan başlananda iftar edə bilər və azanın qurtarmasını gözləmək lazım deyildir.

Orucun qisimləri

Oruc bir baxımdan dörd qismə ayrılır:

1- Vacib oruc (məsələn, mübarək Ramazan ayının orucu);

2- Müstəhəb oruc (məsələn, rəcəb və şaban aylarında tutulan oruc);

3- Məkruh oruc (məsələn, əgər həcc ziyarətində olan şəxs "Ərəfə" günü oruc tutduğu təqdirdə zəif düşəcəkdirsə və bu səbəbdən Ərəfə gününün əməllərini yerinə yetirə bilməyəcəkdirsə, həmin gün onun oruc tutması məkruhdur);

4- Haram oruc (məsələn Fitr bayramı və Qurban bayramı gününün orucu).

Vacib oruclar

Vacib oruclar aşağıdakılardan ibarətdir:

1. Mübarək Ramazan ayının orucu;

2. Qəza orucu;

3. Kəffarə orucu;

4. Etikafın üçüncü gününün orucu;

5. Təmattu həccində qurbanlığın əvəzi olan oruc[1];

6. Nəzir, əhd və and vasitəsilə vacib olan müstəhəb oruclar[2];

7. Atanın və ehtiyat-vacibə görə, ananın qəza orucu böyük oğula vacibdir.

Orucun vacib olmasının şərtləri

Orucun vacib olmasının şərtləri aşağıdakılardır:

1- Şəri həddi-büluğa çatmaq;

2- Ağıllı olmaq;

3- Oruc tutmağa qadir olmaq;

4- Huşsuz vəziyyətdə olmamaq;

5- Səfərdə olmamaq;

6- Qadının heyzli və nifaslı olmaması;

7- Orucun ziyanlı olmaması;

8- Orucun əziyyətli olmaması.

Diqqət:

• Oruc tutmaq yuxarıdakı şərtlərə malik olan şəxslərə vacib olur. Deməli, həddi-büluğa çatmayan uşağa, dəli insana, huşunu itirən şəxsə, oruc tutmağa qüvvəsi çatmayan insana, səfərdə olan şəxsə, heyzli və nifaslı qadına, oruc tutmağın ona ziyanı və ya əziyyəti (çox böyük çətinliyi) olan şəxsə oruc tutmaq vacib deyildir.

• Mükəlləfdə halsızlıq yaratdığına görə, o, orucunu açа bilməz. Amma əgər halsızlıq adətən dözülməyəcək bir həddə olarsa, orucunu aça bilər. Həmçinin əgər orucun ona ziyanı olacağını bilsə və ya ziyanı olacağından qorxsa, orucunu aça bilər. Beləliklə, şəri büluğ yaşına yeni çatan qızlara (məşhur rəyə görə, qızlarda şəri büluğ yaşı qəməri təqvimi ilə doqquz yaşın tamamlanmasıdır) oruc tutmaq vacibdir. Çətin olduğuna, halsızlıq yaratdığına və bu kimi başqa səbəblərə görə onlar orucu tərk edə bilməzlər. Amma əgər oruc tutmağın onlara ziyanı olarsa və ya böyük çətinlik yaradarsa, bu hallarda oruc tutmamalarına icazə verilir.

•Əgər bir şəxs orucun ona ziyanı olduğunu bilsə və ya ziyanı olacağından qorxsa, o, oruc tutmamalıdır. Əgər oruc tutsa, orucu düzgün deyildir. Əksinə, bəzi hallarda oruc tutmaq ona haramdır. Bu yəqinlik və ya qorxu, istər şəxsi təcrübə əsasında, istər etibarlı həkimin sözləri əsasında hasil olsun, istərsə də bunun başqa bir məntiqi əsası olsun, fərqi yoxdur və orucu düzgün deyildir. Yalnız o halda düzgün olar ki, qəsdi-qürbət ilə oruc tutmuş və sonradan orucun ona ziyanı olmadığı məlum olmuşdur.

• İnsanın özü müəyyən etməlidir ki, oruc tutmaq onda xəstəlik yarada bilər, yaxud onun xəstəliyini ağırlaşdıra bilər, yaxud oruc tutmağa onun qüvvəsi çatmır və ya orucun ona ziyanı vardır. Deməli, əgər həkim bir şəxsə: "Orucun sənə ziyanı vardır" – desə, amma həkimin sözü bu şəxsdə orucun ona ziyanı olacağına dair əminlik və ya qorxu yaratmasa, yaxud da bu şəxs öz təcrübəsi əsasında orucun ona ziyanı olmadığını bilsə, bu şəxs oruc tutmalıdır. Həmçinin əgər həkim bir şəxsə: "Orucun sənə ziyanı yoxdur" – desə, amma bu şəxs orucun ona ziyanı olduğunu bilsə və ya məntiqi bir əsasla orucun ona ziyanı olacağından qorxsa, bu şəxs oruc tutmamalıdır. Oruc tutmaq ona haramdır.

• Əgər bir şəxs orucun ona ziyanı olmadığını bilib oruc tutsa, amma məğribdən sonra orucun ona ziyanı olduğunu başa düşsə, onun orucu düzgün deyildir və orucun qəzasını tutmalıdır.

• Əgər həkim orucun ziyanı olacağını səbəb göstərib xəstəyə oruc tutmağı qadağan etsə, həkimin sözü orucun ziyanı olacağına dair xəstədə əminlik və ya qorxu yaratdığı təqdirdə, o, həkimin sözünü əsas götürə bilər. Əks halda, həkimin sözünü əsas götürə bilməz.

• Boynunda Ramazan ayının orucunun qəzası olan bir şəxs müstəhəb oruc tuta bilməz. Hətta əgər vacib orucun niyyətinin vaxtı keçdikdən sonra (yəni şəri zöhrdən sonra) müstəhəb oruc niyyəti etsə, yenə də onun orucu düzgün deyildir. Əgər bu şəxs boynunda vacib qəza orucu olduğunu unudub müstəhəb oruc tutsa, gündüz ərzində (istər şəri zöhrdən qabaq, istərsə də şəri zöhrdən sonra) bunu xatırladığı təqdirdə, onun müstəhəb orucu pozulur. Bu halda əgər zöhrdən qabaq bunu xatırlasa, Ramazan ayının qəza orucunun niyyətini edə bilər və onun orucu düzgündür. Amma əgər şəri zöhrdən sonra bunu xatırlasa, qəza orucu niyyəti də edə bilməz və oruc düzgün deyildir.

• Əgər boynunda Ramazan ayının orucunun qəzası olan şəxs müstəhəb oruc tutsa, bu oruc onun boynunda olan qəza orucunun yerinə hesab edilməyəcəkdir.

• Əgər bir şəxs boynunda qəza orucunun olub-olmadığını bilməsə və bu səbəbdən üzərinə düşən vəzifə (həm qəza, həm də müstəhəb oruc) niyyətilə oruc tutsa, amma əslində, onun boynunda qəza orucu olsa, tutduğu oruc qəza orucu hesab edilir.

Suallar:

1- Oruc nədir?

2- Vacib oruclar hansılardır?

3- Əgər həkim oruc tutmağı xəstəyə qadağan etsə, onun sözünə əməl etmək vacibdirmi?

4- Orucun vacib olmasının şərtləri hansılardır?

5- Əgər həddi-büluğa yeni çatan qızlara oruc tutmaq çətindirsə, onların vəzifəsi nədir?

6- Əgər boynunda qəza orucunun olduğunu bilməyən bir şəxs müstəhəb oruc tutsa, amma qəza orucunun olduğunu sonradan bilsə, bu oruc onun qəza orucunun yerinə hesab olunacaqdırmı?

---

[1] Əgər həcc ziyarətini yerinə yetirən hacının qurbanlıq almağa maddi imkanı olmazsa və borc da ala bilməzsə, o, qurbanlığın əvəzinə on gün oruc tutmalıdır. Belə ki, orucun üç gününü həcc səfərində və qalan yeddi gününü öz vətənində tutmalıdır.

[2] Burada müstəhəb oruc vacib oruca çevrilmir, əslində, vacib olan əməl nəzirə, əhdə və anda əməl etməkdir.

Əlli doqquzuncu dərs: Orucun niyyəti

Orucun niyyəti

1. Niyyətin mənası və vacibliyi

Digər ibadətlərdə olduğu kimi, orucda da niyyət şərtdir. Belə ki, mükəlləf yalnız Mütəal Allahın əmrinə itaət niyyətilə yemək-içməkdən və orucu pozan digər işlərdən çəkinməlidir. Mükəlləfin bu niyyətdə olması kifayət edir və onu dilə gətirməsi lazım deyildir.

2. Orucun niyyətinin zamanı

Orucun niyyətinin zamanı müstəhəb oruclarda və vacib oruclarda fərqlidir.

Müstəhəb orucların niyyətinin zamanı:

Gecənin əvvəlindən etibarən şəri məğribədək "niyyət etmək ölçüsündə" vaxt qalanadək müstəhəb oruc üçün niyyət etmək olar.

Vacib orucların niyyətinin zamanı:

Vacib oruclar bir baxımdan 2 qismə ayrılır:

1- Vaxtı müəyyən olan vacib oruclar (məsələn, Ramazan ayının orucu və ya tarixi müəyyən edilən nəzir orucu);

2- Vaxtı müəyyən olmayan vacib oruclar (məsələn, Ramazan ayının orucunun qəzası).

Vaxtı müəyyən olan vacib orucların niyyətinin zamanı:

1. Fəcrin doğduğu anadək niyyət etdikdə, oruc düzgündür.

2. Şəri zöhrədək bilərəkdən niyyət etmədikdə, oruc düzgün deyildir. Amma unutqanlıq və ya məlumatsızlıq səbəbilə niyyət etmədikdə, Ramazan ayının orucu istisna olmaqla, digər oruclarda niyyət edib oruc tutmaq düzgündür. Ramazan ayının orucunda isə ehtiyat-vacibə görə, niyyət edib oruc tutmaq, sonradan həmin günün orucunun qəzasını tutmaq lazımdır.

3. Şəri zöhrdən sonra niyyət etdikdə, oruc düzgün deyildir.

Vaxtı müəyyən olmayan vacib orucların niyyətinin zamanı:

1. Şəri zöhrədək niyyət etdikdə, oruc düzgündür.

2. Şəri zöhrdən sonra niyyət etdikdə, oruc düzgün deyildir.

Orucun niyyətinin zamanı barəsində şəri hökmlər:

1. Bildiyiniz kimi, oruc "sadiq fəcr"in doğduğu andan etibarən başlanır. Buna görə də "sadiq fəcr" doğanadək orucun niyyəti edilməlidir. Fəcr doğanadək olan geniş vaxtda orucun niyyətini etmək daha yaxşı olar.

2. Əgər bir şəxs gecənin əvvəlində sabahkı gün oruc tutacağını niyyət etsə və gecə yatıb sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan oyansa, yaxud hansısa bir işlə məşğul olduğuna görə sübh namazının vaxtının yaxınlaşdığının fərqinə varmasa və sübh namazının vaxtı daxil olduqdan sonra bunu başa düşsə, onun orucu düzgündür.

3. Əgər bir şəxs Ramazan ayında sübh namazınadək qəsdən oruc niyyəti etməsə, gün ərzində niyyət etsə belə, onun orucu düzgün deyildir. Amma eyni zamanda o, məğrib azanınadək orucu pozan işlərdən çəkinməlidir və Ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.

4. Əgər bir şəxs Ramazan ayında unutqanlıq və ya məlumatsızlıq üzündən oruc niyyəti etməsə və niyyət etmədiyini gün ərzində başa düşsə, orucu pozan işlərdən birini yerinə yetirdiyi təqdirdə – oruc niyyəti etmədiyini istər şəri zöhrdən qabaq başa düşmüş olsun, istərsə də şəri zöhrdən sonra başa düşmüş olsun – oruc niyyəti edə bilməz. Amma əgər orucu pozan işlərdən birini yerinə yetirməyibdirsə, oruc niyyəti etmədiyini şəri zöhrdən sonra başa düşdüyü təqdirdə, oruc niyyəti etməsi düzgün deyildir. Bu iki halda məğribədək orucu pozan işlərdən çəkinməlidir. Oruc niyyəti etmədiyini şəri zöhrdən qabaq başa düşdüyü təqdirdə isə ehtiyat-vacibə görə, niyyət edib oruc tutmalı, sonradan həmin günün orucunun qəzasını tutmalıdır.

5. Ramazan ayının orucu istisna olmaqla, əgər bir şəxsə "vaxtı müəyyən olan oruc" vacib olsa, məsələn, müəyyən bir gündə oruc tutacağını nəzir etsə, sadiq fəcrədək bilərəkdən oruc niyyəti etmədiyi təqdirdə, onun orucu düzgün deyildir. Amma əgər oruc niyyəti

etməyi unudarsa və niyyət etmədiyini şəri zöhrədək xatırlayarsa, o, oruc niyyəti edə bilər.

6. Əgər bir şəxs "vaxtı müəyyən olmayan vacib oruc"da, məsələn, qəza və ya kəffarə orucunda şəri zöhrədək (istər bilərəkdən, istərsə də səhvən) niyyət etməzsə, şəri zöhrədək orucu pozan işlərdən heç birini yerinə yetirmədiyi təqdirdə, niyyət edib oruc tuta bilər və onun orucu düzgündür. Amma zöhrdən sonra oruc niyyəti etmək düzgün deyildir.

7. Müstəhəb oruc üçün günün istənilən vaxtında niyyət etmək olar və oruc düzgündür, amma bu şərtlə ki, oruc tutmaq istəyən şəxs həmin vaxtadək orucu pozan bir işi yerinə yetirməyibdir.

8. Əgər xəstə bir insan Ramazan ayında gündüz vaxtı sağalsa, həmin gün oruc niyyəti edib oruc tutması lazım deyildir. Amma əgər zöhrdən qabaq sağalarsa və bu vaxtadək orucu pozan bir iş görməyibdirsə, niyyət edib oruc tutması ehtiyat-müstəhəbə müvafiqdir. Ramazan ayından sonra isə bu orucun qəzasını tutmalıdır.

3. "Şəkk günü"ndə niyyət

Əgər şaban ayının axırıncı günü, yoxsa Ramazan ayının birinci günü olduğu məlum olmasa (bu gün "şəkk günü" adlanır), həmin gün oruc tutmaq vacib deyildir. Əgər bir şəxs həmin gün oruc tutmaq istəsə, Ramazan ayının orucunun niyyətini edə bilməz. Şaban ayının axırıncı gününün müstəhəb orucu, yaxud qəza orucu və ya bu kimi oruc niyyəti edib, oruc tuta bilər. Amma əgər sonradan Ramazan ayı olduğu məlum olsa, bu oruc Ramazan ayının orucu hesab olunacaq və onun qəzasını tutmaq lazım deyildir. Əgər o, gün əsnasında Ramazan ayı olduğunu başa düşsə, həmin andan etibarən Ramazan ayının orucunun niyyətini etməlidir.

4. Niyyətin davam etməsi

1. Orucda niyyətin davam etməsi vacibdir. (Yəni oruc tutan şəxs günün sonunadək oruc niyyətində qalmalıdır.)

2. Əgər oruc tutan şəxs gün ərzində oruc niyyətindən dönsə, belə ki, orucu davam etdirmək niyyətində olmasa, onun orucu pozulur və orucu davam etdirmək üçün onun yenidən oruc niyyəti etməsinin heç bir faydası yoxdur. Amma eyni zamanda o, məğrib azanınadək orucu pozan işlərdən çəkinməlidir.

3. Əgər oruc tutan şəxs orucunu davam etdirib-etdirməməkdə tərəddüd etsə, yəni orucunu pozmaq barədə hələ qəti qərara gəlməyibdirsə, ehtiyat-vacibə görə, orucunu tutmalı və sonradan orucun qəzasını tutmalıdır.

4. Əgər oruc tutan şəxs orucu pozan işlərdən birini yerinə yetirməyi qərara alsa, amma hələ o işi yerinə yetirməyibdirsə, ehtiyat-vacibə görə, orucunu tutmalı və sonradan orucun qəzasını tutmalıdır.

Diqqət:

• Yuxarıda deyilənlər "vaxtı müəyyən olan vacib oruc"a, məsələn, Ramazan ayının orucuna, günü müəyyən edilən nəzir orucuna aiddir. Odur ki, əgər "vaxtı müəyyən olmayan vacib oruc"da və ya müstəhəb orucda bir şəxs oruc niyyətindən dönsə, amma hələ orucu pozan işlərdən birini görməsə, daha sonra şəri zöhrədək yenidən oruc niyyəti etsə – müstəhəb orucda isə məğrib azanınadək oruc niyyəti etsə – onun orucu düzgündür.

Suallar:

1- Əgər bir şəxs gecənin əvvəlində sabahkı gün oruc tutacağını niyyət etsə və gecə yatıb sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan oyansa, həmin günün orucu düzgündürmü?

2- Müstəhəb oruc üçün hansı vaxtadək niyyət etmək olar?

3- Şəkk gününün hökmünü bəyan edin.

4- Əgər bir şəxs Ramazan ayında orucunu pozmaq qərarına gəlsə, amma orucu pozan bir işi yerinə yetirməmişdən qabaq öz qərarından dönsə, onun orucunun hökmü nədir?

Altmışıncı dərs: Orucu pozan işlər (1)

Orucu pozan işlər aşağıdakılardır:

1- Yemək və içmək;

2- Cinsi əlaqə;

3- İstimna (masturbasiya);

4- (Ehtiyat-vacibə görə) Allahın, Peyğəmbərlərin (ə) və Məsumların (ə) adından yalan demək;

5- (Ehtiyat-vacibə görə) qatı tozu boğaza çatdırmaq;

6- (Ehtiyat-vacibə görə) başı bütünlüklə suya salmaq;

7- Sübh azanınadək cənabətli, heyzli və nifaslı qalmaq;

8- Maye ilə imalə etmək;

9- Bilərəkdən qusmaq.

1- Yemək və içmək

1. Əgər oruc tutan şəxs qəsdən və bilərəkdən bir şey yesə və ya içsə – istər adətən yeyilən və içilən bir şey olsun, istərsə də kağız, parça və bu kimi adətən yeyilməyən bir şey olsun, yaxud istər çox olsun, istərsə də bir damla su və ya kiçik bir çörək ovuntusu qədər az şey olsun – onun orucu pozulur.

2. Əgər oruc tutan şəxs dişinin dibində qalan yemək qırıntısını bilərəkdən udsa, onun orucu pozulur. Amma əgər dişinin dibində yemək qırıntısının qaldığını bilməsə, yaxud onu bilərəkdən udmasa, orucu pozulmur.

3. Səhvən və unutqanlıq üzündən bir şeyi yemək və içmək orucu – istər vacib orucu, istərsə də müstəhəb orucu – pozmur.

4. Ağız suyunu (tüpürcəyi) udmaq orucu pozmur.

5. Ehtiyat-vacibə görə, oruc tutan şəxs qidalandırıcı və qüvvətləndirici əzələ iynələrindən, damara vurulan iynələrdən, həmçinin hər növ sistemdən istifadə etməməlidir. Amma qidalandırıcı və qüvvətləndirici olmayan əzələ iynələrindən, məsələn, antibiotiklərdən, ağrıkəsicilərdən, keyidicilərdən, həmçinin yaranın üstünə qoyulan dərmanlardan istifadə edə bilər.

6. Ehtiyat-vacibə görə, oruc tutan şəxs burun yolu ilə və ya dilin altına qoymaqla istifadə edilən narkotik maddələrdən çəkinməlidir.

7. Əgər oruc tutan şəxs yemək yeyərkən sübh namazının vaxtının daxil olduğunu bilsə, ağzındakı tikəni çıxartmalıdır. Əgər bu tikəni bilərəkdən udsa, orucu pozulur. (Orucunu bilərəkdən pozan şəxsin üzərinə düşən vəzifə isə bir qədər irəlidə açıqlanacaqdır.)

8. Əgər baş və sinədən gələn bəlğəm ağız boşluğuna daxil olmayıbsa, onu udmaq orucu pozmur. Amma əgər ağız boşluğuna daxil olubsa, ehtiyat-vacibə görə, onu udmaq olmaz.

9. Əgər xəstəliyin müalicəsi üçün dərman içmək və ya bu kimi bir işi görmək zəruri olarsa, dərman içməyin və s. maneəsi yoxdur. Amma oruc pozulur və sonradan onun qəzasını tutmaq lazımdır.

10. Uşaq üçün yeməyi ağızda çeynəmək, yeməyin dadına baxmaq və bu kimi işlər – belə ki, bu hallarda yemək adətən boğaza çatmır – orucu pozmur. Hətta əgər yemək qeyri-ixtiyari olaraq boğaza çatsa və boğazdan keçsə, yenə də oruc pozulmur. Amma əgər şəxs yeməyin boğaza çatacağını əvvəlcədən bilərsə, yemək boğazdan keçdiyi halda oruc pozulur.

11. Əgər oruc tutan şəxs damaqdan gələn qanı udmazsa, orucu pozulmur. Əgər damaq və ya dişdən gələn qan ağız suyuna qarışıb tamamilə aradan getsə, ağız suyu pak hökmündədir və onu udmaq orucu pozmur. Həmçinin əgər ağız suyunda qanın olduğuna şəkk olunarsa, onu udmağın maneəsi yoxdur və oruc düzgündür.

Diqqət:

• Ağız daxilinin qanaması orucu pozmur. Amma qanın boğaza çatmasının qarşısını almaq lazımdır.

2- Cinsi əlaqə

1. Cinsi əlaqədə olmaq, hətta məni xaric olmasa belə, orucu pozur.

2. Əgər bir şəxs oruc olduğunu unudub cinsi əlaqədə olsa, orucu pozulmur. Amma yadına düşdüyü anda dərhal cinsi əlaqədən xaric

olmalıdır. Əks halda, orucu pozulacaqdır.

3- İstimna

1. Əgər oruc tutan şəxs ondan məni xaric olmasına səbəb olan bir işi bilərəkdən görsə, orucu pozulur.

2. Gündüz vaxtı möhtəlim olmaq (yəni yuxuda ikən məninin xaric olması) orucu pozmur. Əgər oruc tutan şəxs bilsə ki, yatdığı təqdirdə möhtəlim olacaqdır, o, yata bilər.

3. Əgər oruc tutan şəxs məni xaric olmaqda ikən yuxudan ayılsa, məninin xaric olmasının qarşısını alması vacib deyildir.

4- Allahın, Peyğəmbərlərin (ə) və Məsumların (ə) adından yalan demək

1. Mütəal Allahın, Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) adından yalan demək – hətta insan sonradan tövbə etsə və onların adından yalan dediyini etiraf etsə belə – ehtiyat-vacibə görə, orucu pozur.

2. Əgər insan kitablarda yazılan hədislərin yalan olduğunu bilməsə və onları nəql etsə, iradı yoxdur. Amma hədisləri həmin kitablara istinadən nəql etməsi ehtiyat-müstəhəbə müvafiqdir. (Məsələn belə desin: "Filan kitabda yazılıb ki, Peyğəmbər (s) buyurdu...")

5- Qatı tozu boğaza çatdırmaq

1. Ehtiyat-vacibə görə, oruc tutan şəxs qatı tozu (məsələn, torpaqlı yeri süpürərkən qalxan tozu) udmamalıdır. Amma ağız və ya buruna daxil olan toz boğaza çatmadığı təqdirdə, oruc pozulmur. Həmçinin siqaretin və digər tütün məhsullarının tüstüsü ehtiyat-vacibə görə, orucu pozur.

2. Oruc tutan şəxs təngnəfəsliyə qarşı aerozol şəklində olan dərmandan istifadə edə bilər və onun orucu pozulmur.

Suallar:

1- Orucu pozan işləri sadalayın.

2- Oruc tutarkən iynə vurdurmağın hökmü nədir?

3- Oruc tutarkən qan təzyiqi üçün dərman qəbul etmək olarmı və bu halda orucun hökmü nədir?

4- Gündüz vaxtı möhtəlim olmaq orucu pozurmu?

5- Əgər bir şəxs hədis kitablarında yazılan bəzi hədislərin saxta və yalan olduğunu bilməsə, onu nəql edə bilərmi?

6- Əgər oruc tutan şəxs siqaret çəksə, orucunun hökmü nədir?

Altmış birinci dərs: Orucu pozan işlər (2)

6- Başı bütünlüklə suya salmaq

1. Əgər oruc tutan şəxs bilərəkdən başını bütünlüklə suya salsa, ehtiyat-vacibə görə, onun orucu pozulur və həmin günün orucunun qəzasını tutmalıdır.

2. Əvvəlki məsələni nəzərə alaraq, başı bütünlüklə suya salarkən bədənin də suda olmasının, yaxud bədənin sudan kənarda olmasının və təkcə başı suya salmağın fərqi yoxdur və hökm eynidir.

3. Əgər oruc tutan şəxs başının yarısını suya salsa və çıxarsa, sonra başın digər yarısını suya salsa, onun orucu pozulmur.

4. Əgər oruc tutan şəxs başını bütünlüklə suya salsa, amma saçlarının bir hissəsi sudan xaricdə olsa, ehtiyat-vacibə görə, orucu pozulur.

5. Əgər oruc tutan şəxs başının bütünlüklə suya daxil olub-olmadığına şəkk etsə, orucu düzgündür.

6. Əgər oruc tutan şəxs qeyri-ixtiyari olaraq suya düşsə və onun başı bütünlüklə suya daxil olsa, orucu pozulmur. Amma o, başını sudan dərhal çıxarmalıdır. Həmçinin əgər oruc olduğunu unutsa və başını suya salsa, orucu pozulmur. Amma oruc olduğunu xatırladığı an başını sudan dərhal çıxarmalıdır.

7. Əgər oruc tutan şəxs xüsusi bir paltar geyinsə (məsələn, dalğıcların geyimi) və bu geyimlə suya daxil olduqda bədəni əsla islanmasa, bu geyim onun başına tam yapışdığı təqdirdə, onun orucunun düzgünlüyü məhəlli-işkaldır. Ehtiyat-vacibə görə, orucun qəzasını tutmalıdır.

8. Başa su tökmək və ya hamamda duşun altında dayanmaq orucu pozmur.

7- Sübh azanınadək cənabətli, heyzli və nifaslı qalmaq

1. Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa, sübh namazının vaxtı daxil olmamışdan qabaq (yəni sadiq fəcr doğanadək) qüsl etməlidir. Əgər o, sadiq fəcr doğanadək bilərəkdən qüsl etməsə, orucu düzgün deyildir. Bu hökm Ramazan ayının orucunun qəzasına da aiddir. Amma Ramazan ayında bu şəxs məğribədək orucu pozan işləri yerinə yetirməməlidir.

Diqqət:

• Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa və qeyri-ixtiyari olaraq sübh namazının vaxtı daxil olanadək qüsl etməsə, məsələn, yuxuda ikən cənabətli olsa və sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan ayılsa, onun orucu düzgündür. Amma qəza orucu tutmaq istəyən şəxs əgər səhvən sübh azanının vaxtı daxil olanadək cənabət qüslü etməsə, ehtiyata görə, orucu düzgün deyildir.

2. Əgər bir şəxs Ramazan ayında cənabət qüslünü unutsa və sübh namazının vaxtı daxil olduğu zaman o, cənabətli halda olsa, həmin gün onun orucu düzgündür. Amma əgər bu unutqanlıq bir neçə gün davam etsə, bu günlərin orucunun qəzasını tutmalıdır. Namazlar isə istənilən halda düzgün deyildir.

3. Əgər bir şəxs cənabətli halda qalmağın orucu pozub-pozmadığına şəkk etsə və cənabətli halda oruc tutsa, ehtiyat-vacibə görə, onun orucu düzgün deyildir[1] və orucun qəzasını da tutmalıdır. Amma əgər cənabətli halda qalmağın orucu pozmadığına yəqinliyi olsa və buna görə də oruc tutsa, orucu düzgündür. Baxmayaraq ki, ehtiyata əsasən orucun qəzasını tutmaq yaxşı olar.

4. Əgər bir şəxs mübarək Ramazan ayında napak su ilə qüsl etsə və bir neçə gündən sonra o suyun napak olduğunu bilsə, tutduğu oruclar düzgündür.

5. Ramazan ayının gecəsində qüsl etməli olan şəxs əgər vaxt dar olduğuna və ya suyun ona ziyanı olduğuna və ya bu kimi başqa səbəblərə görə qüsl edə bilməsə, qüsl əvəzinə təyəmmüm etməlidir.

Diqqət:

• Vəzifəsi təyəmmüm etmək olan bir şəxs mübarək Ramazan ayının gecələrində cənabətə səbəb olan işi görə bilər. Amma bu şərtlə ki, cənabətli olduqdan sonra təyəmmüm etmək üçün kifayət qədər vaxt olmalıdır.

• Əgər bir şəxs sübh azanından qabaq boynunda olan cənabət qüslünu versə və ya qüsl əvəzinə təyəmmüm etsə, sübh azanından sonra ondan qeyri-ixtiyari məni xaric olsa belə, onun orucu düzgündür.

6. Əgər bir şəxs sübh azanından qabaq yatsa və yuxuda ikən cənabətli olsa və sübh azanından sonra yuxudan oyansa, yaxud sübh azanından sonra yatsa və yuxuda ikən cənabətli olsa, cənabətli olmaq həmin günün orucuna xələl gətirmir. Əlbəttə, o, namaz üçün qüsl etməlidir və namaz vaxtınadək qüsl etməyi təxirə sala bilər.

Diqqət:

• Əgər oruc tutan şəxs Ramazan ayının və ya oruc tutduğu başqa günlərin gündüz vaxtı yatsa və yuxuda ikən cənabətli olsa, yuxudan oyandıqdan sonra dərhal qüsl etməsi vacib deyildir.

7. Əgər oyaqlıqda cənabətli olan bir şəxs və ya yuxuda ikən cənabətli olduqdan sonra oyanan bir şəxs bilsə ki, yatdığı təqdirdə sübh azanınadək qüsl üçün oyana bilməyəcəkdir, o, qüsl etmədən yata bilməz. Əgər yatsa və sübh azanınadək qüsl edə bilməsə, orucu düzgün deyildir. Amma əgər sübh azanınadək qüsl üçün oyanacağını ehtimal etsə və qüsl etmək niyyətində də olsa, lakin oyana bilməsə, orucu düzgündür. Amma əgər o, oyandıqdan sonra yenidən yatsa və sübh azanınadək oyanmasa, həmin günün orucunun qəzasını tutmalıdır.

Diqqət:

• Əgər bir şəxs Ramazan ayının gecəsində sübh azanından qabaq yuxudan oyansa və möhtəlim olduğunu başa düşməyib yenidən yatsa, amma sübh azanından sonra oyanıb sübh azanından qabaq möhtəlim olduğunu başa düşsə, onun orucu düzgündür. Həmçinin əgər bir şəxs sübh azanından qabaq möhtəlim olub-olmadığına şəkk etsə və özündə möhtəlim olmağın bir əlamətini müşahidə etməsə, buna görə də öz şəkkinə etina etməyib yenidən yatsa, amma sübh azanından sonra oyanıb sübh azanından qabaq möhtəlim olduğunu başa düşsə, onun orucu düzgündür.

8. Heyz və ya nifas qanından paklanan və qüsl etməli olan qadın əgər Ramazan ayında sübh azanınadək qüsl etməsə, onun orucu düzgün deyildir.

9. Əgər oruc olan qadın gündüz ərzində heyz və ya nifas qanı görsə, hətta şəri məğribə az qalsa belə, onun orucu pozulur.

Diqqət:

• "Vaxtı müəyyən olan nəzir orucu"nu tutan qadın əgər heyz olsa, onun orucu pozulur və paklandıqdan sonra orucun qəzasını tutmalıdır.

8- Maye ilə imalə etmək

1. Maye bir şeylə imalə etmək, hətta çarəsizlik üzündən və müalicə üçün olsa belə, orucu pozur.

2. Oruc tutanda bərk şamlardan istifadə etməyin maneəsi yoxdur və orucu pozmur.

9- Bilərəkdən qusmaq

1. Əgər oruc tutan şəxs bilərəkdən qussa, orucu pozulur. Baxmayaraq ki, xəstəliklə əlaqədar olaraq və ya başqa bir səbəbə görə qusmaq məcburiyyətində olmuşdur. Amma əgər səhvən və ya qeyri-ixtiyari olaraq qussa, orucu pozulmur.

2. Əgər gəyirərkən oruc tutan şəxsin ağzına bir şey gəlsə, onu ağzından çıxarmalıdır. Amma əgər onu qeyri-ixtiyari olaraq udsa, orucu düzgündür.

Orucu pozan işlər barəsində bir neçə şəri məsələ:

• Əgər oruc tutan şəxs bilərəkdən və ixtiyari olaraq orucu pozan işlərdən birini görsə, orucu pozulur. Amma əgər bilərəkdən etməsə, məsələn, ayağı sürüşüb çaya düşsə və başı bütünlüklə suya daxil olsa, yaxud oruc olduğunu unudub yemək yesə, yaxud da zorla onun boğazına yemək-içmək töksələr, orucu pozulmur.

• Əgər oruc tutan şəxsi orucunu pozmağa məcbur etsələr (məsələn, onu hədələsələr ki, yemək yeməyəcəyi təqdirdə onun canına və ya malına zərər yetirəcəklər və o da bu zərərin qarşısını almaq üçün özü yemək yesə), onun orucu pozulur.

• Əgər oruc tutan şəxs orucu pozan işlərdən birini səhvən yerinə yetirsə, daha sonra orucunun pozulduğunu düşünüb orucu pozan bir işi yenidən yerinə yetirsə, onun orucu pozulur.

• Əgər oruc tutan şəxs orucu pozan bir işi yerinə yetirib-yetirmədiyinə şəkk etsə, məsələn, ağzına daxil olan qatı tozu udub-udmadığına və ya ağzına aldığı suyu ağzından xaric edib-etmədiyinə şəkk etsə, onun orucu düzgündür.

Suallar:

1- Əgər oruc tutan şəxs dalğıcların geyimi kimi su keçirməyən bir paltar geyinsə və bu geyimlə suya daxil olsa, onun orucunun hökmü nədir?

2- Duş altında və ya bir qab ilə su tökərək başı yumaq orucu pozurmu?

3- Günəş doğduqdan sonra cənabət qüslü edib, qəza orucu və ya müstəhəb oruc tutmaq olarmı?

4- Əgər bir şəxs Ramazan ayının orucunda və ya başqa oruclarda boynunda cənabət qüslü olduğunu gecədən sübh azanınadək

unutsa və gündüz ərzində bunu xatırlasa, onun orucunun hökmü nədir?

5- Əgər bir şəxs Ramazan ayının gecəsində sübh azanından qabaq oyansa və möhtəlim olduğunu görsə və qüsl etmək üçün oyanacağını ehtimal edib yenidən yatsa, amma sübh namazının vaxtı daxil olduqdan sonra oyansa, onun orucunun hökmü nədir?

6- Əgər oruc tutan şəxs gəyirərkən ağzına bir şey gəlsə, nə etməlidir?

[1] Orucun "ehtiyat-vacibə görə" düzgün olmadığı hallarda mükəlləf orucu tutmalı və sonradan onun qəzasını da tutmalıdır.

Altmış ikinci dərs: Ramazan ayının orucunu bilərəkdən pozmağın kəffarəsi

1. Kəffarənin vacib olduğu hallar

1. Əgər bir şəxs mübarək Ramazan ayında bilərəkdən və ixtiyari olaraq və heç bir şəri üzrü olmadan orucu pozan işlərdən birini yerinə yetirsə, orucun qəzasından əlavə, ona kəffarə də vacib olur. O, orucu pozan bir işi yerinə yetirərkən, istər kəffarənin vacib olacağını bilsin, istərsə də bilməsin, hökm dəyişmir.

Diqqət:

• Əgər bir şəxs şəri hökmü bilmədiyinə görə orucu pozan bir iş görsə, məsələn, başı bütünlüklə suya salmağın orucu pozduğunu bilməsə və başını bütünlüklə suya salsa, onun orucu pozulur və həmin günün orucunun qəzasını tutmalıdır. Amma ona kəffarə vermək vacib olmur.

• Əgər bir şəxs müəyyən bir işin haram olduğunu bilsə, amma bu işin orucu pozduğunu bilməsə və onu görsə, orucun qəzasından əlavə, ehtiyat-vacibə görə, kəffarə də verməlidir.

• Əgər hansısa bir səbəbə görə orucu pozmaq bir şəxsə icazəli və ya vacib olsa, məsələn, onu orucu pozan bir işi görməyə məcbur etsələr və ya suda boğulan bir nəfəri xilas etmək üçün suya atılsa, bu halda ona kəffarə vacib olmur, amma həmin günün orucunun qəzasını tutmalıdır.

2. Əgər oruc tutan şəxsin daxilindən (mədəsindən və ya qida borusundan) bir şey onun ağzına gəlsə, onu udmamalıdır. Əgər bilərəkdən onu udsa, orucun həm qəzasını tutmalı, həm də kəffarə verməlidir.

3. Əgər Ramazan ayında sözünə etibar edilməyən bir şəxs şəri məğrib olduğunu desə və oruc tutan şəxs onun sözünə əsasən iftar etsə, sonra isə məğrib olmadığını başa düşsə, ona orucun qəzası və kəffarəsi vacib olur.

4. Cinsi əlaqədə hər iki tərəfin orucu pozulur və onların hər ikisinə orucun qəzası və kəffarəsi vacib olur.

2. Kəffarənin miqdarı və onu ödəməyin qaydası

1. Müqəddəs İslam şəriətində mübarək Ramazan ayının orucunu bilərəkdən pozmağın kəffarəsi aşağıdakı üç işdən biridir:

1- Bir qul azad etmək;

2- İki ay oruc tutmaq;

3- Altmış fəqirə yemək vermək.

Diqqət:

• Hazırkı dövrdə qul olmadığına görə, şəri vəzifə daşıyan şəxs digər iki kəffarədən birini verməlidir.

• Əgər bir şəxs Ramazan ayında haram cinsi əlaqə və ya haram yemək-içmək ilə orucunu pozarsa, üç kəffarədən birini verməsi kifayət edir. Baxmayaraq ki, hər üç kəffarəni verməsi (bir qul azad etmək[1], altmış gün oruc tutmaq, altmış fəqirə yemək vermək) ehtiyat-müstəhəbə müvafiqdir.

• Əgər bir şəxs orucu bilərəkdən pozmağın kəffarəsi olaraq qeyd edilən işlərin heç birini yerinə yetirə bilmirsə, imkanı çatdığı qədər fəqirə yemək versin və ehtiyata görə, Allahdan bağışlanma da diləsin. Əgər fəqirə heç bir vəchlə yemək verməyə maddi imkanı yoxdursa, Allahdan bağışlanma diləməsi kifayət edir. Yəni dili və qəlbi ilə desin: "Əstəğfirullahə" (Allahdan bağışlanma diləyirəm).

• Oruc tutmağa və fəqirə yemək verməyə qadir olmadığına görə şəri vəzifəsi Allahdan bağışlanma diləmək olan bir şəxs əgər sonralar oruc tutmağa və ya fəqirə yemək verməyə qadir olsa, bu işi görməsi vacib deyildir, amma bu işi görmək ehtiyat-müstəhəbə müvafiqdir.

2. Ramazan ayının orucunun iki ay kəffarə orucunu tutmaq istəyən şəxs tam bir ayı və ikinci aydan ən azı bir günü ara vermədən oruc tutmalıdır. İkinci ayın orucunu fasilələrlə tutmağın maneəsi yoxdur.

3. Altmış gün oruc tutmaq istəyən şəxs əgər həmin müddətdə müəyyən bir üzrə görə, məsələn, xəstəliklə və ya heyz ilə əlaqədar oruc tuta bilməsə, üzrü aradan qalxdıqdan sonra orucu davam etdirə bilər və yenidən başdan başlamaq lazım deyildir.

4. Altmış fəqirə yemək vermək iki şəkildə yerinə yetirilə bilər:

Birincisi, hazır yemək verib, onları doyuzdurmaq;

İkincisi, hər bir fəqirə 750 qram buğda, un, çörək, düyü və bu kimi ərzaqlardan vermək.

5. Orucu bilərəkdən pozmağın kəffarəsi olaraq altmış fəqirə (əvvəlki məsələdə qeyd edilən şəkildə) yemək vermək istəyən şəxsin əgər altmış fəqirə əli çatırsa, iki və ya daha çox fəqirin payını bir fəqirə verə bilməz. Əksinə, altmış fəqirin hər birinə ona düşən pay miqdarında yemək verməlidir. Amma fəqir bir şəxsin ailə üzvlərinin payını ona həvalə edə bilər ki, aparıb ailə üzvlərinə çatdırsın.

Diqqət:

• Fəqir şəxsin uşaq və ya böyük, yaxud kişi və ya qadın olmasının bir fərqi yoxdur.

3. Kəffarənin şəri hökmləri

1. Əgər oruc tutan şəxs gün ərzində orucu pozan bir işi bir dəfədən çox yerinə yetirsə, ona yalnız bir kəffarə vacib olur. Amma əgər cinsi əlaqə və ya istimna ilə orucu pozarsa, ehtiyat-vacibə görə, cinsi əlaqənin və ya istimnanın sayı qədər kəffarə verməlidir.

2. Əgər bir şəxs orucunu bilərəkdən pozsa, orucunu pozduqdan sonra səfərə getsə belə, kəffarə onun boynundan götürülmür. Beləliklə, əgər bir şəxs cənabətli halda yuxudan oyansa və boynuna cənabət qüslü gəldiyini bilsə, amma sübh namazının vaxtı daxil olanadək qüsl və ya təyəmmüm etməsə, eyni zamanda orucdan yayınmaq niyyətilə sübh namazı daxil olduqdan sonra səfərə getməyi qərara alsa və qərara aldığı kimi səfərə getsə, kəffarə onun boynundan götürülmür. Yəni səfərə getməyi gecə vaxtı qərara almaq və gündüz vaxtı da səfərə getmək, kəffarənin onun boynundan götürülməsi üçün kifayət etmir.

3. Əgər bir şəxsə kəffarə vacib olubsa, onu dərhal yerinə yetirməsi vacib deyildir. Amma kəffarəni verməyi o qədər yubatmamalıdır ki, vacib əməli yerinə yetirməkdə səhlənkarlıq hesab olunsun.

4. Əgər bir neçə il keçsə və şəxs vacib kəffarəni verməsə, kəffarənin üstünə heç nə əlavə olunmur.

5. Orucun qəzasını və kəffarəsini yerinə yetirməkdə xüsusi bir ardıcıllıq gözlənilmir, yəni hansını istəsən, birinci yerinə yetirə bilərsən.

Suallar:

1- Əgər bir şəxs müəyyən bir işin haram olduğunu bilsə, amma bu işin orucu pozduğunu bilməsə və onu yerinə yetirsə, yalnız orucun qəzasını tutmalıdır, yoxsa kəffarə verməlidir?

2- Əgər Ramazan ayında oruc olan bir kişi öz zövcəsi ilə cinsi əlaqədə olsa və qadın da bu işə razı olsa, onların hökmü nədir?

3- Ramazan ayının orucunu bilərəkdən pozmağın kəffarəsini açıqlayın.

4- Əgər bir şəxs orucunu haram cinsi əlaqə, ya istimna və ya haram bir şeyi yemək-içməklə pozsa, onun hökmü nədir?

5- Əgər oruc tutan şəxs gün ərzində bir dəfədən çox orucu pozan bir işi yerinə yetirsə, onun şəri vəzifəsi nədir?

6- Əgər bir neçə il keçsə və şəxs vacib kəffarəni verməsə, kəffarənin üstünə bir şey əlavə olunurmu?

---

[1] Əlbəttə, hazırkı dövrdə qul azad etmək məsələsi ortadan qalxmışdır.

Altmış üçüncü dərs: Kəffarənin qisimləri

Ramazan ayının orucunun qəzasını bilərəkdən pozmağın kəffarəsi

1. Kəffarənin vacib olduğu hallar

Ramazan ayının orucunun qəzasını tutan şəxs zöhr azanından sonra orucunu poza bilməz. Əgər bilərəkdən orucunu pozsa, kəffarə verməlidir.

Diqqət:

• Ramazan ayının orucunun qəzasını tutan şəxs zöhr azanından qabaq orucunu açа bilər. Amma bu şərtlə ki, qəza orucunu tutmaq üçün vaxt dar olmamalıdır. Əgər vaxt dar olsa, məsələn, bir şəxsin boynunda beş gün qəza orucu varsa və qarşıdan gələn Ramazan ayınadək də beş gündən çox vaxt qalmayıbsa, ehtiyata görə, bu şəxs zöhrdən qabaq da orucunu açmamalıdır.

• Əgər bir şəxs Ramazan ayının orucunun qəzasını tutmaq üçün əcir olubsa, o, zöhr namazının vaxtı daxil olduqdan sonra orucu açsa belə, ona kəffarə vacib olmur.

2. Kəffarənin miqdarı

Ramazan ayının orucunun qəzasını pozmağın kəffarəsi on fəqirə yemək verməkdən ibarətdir. Əgər bir şəxsin buna imkanı olmasa, üç gün oruc tutmalıdır.

Təxir kəffarəsi

1. Kəffarənin vacib olduğu hallar

1. Əgər bir şəxs Ramazan ayının orucunu şəri üzrü olduğuna görə tutmasa və gələn ilin Ramazan ayınadək səhlənkarlıq üzündən və heç bir şəri üzrü olmadan orucun qəzasını tutmasa, bu şəxs sonradan həm orucun qəzasını tutmalı, həm də qəza orucunu təxirə saldığına görə hər gün üçün "təxir kəffarəsi" verməlidir. Amma əgər gələn ilin Ramazan ayınadək mövcud şəri üzrü davam etsə, məsələn, səfər ilə əlaqədar oruc tuta bilməyibsə və il boyu da səfərdə olubsa, o, yalnız orucun qəzasını tutmalıdır, kəffarə ona vacib olmur. Baxmayaraq ki, bu halda təxir kəffarəsini vermək ehtiyat-müstəhəbə müvafiqdir. Amma xəstəliklə əlaqədar hökm bir qədər fərqlidir və qarşıdakı məsələlərdə izah olunacaqdır.

2. Əgər bir şəxs Ramazan ayının orucunu bilərəkdən tutmasa və orucun qəzasını da gələn Ramazan ayınadək heç bir üzrü olmadan tutmasa, orucun qəzasını tutmaq və orucu bilərəkdən tutmamağın kəffarəsini veməkdən əlavə, hər gün üçün bir təxir kəffarəsi (əvvəlki məsələdə qeyd olunduğu kimi) fəqirə verməlidir.

Diqqət:

• Əgər bir şəxs qəza orucunu gələn ilin Ramazan ayınadək tutmadığı halda onun boynuna təxir kəffarəsinin gələcəyini bilmirsə, bu hökmü bilmədiyinə görə təxir kəffarəsi onun boynundan götürülmür. Beləliklə, əgər bir şəxs qəza orucunu gələn ilin Ramazan ayınadək tutmağın vacibliyini bilmədiyinə görə Ramazan ayı çatanadək qəza orucunu tutmasa, o, hər gün üçün təxir kəffarəsi verməlidir.

• Ramazan ayının orucunun qəzasının təxir kəffarəsi bir neçə il verilməsə belə, yalnız bir dəfə vacib olur və illər keçsə də say artmır. Beləliklə, əgər bir şəxs Ramazan ayının orucunun qəzasını bir neçə il təxirə salsa və tutmasa, orucun qəzasını tutmalı və hər gün üçün bir təxir kəffarəsi verməlidir.

2. Kəffarənin miqdarı

Təxir kəffarəsi hər gün üçün "bir müdd təam"dan ibarətdir və fəqirə verilməlidir.

Diqqət:

• Hər gün üçün bir müdd təam kəffarə verməli olan şəxs bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.

Fidyə

1. Fidyənin verildiyi hallar

Aşağıdakı hallarda fidyə verilir:

1- Oruc tutmaq qoca kişiyə və ya qadına olduqca çətin və əziyyətli olduqda;

2- Xəstəliyi ilə əlaqədar tez-tez su içən şəxsə oruc tutmaq olduqca çətin və əziyyətli olduqda;

3- Doğumuna az bir müddət qalan hamilə qadın orucun hamiləliyə ziyanı olacağından qorxduqda;

4- Süd verən qadının südü az olduqda və orucun südəmər körpəyə ziyanı olacağından qorxduqda;

5- Oruc tutmağın bir xəstə insana ziyanı olduqda və onun xəstəliyi gələn ilin Ramazan ayınadək davam etdikdə.

1. Əgər oruc tutmaq qoca kişiyə və ya qadına olduqca çətin və əziyyətlidirsə, onlara oruc tutmaq vacib olmur. Onlar hər gün üçün bir müdd təam (məsələn, buğda, arpa, düyü) fəqirə fidyə verməlidirlər. Əgər onlar oruc tutmağa əsla qadir deyillərsə, ehtiyata görə, fidyə verməlidirlər. Amma hər iki halda əgər Ramazan ayından sonra oruc tutmağa qadir olsalar, ehtiyat-müstəhəbə görə, orucun qəzasını tutsunlar.

2. Əgər bir şəxs xəstəliyi ilə əlaqədar tez-tez su içmək istəyirsə və susuzluğa əsla dözə bilmirsə, yaxud susuzluğa dözmək onun üçün olduqca çətin və əziyyətlidirsə, ona oruc tutmaq vacib olmur. Amma ikinci surətdə (yəni susuzluğa dözmək onun üçün olduqca çətin və əziyyətli olduğu təqdirdə) hər gün üçün bir müdd təam fəqirə verməlidir. Ehtiyat-vacibə görə, birinci surətdə də (yəni susuzluğa əsla dözə bilmədiyi təqdirdə) bu fidyəni verməlidir. Əgər o, Ramazan ayından sonra oruc tuta bilsə, ehtiyat-müstəhəbə görə, orucun qəzasını tutsun.

3. Doğumu yaxınlaşan hamilə qadın əgər orucun onun bətnindəki körpəyə və ya onun özünə ziyanı olacağından qorxsa, ona oruc tutmaq vacib olmur. Birinci surətdə (yəni orucun onun bətnindəki körpəyə ziyanı olacağından qorxduğu təqdirdə) hər gün üçün bir müdd təam, yəni 750 qram buğda, arpa və s. bu kimi ərzaqlar fidyə ünvanında fəqirə verməlidir. Ramazan ayından sonra da bu orucun qəzasını tutmalıdır. İkinci surətdə (yəni orucun onun özünə ziyanı olacağından qorxduğu təqdirdə) tutmadığı orucların qəzasını tutmalı və ehtiyata görə, fidyə də verməlidir. Doğumu yaxın olmayan hamilə qadının isə fidyə verməsi ehtiyat-vacibdir.

4. Əgər südverən qadın (istər körpənin doğma anası olsun, istərsə də dayəsi olsun, dayə istər ücrət ilə süd versin, istərsə də ücrətsiz süd versin) südün azalacağından və ya quruyacağından qorxduğu üçün orucun uşağa ziyanı olacağından qorxsa, ona oruc tutmaq vacib olmur. O, hər gün üçün fidyə verməli və sonradan orucun qəzasını tutmalıdır. Amma əgər orucun qadının özünə ziyanı olsa, ehtiyata görə, fidyə vacib olur.

5. Yuxarıdakı iki məsələni nəzərə alaraq, əgər bu qadın gələn ilin Ramazan ayınadək orucun qəzasını tutmasa, səhlənkarlıq etdiyi təqdirdə, orucun qəzasından əlavə, təxir kəffarəsi də verməlidir. Amma əgər hansısa bir üzrə görə orucun qəzasını tuta bilməyibsə, təxir kəffarəsi vacib olmur. Əgər bu üzr orucun onun övladına ziyanı olacağı qorxusu olsa, orucların qəzasını nə zaman tuta bilsə, tutmalıdır. Yox əgər bu üzr orucun onun özünə ziyanı olacağı qorxusu olsa, orucun qəzası onun boynundan götürülür. O, hər gün üçün fidyə verməlidir.

6. Əgər bir xəstə insan xəstəliyi ilə əlaqədar Ramazan ayının orucunu tuta bilməyibsə və onun xəstəliyi gələn Ramazan ayınadək davam edibsə, tutmadığı orucların qəzası onun boynundan götürülür və ona qəza orucu tutmaq vacib olmur. O, yalnız hər gün üçün fidyə verməlidir.

Diqqət:

• Qadının fidyə və ya kəffarəsi qadının öz öhdəsindədir və bunu ödəmək onun ərinə vacib deyildir, baxmayaraq ki, qadın hamiləliklə əlaqədar və ya süd verdiyinə görə oruc tutmamışdır. Həmçinin övladın kəffarəsi və ya fidyəsi atanın öhdəsində deyildir. Amma ər öz zövcəsinin və ya ata öz övladının yerinə onun fidyəsini və ya kəffarəsini ödəyə bilər.

2. Fidyənin miqdarı

Fidyənin miqdarı təxir kəffarəsinin miqdarındadır, yəni bir müdd təamdır (750 qram buğda, un, çörək, düyü və bu kimi ərzaqlardan biri ola bilər) və fəqirə verilməlidir.

Diqqət:

• Əgər bir şəxs müəyyən bir gün oruc tutacağını nəzir etsə və həmin gün bilərəkdən oruc tutmasa və ya orucunu pozsa, kəffarə verməlidir.

• Nəzirin kəffarəsi on fəqiri yedizdirmək və ya geyindirməkdən ibarətdir. Əgər mükəlləfin buna imkanı olmasa, üç gün oruc tutmalıdır.

Suallar:

1- Ramazan ayının orucunun qəzasını bilərəkdən pozmağın kəffarəsi hansı hallarda vacib olur və miqdarı nə qədərdir?

2- Ramazan ayının orucunun qəzasını təxirə salmağın kəffarəsi hansı hallarda vacib olur və miqdarı nə qədərdir?

3- Əgər bir şəxs qəza orucunu gələn ilin Ramazan ayınadək tutmağın vacibliyini bilmədiyinə görə Ramazan ayı çatanadək qəza orucunu tutmasa, ona təxir kəffarəsi vacib olurmu?

4- Hansı hallarda fidyə verilir?

5- Əgər qadın xəstə olduğu üçün oruc tuta bilməsə və gələn ilin Ramazan ayınadək orucun qəzasını da tuta bilməsə, ona kəffarə vacib olurmu, yoxsa ərinə vacib olur?

Altmış dördüncü dərs: Yalnız orucun qəzasının vacib olduğu hallar. Müsafir orucu

Yalnız orucun qəzasının vacib olduğu hallar

1. Əgər bir şəxs Ramazan ayının orucunun niyyətini etməsə və ya riya ilə oruc tutsa, amma eyni zamanda orucu pozan işlərdən heç birini yerinə yetirməsə, yalnız orucun qəzasını tutmalıdır, ona kəffarə vacib olmur.

2. Əgər bir şəxs Ramazan ayında cənabət qüslünü etməyi unudub cənabətli halda bir və ya bir neçə gün oruc tutsa, yalnız həmin günlərin orucunun qəzası ona vacib olur.

3. Əgər bir şəxs Ramazan ayında sübh namazının vaxtının daxil olub-olmadığını araşdırmadan orucu pozan işlərdən birini yerinə yetirsə, amma sonradan məlum olsa ki, həmin işi yerinə yetirərkən sübh namazının vaxtı daxil olmuşdur, həmin günün orucunun qəzasını tutmalıdır. Amma əgər araşdırdıqdan sonra sübh namazının vaxtının daxil olmadığını bilsə və buna görə də orucu pozan işlərdən birini yerinə yetirsə, amma sonradan məlum olsa ki, həmin işi yerinə yetirərkən sübh namazının vaxtı olmuşdur, onun orucu düzgündür və qəzası yoxdur.

4. Əgər bir şəxs Ramazan ayında havanın qaraldığını görüb şəri məğrib vaxtının daxil olduğuna yəqin etsə və ya sözü şəri baxımdan dəlil sayılan bir dəstə insan şəri məğrib vaxtının daxil olduğunu xəbər versələr, buna görə də bu şəxs orucunu açsa, amma sonradan məlum olsa ki, həmin vaxt şəri məğrib vaxtı daxil olmamışdır, o, həmin günün orucunun qəzasını tutmalıdır.

5. Əgər bir şəxs hava buludlu olduğuna görə məğrib namazının vaxtının daxil olduğunu güman edib iftar etsə, amma sonradan məlum olsa ki, həmin vaxt məğrib namazının vaxtı daxil olmamışdır, həmin günün orucunun qəzası ona vacib olmur.

6. Mükəlləf Ramazan ayında sübh namazının vaxtının daxil olduğuna yəqin etməyənədək orucu pozan işləri yerinə yetirə bilər. Amma əgər sonradan məlum olsa ki, orucu pozan işi yerinə yetirərkən sübh namazının vaxtı daxil olmuşdu, bunun hökmü 3-cü məsələdə açıqlandı.

7. Mükəlləf Ramazan ayında məğrib namazının vaxtının daxil olduğuna yəqin etməyənədək orucu açа bilməz. Əgər o, məğrib namazının vaxtının daxil olduğuna yəqin edib orucunu açsa, amma sonradan məlum olsa ki, həmin vaxt məğrib vaxtı olmamışdı, bunun hökmü 4-cü və 5-ci məsələlərdə açıqlandı.

8. Əgər oruc tutan şəxs suyun boğazdan keçməyəcəyinə əmin bir halda dəstəmaz alarkən ağzını yaxalasa (belə ki, dəstəmaz alarkən ağıza su alıb yaxalamaq müstəhəbdir), amma su qeyri-ixtiyari olaraq onun boğazına getsə, o, vacib namaz üçün dəstəmaz alarkən bu işi etdiyi təqdirdə, orucu düzgündür və qəzası yoxdur. Amma əgər vacib olmayan namaz üçün dəstəmaz alarkən və ya dəstəmazdan qeyri hallarda, məsələn, sərinlənmək üçün bu işi etsə və su qeyri-ixtiyari olaraq onun boğazına getsə, ehtiyata görə, həmin günün orucunun qəzasını tutmalıdır.

Qəza orucunun hökmləri

1. Əgər bir şəxs bir gün və ya bir neçə gün huşsuz vəziyyətdə olsa və vacib orucu tuta bilməsə, həmin günlərin orucunun qəzasını tutmaq lazım deyildir.

2. Əgər bir şəxs məst olduğuna görə vacib orucu tuta bilməyibdirsə, məsələn, oruc niyyəti etməyibdirsə, gün ərzində orucu pozan işləri yerinə yetirməsə belə, onun orucu düzgün deyildir və həmin günün orucunun qəzasını tutmalıdır.

3. Əgər bir şəxs oruc niyyəti etdikdən sonra məst olubsa və bütün gün və ya günün bir hissəsini məst vəziyyətdə olubsa – xüsusilə də ağılın aradan getdiyi bərk məstlik vəziyyətində olduğu hallarda – ehtiyat-vacibə görə, həmin günün orucunun qəzasını tutmalıdır.

Diqqət:

• Yuxarıda qeyd edilən 2-ci və 3-cü məsələlərdə istər məstedici maddəni istifadə etmək bu şəxsə haram olsun, istərsə də xəstəliyi ilə əlaqədar və ya içdiyi mayenin şərab olduğunu bilmədiyinə görə bu maddəni istifadə etmək ona halal olsun, hökm dəyişmir.

4. Ramazan ayında qadın heyz və ya nifas günlərində tutmadığı orucların qəzasını Ramazan ayından sonra tutmalıdır.

5. Əgər Ramazan ayında bir şəxs müəyyən üzrə görə bir neçə gün oruc tutmasa və günlərin sayını dəqiq bilməsə, üzrün hansı tarixdən etibarən başlandığını bilmədiyi təqdirdə (məsələn, bir şəxs Ramazan ayının 25-i, yoxsa 26-sı səfərə getdiyini bilmir və buna görə də altı gün, yoxsa beş gün qəza orucu tutmalı olduğunu müəyyənləşdirə bilmir), o, sayın azını götürüb, həmin sayda qəza orucu tuta bilər. Amma əgər üzrün hansı tarixdən etibarən başlandığını bilirsə, məsələn, Ramazan ayının 5-i səfərə getdiyini bilir, lakin ayın 10-u, yoxsa 11-i gecə qayıtdığını bilmir və buna görə də beş gün, yoxsa altı gün qəza orucu tutacağını müəyyənləşdirə bilmirsə, bu halda ehtiyat-vacibə görə, sayın çoxunu götürməli və həmin sayda qəza orucu tutmalıdır.

6. Əgər bir şəxsin boynunda ötən bir neçə Ramazan ayının qəza orucu vardırsa, onlardan hansını birinci tutsa, maneəsi yoxdur. Amma əgər axırıncı Ramazan ayının qəza orucları üçün vaxt dar olsa, məsələn, axırıncı Ramazan ayından beş gün qəza orucu olsa

və qarşıda gələn Ramazan ayınadək yalnız beş gün vaxt qalsa, bu halda ehtiyat-vacibə görə, axırıncı Ramazan ayının qəza oruclarını tutmalıdır.

7. Əgər bir şəxs Ramazan ayının qəza orucunu tutubsa, o, zöhrdən qabaq orucunu poza bilər, amma bu şərtlə ki, qəza orucu üçün vaxt dar olmamalıdır. Əgər vaxt dardırsa, yəni qarşıda gələn Ramazan ayınadək qəza oruclarının sayı qədər gün qalıbdırsa, ehtiyata görə, bu şəxs zöhrdən qabaq orucunu pozmasın.

8. Əgər bir şəxs xəstəliklə əlaqədar olaraq Ramazan ayının orucunu tuta bilməsə və onun xəstəliyi gələn Ramazan ayınadək davam etsə, orucların qəzasını tutmaq ona vacib olmur. Amma əgər xəstəlikdən qeyri bir üzrə görə (məsələn, səfərə getdiyi üçün) oruc tutmasa və onun üzrü gələn Ramazan ayınadək davam etsə, tutmadığı orucların qəzasını Ramazan ayından sonra tutmalıdır. Həmçinin əgər bir şəxs xəstəliklə əlaqədar olaraq oruc tutmasa, sonra sağalsa, amma qarşıya başqa bir üzr (məsələn, səfərə getmək) çıxsa və bu üzr gələn Ramazan ayınadək davam etsə, yaxud da Ramazan ayında xəstəlikdən qeyri bir üzrə görə oruc tutmasa və Ramazan ayından sonra bu üzr aradan qalxsa, amma gələn Ramazan ayınadək xəstəliklə əlaqədar olaraq oruc tuta bilməsə, tutmadığı orucların qəzasını Ramazan ayından sonra tutmalıdır.

Diqqət:

• Əgər bir şəxs fiziki gücü çatmadığına görə Ramazan ayında oruc tutmağa, həmçinin gələn ilin Ramazan ayınadək orucların qəzasını tutmağa qadir deyildirsə, orucların qəzası onun boynundan götürülmür. Orucların qəzasını tutmağa qadir olduğu zaman onları tutmalıdır. Deməli, şəri vəzifə yaşına çatan bir qız əgər fiziki baxımdan zəif olduğuna görə oruc tuta bilməsə və gələn ilin Ramazan ayınadək orucların qəzasını da tuta bilməsə, tutmadığı orucların qəzasını tutmalıdır. Həmçinin əgər bir şəxs bir neçə il oruc tutmayıbsa və indi tövbə edib, orucların qəzasını tutmağı qərara alıbdırsa, tutmadığı bütün orucların qəzasını tutmalıdır. Əgər bu orucları tuta bilməsə, onun boynundan götürülmür və boynunda qalır.

Ata-ananın qəza orucu

1. Əgər ata və ehtiyat-vacibə görə, ana öz oruclarını səfərdən qeyri bir şəri üzrə görə tutmasalar və orucun qəzasını tuta bilmələrinə rəğmən orucun qəzasını da tutmasalar, onlar dünyadan köçdükdən sonra böyük oğul onların qəza oruclarını tutmalı və ya əcir tutaraq onların qəza oruclarını tutdurmalıdır. Amma valideynlərin səfər ilə əlaqədar olaraq tutmadıqları oruclara gəlincə, onların bu orucları tutmağa fürsət və imkanı olmasa belə, bu orucları tutmaq böyük oğula vacibdir.

2. Ata və ananın bilərəkdən və heç bir şəri üzr olmadan tutmadıqları orucları, ehtiyat-vacibə görə, böyük oğul tutmalı və ya əcir tutub bu orucları tutdurmalıdır.

3. Əgər böyük oğulun boynunda ata və ananın həm qəza namazı, həm də qəza orucu varsa, namaz və orucdan hansı birini istəsə, birinci yerinə yetirə bilər.

Müsafir orucunun hökmləri

1. Əgər Ramazan ayında səfərə gedən şəxs bu səfərdə namazını qəsr qılmalıdırsa, səfərdə oruc tuta bilməz. Amma əgər səfərdə namazı dördrəkətli qılmalıdırsa (məsələn, müəyyən bir yerdə on gün qalmaq niyyətindədirsə və ya səfər etmək onun peşəsidirsə), orucunu tutmalıdır.

2. Əgər oruc tutan şəxs zöhrdən sonra səfər etsə, orucunu davam etdirməlidir. Amma əgər zöhrdən qabaq səfər etsə, burada iki hal yaranır:

- Əgər o, səfərə getməyi əvvəlki gecədən qərara alıbdırsa, orucu düzgün deyildir.

- Amma əgər gündüz vaxtı səfər etməyi qərara alıbdırsa, ehtiyat-vacibə görə, oruc tutmalı və Ramazan ayından sonra orucun qəzasını da tutmalıdır.

3. Əgər müsafir şəxs zöhrdən qabaq vətənə daxil olsa və ya on gün qalmağı qərara aldığı yerə çatsa, orucu pozan bir iş görmədiyi təqdirdə, orucu tutmalıdır. Orucu pozan bir iş gördüyü təqdirdə isə sonradan orucun qəzasını tutmalıdır. Amma əgər zöhrdən sonra vətənə daxil olsa və ya on gün qalmağı qərara aldığı yerə çatsa, oruc tuta bilməz.

4. Ramazan ayında səfər etməyə, hətta orucdan yayınmaq məqsədilə olsa belə, icazə verilir. Amma səfər etməmək daha yaxşıdır. Yaxşı və ya lazımlı bir iş üçün səfər etmək isə istisna təşkil edir.

Diqqət:

• Əgər etikaf etməyi qərara alan müsafir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alsa, yaxud səfərdə oruc tutmağı nəzir etsə, o, səfərdə etikaf edə bilər. Amma əgər müəyyən bir yerdə on gün qalmağı qərara almayıbdırsa, yaxud səfərdə oruc tutmağı nəzir etməyibdirsə, səfərdə onun orucu düzgün deyildir. Oruc düzgün olmadıqda, etikaf da düzgün deyildir.

Suallar:

1- Əgər oruc olan şəxs ağzını yaxalasa və su qeyri-ixtiyari olaraq onun boğazına getsə, orucu pozulurmu?

2- Əgər bir şəxsin boynunda ötən bir neçə Ramazan ayının orucunun qəzası varsa, orucların qəzasını hansı şəkildə tutmalıdır?

3- Əgər şəri vəzifə yaşına yenicə çatan qız oruc tutmağa gücü çatmadığı üçün orucunu açsa, orucun qəzası ona vacib olurmu?

4- Atanın və ananın qəza orucunun hökmünü açıqlayın.

5- Əgər bir şəxs şəri zöhrdən qabaq öz vətəninə çatmaq niyyətində olsa, lakin yolda müəyyən səbəblərə görə ləngisə və zöhrdən qabaq çata bilməsə, onun orucu düzgündürmü?

6- Ramazan ayında orucu açmaq və orucdan yayınmaq məqsədilə bilərəkdən səfər etməyə icazə verilirmi?

Altmış beşinci dərs: Ayın əvvəlinin sübuta yetməsinin yolları

Ayın əvvəlinin sübuta yetməsinin yolları

Ayın əvvəli beş yol ilə sübuta yetir:

1- İnsanın özü ayın hilalını görür;

2- İki ədalətli şəxs ayın hilalını gördüklərinə şahidlik edir, amma bu şərtlə ki, çoxsayda insan ayın göründüyünü inkar etməməli və o iki ədalətli şəxsin səhv etdiyinə güman artmamalıdır;

3- Bilik və ya əminliyə səbəb olan məşhur xəbər;

4- Əvvəlki ayın başlanmasından otuz günün keçməsi;

5- Şəri-hakimin hökmü.

1. Əsr çağı ayın hilalını görmək qəməri ayın çıxdığını sübuta yetirir və ayın hilalı göründükdən sonra həmin gecə ayın birinci gecəsidir.

Diqqət:

• Hilalı müəyyən cihazlar və vasitələrlə görmək və ya adi gözlə görmək arasında fərq yoxdur və etibarlı sayılır. Əsas odur ki, "görmək" adlansın. Deməli, gözlə görmək, eynəklə görmək, teleskopla görmək – bunların hamısı eyni hökmü daşıyır. Amma işığın əks olunmasının kompyuterdə qeydə alınması və bu yolla ayın hilalının şəklini görmək məsələsinə gəlincə, bunun "görmək" adlanması məlum olmadığına görə, məhəlli-işkaldır.

• Ayın hilalını görmək öz-özlüyündə şəri vacib əməl deyildir.

• Sırf hilalın kiçik və aşağıda olması, ya böyük və yuxarıda olması, ya da enli və ya nazik olması və s. həmin gecənin birinci və ya ikinci gecə olmasına şəri dəlil deyildir. Amma əgər mükəlləf hilalın bu xüsusiyyətlərindən hansısa bir nəticəyə gələrsə və onda yəqinlik yaranarsa, bu barədə öz yəqinliyinə müvafiq əməl etməlidir.

• Ayın əvvəli olduğu təqvimlər vasitəsilə və ya astroloqların elmi hesablamaları ilə sübuta yetmir. Amma əgər onların sözlərindən insanda yəqinlik yaranarsa, bu yəqinliyə müvafiq əməl etmək olar.

2. Əgər bir şəhərdə ayın əvvəli olduğu sübuta yetsə, bu, həmin şəhərlə eyni üfüqdə olan digər şəhərlər üçün kifayət edir.

Diqqət:

• "Üfüqün eyni olması" dedikdə, hilalı görməyin mümkün olub-olmaması baxımından bir regionun başqa bir regionla eyni olması nəzərdə tutulur.

3. Əgər şəri-hakim şəxsən ayın hilalını görsə, amma hilalın göründüyünə dair hökm verməsə, sırf şəri-hakimin ayın hilalını görməsi başqalarının ona tabe olmaları üçün kifayət etmir. Amma əgər bu yolla insanda ayın hilalının göründüyünə dair əminlik yaranarsa, bu əminliyə müvafiq əməl etmək olar.

Diqqət:

• Əgər ayın hilalını görən bir şəxs bilsə ki, ayı görmək müəyyən səbəblərə görə onun şəhərinin şəri-hakimi üçun mümkün olmayacaqdır, ayı gördüyünü şəri-hakimə xəbər verməsi vacib deyildir. Amma əgər bu barədə xəbər verməmək hansısa bir fəsada səbəb olacaqdırsa, bu halda xəbər verməlidir.

• Əgər şəri-hakim hökm versə ki, sabahısı gün ayın birinci günüdür və bu hökm bütün ölkəyə şamil olsa, onun hökmü şəri baxımdan bu ölkənin bütün şəhərləri üçün qüvvədədir.

• Əgər qeyri-islami bir dövlət ayın hilalının göründüyünü elan etsə və bu elan ayın əvvəli olduğuna dair insanda əminlik yaratsa, kifayət edir.

• Əgər bir şəhərdə ayın hilalını görməsələr, amma radio və televiziya vasitəsilə hilalın göründüyü xəbər verilsə, bu xəbər insanda hilalın göründüyünə dair əminlik yaratdığı təqdirdə, kifayət edir və araşdırma aparmağa da ehtiyac yoxdur.

4. Əgər şəvval ayının əvvəli olduğu ayı görmək, hətta qonşu və üfüqü eyni olan şəhərlərdə ayı görmək yolu ilə, yaxud iki ədalətli şəxsin şəhadəti yolu ilə, yaxud da şəri-hakimin hökmü əsasında sübuta yetməzsə, həmin günü oruc tutmaq lazımdır.

5. Əgər Ramazan ayının əvvəli olduğu sübuta yetməzsə, oruc tutmaq vacib deyildir. Amma əgər sonradan ayın əvvəli olduğu məlum

olarsa, həmin günün orucunun qəzasını tutmaq lazımdır.

6. Əgər mükəlləf Ramazan ayının axırı, yoxsa şəvval ayının əvvəli olduğuna şəkk etsə, həmin gün oruc tutmalıdır. Amma əgər gün əsnasında şəvval ayının əvvəli olduğu sübuta yetsə, orucunu açmalıdır. Hətta məğribə çox az vaxt qalsa belə, orucunu açmalıdır.

Orucun müxtəlif məsələləri

1. Əgər bir məntəqədə əhalinin əksəriyyəti Ramazan ayının gecələrində Quran və dua oxumaq, dini mərasimlər keçirmək üçün oyaq qalırlarsa, sübhə yaxın hamının eşitməsi üçün məsciddən səsucaldan vasitəsilə səhər dualarını yayımlamağın maneəsi yoxdur. Amma əgər bu duaların yayımlanması məscidin qonşuluğunda yaşayan sakinlərə əziyyət versə, buna icazə verilmir.

2. Ramazan ayının gündəlik dualarını savab qazanmaq niyyətilə oxumağın maneəsi yoxdur.

3. Müstəhəb oruc tutan şəxs istədiyi vaxt orucunu aça bilər. Əgər mömin bir şəxs ona yemək təklif etsə, onun təklifini qəbul etməsi və orucunu açması şəri baxımdan bəyənilir.

4. Əgər oruc tutmuş şəxs şəri məğrib vaxtı bir ölkədə iftar etsə və sonra (təyyarə ilə) başqa bir ölkəyə səfər etsə, amma səfər etdiyi ölkəyə çatdıqda orada hələ şəri məğrib vaxtı daxil olmamış olsa, həmin günün orucu düzgündür. Şəri məğrib vaxtı öz ölkəsində iftar etdiyini nəzərə alaraq, o, səfər etdiyi ölkədə şəri məğribdən qabaq yeyib-içə bilər.

5. Bir şəxs Ramazan ayının əvvəlindən iyirmi yeddisinədək öz vətənində oruc tutmuş və iyirmi səkkizinci günün sübhündə onun şəhəri ilə üfüqü eyni olan başqa bir şəhərə səfər etmişdir. Ayın iyirmi doqquzuncu günü ora çatmış və həmin gün orada bayram elan edildiyini görmüşdür. Əgər ayın iyirmi doqquzuncu günü həmin bölgədə Fitr bayramının elan edilməsi şəri qaydada və düzgün olubdursa, həmin günün orucunun qəzası bu şəxsə vacib deyildir. Amma bu iki şəhərin (bu şəxsin vətəni olan şəhər ilə səfər etdiyi şəhərin) üfüqünün eyni olduğunu nəzərə alaraq, məlum olur ki, o, ayın əvvəlindən bir gün oruc tutmamışdır. Odur ki, tutmadığına yəqinliyi olan orucun qəzasını tutmalıdır.

Suallar:

1- Ayın əvvəlinin sübuta yetməsinin yollarını açıqlayın.

2- "İki şəhərin üfüqünün eyni olması" dedikdə, nə nəzərdə tutulur?

3- Əgər şəri-hakim ayı görsə, amma elan etməsə, bu, başqalarının ona tabe olmaları üçün kifayət edirmi?

4- Əgər mükəlləf Ramazan ayının axırı, yoxsa şəvval ayının əvvəli olduğuna şəkk etsə, vəzifəsi nədir?

5- Əgər Ramazan ayının gündəlik dualarının (1-ci günün duası, 2-ci günün duası və bu minvalla otuz günün duası) düzgünlüyünə şəkk olunarsa, onları oxumağın hökmü nədir?

6- Əgər oruc tutmuş şəxs şəri məğrib vaxtı bir ölkədə iftar etsə və sonra (təyyarə ilə) başqa bir ölkəyə səfər etsə, amma səfər etdiyi ölkəyə çatdıqda orada hələ şəri məğrib vaxtı daxil olmamış olsa, həmin günün orucunun hökmü nədir? O, səfər etdiyi ölkədə şəri məğribdən qabaq yeyib-içə bilərmi?

Altmış altıncı dərs: Xümsün mənası və vacibliyi

Xümsün mənası

"Xüms" sözünün leksik mənası "beşdə bir" deməkdir. İslam şəriətində isə şəxsi əmlaka aid olan vacib əməllərdən biridir. Belə ki, müəyyən şərtlərə malik olan bir mükəlləf şəxsi əmlakının beşdə birini xüsusi qaydalara müvafiq şəkildə verməlidir.

Diqqət:

• İslam hökumətinin müəyyən qanunlara əsasən qoyduğu vergiləri ödəmək vacibdir və ödənilən vergilər ödəniş ilinin məişət ehtiyaclarından hesab olunur, amma bu vergilər xüms hesab olunmur. İl ərzində əldə edilən gəlirdən artıq qaldığı təqdirdə, artıq qalan məbləğin xümsü ayrıca olaraq verilməlidir.

Xümsün vacibliyi

Xümsün vacibliyi İslam dininin danılmaz göstərişlərindəndir.

Diqqət:

• Maddi imkansızlıq və ya xüms verməyin cətinliyi mükəlləfin üzərindən şəri vəzifənin götürülməsinə səbəb olmur. Odur ki, xüms verməli olan, amma indiyədək xüms verməyən və hal-hazırda da onu verməyə imkanı olmayan və ya xüms verməkdə çətinlik çəkən şəxslər xüms borcunu verməyə imkan yarandıqda onu verməlidirlər. Bu şəxslər xüms borcunu xüms işləri məsulu və ya onun vəkilinin dəstgərdanı[1] ilə öz imkanları daxilində müddət və məbləğ baxımından tədricən verə bilərlər.

• Xümsü ödəməyi gecikdirmək və sonrakı xüms ilinə saxlamağa icazə verilmir, baxmayaraq ki, nə zaman ödənilərsə, borc verilmiş olur. Pulun dəyəri düşdüyü təqdirdə isə ehtiyat-vacibə görə, şəri-hakim ilə müsalihə olunmalıdır (yəni razılaşma əldə olunmalıdır).

• Əgər şəri büluğa çatmayan uşağın əmlakına xüms düşərsə (məsələn, mədəndən çıxarılan mal olarsa və ya halal mala haram qarışarsa), bu əmlakın xümsünü vermək uşağın şəri başçısına vacibdir. Amma uşağın əmlakı ilə ticarətdən əldə edilən qazancın və ya uşağın özünün əmək fəaliyyəti ilə əldə etdiyi qazancın xümsünü vermək onun şəri başçısına vacib deyildir. Ehtiyata (ehtiyat-vacibə) görə, əldə edilən qazanc xərclənmədiyi və qaldığı təqdirdə, uşaq şəri vəzifə yaşına çatdıqdan sonra onun xümsünü vermək uşağın özünə vacib olur.

• Xüms vermək "şəxslər"ə vacib olur və dövlətlərə, müəssisələrə, banklara və s. bu kimi təşkilatlara xüms vermək vacib olmur. Beləliklə, əgər hansısa bir müəssisə gəlir əldə edərsə, bu gəlirdən illik xərcləri çıxıb yerdə qalan hissənin xümsünü vermək vacib deyildir. Bəli, əgər bu müəssisənin əmlakı ayrı-ayrı şəxslərin əmlakı olarsa, gəlirin xümsü verilməlidir.

Xüms düşən mallar

Yeddi mala xüms düşür:

1- Qazanc (əmək fəaliyyəti ilə əldə edilən gəlir);

2- Mədən;

3- Dəfinə;

4- Haram mala qarışmış halal mal;

5- Dalğıclıq vasitəsilə dənizin dibindən çıxarılan cəvahirat;

6- Döyüş qəniməti;

7- Zimmi-kafirin müsəlmandan aldığı torpaq sahəsi.

Xüms verilmədikdə ortaya çıxan çətinliklər

1. Şəri üzr olmadan xümsü verməmək haramdır.

2. Əgər dünyasını dəyişən bir şəxs onun əmlakından müəyyən məbləğin xüms verilməsini vəsiyyət edibsə və ya varislər mərhumun müəyyən məbləğdə xüms borcu olduğunu bilirlərsə, mərhumun vəsiyyətinə əməl olunmayanadək və ya onun xüms borcu irsdən verilməyənədək varislər irsdən istifadə edə bilməzlər. Amma əgər varislər mərhumun xüms borcunu verməkdə və səhlənkarlıq etmədən vəsiyyətə əməl etməkdə qətiyyətli olsalar, irsdən istifadə edə bilərlər.

Suallar:

1- İslam hökumətinin təyin etdiyi vergiləri ödəmək xümsü əvəz edirmi?

2- Əgər bir şəxsə xüms vermək vacib olubsa, lakin indiyədək onu verməyibsə və hal-hazırda da onu verməyə imkanı yoxdursa və ya xümsü vermək ona çətindirsə, onun şəri vəzifəsi nədir?

3- Xüms hansı mallara düşür?

4- Əgər bir şəxs bir neçə il öz illik qazancını hesablamazsa və beləliklə, onun əmlakı nağd pul olub sərmayəsi çoxalarsa, bundan sonra əvvəlki sərmayəsindən qeyri əmlakının xümsünü verərsə, bu işin maneəsi varmı?

---

[1] **Dəstgərdan – fiqh termini olub, xüms və ya zəkatı mal sahibindən almaq və yenidən ona qaytarmaq mənasını bildirir.** ***Müt.***

Altmış yeddinci dərs: Qazancın xümsü

Lazımi şərtlərə malik olan şəxs öz iş gəlirindən artıq qalan və məişət ehtiyaclarına sərf edilməyən məbləğin xümsünü verməlidir.

Qazancın mənası

Burada "qazanc" dedikdə, əmək fəaliyyəti nəticəsində əldə edilən və "qazanc" adlanan pul-mal nəzərdə tutulur.

Qazancın növləri

Qazancın növləri aşağıdakılardır:

1- Əkinçilikdən əldə edilən qazanc;

2- Ticarətdən əldə edilən qazanc;

3- Əmlakın icarəyə verilməsi ilə əldə edilən qazanc, məsələn, ev, avtomobil, dəmiryonma dəzgahı, corabtoxuma maşını və bu kimi əmlakın icarəyə verilməsi ilə əldə edilən qazanc;

4- Xidmət və zəhmət haqqı olaraq alınan məbləğ, məsələn, müəllimin, mühəndisin, fəhlənin və digər peşə sahiblərinin gördükləri iş müqabilində aldıqları zəhmət haqqı.

Qazanc sayılmayan mallar

1. İrs

1. İrsə və onun satışından əldə edilən pula, hətta onun qiyməti artsa belə, xümS düşmür. Amma əgər irsi sərmayə olaraq (satmaq məqsədilə) saxlasalar, bu halda ehtiyat-vacibə görə, satış zamanı artan qiymət ilin gəliri hesab olunur və inflyasiya miqdarını çıxdıqdan sonra bu məbləğ xümS ilinin sonunadək qaldığı təqdirdə, onun xümsü verilməlidir.

2. Azyaşlı övladlara çatan irsə xümS düşmür. Amma əgər irsdən gəlir əldə edilərsə, uşaqlar şəri vəzifə yaşına çatanadək bu gəlir onların mülkiyyətində qaldığı təqdirdə, ehtiyata görə, onların hər biri şəri vəzifə yaşına çatdıqdan sonra bu gəlirin xümsünü verməlidirlər.

2. Mehriyyə

Mehriyyəyə xümS düşmür. Mehriyyə istər müddətli olsun, istərsə də müddətsiz olsun, yaxud istər nağd pul şəklində olsun, istərsə də mal şəklində olsun, bu hökm dəyişmir və ona xümS düşmür.

3. Bəxşiş və hədiyyə

1. Hədiyyə verilən pul, mal və mülkün xümsünü vermək vacib deyildir, baxmayaraq ki, illik xərclərdən artıq qaldığı təqdirdə, onun xümsünü vermək ehtiyat-müstəhəbə müvafiqdir.

2. Bir şeyin "bəxşiş" və "hədiyyə" adlanması onu verən şəxsin niyyətinə bağlıdır. Beləliklə, insana atası, qardaşı və ya hansısa bir qohumu tərəfindən verilən dolanışıq xərci, bəxşiş və hədiyyə niyyətilə verildiyi təqdirdə, bəxşiş və hədiyyə hesab olunur.

3. İnsana ata, ana və ya başqaları tərəfindən hədiyyə verilən əşyalara xümS düşmür, baxmayaraq ki, onun bu əşyalara ehtiyacı yoxdur və ya ürf baxımından onun şəninə (mövqeyinə) uyğun deyildir. Bəli, əgər bu əşyaları hədiyyə vermək ata və ananın şəninə uyğun olmazsa, bu, onların məişət ehtiyaclarından hesab olunmur və bu əşyaların xümsünü verməlidirlər.

4. Ata öz qızına cehiz ünvanında bir mənzil bağışlayır. Əgər qızına belə bir hədiyyəni bağışlamaq ürfə görə atanın şəninə uyğun olarsa və bu hədiyyəni xümS ili ərzində bağışlayarsa, onun xümsünü vermək vacib deyildir.

5. Şəhid fondu tərəfindən şəhid ailələrinə verilən hədiyyələrə xümS düşmür. Amma əgər bu hədiyyələrdən əldə edilən qazanc ilin məişət ehtiyaclarından artıq qalarsa, bu məbləğin xümsünü vermək vacibdir. Həmçinin şəhid fondu tərəfindən şəhidlərin övladlarına verilən hədiyyələrə xümS düşmür. Amma əgər bu hədiyyələrdən əldə edilən qazancdan uşaqlar şəri həddi-büluğa çatanadək onların mülkiyyətində qalarsa, ehtiyata görə, onların hər biri şəri vəzifə yaşına çatdıqdan sonra bu qazancın xümsünü verməlidirlər.

6. XümS verməkdən yayınmaq niyyətilə formal olaraq verilən hədiyyəyə xümS düşür. Beləliklə, əgər xümS ili başa çatmamışdan qabaq ər və arvad illik qazanclarına xümS düşməsin deyə, onu formal olaraq bir-birilərinə hədiyyə versələr, bir-birilərinə hədiyyə verdikləri pulun-malın xümsünü verməlidirlər. (Bu iş nəticəsində vacib xümS onların üzərindən götürülmür.)

7. Satılan bəxşiş və hədiyyənin puluna, hətta onun qiyməti artsa belə, xümS düşmür. Amma əgər onu sərmayə olaraq (satmaq

məqsədilə) saxlasalar, bu halda ehtiyat-vacibə görə, satış zamanı artan qiymət ilin gəliri hesab olunur və inflyasiya miqdarını çıxdıqdan sonra bu məbləğ xüms ilinin sonunadək qaldığı təqdirdə, onun xümsü verilməlidir.

8. İşçilərə verilən bayramlığa (yəni bayram günlərində dövlət tərəfindən bayramlıq ünvanında verilən nağd pul və ya ərzağa), hətta onlardan xüms ilinin sonunadək qalsa belə, xüms düşmür.

9. Əgər ərzaq malları ucuz qiymətə işçilərə verilərsə və qiymət fərqi dövlət tərəfindən ödənilərsə, bu ərzaqdan xüms ilinin sonunda qalan miqdar dövlətin köməklik olaraq verdiyi miqdarda olduğu təqdirdə, ona xüms düşməyəcəkdir. Amma əgər dövlətin verdiyi köməklikdən çox olarsa, artıq miqdara günün məzənnəsi ilə xüms düşür.

4. Həvəsləndirici hədiyyə

Bankların və bu kimi müəssisələrin şəxslərə verdiyi həvəsləndirici hədiyyələrə xüms düşmür.

5. Vəqf

Vəqf olunan məkan və əşyalara – istər "ümumi vəqf" olsun, istərsə də "xüsusi vəqf" olsun[1] – xüms düşmür. Onun artımına[2] da xüms düşmür, amma əgər iktisabi şəkildə olarsa, xüms düşəcəkdir.

6. Xüms və zəkat

Dini elmlər hövzəsində təhsil alan tələbələrə mərcəyi-təqlidlərin xüms və zəkatdan verdikləri təqaüdə xüms düşmür.

7. Qazanc üçün çəkilən xərclər

Ticarət işlərində və ya digər işlərdə qazanc əldə etmək üçün ilin gəlirindən çəkilən xərclər, o cümlədən anbar xərcləri, malın yüklənməsi və daşınması xərcləri və s. həmin ilin gəlirindən çıxılır və ona xüms düşmür.

8. Xümsü verilmiş mal

Bir dəfə xümsü verilən mala yenidən xüms düşmür. Odur ki, əgər sonrakı ildə həmin mal istifadə olunmazsa və qalarsa, ikinci dəfə onun xümsü verilmir.

9. Sığorta

1. Sığortalanan şəxsə həyat sığortası və ya bədən üzvünün itirilməsinə görə sığorta ünvanında verilən pul "gəlir" hesab olunur. Odur ki, əgər bu pul illik xərclərdən artıq qalarsa, onun xümsü verilməlidir. Amma sığortalanan şəxsin ölümündən sonra onun ailəsinə verilən pul bir növ onlara yardım sayılır və iş gəliri hesab olunmur, odur ki, ona xüms düşmür.

2. Şəxsi gəlirdən müalicə və dərmanlar üçün çəkilən xərclər sonradan sığorta şirkəti tərəfindən qaytarıldıqda, bu pul "yeni gəlir" hesab edilmir, əksinə, şəxsi gəlirin geri qayıtmasıdır. Bu pul xüms ilinin sonunadək məişət ehtiyaclarına sərf edilmədiyi təqdirdə, ona xüms düşəcəkdir. Amma əgər bu pul xüms ili başa çatdıqdan sonra geri qaytarılarsa, onun xümsü dərhal verilməlidir.

3. Avtonəqliyyat vasitələrinin sığortası, yanğın sığortası, əkinçilik məhsullarının sığortası və s. bu kimi sığortalarda dəyən ziyanı qarşılamaqdan ötrü sığorta şirkətlərinin sığorta olunan şəxsə ödədikləri pul iş gəlirindən sayılır. Odur ki, əgər bu pul xüms ilinin sonunadək məişət xərclərinə sərf edilməzsə, onun xümsünü vermək vacibdir.

4. Müəssisə rəhbərliyi ilə sığorta şirkəti arasında, yaxud bir şəxs (müavinəti alan şəxsdən qeyri bir hüquqi və ya fiziki şəxs) ilə sığorta şirkəti arasında bağlanan müqavilə əsasında ödənilən işsizlik sığortası puluna və bu kimi müavinətlərə xüms düşmür, çünki bu pul onu alan şəxsə hədiyyə sayılır. Amma əgər müavinəti alan şəxs ilə sığorta şirkəti arasında bağlanan müqavilə əsasında, yaxud müəssisə rəhbərliyi ilə müavinəti alan şəxs arasında olan şərt əsasında müavinət ödənilərsə, bu pula xüms düşür.

5. Avtomobil qəzası hadisəsində xəsarət vuran şəxsin və ya xəsarət vuran şəxs tərəfindən sığorta şirkətinin xəsarət alan şəxsə ödədiyi pul iş gəliri sayılmır və ona xüms düşmür.

10. Təhsil xərclərinə göstərilən maddi köməklik

Təhsil nazirliyi tərəfindən təhsil xərclərinin qarşılanması üçün tələbələrə göstərilən maddi köməkliyə xüms düşmür. Amma təhsil aldığı illərdə elə oxuduğu təhsil müəssisəsində işə götürülən tələbələrin aldığı əmək haqqına xüms düşür.

11. Borc

Borc alınan pula xüms düşmür. Amma borcun xüms ilinin sonunadək il ərzindəki gəlirdən ödənilən, eyni zamanda borc alan şəxsin əlində qalan və ya sərmayə edilən hissəsi istisna təşkil edir və onun xümsü verilməlidir. Beləliklə, əgər bir şəxs müəyyən məbləğ borc alarsa və xüms ili başa çatmamışdan qabaq onu qaytara bilməzsə, bu pulun xümsünü verməsi vacib deyildir. Amma əgər öz illik qazancından bu borcun müəyyən hissəsini aybaay ödəyərsə və xüms ili çatdıqda borc götürdüyü pul olduğu kimi onun əlində

qalarsa, ödədiyi məbləğ miqdarında borc pulun xümsünü verməlidir.

Suallar:

1- Xüms mövzusunda "qazanc" dedikdə, nə nəzərdə tutulur?

2- İrsin xümsünün şəri hökmünü açıqlayın.

3- Hədiyyəyə və bayramlığa xüms düşürmü?

4- Ər və arvad mallarına xüms düşməsin deyə, xüms ili başa çatmamışdan qabaq öz illik qazanclarını bir-birilərinə hədiyyə verirlər. Bu işi gördükdə, onların qazanclarına xüms düşmür?

5- Bankların və bu kimi müəssisələrin şəxslərə verdiyi həvəsləndirici hədiyyələrə xüms düşürmü?

6- Sığorta şirkətlərinin dəyən ziyanın aradan qaldırılması üçün sığortalanmış şəxslərə müqavilə əsasında verdikləri pula xüms düşürmü?

---

[1] Əgər bir məkandan və ya əşyadan faydalanmaq haqqı müəyyən şəxslər üçün, məsələn, övladlar üçün təyin olunarsa, buna "xüsusi vəqf" deyilir. Amma əgər hamı üçün təyin olunarsa, buna "ümumi vəqf" deyilir.

[2] Artım iki cür ola bilər: 1- "Birləşik artım", məsələn, qoyunun kökəlməsi. 2- "Ayrı olan artım", məsələn, qoyundan doğulan quzular.

Altmış səkkizinci dərs: Məunə

Qeyd olunduğu kimi, qazancın xümsü hesablanarkən "məunə" qazancdan çıxılır və ona xüms düşmür.

Məunə nədir?

Xüms mövzusunda "məunə" dedikdə, (qazanc üçün çəkilən xərclər deyil) insanın özünün və himayəsində olan ailəsinin məişət ehtiyacları, məsələn, yemək-içmək, geyim, ev, ev əşyaları, minik vasitəsi, kitab, normal sayılan səfərlər, sədəqə, hədiyyə, nəzir, kəffarə, qonaqlıq və s. üçün çəkdiyi illik xərclər nəzərdə tutulur.

Məunənin şərtləri

Məunənin şərtləri aşağıdakılardır:

1- Ehtiyac;

2- İllik xərclər;

3- İllik xərclərin həmin ilin qazancından çıxılması;

4- Xərclərin insanın vəziyyətinə uyğun olması;

5- Xərclənmiş məbləğin məunə hesab olunması.

1- Ehtiyac

Hər növ xərc "məunə" hesab olunmur. Məunə – dünya və axirət işlərini həll etməkdən ötrü ehtiyac duyulan xərclərə şamil olur. Odur ki, ehtiyac duyulmayan əşya və məhsullara çəkilən xərclər məunə hesab olunmur. O cümlədən haram sayılan malların, məsələn, qızıl kişi üzüyü, haram musiqi alətləri və qumar vasitələrinin alınması üçün çəkilən xərclər məunə hesab olunmur.

2- İllik xərclər

"Məunə" dedikdə, insanın gündəlik və ya aylıq xərcləri deyil, illik xərcləri nəzərdə tutulur. Odur ki, qazancdan illik məişət ehtiyaclarına çəkilən xərclərdən artıq qalan məbləğin xümsü hesablanır.

3- İllik xərclərin həmin ilin qazancından çıxılması

Məunə – il ərzində həmin ilin qazancından çıxılaraq məişət ehtiyaclarına sərf edilən xərclərdir. Başqa sözlə, cari ilin xərcləri əvvəlki və ya sonrakı illərin qazancından çıxılmamalıdır. Deməli, əgər insan hansısa bir ildə qazanc əldə edə bilməyibdirsə, həmin ilin məunəsini əvvəlki və ya sonrakı illərin qazancından çıxa bilməz.

4- Xərclərin insanın vəziyyətinə uyğun olması

Məunə – insanın öz vəziyyətinə görə normal sayılan xərclərdir. Beləliklə, bu xərclər bir tərəfdən yalnız zəruri vasitələrə və ilkin ehtiyaclara şamil olmur. Digər tərəfdən də bədxərcliyə, israfçılığa, insanın öz vəziyyətindən artıq olan xərclərə (məsələn, şan-şöhrət məqsədi daşıyan qonaqlıqlar, cehizlik, toy və yas məclislərinə) şamil olmur.

5- Xərclənmiş məbləğin məunə hesab olunması

"Məunə" dedikdə, insanın özü və himayəsində olan ailəsi üçün çəkdiyi xərclər – bu xərclər istər az olsun, istərsə də çox olsun – nəzərdə tutulur. Çəkilməyən xərclər isə məunə hesab olunmur, baxmayaraq ki, əgər insan bu xərcləri çəksəydi, onun ürfi və ictimai vəziyyətindən artıq olan xərclər hesab olunmayacaqdı. Beləliklə, simiclik edən və özünün və ailəsinin vəziyyətinə uyğun olan xərcləri çəkməyən bir şəxs xərcləyə biləcəyi, amma xərcləmədiyi məbləği məunə hesab edə bilməz.

Diqqət:

• Kişinin öz həyat yoldaşına aldığı qızıl zinət əşyaları əgər normal miqdarda olarsa və kişinin şəninə uyğun olarsa, məunədən hesab olunur və onlara xüms düşmür.

• Əgər bir şəxs il ərzindəki gəliri ilə övladlarının gələcəyi üçün, məsələn, bir ev alarsa, evin alınmasına çəkilən xərc onun ürfi şəninə uyğun olduğu təqdirdə, ona xüms düşməyəcəkdir.

• Əgər bir şəxs baha qiymətə bir mülk alsa və onun təmiri üçün də böyük məbləğdə pul xərcləsə, daha sonra bu mülkü öz həddi-büluğa çatmayan övladına bağışlayıb rəsmi şəkildə onun adına keçirsə, mülkün alınması və təmiri üçün çəkdiyi xərc ilin

qazancından olduğu və onu həmin ildə övladına bağışladığı, habelə bu bəxşiş onun ürfi şəninə uyğun olduğu təqdirdə, ona xüms düşməyəcəkdir. Əks təqdirdə, onun xümsünü verməlidir.

• İnsanın xeyriyyəçiliyə, məsələn, məktəb tikintisinə, seldən zərər çəkənlərə və s. xərclədiyi pul, bu pulu bağışladığı ilin xərclərindən hesab olunur və ona xüms düşmür.

Ehtiyacdan xaric olan məunə

"Ehtiyacdan xaric olan məunə" dedikdə, bu misalı göstərmək olar ki, bir şəxs yaşamaq üçün bir ev tikir və ya alır, amma sonra dövlət balansında olan bir evə köçür və daha bu evə ehtiyacı olmur. Bu halda:

1- Əgər bu şəxs bu evi il ərzində gəlir ilə, yaxud xüms düşməyən və ya xümsü verilmiş pul ilə alıbdırsa, ona xüms düşməyəcəkdir.

2- Əgər bu şəxs bu evi xüms düşən, amma xümsü verilməyən gəlir ilə alıbdırsa, bu evin alınmasına xərclədiyi pulun xümsünü inflyasiya miqdarını da hesablayaraq verməlidir.

Məunənin satışından əldə edilən pul

"Ehtiyacdan xaric olan məunə" barəsində qeyd edilənlər "məunənin satışı"na da aiddir. Beləliklə, ev, avtomobil və s. bu kimi insanın özünün və ailəsinin ehtiyacı olan vasitələr əgər il ərzindəki qazanc, yaxud xümsü verilmiş pul və ya xüms düşməyən pul (irs qalan, hədiyyə verilən pul) ilə alınarsa, amma sonralar zərurət yarandığına görə, ya daha yaxşı bir mala çevirmək məqsədilə, ya da bu kimi başqa məqsədlərlə satılarsa, onun satış puluna, həmçinin qiymət artımı nəticəsində əldə edilən gəlirə xüms düşməyəcəkdir. Bəli, əgər sözügedən vasitələr xüms düşən, amma xümsü verilməyən gəlir ilə alınıbdırsa, onun alınmasına xərclənən pulun xümsü inflyasiya miqdarı da hesablanaraq – hətta onlar satılmasa belə – verilməlidir.

Diqqət:

Öz minik vasitəsini satan şəxs:

1- Əgər bu minik vasitəsi məunə olubdursa (yəni şəxsi istifadə və məişət ehtiyaclarını təmin etmək üçün olubdursa, habelə bu şəxsin ürfi şəninə uyğun olubdursa), onun satış pulu "məunənin satışından əldə edilən pul" hökmündədir.

2- Əgər bu minik vasitəsi iş vasitəsi olubdursa, xüms ilinin sonunda onun qiymətinə xüms düşür. Qiymət artımına gəlincə, inflyasiya miqdarı çıxıldıqdan sonra bu məbləğ satış ilinin gəliri hesab olunur.

Suallar:

1- Məunə nədir?

2- Məunənin şərtləri hansılardır?

3- Kişinin öz həyat yoldaşı üçün aldığı qızıl zinət əşyalarına xüms düşürmü?

4- Ehtiyacdan xaric olan məunənin şəri hökmü nədir?

5- Əgər bir şəxs evini satsa və bu pulu banka depozit qoyub gəlirindən istifadə etmək istəsə, xüms ili çatdıqda bu pulun şəri hökmü nədir? Əgər bu pulu ev almaq üçün saxlasa, bu halda onun şəri hökmü nədir?

6- Əgər məişət ehtiyacı sayılan vasitələr, məsələn, avtomobil, xalça və s. xümsü verilməyən pul ilə alınıbdırsa, bu vasitələr satıldığı halda onun satışından əldə edilən pulun xümsü dərhal verilməlidirmi?

Altmış doqquzuncu dərs: Məunəyə daxil olmayan xərclər

Məunəyə daxil olmayan xərclər

1. Sərmayə

1. İş gəliri (istər əmək haqqı olsun, istər ticarət gəliri olsun və s.) sərmayə edildikdə, bu sərmayəyə xüms düşür. Beləliklə, bir şəxs öz iş gəlirini başqa bir şəxsə müzaribə sərmayəsi verdikdə, bu sərmayənin xümsünü verməlidir. Həmçinin sərmayə ilə ticarətdən əldə edilən gəlir məişət ehtiyaclarına sərf edildiyi təqdirdə ona xüms düşməyəcək, amma illik xərclərdən artıq qalan məbləğinə xüms düşəcəkdir.

Diqqət:

• Bir şəxs bir neçə mərtəbəli ev tikdirir və ya alır ki, onun bəzi mərtəbələrini icarəyə versin və aldığı icarə pulunu öz məişət xərclərinə sərf etsin. Bu halda o, icarəyə vermək istədiyi mənzillərin nisbətində evin xümsünü verməlidir. (Çünki bu mənzillər sərmayə sayılır.)

• Şərikli sərmayə:

1- Hər bir şərik öz payının xümsünü verməlidir. Məsələn, şərikli şəkildə özəl tədris mərkəzi inşa etdirən şəxslər sərmayə ünvanında bu işə qoyduqları pulun xümsünü özləri verməlidirlər. Həmçinin xüms ilinin sonunda şərikli sərmayə ilə əldə edilən qazancdan onlara düşən payın xümsünü – əlbəttə, bu gəlir məunədən artıq qaldığı təqdirdə – verməlidirlər.

2- Hər bir şərikin öz payı nisbətində şərikli sərmayənin və bu sərmayə ilə əldə edilən qazancın xümsünü vermək onun öz şəri vəzifəsidir.

3- Hər bir şərik sərmayədən öz payının xümsünü verdikdən sonra daha ümumi şərikli sərmayəyə ikinci dəfə xüms düşmür.

• Qərzul-həsənə büdcəsi:

1- Əgər qərzul-həsənə büdcəsinin səhmdarları büdcə təşkil edildiyi zaman ödədikləri puldan əlavə, büdcənin balansının artması üçün hər ay müəyyən məbləğ pul ödəməlidirlərsə, onların hər biri bu pulu özlərinin xüms ili başa çatdıqdan sonra iş gəlirlərindən və ya maaşlarından ödədikləri təqdirdə, bu pulun xümsünü verməlidirlər. Amma əgər bu pulu xüms ili ərzində veriblərsə, xüms ilinin sonunda bu pulu geri almaq mümkün olduğu təqdirdə, xüms ilinin sonunda bu pulun xümsünü verməlidirlər. Bundan qeyri halda, nə vaxt bu pulu geri alsalar, o vaxt onun xümsünü verməlidirlər.

2- Əgər qərzul-həsənə büdcəsinin sərmayəsi şərikli şəkildə bir neçə şəxsin şəxsi əmlakı olarsa, bu sərmayədən əldə edilən gəlir hər bir şərikin payı nisbətində onun şəxsi əmlakı olacaqdır. Bu gəlir onun məunəsindən artıq qaldığı təqdirdə, bu gəlirin xümsünü verməlidir. Amma əgər qərzul-həsənə büdcəsinin sərmayəsi bir və ya bir neçə şəxsin şəxsi əmlakı olmazsa, məsələn, ümumi vəqf malı və ya bu kimi bir mal olarsa, bu sərmayədən əldə edilən gəlirə xüms düşməyəcəkdir.

2.İş məkanı və iş alətləri, o cümlədən ticarət obyekti, əkin sahəsi, yükdaşıma və ya sərnişindaşıma üçün nəqliyyat vasitəsi "iş sərmayəsi" hesab olunur və cari xüms ilinin sonunda onun qiymətinə xüms düşür. Onun xümsünü verməyə maddi imkanı olmayan şəxs xüms işləri məsulunun və ya onun vəkilinin dəstgərdanı ilə xümsü tədricən verə bilər.

3. İş məkanının "sərqufli"si sərmayə hesab olunur. Əgər bu sərmayə il ərzindəki gəlirdən olarsa, ona xüms düşür. Cari xüms ilinin sonunda onun qiymətinin xümsü verilməlidir.

2. Sərmayənin artımı

1. Əgər qiymət artımı inflyasiyadan qaynaqlanarsa, yəni pul dəyərdən düşərsə və bütün mallar daha çox pul ilə alınıb-satılarsa, bu qiymət artımı "malın dəyərinin artması" hesab olunmur və artan qiymətə xüms düşmür.

2. Əgər xümsü verilmiş bir ticarət malının qiyməti artsa və onu satmaq imkanı da mövcud olsa, xüms ilinin sonunda artan qiymətin xümsü – inflyasiya miqdarı çıxıldıqdan sonra – verilməlidir. Amma əgər xüms ilinin sonunadək bu malın müştərisi olmazsa və satılmazsa, hal-hazırda onun artan qiymətinin xümsünü vermək vacib deyildir. Qiymət artımı malın satışının mümkün olduğu ilin gəliri hesab olunur.

3. Əgər bir mal xümsü verilmiş pul ilə satış məqsədilə alınarsa və sonra da satılarsa, malın alış qiyməti ilə satış qiyməti arasındakı fərqdən inflyasiya miqdarı çıxıldıqdan sonra qalan məbləğ iş qazancı hesab olunur. Bu qazancın ilin məunəsindən artıq qalan hissəsinə xüms düşür.

4. Əgər bir şəxs il ərzindəki gəliri ilə satmaq məqsədi olmadan, məsələn, bir mülk və ya qızıl sikkə alsa, xüms ilinin sonunda onun dəyəri əsasında xümsünü verməlidir. Amma mal satılmayanadək onun qiymət artımının xümsü yoxdur. Satıldıqdan sonra isə

qiymət artımı – inflyasiya miqdarı çıxıldıqdan sonra – satış ilinin gəliri sayılır.

3. Ehtiyat pul

1. İş gəlirindən ehtiyatda yığılan pula xüms ilinin sonunda xüms düşür. Əlbəttə, əgər bir şəxsin xüms ili başa çatsa, amma onun məişət ehtiyacı olan müəyyən bir əşyanı almağa ehtiyacı olsa, bu halda əgər xümsün verilməsi elə bir müddətədək yubadılsa ki, ehtiyatda yığılan pulu həmin əşyanı almağa sərf etmək, ürfə görə, onu ilin məunəsinə sərf etmək sayılsa, bu pulun xümsünü verməmişdən qabaq həmin əşyanı almağa, sonra isə qalan pulun xümsünü verməyə icazə verilir.

2. İş gəlirindən ehtiyatda yığılan pula bir dəfə xüms düşür. Amma pulu banka qərzul-həsənə ünvanında depozit qoymaq ona xüms düşməməsinə səbəb olmur.

4. Borc verilən pul

1. Əgər bir şəxs malın nisyə satışından əldə edəcəyi gəliri xüms ilinin sonunda ala bilərsə, xüms ilinin sonunda bu gəlirin xümsünü verməlidir. Əks halda, bu gəlir onu aldığı ilin gəlirindən hesab olunacaqdır.

2. Əgər bir şəxs il ərzindəki gəliri ilə mal alıb, sonra onu nisyə şəklində satıbdırsa, malın pulunu aldığı vaxt nisyə satışın gəlirinin xümsünü dərhal verməlidir.

3. Əgər gecikdirilən maaşı və əlavə iş saatlarının zəhmət haqqını xüms ilinin sonunda almaq mümkün olmazsa, bu pul hansı ildə alınsa, həmin ilin gəlirindən hesab olunacaqdır. Əgər bu pul həmin il məunəyə sərf edilərsə, ona xüms düşməyəcəkdir. Amma əgər xüms ilinin sonunda onu almaq mümkün olarsa, onun xümsünü vermək vacibdir, baxmayaraq ki, şəxs onu hələ almayıbdır.

4. Əgər pensiya pulu və ya istifadə edilməyən məzuniyyət üçün verilən pul xüms ilinin sonunadək xərclənməzsə, onun xümsü verilməlidir.

5. Əgər bir şəxs il ərzindəki gəlirindən müəyyən məbləğ pulu başqa bir şəxsə borc versə, xüms ilinin sonunadək borcunu ala biləcəyi təqdirdə, xüms ilinin sonunda bu pulun xümsünü verməlidir. Amma əgər xüms ilinin sonunadək borcunu ala bilməzsə, onu aldığı vaxt dərhal xümsünü verməlidir.

5. Qızıl sikkə

Əgər qızıl sikkə iş qazancı hesab olunarsa, xümsün vacibliyi baxımından başqa qazanclar hökmündədir.

6. Kəfən

Kəfən alıb onu bir neçə il evində saxlayan şəxs kəfənin alış qiymətinin xümsünü cari xüms ilinin sonunda verməlidir. Pulun dəyərdən düşməsi nəticəsində yaranan qiymət artımı barəsində isə şəri-hakimlə müsalihə etməlidir.

Suallar:

1- Əgər bir şəxsin şəriklərinin xüms ili yoxdursa və xüms vermirlərsə, bu şəxsin şəri vəzifəsi nədir?

2- Qərzul-həsənə büdcəsinin sərmayəsinə xüms düşürmü? Bu sərmayədən əldə edilən gəlirə xüms düşürmü?

3- İş vasitələrinə və alətlərinə xüms düşürmü?

4- Ev almaq və ya ehtiyac duyulan digər məişət əşyalarını almaq üçün aybaay yığılan pula xüms düşürmü?

5- Əgər işçi cari ildə alacağı aylıq əmək haqqını sonrakı xüms ilində alarsa, onun xümsünü verməlidirmi?

6- Əgər bir şəxs xüms ili başa çatmamışdan qabaq öz qazancından müəyyən məbləği borc versə və yeni xüms ilindən bir neçə ay keçdikdən sonra borcunu geri alsa, bu məbləğin hökmü nədir?

Yetmişinci dərs: Məunəyə daxil olan xərclər

Məunəyə daxil olan xərclər

1. İstifadəsi zamanı aradan gedən və aradan getməyən mallar

Gündəlik məişət ehtiyacı olaraq istifadə edilən qənd, şəkər tozu, düyü, yağ və s. bu kimi "istifadəsi zamanı aradan gedən mallar" əgər il ərzində istifadə etmək məqsədilə illik qazancdan alınarsa və istifadə olunarsa, məunə hesab olunurvə onlara xüms düşmür. Amma bu malların xüms ilinin sonunadək istifadə olunmayan miqdarı məunə hesab olunmur. Əgər satılıb-alınmağa qabil olarsa, onların xümsü verilməlidir. "İstifadəsi zamanı aradan getməyən mallar", məsələn, yaşayış evi, ev əşyaları, şəxsi avtomobil, qadının qızıl zinət əşyaları və s. bu kimi əşyalar əgər məişət ehtiyacı ünvanında illik qazancdan alınarsa və istifadə olunarsa, məunə hesab olunur və onlara xüms düşmür.

Diqqət:

• "İstifadəsi zamanı aradan getməyən mallar"a xüms düşməməsinin meyarı, insanın öz ürfi şəninə uyğun bir şəkildə bu mallara ehtiyacının olmasıdır, hətta ola bilər ki, il ərzində onlardan istifadə etməmişdir. Beləliklə, əgər xalça və ya qab-qacaq təsadüfən il ərzində istifadə olunmazsa, lakin qonaq qarşılamaq üçün onlara ehtiyac vardırsa, onlara xüms düşmür. Amma "istifadəsi zamanı aradan gedən mallar"a xüms düşməməsinin meyarı, onlardan istifadə etməkdir. Beləliklə, xüms ilinin sonunadək bu malların istifadə olunmayan və qalan miqdarına xüms düşür.

• Əgər bir neçə cilddən ibarət kitabın (məsələn, "Vəsailuş-şiə" kitabının) bütün cildlərinə ehtiyac varsa və ya ehtiyac olan cild təklikdə satılmadığı üçün bütün cildləri almaq lazımdırsa, bu halda onlara xüms düşmür. Əks təqdirdə, hal-hazırda ehtiyac duyulmayan cildlərin xümsü verilməlidir. Kitabın hər cildindən bir neçə səhifəni oxumaq onlara xümsün düşməməsi üçün kifayət etmir.

• Ehtiyac sayılan yaşayış evi "məunə" hesab olunur. Beləliklə, əgər üçmərtəbəli yaşayış evinin bir mərtəbəsində ev sahibinin özü və digər iki mərtəbəsində onun övladları yaşayırsa, bu evə xüms düşmür.

• Şəxsi istifadə və məişət ehtiyaclarını təmin etmək ücün illik qazancdan alınan avtomobil insanın ürfi şəninə uyğun olan ehtiyaclardan olduğu təqdirdə, "məunə" hesab olunur və ona xüms düşmür. Amma əgər iş fəaliyyətilə məşğul olmaq və qazanc əldə etmək üçün alınarsa (məsələn, taksi, yük maşını, avtobus və s.), bu, "iş vasitəsi və aləti" hökmündədir və ona xüms düşür.

• İllik qazancdan alınan və xüms ilinin sonunadək xarab olmadan qalan dərmanlar əgər ehtiyac duyulan zaman istifadə etmək üçün alınarsa və həqiqətən də ehtiyac zamanı istifadə olunarsa, "məunə" hesab olunur və onlara xüms düşmür.

2. Qazancdan tədricən alınan yaşayış tələbatları

Əgər bir şəxsin müəyyən məişət ehtiyaclarını, o cümlədən yaşayış evi, ev əşyaları, cehizlik və bu kimi əşyaları ehtiyac yarandığı zaman birdəfəyə almağa imkanı yoxdursa və buna görə də o, bu əşyaları bir neçə ilin qazancından tədricən alıb, ehtiyac yaranan zamana saxlamalıdırsa, onun hər il öz ürfi şəninə uyğun aldığı miqdar "məunə"dir və ona xüms düşmür.

Müxtəlif məsələlər:

1. Əgər bir məntəqənin adət-ənənəsinə görə oğlan evi (bəy evi) ev əşyalarını almalıdırsa və onlar bu əşyaları illər ərzində tədricən alıb yığırlarsa, gələcək ailə həyatı üçün ev əşyalarını almaq ürfə görə məunə hesab olunduğu təqdirdə, bu əşyalara xüms düşmür.

2. Bir şəxsin yaşayış evi yoxdur, amma torpaq sahəsi vardır və bu torpaq sahəsinin alındığı xüms ili başa çatıbdır. Əgər o, bu torpaq sahəsini ehtiyacı olan evi tikmək məqsədilə il ərzindəki qazanc ilə alıbdırsa, ona xüms düşmür. Hətta əgər o, bu torpaq sahəsini satıb, onun puluna başqa bir ev alarsa, yenə də bu pula xüms düşmür. Amma əgər bu torpaq sahəsini illik qazanc ilə alsa da, aldığı vaxt məqsədi onu satmaq və pulu ilə ev tikmək və ya bu pulu ev tikmək məqsədilə saxlamaq olubdursa, ehtiyata görə, bu torpaq sahəsinin xümsünü verməlidir.

3. Yaşayış evini tikmək üçün ehtiyac olan torpaq sahəsinə xümsün düşməməsində torpaq sahəsinin bir və ya bir neçə sahə olması, yaxud bir və ya bir neçə ev olması arasında fərq yoxdur. Bu məsələdə meyar, şəxsin ürfi şəninə uyğun olaraq bu evə "ehtiyac"ının olması, həmçinin maddi imkanına görə bu evi tədricən tikməsidir.

4. Şəxsi yaşayış evi olmayan bir şəxs illik qazancından torpaq sahəsi alıb, orada ev tikməyi nəzərdə tutubdur. Əgər o, evi tikməyə başlasa, lakin evin tikintisi tamamlanmamışdan qabaq xüms ili başa çatsa, tikinti materiallarına xərclədiyi məbləğə xüms düşmür.

5. Əgər bir şəxs ehtiyacı olan, həmçinin onun şəninə uyğun olan evi alsa, bu ev onun məunəsi sayılır və ona xüms düşmür, baxmayaraq ki, hələ bu evə köçə bilməmişdir və ya bir neçə müddətdən sonra orada yaşamaq fikrindən daşınmışdır.

3. Qaytarılmamış borc

1. Əgər bir şəxsin illik qazancından artıq qalsa, hətta az olsa belə, bu məbləğin xümsünü verməlidir, baxmayaraq ki, onun məunə üçün aldığı borc və ya kreditləri vardır. Amma əgər o, borcunu həmin ilin gəlirindən xüms ilinin sonunadək və ya il tamamlanandan bir qədər sonra qaytararsa, ürfə görə həmin ilin gəlirini elə həmin ilin xərclərinə sərf etmək sayıldığı təqdirdə, bu məbləğə xüms düşməyəcəkdir.

2. Əgər bir şəxs yeni xüms ilində qazanc əldə etməmişdən qabaq məişət ehtiyacları üçün borc alsa və ya xüms düşməyən pulu (məsələn, irs qalan pulu) xərcləsə, ehtiyat-vacibə görə, bu məbləği yeni xüms ilində əldə etdiyi qazancdan çıxa bilməz və onun xümsünü verməlidir.

3. Əgər bir şəxs yeni xüms ilində qazanc əldə etdikdən sonra xüms düşməyən pulu məişət ehtiyaclarına sərf etsə, bu məbləği yeni xüms ilində əldə etdiyi qazancdan çıxa bilər.

4. İllik qazancı borca sərf etməyə, hətta borc qeyri-məunə üçün olsa belə, icazə verilir. Amma əgər borc xüms ilinin sonunadək qaytarılmazsa, bu məbləğ borc alınan ilin qazancından çıxılmır və qazancdan artıq qalan məbləğin xümsü verilməlidir. Lakin məunə üçün olan və mövcud qazancdan sonra alınan borc isə – istər borc almaq şəklində olsun, istər alış zamanı ödənişi öhdəyə götürərək yaranan borc şəklində olsun və s. – istisna təşkil edir.

4. İcarədə verilən girov pul

1. Əgər icarəçinin icarə verən şəxsə girov ünvanında verdiyi pul icarəçinin illik iş qazancından olarsa, icarəçinin xüms ili başa çatdıqda bu pula xüms düşür. O, nə zaman bu pulu geri ala bilsə, xümsünü verməlidir. Amma əgər icarəçinin ev icarəyə götürmək üçün bu pula ehtiyacı olarsa, ehtiyacı aradan qalxanadək xümsün ödənişini yubada bilər.

2. Həcc və ya ümrə ziyarətinə getmək üçün növbəyə dayanan şəxslər banka müəyyən məbləğdə pul depozit qoyurlar ki, növbələri çatdığı zaman bu pulu və onun faizini götürüb həccə və ya ümrəyə getsinlər. Əgər onlar depozit qoyduqları ildə həccə və ya ümrəyə getsələr, bu pula xüms düşmür. Yox əgər onların növbəsi özlərinin xüms ili başa çatdıqdan sonra çatsa, depozit qoyulan məbləğ il ərzindəki gəlirdən olduğu təqdirdə, ona xüms düşür. Amma pulun üzərinə gələn faizə gəlincə, əgər ziyarətə getməmişdən qabaq onu almaq mümkün deyildirsə, bu məbləğ hansı ildə alınarsa, həmin ilin qazancı hesab olunacaqdır. Əgər həmin ildə xərclənərsə, ona xüms düşmür.

Suallar:

1- Məunəyə xüms düşməməsinin meyarı il ərzində ondan "istifadə olunması"dır, yoxsa il ərzində ona "ehtiyac"ın olması kifayət edir, baxmayaraq ki, il ərzində ondan istifadə olunmamışdır?

2- Əgər illik qazancdan alınan dərmanlar xüms ilinin sonunadək xarab olmadan qalarsa, onlara xüms düşürmü?

3- Yaşayış üçün şəxsi evi olmayan bir şəxs özünə ev tikdirmək üçün torpaq sahəsi alır, lakin ev tikdirmək üçün kifayət qədər pulu olmadığına görə onun xüms ili başa çatır. O, bu torpaq sahəsini də satmamışdır. Bu torpaq sahəsinə xüms düşürmü?

4- Əgər işçinin qazancından onun illik xərclərindən artıq qalsa, nağd və ya kredit borcları olduğu təqdirdə, artıq qalan qazanca xüms düşürmü?

5- Əgər icarəçinin icarə girovu ünvanında verdiyi pul onun illik qazancından olsa və bu pul icarə verən şəxsdə bir neçə il qalsa, bu pulu geri aldıqdan sonra onun xümsü dərhal verilməlidirmi? Əgər şəxs bu pul ilə başqa bir evi icarəyə götürmək istəsə, nə etməlidir?

6- Həcc ziyarətinə ad yazdırmaq və növbə tutmaq üçün ödənilən və ödəniş tarixindən bir neçə il keçən pula xüms düşürmü?

Yetmiş birinci dərs: Qazancın xümsünün hesablanması və ödənilməsi

Qazancın xümsünün hesablanması və ödənilməsi

1. Qazanca nə zaman xüms düşür?

1. Qazanc əldə edildiyi zaman artıq ona xüms düşür, amma xümsün ödənilməsinə bir il möhlət verilir. Odur ki, mal sahibi il tamamlanmamışdan qabaq da öz xümsünü verə bilər.

2. Xüms ilini tezləşdirməyə icazə verilir, belə ki, nəzərdə tutulan tarixədək qazancın xümsü hesablanır və ödənilir. Bundan sonra isə xüms ili həmin tarixdən etibarən başlanır. Amma xüms ilini gecikdirməyə icazə verilmir.

Diqqət:

• Əgər bir şəxs il ərzindəki qazancı ilə satmaq niyyəti olmadan bir mülk və ya qızıl sikkə alsa, ilin sonunda onun qiyməti əsasında xümsünü verməlidir. Bu mülk və ya qızıl sikkə satılmayanadək onun qiymət artımına xüms düşmür. Amma satıldığı zaman qiymət artımından inflyasiya miqdarı çıxıldıqdan sonra qalan məbləğ satış ilinin qazancı hesab olunur. Lakin əgər bu şəxs həmin mülkü və ya qızıl sikkəni satmaq niyyətilə alıbdırsa, cari xüms ilinin sonunda onun qiymətinə xüms düşür. Əgər sonrakı illərdə onların qiyməti artarsa və onları satmaq da mümkün olarsa, artan qiymətdən inflyasiya miqdarını çıxdıqdan sonra qalan məbləğin xümsü verilməlidir, baxmayaraq ki, onları satmayıbdır.

2. Qazanc üçün çəkilən xərclərin çıxılması

İş görmək və qazanc əldə etmək üçün illik gəlirdən çəkilən xərclər, o cümlədən yükün daşınması xərcləri, mala dəyən ziyan, dükanın kirayə pulu, fəhlənin və dəllalın zəhmət haqqısı, vergilər və s. həmin ilin qazancından çıxılır və ona xüms düşmür.

3. Məunəyə "qazancın xümsü"nün düşməməsi

Məunəyə qazancın xümsü düşmür, yəni il ərzində əldə edilən qazancdan məişət ehtiyacları üçün çəkilən xərclərə xüms düşmür. Yalnız ilin sonunda qazancdan artıq qalan məbləğə xüms düşür və onun hesabı aparılmalıdır.

4. İlin məunəsinin həmin ilin qazancından çıxılması

Hər ilin məunəsi həmin ilin qazancından çıxılır, əvvəlki və sonrakı illərin qazancından çıxılmır. Odur ki, əgər bir şəxs hansısa bir ildə qazanc əldə edə bilməsə, həmin ilin məunəsini əvvəlki və ya sonrakı illərin qazancından çıxa bilməz.

5. Xümsü verilən pul ilə xümsü verilməyən pulun bir-birinə qarışması və onun məunəyə sərf edilməsi

Əgər xümsü verilən pul ilə xümsü verilməyən pul bir-birinə qarışsa, məsələn, hər iki pul eyni bir bank hesabına qoyulsa və şəxs hansı puldan istifadə etdiyini nəzərdə tutmadan bu bank hesabından pul götürsə və ya xümsü verilən puldan istifadə etdiyini nəzərdə tutaraq bu hesabdan pul götürsə və məunəyə sərf etsə, bank hesabında xümsü verilən pul məbləğində və ya daha az pul qaldığı təqdirdə, bu məbləğə xüms düşməyəcəkdir.

6. İllik qazancın hesablanması

Az olsa belə, öz qazancı olan şəxslərin – istər subay olsunlar, istərsə də ailəli olsunlar – xüms ili olmalıdır və onlar öz illik qazanclarını hesablamalıdırlar. Beləliklə, əgər ilin sonunda qazancdan artıq qalarsa, bu məbləğin xümsünü verməlidirlər. Qeyd edək ki, xüms ilinin sonunda illik qazancın hesablanması "müstəqil vacib əməl" deyildir. Bu, xümsün hesablanması üçün bir yoldur. Belə ki, əgər bir şəxs onun əmlakına xüms düşdüyünü bilsə, amma onun miqdarını bilməsə, bu halda illik qazancın hesabatını aparmalıdır. Amma əgər qazancdan heç nə qalmasa və hamısı məunəyə sərf edilsə, bu şəxsə xüms vacib olmur və buna görə də illik qazancın hesabatını aparmaq da vacib olmur.

Diqqət:

• Öz aylıq əmək haqqını müştərək şəkildə məişət xərclərinə sərf edən ər və arvadın ayrı-ayrılıqda öz qazancı etibarilə xüms ili olmalıdır. Onların hər biri xüms ilinin sonunda öz əmək haqqından və illik qazancından artıq qalan məbləğin xümsünü verməlidirlər. Həmçinin əgər evdar bir qadının ərinin xüms ili vardırsa və həmin tarixdə o öz qazancının xümsünü verirsə, eyni zamanda bu qadının da bəzən müəyyən qazancı olursa, bu qadın ilk qazancı əldə etdiyi tarixi öz xüms ilinin başlanğıcı etməlidir. İl ərzində öz qazancından şəxsi xərclərə, məsələn, ziyarətə getmək, hədiyyə vermək və s. bu kimi işlərə sərf etdiyi pula xüms düşmür. Amma xüms ilinin sonunda illik qazancının məunədən artıq qalan məbləğinin xümsünü verməlidir. Qeyd edək ki, ər və arvad bir-

birinin icazəsi ilə biri digərinin xümsünü hesablayıb verə bilər.

• Mükəlləf xümsün şəri hökmlərini bildiyi təqdirdə, öz əmlakının xümsünü özü hesablaya və xümsü ayırıb xüms işləri məsuluna və ya onun vəkilinə verə bilər.

7. Xüms ilinin başlanğıcının təyin olunması

Xüms ilinin başlanğıcı mükəlləf tərəfindən təyin olunmur, əksinə, bu, illik qazancın əldə edilməsi ilə təyin olunur. Beləliklə, fəhlə və işçinin xüms ilinin başlanğıcı ilk qazanclarını əldə etdikləri və ya əldə etmək imkanı olduğu gündür. Tacirlərin və dükan sahiblərinin xüms ilinin başlanğıcı alış-verişə başladıqları gün, əkinçilərin xüms ilinin başlanğıcı isə ilk məhsulu yığdıqları gündür.

Diqqət:

• Yuxarıda qeyd olunduğu kimi, fəhlə, işçi və s. bu kimi əmək haqqı alan şəxslərin xüms ilinin başlanğıcı işə başladıqları gün deyil, ilk əmək və ya zəhmət haqqı aldıqları və ya ala biləcəkləri gündür.

8. Xüms ilini şəmsi və ya qəməri ili ilə hesablamaq seçimi

Mükəlləf xüms ilini şəmsi və ya qəməri ili ilə hesablamaqda seçim edə bilər.

Suallar:

1- Xüms ilini (xüms tarixini) geriyə və ya qabağa çəkmək olarmı?

2- Bir şəxsin mülkü vardır və ona xüms düşür. O bu mülkün xümsünü illik qazancından verə bilərmi? Bu halda o, illik qazancın da xümsünü verməlidirmi?

3- Xüms ilinin sonunda bir şəxsin qazancından min manat pulu artıq qalır və o, bu pulun xümsünü verir. Gələn il isə onun min beş yüz manat pulu artıq qalır. İndi bu şəxs beş yüz manatın xümsünü verməlidir, yoxsa min beş yüz manatın xümsünü?

4- Ata və anası ilə birgə yaşayan subay şəxslərə xüms vermək vacibdirmi?

5- Mükəlləf öz əmlakının xümsünü özü hesablaya və xümsü ayırıb xüms işləri məsuluna və ya onun vəkilinə verə bilərmi?

6- Xüms vermək üçün xüms ilinin başlanğıcı necə təyin olunur?

Yetmiş ikinci dərs: Sərmayənin xümsü

Sərmayənin xümsünün hesablanması və verilməsi

Sərmayənin xümsünü ilk dəfə hesablamaq üçün mövcud olan bütün malları və nağd pulu xüms ilinin sonunda hesablayıb qiyməti çıxarmaq və bu məbləğin xümsünü vermək lazımdır. Növbəti ildə isə mövcud olan sərmayəni əvvəlki ildə xümsü verilən əsas sərmayə ilə müqayisə etmək lazımdır. Əgər inflyasiya miqdarından əlavə, əsas sərmayədə artım olarsa, artan məbləğ qazanc hesab olunur və ona xüms düşür. Amma əgər əsas sərmayədə artım olmazsa, deməli, qazanc olmamışdır və xüms vermək vacib olmur. Məsələn, bir şəxsin sərmayəsi doxsan səkkiz baş qoyun və müəyyən məbləğ nağd pul idi və o, bu malın xümsünü vermişdir. Əgər xüms ilinin sonunda mövcud qoyunların qiyməti ilə nağd pul birlikdə əvvəlki ildə xümsünü verdiyi doxsan səkkiz baş qoyunun qiyməti və nağd puldan çox olarsa, artan məbləğdən inflyasiya miqdarı çıxıldıqdan sonra qalan məbləğə xüms düşür.

Diqqət:

• Sərmayənin xümsü hesablanarkən malların (yəni nağd pul şəklində olmayan sərmayənin) qiyməti mümkün olan hansısa bir şəkildə, hətta təxmini olsa da, çıxarılmalıdır. Bu işin çətin olduğunu əsas götürüb, onu yerinə yetirməməyə icazə verilmir.

• Əgər bir şəxs bir neçə sahədə iş görür və qazanc əldə edirsə, məsələn, həm obyekt icarəyə verib icarə pulu alır, həm ticarət edir, həm də əkinçilik işi ilə məşğuldursa, bu işlərin sərmayəsini və gəlirini-çıxarını ayrıca hesabladığı təqdirdə, xüms ilinin sonunda hər sahədən əldə etdiyi qazancı hesablamalı və onun xümsünü verməlidir. Əgər o, bir sahədə gördüyü işdə ziyana düşsə, başqa sahədə gördüyü işin qazancından bu ziyanı çıxa bilməz. Amma əgər müxtəlif sahələrdə gördüyü işlərin sərmayəsini və gəlirini-çıxarını vahid büdcə olaraq hesablayırsa, bu sahələrin qazancını ümumilikdə hesablamalı və sərmayədə artan məbləğin xümsünü verməlidir.

• Əgər xüms ilinin əvvəlində sərmayənin bir hissəsi aradan getsə, amma qalan sərmayədən müəyyən məbləğ qazanc əldə edilsə və bu qazanc şəxsin illik xərclərindən artıq qalsa, sərmayədən aradan gedən məbləği ilin sonunda artıq qalan məbləğdən götürmək olar.

• Əgər bir şəxsin sərmayəsi deyil, başqa bir malı aradan getsə, o, aradan gedən malın qiymətini sərmayədən əldə etdiyi qazancdan çıxa bilməz. Amma əgər onun həmin ildə bu mala ehtiyacı olsa, il ərzində iş qazancı ilə onu ala bilər.

Qazancın xümsünün düzgün hesablanmasında şəkk etmək

Ötən illərin qazancının xümsünü düzgün hesabladığına şəkk edən bir şəxs öz şəkkinə etina etməməlidir və ona yenidən xüms vermək vacib olmur. Amma əgər onun qazanc barəsində şəkki olsa, belə ki, mövcud qazancın xümsü verilmiş ötən illərin qazancı olduğuna, yoxsa bu ilin qazancı olduğuna və xümsünün verilmədiyinə şəkk etsə, bu halda ehtiyata görə, onun xümsünü verməlidir. Lakin əgər aydın olsa ki, həmin qazancın xümsünü vermişdir, ona xüms düşməyəcəkdir.

Xümsün verilməsində şəkk etmək

Əgər bir şəxs hansısa bir şeyin xümsünü verib-vermədiyinə dair şəkk etsə, bu şey "xüms düşən bir mal" olduğu təqdirdə, onun xümsünü verdiyinə əmin olmalıdır.

Müsalihə (razılaşma)

Əgər bir şəxs qazancına xüms düşüb-düşmədiyini bilməsə, məsələn, yaşadığı evi iş qazancı ilə aldığına əmin olsa, amma bu qazancı il əsnasında ev almaq üçün sərf etdiyini, yoxsa il başa çatdıqdan sonra və qazancın xümsünü verməmişdən qabaq sərf etdiyini bilməsə, ehtiyat-vacibə görə, xüms işləri məsulu və ya onun vəkili ilə müsalihə etməlidir.

Diqqət:

• Əgər qazanca və ya mala xüms düşdüyü məlumdursa, bu halda müsalihəyə yer qalmır. Müsalihə şəkk zamanı baş tuta bilər.

Dəstgərdan[1]

Əgər bir şəxs xüms verməlidirsə, amma maddi imkanı çatmadığına görə hal-hazırda onu verə bilmirsə, o, boynunda olan xüms borcunu xüms işləri məsulu və ya onun vəkili ilə dəstgərdan edə bilər. Sonralar zaman və miqdar baxımından imkanı çatdıqca onu tədricən verməlidir.

Diqqət:

• Əgər bir şəxs xüms düşməyən bir malından xüms versə, onun xüms verdiyi məbləğ şəri qaydada sərf olunduğu təqdirdə, onu hal-hazırda malına düşən xümsün yerinə hesab edə bilməz. Bəli, əgər onun xüms verdiyi pul və ya mal sərf olunmayıbsa, onu geri istəyə bilər.

Suallar:

1- Sərmayənin xümsünün hesablanması və verilməsi qaydasını izah edin.

2- Ötən illərin malına düşən xümsü düzgün hesabladığına dair şəkk edən bir şəxsin vəzifəsi nədir?

3- Müsalihə hansı halda baş tuta bilər?

4- Dəstgərdan nə zaman edilir?

5- Əgər bir şəxs xüms düşməyən malından xüms versə, bu məbləği hal-hazırda onun malına düşən xümsün yerinə hesab edə bilərmi?

---

[1] Dəstgərdan – fiqh termini olub, xüms və ya zəkatı mal sahibindən almaq və yenidən ona qaytarmaq mənasını bildirir. *Müt.*

Yetmiş üçüncü dərs: Xüms düşən digər mallar

Mədən

Bir şəxs və ya şərikli şəkildə bir neçə şəxs tərəfindən mədəndən çıxarılan faydalı qazıntılara xüms düşür. Əlbəttə, bu şərtlə ki, ixrac və saflaşdırma işlərinin xərci çıxıldıqdan sonra şəxsin əldə etdiyi mal və ya şəriklərin hər birinə çatan pay 15 misqal qızıl[1] dəyərində olmalıdır. Əgər bundan az olarsa, ona xüms düşməyəcəkdir.

Diqqət:

• Mədənə aşağıdakı şərtlər daxilində xüms vacib olur:

1- Bir şəxs və ya bir neçə şəxs şərikli şəkildə faydalı qazıntını mədəndən ixrac etməlidirlər;

2- Onların hər birinə çatan mal nisab həddinə çatmalıdır, yəni 15 misqal qızıl dəyərində olmalıdır;

3- İxrac etdikləri faydalı qazıntı onların şəxsi əmlakı olmalıdır.

Dövlət tərəfindən mədənlərdən ixrac edilən faydalı qazıntılar bir və ya bir neçə şəxsin əmlakı olmadığına görə, ona xüms düşmür. Nəticədə, dövlət və hökumətə xüms vacib olmur.

Dəfinə

İnsanların şəxsi torpaq sahələrində tapdıqları dəfinə barəsində İslam hökumətinin qanunları əsasında hökm çıxarılır. Beləliklə, əgər bir nəfərin şəxsi evinin altında yüz il bundan əvvələ aid olan gümüş sikkələr tapılarsa, bu barədə İslam hökumətinin qanunlarına müraciət olunmalıdır.

Haram mala qarışmış halal mal

1. Əgər halal mal haram mala qarışarsa, məsələn, bir kisədə olan buğdanın bir miqdarı başqa şəxsə aid olarsa, halal malın sahibi olan şəxs həmin şəxsi tanımadığı və ona aid olan malın miqdarını bilmədiyi təqdirdə, bütün malın xümsünü verməlidir. Bu halda qalan mal ona halal olur.

2. Əgər halal malın sahibi olan şəxs başqa şəxsə aid olan malın miqdarını dəqiq bilməsə də, ümumiyyətlə bilir ki, həmin malın miqdarı ümumi malın beşdə birindən çoxdur, bu halda o, ehtiyata görə, xümsdən əlavə, ümumi malın beşdə birindən çox olduğuna yəqinliyi olan miqdarı da şəri-hakimə verməlidir. Şəri-hakim bu malı həm xüms, həm də sədəqə sayılan yerlərə sərf etməlidir.

Diqqət:

• Xüms və zəkat verməyən, yaxud malı ribaya qarışan bir ailədə yaşayan şəxs istifadə etdiyi malda haramlığın olduğuna yəqin etməyənədək ondan istifadə edə bilər. (Bəli, o, yəqin bilir ki, onun ailəsi xüms və zəkat vermir, yaxud ailənin malı ribaya qarışıbdır. Amma bu o demək deyildir ki, onun istifadə etdiyi mal da haramdır.) Amma əgər istifadə etdiyi malın haramlığına yəqinliyi olsa, ondan istifadə edə bilməz. Yalnız o halda istifadə edə bilər ki, ailədən ayrılmaq və onlarla əlaqəni kəsmək onun üçün əziyyətli və olduqca çətin olacaqdır. Bu halda ailənin harama qarışmış malından istifadə etməsinin maneəsi yoxdur, amma istifadə etdiyi malda mövcud olan başqalarının malına zamindir (bunu onlara borcludur).

Dalğıclıq vasitəsilə dənizin dibindən çıxarılan cəvahirat

1. Əgər insan dənizin dibinə enib mirvari, mərcan və bu kimi cəvahirləri dənizdən çıxarsa, onları çıxarmağın xərclərini çıxdıqdan sonra 18 qızıl noxud və ya daha çox dəyərində cəvahir qaldığı təqdirdə, onun xümsünü verməlidir.

2. Əvvəlki məsələdə dənizdən çıxarılan cəvahirin yalnız bir növ, yoxsa bir neçə növ cəvahir olmasının fərqi yoxdur. Həmçinin onların bir dəfəyə və ya az zaman fasiləsi ilə bir neçə dəfəyə dənizin dibindən çıxarılmasının fərqi yoxdur. Ehtiyat-vacibə görə, böyük çaylar, məsələn, Nil, Fərat və Karun çayları dəniz hökmündədir.

3. Əgər insan dənizin dibinə enmədən müəyyən bir vasitə ilə cəvahiri dənizdən çıxarsa, onu çıxarmağın xərclərini çıxdıqdan sonra 18 qızıl noxud və ya daha çox dəyərində cəvahir qaldığı təqdirdə, ehtiyat-vacibə görə, onun xümsünü verməlidir.

4. Əgər cəvahir öz-özünə sudan xaric olsa və insan onu suyun üzündən və ya dənizin sahilindən götürsə, ona xüms düşmür. Amma əgər bu iş onun işi olsa, əldə etdiyi cəvahir onun iş gəliri hesab olunur və bu məsələnin hökmü bir qədər irəlidə açıqlanacaqdır.

Xümsün istifadəsi

1. Xüms verməli olan şəxs xümsü "müsəlmanların vəliyyi-əmri"nə təhvil verməlidir və bu hökm baxımından "İmam (ə) payı" ilə

“seyid payı” arasında fərq yoxdur.

2. Əgər hörmətli mərcəyi-təqlidlərin müqəllidləri xümsün ödənilməsində özlərinin mərcəyi-təqlidinin fətvasına müvafiq şəkildə əməl etsələr, borcdan çıxmışdırlar.

3. Xümsü təhvil almaqda “müsəlmanların vəliyyi-əmri”nin vəkili olan şəxsə xümsü ödəmək olar. Amma əgər onun vəkilliyi dəqiq deyildirsə, xümsü ona verməyə icazə verilmir. Xüms ona verildiyi təqdirdə, mükəlləfin borcdan çıxdığına əminlik hasil olmur.

4. Xümsün (istər İmam (ə) payı, istərsə də seyid payının) hansısa bir işə sərf edilməsi üçün “müsəlmanların vəliyyi-əmri”nin və ya bu işdə onun nümayəndəsinin icazəsi olmalıdır.

Diqqət:

• Dəqiqləşən xüms bağışlana bilməz.

• Əgər bir şəxs “xüms işləri məsulu” tərəfindən xümsü təhvil almağa icazəli olduğunu iddia edən şəxsin icazəsinə şəkk edərsə, o, ədəb qaydalarına müvafiq bir şəkildə həmin şəxsdən yazılı icazənaməni göstərməsini, yaxud da üzərində xüms işləri məsulunun möhürü olan qəbzi tələb edə bilər. Əgər həmin şəxs xüms işləri məsulunun icazəsinə müvafiq şəkildə əməl edirsə, etibarlı hesab olunur.

Bu şərtlərə malik olan şəxslərə “seyid payı” verilir

Aşağıdakı şərtlərə malik olan şəxslərə “xüms işləri məsulu”nun və ya onun vəkilinin icazəsi ilə “seyid payı” verilə bilər:

1- Seyid olmalıdır;

2- İmanı olmalıdır (on iki imam şiəsi olmalıdır);

3- Fəqir olmalıdır;

4- Vacibun-nəfəqə olmamalıdır;

5- Xümsü günah işlərə sərf etməməlidir.

Birinci şərt: Seyid olmalıdır

1. “Seyid payı”nı ata tərəfdən nəsli Həzrət Peyğəmbərin (s) cəddi Cənab Haşimə (ə) çatan şəxslər ala bilərlər. Beləliklə, Ələvi (nəsli Əli ibn Əbu Talibə (ə) çatan), Əqili (nəsli Əqil ibn Əbu Talibə çatan) və Abbasi (nəsli Abbas ibn Əbu Talibə çatan) seyidlərin hamısı “Haşimi seyidləri” sayılır. Onlar Haşimi seyidlərinə aid olan məziyyətlərdən faydalana bilərlər.

2. Ata tərəfdən nəsli Abbas ibn Əli ibn Əbu Talibə (ə) çatan seyidlər də Ələvi seyidlər hesab olunurlar.

3. Baxmayaraq ki, ana tərəfdən nəsli Həzrət Peyğəmbərə (s) çatan şəxslər də Peyğəmbər övladı hesab olunurlar, lakin seyidliyin şəri hökmlərinin şamil olması üçün ata nəsli meyar götürülür.

4. Əgər bir şəxs “mən seyidəm” desə, ona xüms vermək olmaz. Yalnız o halda ona xüms vermək olar ki, iki ədalətli şəxs onun seyid olduğunu təsdiqləsinlər, yaxud da hansısa bir yol ilə onun seyid olduğuna dair insanda yəqinlik və ya əminlik yaransın.

Üçüncü şərt: Fəqir olmalıdır

1. Əgər əmək fəaliyyəti ilə məşğul olan və qazanc əldə edən seyidlərin qazancı onların yaşayışı üçün normal şəkildə və onların ürfi şəninə uyğun səviyyədə kifayət edirsə, onlar xüms ala bilməzlər.

2. Əgər seyid ailəsində ata ailə üzvlərinin dolanışıq xərclərini verməkdə səhlənkarlıq göstərirsə və onlar atadan dolanışıq xərclərini ala bilmirlərsə, onlara “seyid payı”ndan dolanışıq xərcləri miqdarında verilə bilər.

3. Əgər ehtiyaclı seyidlərin yemək və geyimdən əlavə, durumlarına uyğun olan başqa bir şeyə ehtiyacları olsa, bu ehtiyacı təmin edən miqdarda onlara “seyid payı”ndan vermək olar.

4. Əgər bir seyidə qadının əri fəqir olduğuna görə onun dolanışıq xərclərini verə bilmirsə və qadının özü də şəri baxımdan fəqir hesab olunursa, bu qadın ehtiyaclarını təmin edəcək miqdarda “seyid payı” ala və onu özünə, övladlarına, hətta ərinə (əri seyid olmasa belə) xərcləyə bilər.

Dördüncü şərt: Vacibun-nəfəqə olmamalıdır

Vacibun-nəfəqə olan şəxsə[2] xüms vermək olmaz. Məsələn, fəqir ata-anasına maddi köməklik göstərmək imkanı olan bir şəxs öz xümsünü ata-anasına verə bilməz.

Beşinci şərt: Xümsü günah işlərə sərf etməməlidir

Ədalətli şəxs olmayan seyidə xüms vermək olar. Amma xümsü günah işlərə sərf edən seyidə xüms vermək olmaz. Hətta əgər ona xüms vermək onun günah etməsinə kömək etmək olarsa, ona xüms verilməməlidir, baxmayaraq ki, aldığı xümsü günah işlərə sərf etməyəcəkdir.

Xümsün müxtəlif məsələləri

1. Xüms verməyən bir şəxsin yeməyindən yemək olar və xüms vermək mal sahibinin öhdəsindədir.

2. Əgər ailə başçısı öz əmlakının xümsünü vermirsə, o, günah edir, amma ailə üzvlərinin onun malından istifadə etmələrinin maneəsi yoxdur.

3. Əgər malına xüms düşən, amma xümsü verməyən şəxs bir alğı-satqı həyata keçirsə, bu alğı-satqı düzgündür və satdığı mal başqasının mülkiyyətinə keçir. Amma bu şəxs xümsü borcludur və onu verməlidir.

4. Dini göstərişlərə əməl etməyən, xüsusilə də namaz qılmayan və xüms verməyən müsəlmanlarla ünsiyyətdə olmaq əgər onların dini göstərişlərə qarşı məsuliyyətsizliyini dəstəkləmək olmazsa, onlarla ünsiyyətin maneəsi yoxdur. Amma əgər onlarla əlaqəni kəsmək onların dini göstərişlərə əhəmiyyət vermələrinə səbəb olarsa, bu halda onlarla əlaqəni kəsmək lazımdır.

5.Əgər bir şəxs həcc ziyarətinə getmək üçün müəyyən məbləğ pulu "Həcc işləri idarəsi"nin bank hesab nömrəsinə köçürsə, amma ziyarətə getməmişdən qabaq dünyasını dəyişsə, onun ziyarət qəbzi bugünkü qiyməti ilə onun irsi hesab olunur. Əgər mərhumun boynunda vacib həcc ziyarəti yoxdursa, həmçinin onun əvəzinə həcc ziyarəti yerinə yetirilməsini vəsiyyət etməyibdirsə, bu qəbz ilə onun əvəzindən həcc ziyarəti yerinə yetirmək vacib deyildir. Əgər ziyarət qəbzi üçün ödənilmiş pul xüms düşən pul idisə, bu pulun xümsünü və qəbzin qiymət fərqinin xümsünü vermək vacibdir.

Suallar:

1- Mədənin nisab həddi nə qədərdir?

2- Əgər bir şəxsin ailəsi xüms və zəkat vermirsə, həmçinin onların malı ribaya qarışıbsa, bu şəxsin vəzifəsi nədir?

3- Bəzi şəxslər seyidlərin işıq, su və qaz pulu kimi kommunal xərclərini ödəyirlər. Onların ödədikləri bu məbləği xümsdən hesab etmək olarmı?

4- Əmək fəaliyyəti ilə məşğul olub qazanc əldə edən seyidlərə xüms vermək olarmı?

5- Ələvi seyidlərindən olan bir qadın Ələvi seyid olmayan bir kişi ilə ailə qurmuş və övladları vardır. Əgər onun əri fəqirdirsə, bu qadına "seyid payı" vermək olarmı? Bu qadın aldığı payı övladlarına və ərinə xərcləyə bilərmi?

---

[1] 69,12 qram qızıla bərabərdir.

[2] Yəni insanın xüms vermək istədiyi şəxsin dolanışıq xərcləri, əslində, onun öhdəsindədir. *Müt.*

Yetmiş dördüncü dərs: Ənfal

Ənfalın mənası

Ənfal – Həzrət Peyğəmbərin (s) və onun məsum canişinlərinin (ə) ixtiyarında olan ümumi sərvətdir. Qeyb dövründə bu sərvət "müsəlmanların vəliyyi-əmri"nin ixtiyarındadır (başqa sözlə, İslam hökumətinin istifadəsindədir) və cəmiyyətin ümumi xeyrinə olan işlərə sərf olunmalıdır.

Ənfalın mənbələri

Ənfalın mənbələri aşağıdakılardır:

1- Fəy: Qoşun çəkmədən və döyüş aparmadan müsəlmanların əlinə keçən qənimət, istər torpaq olsun, istərsə də torpaqdan qeyri bir şey olsun;

2- Becərilməmiş xam torpaqlar: Belə ki, bu torpaqlar məhsuldar vəziyyətə gətirilmədən və abad edilmədən istifadəyə yararlı deyildir;

3- Tərk edilmiş şəhər və kəndlər;

4- Dənizlərin və böyük çayların sahilləri;

5- Meşəliklər, təbii qamışlıqlar, dərələr, dağların zirvələri;

6- Döyüşlərdə müsəlmanların əlinə keçən şahların seçilən və qiymətli əşyaları;

7- Dəyərli və seçilən qənimətlər, məsələn cins at, qiymətli paltar və s.;

8- Müsəlmanların rəhbərinin izni olmadan aparılan döyüşlərdə ələ keçən qənimətlər;

9- Varisi olmayan mərhumun əmlakı;

10- Mədənlər.

Diqqət:

• Kərpic zavodlarının kənarında torpağının satılması məqsədilə alınan ərazi əgər abad olarsa və şəri baxımdan satıcının xüsusi mülkü hesab olunarsa, baxmayaraq ki, alğı-satqı nəticəsində bu torpaq sahəsi alıcının xüsusi mülkü olur və ənfaldan hesab olunmur, amma oranın torpağının satılmasından əldə edilən gəlirin vergisini ödəmək (İranda) İslam Şurası Məclisinin təsdiq etdiyi qanuna əsaslandığı və bu qanun Konstitusiyanın Mühafizə Şurası tərəfindən təsdiqləndiyi təqdirdə, bu vergi ödənməlidir və dövlətin onu tələb etməyə haqqı vardır.

• Şəhər İcra İdarəsi çayların dibindəki daşlardan və qumlardan şəhərlərin salınması və abadlaşdırılması üçün istifadə edə bilər. Ayrı-ayrı şəxslər tərəfindən böyük və ümumi çayların yatağına sahiblik iddiası məqbul deyildir.

• Heç zaman heç kimin şəxsi mülkü olmayan təbii otlaqlar ənfal və ümumi sərvət hesab olunur və bu ərazilər müsəlmanların vəliyyi-əmrinin ixtiyarındadır. Onların alğı-satqısı heç bir vəchlə düzgün deyildir. Həmçinin köçəri həyat tərzi sürən tərəkəmələrin oralardan get-gəl etməsi onların bu ərazilərə sahiblənməsinə səbəb olmur.

• Heç zaman heç kimin şəxsi mülkü olmayan təbii və ümumi otlaqların otu şəxsi mal deyildir və şəxslər tərəfindən onun satılmasına icazə verilmir. Amma dövlət tərəfindən təyin edilən kəndin icra başçısı həmin otlaqlarda öz heyvanlarını otarmağa icazəli olan şəxslərdən kəndin ümumi işləri üçün müəyyən məbləğ pul ala bilər.

• Əgər bir şəxsin şəxsi mülk olan ərazilərin qonşuluğunda yerləşən otlaqlarda öz heyvanlarını otarmaq icazəsi vardırsa, bu o demək deyildir ki, bu şəxs şəxsi mülk olan ərazilərə daxil ola və oradakı sudan istifadə edə bilər. Bu ərazilərin sahibinin icazəsi olmadan ora daxil olmaq və oradakı sudan istifadə etmək icazəli deyildir.

• Şəri baxımdan "vəqf"in düzgünlüyü vəqf olunan şeyin "qanuni şəxsi əmlak olması" ilə şərtlənir, necə ki, hansısa bir əmlakın irs yolu ilə başqa bir şəxsin mülkiyyətinə keçməsi həmin əmlakın mərhumun "şəxsi əmlakı olması" ilə şərtlənir. Odur ki, indiyədək heç kimin şəxsi əmlakı olmayan və heç kim tərəfindən abadlaşdırılmayan təbii meşələr və otlaqlar şəxsi əmlak hesab olunmur, buna görə də vəqf oluna və ya irs ötürülə bilməz. Hər halda, ayrı-ayrı şəxslərin meşələrdə şəri və qanuni icazə ilə saldıqları əkin sahələri, tikdikləri yaşayış evləri və s. şəxsi əmlak olduğuna görə, həmin ərazilər vəfq olunduğu təqdirdə vəqfin şəri sahibləri onlardan istifadə edə bilərlər. Əks təqdirdə, bu əmlak öz sahibinin ixtiyarındadır. Amma meşələrin təbii meşəlik və otlaq şəklində qalan hissələri ənfal və ümumi sərvət hesab olunur və bu ərazilər qanunlara müvafiq olaraq İslam dövlətinin ixtiyarındadır.

Suallar:

1- Ənfal nədir?

2- Ənfalın mənbələri hansılardır?

3- Əgər bir şəxs kərpic zavodlarının kənarında torpağını satmaq məqsədilə ərazi alarsa, bu ərazi ənfaldan hesab olunurmu? Əgər ənfaldan hesab olunmazsa, on faiz nisbətində Şəhər İcra İdarəsinə vergi verildiyini nəzərə alaraq, dövlətin də satılan bu torpaq üçün vergi tələb etməyə haqqı varmı?

4- Şəhər İcra İdarəsi çayların dibindəki daşlardan və qumlardan şəhərlərin salınması və abadlaşdırılması üçün istifadə edə bilərmi? İstifadə etdiyi təqdirdə, ümumi çayların yatağına ayrı-ayrı şəxslərin sahiblik iddiası məqbuldurmu?

5- Tərəkəmələrin otlaqlarının alğı-satqısı nə zaman düzgündür?

6- Şəxsi əkin sahələrinin qonşuluğunda yerləşən otlaqlarda öz heyvanlarını otarmaq icazəsi olan heyvandarlar bu əkin sahələrinin suyundan özləri və heyvanları üçün istifadə etmək məqsədilə sahibinin icazəsi olmadan ora daxil ola bilərlərmi?

Yetmiş beşinci dərs: Cihadın mənası, vacibliyi və növləri

Cihadın mənası

Burada "cihad" dedikdə, İslama dəvət etmək və dinin yayılması istiqamətində göstərilən səy, yaxud düşmənin təcavüzündən müdafiə olunmaq uğrunda aparılan mübarizə nəzərdə tutulur.

Cihadın vacibliyi

Cihad – dinin əsaslarından biridir və onun vacibliyi İslam dininin zəruri inanclarındandır.

Cihadın növləri

Cihad 2 növdür:

1- İbtidai cihad: Bu, İslam dininin təbliği qarşısında yaranan maneələri aradan qaldırmaq üçün aparılan cihaddır. Belə ki, düşmən tərəf hücum çəkmədən İslam qoşunu İslam dininin təbliği qarşısında yaranan maneələri aradan qaldırmaq, digər məmləkətlərin əhalisinin İslama gəlişini əngəlləyən səbəbləri ortadan qaldırmaq, İslam dininin yayılması, haqq səsin ucalması, dinin dirçəlməsi, kafir və müşriklərin hidayəti, şirk və küfrün kökünün kəsilməsi üçün cihada qalxır. (Yəni "ibtidai cihad"da məqsəd, torpaqları genişləndirmək deyildir. Əksinə, kafir, müşrik və hegemon qüdrətlər tərəfindən allahpərəstlik, tövhid və ədalətdən məhrum qalan insanların təbii və fitri haqlarını bərpa və müdafiə etməkdir.)

2- Müdafiə cihadı: Bu cihaddüşmənlərin təcavüzü qarşısında müdafiəyə qalxmaqdır. Belə ki, düşmən müsəlmanların torpaqlarına, sərhədlərinə və məmləkətlərinə hücum çəkdiyi və siyasi, hərbi, mədəni və iqtisadi baxımdan onlara hakim olmaq istədiyi zaman müsəlmanlar müdafiəyə qalxmalıdırlar.

1- İbtidai cihad

1. İbtidai cihad yalnız Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) dövrünə aid deyildir. Müsəlmanların vəliyyi-əmri olan camiuş-şərait fəqih məsləhət olduğu təqdirdə, ibtidai cihada hökm verə bilər.

2. İslam dövlətinin himayəsində yaşayan kitab-əhli (yəhudilər, məsihilər, zərdüştlər) bu dövlətin qanunlarına tabe olduqları və əmniyyətə zidd bir iş yerinə yetirmədikləri müddət boyunca "muahəd" hökmündədirlər, yəni onların canı, malı və heysiyyəti qorunmalı, qanuni və şəri haqlarına riayət olunmalıdır.

3. Əgər kafirlər İslam məmləkətinə hücum çəksələr və onların bir dəstəsi müsəlmanlara əsir düşsə, əsirlərin taleyi İslam hakiminin əlindədir və müsəlman camaat əsirlərin taleyi barədə qərar verə bilməz. Beləliklə, müsəlman bir şəxs kitab-əhli olan və ya kitab-əhli olmayan bir kafiri – istər kişi olsun, istərsə də qadın olsun – kafirlərin və ya müsəlmanların torpaqlarında öz mülkiyyətinə keçirə bilməz.

2- Müdafiə cihadı

1. İslamı və müsəlmanları müdafiə etmək vacibdir və bunun üçün valideynlərin icazəsi şərt deyildir. Amma mümkün olduğu qədər valideynlərin razılığını əldə etmək tövsiyə olunur.

2. Əgər insan həyatını və canını qorumaq və qətlin qarşısını almaq üçün təcili və birbaşa hərəkətə keçmək lazım olarsa, bu işə icazə verilir, hətta canı qorumağın vacibliyi baxımından vacibdir. Bunun üçün şəri-hakimin icazəsi və ya bu barədə əmri lazım deyildir. Amma əgər insan həyatını qorumaq üçün hücum çəkən şəxsi qətlə yetirmək lazım gələrsə, bu halda müxtəlif surətlər ortaya çıxır və onların fərqli hökmləri ola bilər.

Suallar:

1- Cihad nədir?

2- Cihadın növlərini izah edin.

3- İbtidai cihadda məqsəd nədir?

4- Məsum İmamın (ə) qeyb dövründə ibtidai cihadın hökmü nədir? Müsəlmanların vəliyyi-əmri olan camiuş-şərait fəqih ibtidai cihada hökm verə bilərmi?

5- Müsəlman bir şəxs kitab-əhli olan və ya kitab-əhli olmayan bir kafiri – istər kişi olsun, istərsə də qadın olsun – kafirlərin və ya müsəlmanların torpaqlarında öz mülkiyyətinə keçirə bilərmi?

6- İslam dini təhlükə qarşısında olduğu zaman valideyndən icazəsiz dinin müdafiəsinə qalxmağın hökmü nədir?

Yetmiş altıncı dərs: Əmr bil-məruf və nəhy ənil-munkərin mənası, vacibliyi və şərtləri

Əmr bil-məruf və nəhy ənil-munkərin mənası

"Əmr bil-məruf" insanları yaxşı işlərə çağırmaq və "nəhy ənil-munkər" insanları pis işlərdən çəkindirmək deməkdir.

Əmr bil-məruf və nəhy ənil-munkərin vacibliyi

Əmr bil-məruf və nəhy ənil-munkər İslam dininin çox mühüm vacib əməllərindəndir. Bu vacib əməli tərk edənlər və ya ona əhəmiyyət verməyənlər günahkardırlar və onları ağır və böyük cəza gözləyir. Əmr bil-məruf və nəhy ənil-munkərin vacibliyini İslam fəqihləri yekdilliklə qəbul edirlər və bu əməlin vacibliyi İslam dinin zəruri əsaslarındandır.

Diqqət:

• Əmr bil-məruf və nəhy ənil-munkər İslam dininin göstərişlərini qorumaq və cəmiyyətin sağlamlığını təmin etmək üçün müəyyən şərtlər çərçivəsində ümumi bir şəri vəzifədir. İslama zidd əməlləri yerinə yetirən şəxsin və ya bir qrup insanın İslama qarşı bədbin olacaqlarını düşünərək əmr bil-məruf və nəhy ənil-munkəri tərk etmək yolverilməzdir.

• Qanun pozuntusundan, məsələn, beytul-malın (ümumi əmlakın) mənimsənməsindən xəbər tutan şəxslər nəhy ənil-munkərin şərtlərinə və qaydalarına riayət edərək nəhy ənil-munkər etməlidirlər. Hər hansı bir iş üçün, hətta fəsadın qarşısını almaq məqsədilə olsa belə, rüşvət və bu kimi qeyri-qanuni işlərə əl atmaq olmaz. Bəli, əgər əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olmazsa, bu şəxslərin üzərinə heç bir şəri vəzifə düşmür. Məsələn, əgər bu dini göstərişə əməl etdikləri təqdirdə yuxarı vəzifədə olan məsullar tərəfindən incidiləcəklərindən və ziyan görəcəklərindən qorxsalar, şəri vəzifə onların üzərindən götürülür. Əlbəttə, bu hökm İslam hökuməti olmayan bir şəraitdə qüvvədədir. Əmr bil-məruf və nəhy ənil-munkərə böyük əhəmiyyət verən İslam hökumətində qanun pozuntusundan xəbər tutan, lakin özü birbaşa əmr bil-məruf və nəhy ənil-munkər edə bilməyən şəxslər hökumətin aidiyyatı qurumlarını məlumatlandırmalı və bu qurumlar da məsələni araşdırıb lazımi ölçülər götürməlidirlər.

• Pis əməllər elə pis olduğuna görə onlar arasında fərq qoyulmur. Amma bəzi pis əməllərin daha pis olduğu görünür. Hər bir halda nəhy ənil-munkərin şərtləri mövcud olduğu zaman bu şəri vəzifəni yerinə yetirmək vacib olur və onu tərk etməyə icazə verilmir. Bu hökm baxımından pis əməllər və məkanlar (məsələn, universitet mühiti, ictimai məkanlar və s.) arasında fərq qoyulmur.

• Müəssisə rəhbərlikləri İslam ölkəsinin bəzi müəssisələrində işləyən xarici mütəxəssislərə aşkarda içki içməməyi, haram ət yeməməyi və bu kimi işləri yerinə yetirməməyi tapşırmalıdırlar. Onlara iffətə zidd olan işlər görmələrinə heç bir vəchlə icazə verilməməlidir. Hər bir halda müəssisə rəhbərlikləri bunun üçün müəyyən tədbirlər görməlidirlər.

• Qızların və oğlanların birgə təhsil aldıqları universitetlərdə təhsil alan mömin gənclər universitet mühitində İslama zidd əməllərin yerinə yetirildiyini müşahidə etdikləri zaman həm özləri bu əməllərdən uzaq olmalı, həm də imkan daxilində və şərtlər çərçivəsində əmr bil-məruf və nəhy ənil-munkər etməlidirlər.

• Hicaba kamil şəkildə riayət etməyən xanımlara əmr bil-məruf və nəhy ənil-munkər etməyin şərti onlara reybə[1] ilə baxılması deyildir. Bəli, hər bir mükəlləf, xüsusilə də nəhy ənil-munkər etdiyi zaman haramdan çəkinməlidir.

Əmr bil-məruf və nəhy ənil-munkərin hamıya aid olan şəri vəzifə olması

Əmr bil-məruf və nəhy ənil-munkər şəri vəzifəsi cəmiyyətin xüsusi bir təbəqəsinə aid deyildir, əksinə, cəmiyyətin hər bir təbəqəsinə aiddir. Hətta qadın öz ərinin və ya övlad öz ata-anasının hansısa vacib bir əməli tərk etdiyini və ya haram bir əməli yerinə yetirdiyini gördükdə, əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olduğu təqdirdə, bu şəri vəzifəni yerinə yetirməlidir.

Diqqət:

● Əmr bil-məruf və nəhy ənil-munkərin məqamı və şərtləri mövcud olduğu zaman bütün mükəlləflər bu vacib şəri vəzifəni yerinə yetirməlidirlər. Mükəlləfin müxtəlif vəziyyətləri, məsələn, evli və ya subay olması burada rol oynamır. Subaylıq bu şəri vəzifəni mükəlləfin üzərindən götürmür.

Əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri

Əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri aşağıdakılardır:

1- Yaxşı və pis işləri tanımaq;

2- Əmr bil-məruf və nəhy ənil-munkərin təsir qoyacağını ehtimal etmək;

3- Günahın təkrar-təkrar yerinə yetirilməsi;

4- Əmr bil-məruf və nəhy ənil-munkərin fəsadının olmaması.

1- Yaxşı və pis işləri tanımaq

Əmr bil-məruf və nəhy ənil-munkərin birinci şərti yaxşı və pis işləri tanımaqdır. Yəni yaxşı işlərə çağıran və pis işlərdən çəkindirən şəxs yaxşı və pis işləri tanımalıdır. Əks təqdirdə, bu şəri vəzifəni yerinə yetirmək onun üzərinə düşmür. Hətta o, bu işi görməməlidir, çünki pis bir işə əmr və ya yaxşı bir işi nəhy[2] edə bilər. Beləliklə, qarşı tərəfin əməlinin haram olub-olmadığını bilmədikdə (məsələn, onun qulaq asdığı musiqinin haram, yoxsa halal olduğunu bilmədikdə), nəyh ənil-munkər etmək, yəni onu bu əməlindən çəkindirmək vacib deyildir, hətta bu işi görməyə icazə verilmir.

2- Əmr bil-məruf və nəhy ənil-munkərin təsir qoyacağını ehtimal etmək

Əmr bil-məruf və nəhy ənil-munkərin ikinci şərti onun təsir qoyacağını ehtimal etməkdir. Yəni yaxşı işlərə çağıran və pis işlərdən çəkindirən şəxs ehtimal etməlidir ki, onun bu işi, hətta indi də olmasa, gələcəkdə öz nəticəsini verəcəkdir.

Diqqət:

• Əgər müəssisə və idarə rəhbərliyi üçün sübuta yetsə ki, bəzi işçilər namaza qarşı səhlənkarlıq göstərir və ya namaz qılmırlar, onlara öyüd-nəsihət vermək nəticəsiz olduğu təqdirdə, əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərinə riayət edərək bu işi (yəni yaxşı işlərə çağırmaq və pis işlərdən çəkindirməyi) davamlı şəkildə yerinə yetirməlidirlər. Əgər əmr bil-məruf da nəticə verməzsə, qanun bu kimi fərdlərin müəyyən iş məziyyətlərindən məhrum edilməsinə yol verdiyi təqdirdə, bu qanun onlar barəsində tətbiq edilməli və bu məhrumiyyətin onların namaz kimi İlahi göstərişə qarşı laqeydliklərinə görə olduğu bildirilməlidir.

3- Günahın təkrar-təkrar yerinə yetirilməsi

Əmr bil-məruf və nəhy ənil-munkərin üçüncü şərti günahın təkrar-təkrar yerinə yetirilməsidir. Yəni günahkar şəxs hansısa bir günahı təkrar-təkrar yerinə yetirir. Amma əgər bilsək ki, əmr bil-məruf və nəhy ənil-munkər etmədən onun özü günahdan əl çəkəcəkdir, yəni yaxşı əməli yerinə yetirəcək və ya pis əməli tərk edəcəkdir, bu halda əmr bil-məruf və nəhy ənil-munkər etmək vacib deyildir.

4- Əmr bil-məruf və nəhy ənil-munkərin fəsadının olmaması

Əmr bil-məruf və nəhy ənil-munkərin dördüncü şərti bu işin fəsadla nəticələnməməsidir. Beləliklə, əgər əmr və nəyh etmək bu işi yerinə yetirən şəxsin və ya başqa bir müsəlmanın canına, malına və heysiyyətinə ziyan dəyməklə nəticələnəcəkdirsə, əmr bil-məruf və nəhy ənil-munkər etmək vacib olmur. Əlbəttə, mükəlləf işin əhəmiyyətini nəzərə almalıdır, yəni əmr və nəyh etməyin ziyanı ilə bu işi etməməyin ziyanını müqayisə etməli, daha sonra mühüm olanı yerinə yetirməlidir.

Diqqət:

• Əgər bir şəxs ictimai mövqeyi olan nüfuzlu bir şəxsə əmr bil-məruf və nəhy ənil-munkər edəcəyi təqdirdə onun tərəfindən ziyan görəcəyindən qorxsa, bu işi görməsi vacib olmur, amma bu şərtlə ki, onun qorxusunun məntiqi əsası olmalıdır. Amma günah edən bir şəxsin ictimai mövqeyini və ya onun tərəfindən kiçik bir ziyanın dəyəcəyini nəzərə alıb mömin qardaşa öyüd-nəsihət verməmək yaxşı iş deyildir. Hər halda, "mühüm və daha mühüm" prinsipinə riayət olunmalıdır.

Əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri barədə bir neçə məsələ:

• Yuxarıda qeyd olunan dörd şərtin hamısı eyni zamanda mövcud olduqda əmr bil-məruf və nəhy ənil-munkər etmək vacib olur. Beləliklə, bu şərtlərdən biri mövcud olmadıqda, məsələn, əmr və nəhy fəsadla nəticələnəcəyi təqdirdə, bu işi yerinə yetirmək vacib olmur, baxmayaraq ki, digər şərtlər mövcuddur.

• Əmr bil-məruf və nəhy ənil-munkərdə şərt deyildir ki, yaxşı işə dəvət edən şəxs həmin yaxşı işi yerinə yetirməli və ya pis işdən çəkindirən şəxs həmin pis işi yerinə yetirməməlidir. Başqa sözlə desək, günahkar şəxsə də əmr və nəhy etmək vacibdir. Belə şəxs özü günahkar olduğunu əsas götürüb, bu şəri vəzifəni tərk edə bilməz. (Dini mənbələrdə rast gəlirik ki, başqalarını yaxşı işə dəvət edib özü onu yerinə yetirməyən, həmçinin başqalarını pis işdən çəkindirib özü bu pis əməlin sahibi olan şəxslər məzəmmət olunurlar. Bilməlisiniz ki, belə şəxslər əmr bil-məruf və nəhy ənil-munkər etdikləri üçün deyil, şəri vəzifələrinə və dini göstərişlərə əməl etmədikləri üçün məzəmmət olunurlar.)

• Əmr bil-məruf və nəhy ənil-munkərdə şərt deyildir ki, əmr və nəhy etmək günah edən şəxsin heysiyyətinə xələl gətirməməli və onu hörmətdən salmamalıdır. Beləliklə, əgər əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərinə və qaydalarına riayət olunarsa, bu iş günahkarın heysiyyətinə xələl gətirsə və onun hörmətini azaltsa belə, onu yerinə yetirməyin maneəsi yoxdur.

Suallar:

1- Əmr bil-məruf və nəhy ənil-munkərin mənası və hökmü nədir?

2- Əgər müəssisə və idarə işçiləri yuxarı vəzifəli məsulların idarə və ya şəriət qanunlarını pozduqlarını müşahidə etsələr, onların vəzifəsi nədir?

3- Əgər universitet mühitində vacib bir əməl tərk olunursa və günah edilirsə, əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olduğu təqdirdə subay bir tələbənin üzərindən (subay olduğuna görə) əmr və nəhy etmək vəzifəsi götürülürmü?

4- Əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərini açıqlayın.

5- Əgər qarşı tərəfin əməlinin haram olub-olmadığını bilmiriksə, nəhy ənil-munkər etməliyikmi?

6- Əgər əmr bil-məruf və nəhy ənil-munkər günahkarın heysiyyətinə xələl gətirərsə və onu hörmətdən salarsa, bunun hökmü nədir?

---

[1] Günaha düşmək qorxusu olan baxış.

[2] Nəhy etmək, yəni qadağan etmək və çəkindirmək deməkdir.

Yetmiş yeddinci dərs: Əmr bil-məruf və nəhy ənil-munkərin mərhələləri

Əmr bil-məruf və nəhy ənil-munkərin mərhələləri

Əmr bil-məruf və nəhy ənil munkərin mərhələləri aşağıdakılardan ibarətdir:

1- Qəlb mərhələsi;

2- Dil (söz) mərhələsi;

3- Əməl mərhələsi.

Diqqət:

• Əmr bil-məruf və nəhy ənil-munkərin mərhələlərinə riayət etmək vacibdir, yəni aşağı mərhələ ilə arzuolunan məqsəd həyata keçərsə, yuxarı mərhələyə keçmək olmaz.

1- Qəlb mərhələsi

1. Əmr bil-məruf və nəhy ənil-munkərin birinci mərhələsi "qəlb mərhələsi"dir, yəni qəlb ilə əmr və nəhy etməkdir. Belə ki, insan qarşı tərəfin yerinə yetirdiyi pis işə qarşı qəlbindəki ikrahı aşkar edir və bu yolla yaxşı işi tərk edən şəxsi bu işi yerinə yetirməyə və ya pis işi yerinə yetirən şəxsi bu işi tərk etməyə sövq edir.

2. Qəlb ilə əmr bil-məruf və nəhy ənil-munkər etməyin özünəxas dərəcələri vardır. Belə ki, əgər aşağı dərəcə ilə arzuolunan məqsəd həyata keçərsə, yuxarı dərəcəyə keçmək olmaz. Bu dərəcələr şiddətli və zəif olmaq baxımından, habelə növlərinə görə saysızdır. Məsələn, təbəssümlə davranmaq, baxışları yayındırmaq, insanın gözünün içinə baxmaq, əli əlin üstünə vurmaq, dodaqları dişləmək, əli və ya başı yelləmək, salam verməmək, üz çevirmək, arxa çevirmək, söhbəti kəsmək, küsmək və əlaqəni kəsmək.

2- Dil mərhələsi

1. Əmr bil-məruf və nəhy ənil-munkərin ikinci mərhələsi "dil mərhələsi"dir. Belə ki, insan günah edən şəxsə pis işdən əl çəkməsini və ya yaxşı əməli yerinə yetirməsini söyləyir.

2. Dil ilə əmr bil-məruf və nəhy ənil-munkər etməyin də özünəxas dərəcələri vardır. Əgər aşağı dərəcə ilə, başqa sözlə, daha yumşaq danışıqla arzuolunan məqsəd həyata keçərsə, yuxarı dərəcələrə keçmək olmaz. Bu dərəcələr şiddətli və zəif olmaq baxımından, habelə növlərinə görə saysızdır. Məsələn, maarifləndirmək, xatırlatmaq, öyüd-nəsihət vermək, yerinə yetirilən əməlin xeyir və ziyanını sadalamaq, fikir mübadiləsi aparmaq, dəlil-sübutla danışmaq, tünd danışmaq, hədə-qorxu gəlmək.

3- Əməl mərhələsi

1. Əmr bil-məruf və nəhy ənil-munkərin üçüncü mərhələsi "əməl mərhələsi"dir, yəni güc tətbiq etməklə günahkarı pis işlərdən əl çəkməyə və yaxşı işləri yerinə yetirməyə vadar etməkdir.

2. Bu mərhələnin də özünəxas dərəcələri vardır və aşağı dərəcə ilə arzuolunan məqsəd həyata keçdiyi təqdirdə, yuxarı dərəcəyə keçmək olmaz. Bu dərəcələr şiddətli və zəif olmaq baxımından, habelə növlərinə görə saysızdır. Məsələn, günah edən şəxsin qabağını kəsmək, günah vasitələrini onun əlindən çıxartmaq, onu geri oturtmaq, həbs etmək, həyatı onun üçün çətinləşdirmək, döymək, incitmək, yaralamaq, bədən üzvünü sındırmaq, şikəst etmək, öldürmək.

Diqqət:

• Nəzərə alsaq ki, İslam hökumətində əmr bil-məruf və nəhy ənil-munkərin "əməl mərhələsi"ni Hüquq-Mühafizə Orqanlarına həvalə etmək mümkündür, xüsusilə də günahın qarşısının alınması üçün əmlakı müsadirə etmək, cəza kəsmək, həbs etmək və bu kimi güc tətbiq etməkdən başqa bir çıxış yolu qalmadığı hallarda mükəlləflər əmr bil-məruf və nəhy ənil-munkərin qəlb və dil mərhələləri ilə kifayətlənməlidirlər. Güc tətbiq etməyə ehtiyac olduğu hallarda Hüquq-Mühafizə Orqanlarının aidiyyatı qurumlarına məlumat verməlidirlər. Lakin İslam hökumətinin iqtidarda olmadığı zaman və məkanlarda mükəlləf əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olduğu təqdirdə, arzuolunan məqsədə çatanadək onun bütün mərhələlərini ardıcıllıqla yerinə yetirməlidir.

• Qeyd olundu ki, İslam hökumətində mükəlləflərin vəzifəsi əmr bil-məruf və nəhy ənil-munkərin qəlb və dil mərhələləri ilə kifayətlənmək, əməl mərhələsini isə Hüquq-Mühafizə Orqanlarına həvalə etməkdir. Bu, fiqhi fətvadır (dövlət tərəfindən qəbul edilən qərar deyildir).

Əmr bil-məruf və nəhy ənil munkərin mərhələləri barədə bir neçə məsələ:

•Müsəlmanın salamının cavabını vermək şəri baxımdan vacibdir. Amma əgər haram iş görən şəxsi pis işdən çəkindirmək məqsədilə onun salamının cavabını verməmək ürfə görə pis işdən çəkindirmək hesab olunarsa, bu işi görməyə icazə verilir.

• Fəsadın qarşısını almaq vəzifəsini daşıyan dövlət məmurları əgər öz vəzifələrini yerinə yetirməkdə səhlənkarlıq göstərsələr, kənar şəxslərin Hüquq-Mühafizə Orqanlarının işlərinə müdaxilə etmələrinə icazə verilmir. Lakin əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərinə və hüdudlarına riayət edərək camaatın bu şəri vəzifəni yerinə yetirməsinin maneəsi yoxdur.

• Sürücünün nəqliyyat vasitəsində haram musiqilər səsləndirdiyini görən şəxs nəhy ənil-munkərin şərtləri mövcud olduğu təqdirdə, sürücünü bu işdən çəkindirməlidir. Lakin bu şəxsə nəhy ənil-munkərin dil mərhələsindən yuxarı mərhələyə qalxmaq vacib deyildir. Əgər onun sözü təsir etməzsə, haram musiqiyə qulaq asmamağa cəhd göstərməlidir. Haram musiqini qeyri-ixtiyari şəkildə eşitdiyi halda isə onun üzərinə heç bir vəzifə düşmür.

• Əgər xəstəxanada işləyən şəfqət bacısı bəzi xəstələrin haram musiqilər dinlədiklərini görərsə, öyüd-nəsihət vermək nəticəsiz qaldığı təqdirdə, haramın qarşısını almaqdan ötrü kasetlərdəki haram musiqiləri poza bilər. Lakin bunun üçün onun sahibindən və ya şəri-hakimdən icazə almalıdır.

• Əmr bil-məruf və nəhy ənil-munkər məqsədilə başqalarının evinə daxil olmağa icazə verilmir. Beləliklə, əgər hansısa bir evdən haram musiqi sədaları ətrafa yayılarsa və möminləri narahat edərsə, bu evə daxil olmaq olmaz. (Bu kimi hallarda əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərinə, eləcə də qəlb və dil mərhələlərinə riayət edərək əmr və nəhy etmək lazımdır. Bu, nəticə vermədiyi təqdirdə Hüquq-Mühafizə Orqanlarına məlumat vermək lazımdır.)

• Əgər qohumlardan biri təkrar-təkrar günah edərsə və İlahi göstərişə əhəmiyyət verməzsə, insan buna öz narazılığını bildirməli və ona dostcasına öyüd-nəsihət verməlidir, lakin qohumu ilə əlaqəni kəsməsinə icazə verilmir. Bəli, əgər o, ehtimal etsə ki, qohumu ilə müvəqqəti olaraq əlaqəni kəsmək onun günahdan çəkinməsinə səbəb olacaqdır, bu işi əmr bil-məruf və nəhy ənil-munkər ünvanında etməsi vacibdir.

Diqqət:

• Hər bir mükəlləf səhvə yol verməməkdən ötrü əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərini və mərhələlərini, eləcə də bu İlahi əmrin vacib olduğu və vacib olmadığı halları öyrənməlidir.

Əmr bil-məruf və nəhy ənil-munkərin müxtəlif məsələləri:

1.Keçmişdə haram iş görən, məsələn, şərab içən bir şəxslə ünsiyyət qurmaq üçün onun hazırkı vəziyyəti meyar götürülür. Belə ki, əgər o, tövbə edibsə, onunla başqa möminlərdən biri kimi ünsiyyət qurmaq olar. Amma hal-hazırda haram iş görən şəxsə gəlincə, onu pis işdən çəkindirmək lazımdır. Belə ki, əgər onu haramdan çəkindirmək üçün ondan uzaqlaşmaq və onunla əlaqəni kəsməkdən başqa yol yoxdursa, nəhy ənil-munkər məqsədilə onunla əlaqəni kəsmək vacibdir.

2. Qızılı işləməsi olan geyimlər geyinmək və qızıl zinət əşyalarından istifadə etmək kişilərə birmənalı olaraq haramdır. Modelinə, rənginə və s. keyfiyyətlərinə görə ürfdə (yəni camaatın nəzərində) qeyri-müsəlmanların mədəniyyətini təqlid etmək və yaymaq hesab olunan geyimləri geyinməyə icazə verilmir. Həmçinin İslam və müsəlmanların düşmənlərinin mədəniyyətini təqlid etmək hesab olunan zinət əşyalarından istifadə etməyə icazə verilmir. Bunu müşahidə edən şəxslər yad mədəniyyətin basqısının təsiri altına düşən şəxslərə dildə nəhy ənil-munkər etməlidirlər.

3.Namaz qılmayan bir şəxslə söhbət etmək və ünsiyyətdə olmaq məcburiyyətində olan, bəzən də bu şəxsə kömək göstərən bir şəxsin üzərinə düşən şəri vəzifə əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olduğu təqdirdə, davamlı olaraq əmr bil-məruf və nəhy ənil-munkər etməkdir. Onun bundan qeyri bir vəzifəsi yoxdur. Əgər kömək etmək və ünsiyyətdə olmaq onun namaza qarşı laqeydliyinin artmasına səbəb olmazsa, onunla ünsiyyətdə olmağın maneəsi yoxdur.

4. Əgər qadının əri dini göstərişlərə əhəmiyyət vermirsə, məsələn, namaz qılmırsa, o, ərinin islah olunması üçün mümkün olan hər şəraiti yaratmalı, ərinə qarşı sərt davranışlardan çəkinməlidir. Bilməlidir ki, dini məclislərdə iştirak etməyin, dindar ailələrlə get-gəl etməyin onun islahında böyük təsirləri vardır.

5.Müəyyən hadisələrə əsaslanıb həyat yoldaşının gizlində namusa zidd hərəkətlər etdiyini düşünən müsəlman bir kişi bədgümandan və zənnə qapılmaqdan çəkinməlidir. Haram işin yerinə yetirildiyi aydınlaşdığı təqdirdə, qadını xatırlatma, öyüd-nəsihət və nəhy ənil-munkər yolu ilə bu işdən çəkindirmək vacibdir. Nəhy ənil-munkər nəticə vermədiyi təqdirdə, kişi tutarlı dəlillərlə məhkəməyə şikayətlə müraciət edə bilər.

6. Əgərböyük və tanınmış bir alim üçün sübuta yetsə ki, zalımlarla və zalım hökmdarlarla ünsiyyətdə olmaq onların zülmdən çəkinmələrinə səbəb olacaq və bu ünsiyyət nəhy ənil-munkər rolu oynayacaqdır, yaxud mühüm bir məsələ zalımın yanında müzakirə olunub öz həllini tapacaqdır, bu halda zalımla əlaqə saxlamağın maneəsi yoxdur.

Suallar:

1- Əmr bil-məruf və nəhy ənil-munkərin mərhələlərini sadalayın.

2- Haram iş görən şəxsin salamına cavab verməmək olarmı?

3- Əgər fəsadın qarşısını almaq vəzifəsini daşıyan dövlət məmurları öz vəzifələrini yerinə yetirməkdə səhlənkarlıq göstərsələr, kənar şəxslərin onların işlərinə müdaxilə etmələrinə icazə verilirmi?

4- Əgər qohumlardan biri təkrar-təkrar günah edərsə və İlahi göstərişə əhəmiyyət verməzsə, insanın üzərinə düşən vəzifə nədir?

5- Keçmişdə haram iş görən, məsələn, şərab içən bir şəxslə necə rəftar etmək lazımdır?

6- Əgərqadının əri dini göstərişlərə əhəmiyyət vermirsə, o cümlədən namaz qılmırsa, bu qadın nə etməlidir?